Azərbaycan Respublikası
Vəkillər Kollegiyası

# AZƏRBAYCAN VƏKİLİ

*Azərbaycan Respublikası Vəkillər Kollegiyasının nəşridir.*

**XXI nömrə**

28.11.2022-ci il

*“Azərbaycan vəkili“ jurnalının buraxılmasında məqsəd vəkil peşəsinin hüquqşünaslar arasında təbliği ilə onun nüfuzunun artırılması, həmçinin gələcəkdə vəkillik sahəsində mövcud olan aktual problemlərin tədqiqi ilə Vəkillik hüququ elminin inkişafına töhfə verilməkdən ibarətdir.*

*Nəşr, Azərbaycan Respublikası Vəkillər Kollegiyasının təşkilatçılığı və Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin “Cənubi Qafqazda Avropa standartlarına hüquqi yaxınlaşma“ regional proqramının maliyyə dəstəyi ilə işıq üzü görmüşdür. Jurnal, Vəkillər Kollegiyasının üzvləri, həmçinin digər hüquqşünaslar arasında pulsuz paylanılmaq üçün nəzərdə tutulmuşdur.*

## *Redaksiya heyəti:*

**Baş redaktor:** ***Anar Bağırov*** *- Vəkillər Kollegiyasının Rəyasət Heyətinin sədri, Məhkəmə-Hüquq şurasının üzvü, hüquq üzrə fəlsəfə doktoru*

**Məsləhətçi:** ***Fariz Məmmədov*** *- Vəkillər Kollegiyasının Rəyasət Həyətinin üzvü, hüquq üzrə fəlsəfə doktoru*

**Buraxılışa məsul:** ***Anar Bağırov*** *- Vəkillər Kollegiyasının Rəyasət Heyətinin sədri, Məhkəmə-Hüquq şurasının üzvü, hüquq üzrə fəlsəfə doktoru*

*“Azərbaycan vəkili“ jurnalı Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Mətbu nəşrlərin reyestrində 3708 nömrəsi ilə qeydiyyata alınmışdır.*

**Redaksiyanın əlaqə məlumatları:**

**Ünvan:** Bakı şəhəri, C. Hacıbəyli küçəsi 100
**Tel/Faks:** +994 12 594 08 70
**E-mail:** office@barassociation.az
**Veb-sayt:** http://www.barassociation.az

© Azərbaycan Respublikası Vəkillər Kollegiyası, 2022

01 **MƏQALƏLƏR**

*səhifə: 6-67*

02 **HÜQUQİ AKTLAR**

*səhifə: 68-93*

03 **XƏBƏRLƏR**

*səhifə: 94-126*

# MƏQALƏLƏR

**01**

*Təsərrüfat cəmiyyətlərinin iştirakçı payına/səhminə münasibətdə vərəsəlikdə yaranan aktual problemlər və həll imkanları*

**Qasım Şaliyev**

*səhifə 6-11*

**02**

*"Qüsurlu Mallara və Qüsurlu Xidmətlərə görə İstehlakçı Hüquqları*

**Roman Qaraşov**

*səhifə 12-17*

**03**

*Ailə Məişət Zorakılığını yaradan səbəblər və ona qarşı mübarizə tədbirləri*

**Fuad Babaşov**

*səhifə 18-23*

**04**

*Laissez-faire doktrinası və Azərbaycan Respublikası Konstitusiyası üzrə azad sahibkarlıq sistemində dövlət tənzimlənməsi*

**Bayram Orucov**

*səhifə 24-29*

**05**

*İbtidai araşdırma mərhələsində vəkilin iş materiallarına çıxış imkanları*

**Allahverən Oruclu**

*səhifə 30-36*

**06**

*Azərbaycan Beynalxalq İnvestisiya Mühiti*

**Toğrul Quluzadə**

*səhifə 37-53*

**07**

*Kommersiya sirrinizi necə qorumalı*

**Əmiraslan Yusifov**

*səhifə 54-55*

**08**

*"İnsan Hüquqları" konsepsiyası pandemiyaya qarşı mübarizə dövründə*

**Amil Cəfərquliyev**

*səhifə 56-67*

# Təsərrüfat cəmiyyətlərinin iştirakçı payına/səhminə münasibətdə vərəsəlikdə yaranan aktual problemlər və həll imkanları



***QASIM ŞALİYEV***

***Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü, vəkil***

Bu məqalədə Azərbaycan Respublikası mülki qanunvericiliyində təsərrüfat cəmiyyətlərinin iştirakçısı/səhmdarı olan fiziki şəxsin ölümündən sonra, miras qo yana məxsus pay/səhmlərin (miras əmlakının aktiv hissəsi kimi) onun vərəsələrinə keçməsi prosesində yaranan problemlər və çıxış yolları təhlil ediləcəkdir. Hazırda cəmiyyət iştirakçısının/səhmdarının mülkiyyətindəki pay/səhmin ölümdən sonra vərəsələrə keçməsi, spesifik xüsusiyyətlər nəzərə alınaraq vərəsəlik hüququnun ümumi normaları çərçivəsində müvafiq rəsmiləşdirmə/sənədləşmə əsasında həyata keçirilməkdədir. Lakin reallıqda miras əmlakındakı həmin pay/səhmə ümumi normalar əsasında vərəsəliyin tanınması müəyyən çətinliklər, problemlər yaratmaqdadır. Qeyd olunan çətinlikləri təhlil etməmişdən əvvəl, ilk öncə məsələnin hüquqi əsaslarını tənzimləyən Mülki Məcəllənin müvafiq normalarına nəzər salınmasında fayda var. Azərbaycan Respublikası Mülki Məcəlləsində hazırki məsələnin tənzimlənməsi aşağıdakı maddələr əsasında həyata keçirilir: (qeyd: hazırki təhlil Azərbaycanda üstünlük təşkil edən iki növ təsərrüfat cəmiyyəti - Məhdud Məsuliyyətli Cəmiyyət və Qapalı Səhmdar Cəmiyyətinin fəaliyyəti üzrə aparılmışdır.)

“135.2. Əmlak istənilən əşyaların və qeyri-maddi əmlak nemətlərinin toplusudur.

135.4. ..Başqa şəxslərə verilə bilən və ya sahibinə maddi fayda və ya başqa şəxslərdən nəyi isə tələb etmək hüququ vermək üçün nəzərdə tutulan tələblər və hüquqlar qeyri-maddi əmlak nemətləridir. Qeyri-maddi əmlak nemətləri (tələblər və hüquqlar) ilə bağlı münasibətlər onların hər birinə aid olan xüsusi qanunvericiliyin müddəalarına müvafiq olaraq tənzimlənir.

93.6. (1-ci cümlə.) Məhdud məsuliyyətli cəmiyyətin nizamnamə kapitalındakı paylar cəmiyyətin iştirakçısı olan fiziki şəxslərin vərəsələrinə və hüquqi şəxslərin hüquq varislərinə bu şərtlə keçir ki, cəmiyyətin nizamnaməsində payların onlara yalnız cəmiyyətin qalan iştirakçılarının razılığı ilə keçməsi nəzərdə tutulmasın.

101.3. Əgər cəmiyyətin nizamnaməsində ayrı qayda nəzərdə tutulmayıbsa, qapalı səhmdar cəmiyyətinin səhmləri səhmdar olan fiziki şəxslərin vərəsələrinə və ya hüquqi şəxsin hüquq varislərinə keçir.

1151.1. Mirasa (miras əmlaka) miras qoyanın öldüyü məqamadək malik olduğu əmlak hüquqlarının (miras aktivi) və vəzifələrin (miras passivi) toplusu daxildir.

1157. Əgər bir neçə vərəsə vardırsa, miras vərəsələr arasında bölüşdürülənədək vahid əmlak şəklində bütün vərəsələrə mənsubdur.

1157-1.1. Miras şərikləri mirasın bölüşdürülməsinə qədər onu birgə idarə edirlər. İdarəçiliklə bağlı qərarlar vərəsələr tərəfindən onların miras paylarına mütənasib surətdə sadə səs çoxluğu ilə qəbul edilir.

1246. Vərəsə vərəsəliyə çağırıldığını bildiyi vəya bilməli olduğu gündən üç ay ərzində mirası qəbul edə bilər. Miras açıldığı gündən altı ay keçdikdə mirasın qəbuluna yol verilmir.

1317.1. Mirasın qəbul edilməsinə qədər mirasın açıldığı yerdəki notariat orqanı, zərurət olarsa, mirasın qorunması üçün tədbirlər görür. Həmin qayda vərəsənin məlum olmadığı və ya onun mirası qəbul edib-etməməsinin bilinmədiyi hala da şamil edilir.

Mülki Məcəllənin yuxarıdakı maddələrinin ilkin təhlili zamanı məsələnin açıq sual buraxılmadan tam tənzimləndiyi qənaəti yaranmış olsa da, reallıqdakı vəziyyətdə fərqli çətinliklərin olduğunu müşahidə edirik.

### 3. Reallıqdakı problemlər

Aşağıdakı təhlillərdə aydın görünəcəyi kimi, hazırki qüvvədə olan hüquqi tənzimləmə real həyatda qeyri-stabil vəziyyətlə nəticələnməkdə, aylar çəkən proses və qeyri-dəqiq prosedura səbəb olmaqdadır. Praktikada qarşılaşılan konkret işlər üzrə müşahidələri paylaşaraq yaranmış çətinliyə diqqət çəkmək istəyirəm. Musal üçün, M şirkətində şərti olaraq paylar aşağıdakı nisbətdə bölünmüşdür: 51 % A və 49 % B-ə məxsusdur. Payın ən çox faiz nisbətinə məxsus olan A həm də şirkətin direktorudur. Günlərin birində A vəfat edir və A-nın vərəsələri V1 və V2 vərəsəlik işinin açılması üçün dərhal notariusa müraciət edirlər. Qanuna əsasən, vərəsəlik şəhadətnaməsinin alınması üçün minimum 6 ay vaxt tələb olunduğunu öyrənmiş olurlar. Bunun milyonlarca manat dövriyyəsi olan bir təsərrüfat cəmiyyəti üçün kifayət qədər böyük müddət olduğu şübhəsizdir. Belə olan halda, rəqabətli bazar şəraitində əsas təsisçinin vəfatı ilə (bir mənada, əsas təsisçisinin taleyini yaşayaraq) hüquqi şəxsin özünün də "büdrəməsi" ehtimalı yaranmış olur. Ümumi yığıncaqda miras şərikləri arasında istənilən anlaşmazlıq isə nəticəyə gedən yolun kilidlənməsi deməkdir, çünki qanun maddəsinə görə miras vərəsələr arasında bölüşdürülənədək vahid əmlak şəklində bütün vərəsələrə mənsub sayılan pay/səhm paketi həm də (hələki) heç bir vərəsəyə də aid deyil. Əlavə olaraq nəzərə alınmalıdır ki, şirkətin taleyüklü məsələlərində işin məğzinə uyğun qərar verilməsini bu yeni vərəsələr (miras şəriki) kollektivindən gözləmək isə, sadəcə olaraq reallığa uyğun deyil. Çünki insan psixikasının adi halıdır ki, (eyni zamanda hər kəsə mənsub olan, həmçinin də heç kəsə mənsub olmayan bir "dəyər" barəsində) verəcəkləri qərarın gələcəkdə on(lar)a müsbət/mənfi dönüşünü ön görməsi mümkün olmayan vərəsə(lər)dən məntiqli qərar gözləmək sadəlövhlük olardı. Hətta onların (miras şərikləri kimi) imza atdığı Ümumi Yığıncaq qərarlarının üçüncü şəxslər tərəfindən "ciddi" qəbul edilməsi belə şübhəli görünür. Misal olaraq təsəvvür edə bilərik ki, kredit üçün müraciət etdikəri banklar tərəfindən Ümumi Yığıncağın bu məzmunda qərarı gələcəkdə etibarsızlıq iddiarının olma ehtimalına görə riskli görülüb qəbul edilməyəcək. (İstisna olar deyə, məhkəmə müstəvisində illərcə davam edən vərəsəlik mübahisələrini hələ mövzuya qatmırıq.) Göründüyü kimi bir vəfatın iş dünyasında yarada biləcəyi bu problemin həlli üzrə qanunvericilikdə tənzimləmə isə aydın deyil. Bir qayda olaraq, vərəsələr vərəsəlik şəhadətnaməsinin tez tarixdə alınmasına nail olmağa çalışmaqla məsələni həll etməyə üstünlük verirlər. Belə ki, notariat hərəkətlərinin aparılması qaydaları haqqında Təlimatın 96-cı maddəsinə əsasən, əgər notariusda şəhadətnamə tələb edən şəxslərdən savayı, başqa vərəsələrin olmadığı barədə məlumat vardırsa, vərəsəlik hüququ haqqında şəhadətnamə altı aydan tez də verilə bilər. Başqa vərəsələrin mövcud olub-olmamasının müəyyən edilməsi əlavə vaxt və resurs tələb etdiyindən, bu qayda belə məsələni tam dəqiq şəkildə tənzimləməyə imkan verməməkdədir.

Daha bir problem budur ki, yuxarıdakı nümunədən hərəkət edərsək, digər təsisçinin bu dövr ərzində (yəni payın hansısa vərəsənin adına rəsmiləşdirilməsinə qədərki müddət ərzində) öz 49 % payını satmaq istədiyi halda ümumi paylı mülkiyyət üzrə prinsip olan, paylı mülkiy yətçilərin satınalmada üstünlük hüququndan vərəsələr praktikada istifadə edə bilmirlər. Çünki paylı mülkiyyətçi olan şəxs vəfat etmişdir, onun vərəsələrinin isə pay üzrə hüquqları hələki dövlət qeydiyyatına alınmadığından paylı mülkiyyətçi sayılmırlar, habelə aşağıdakı qanun maddəsi səhv təfsir edilməklə bu "keçid" dövründə satınalmada üstünlük hüququnun vərəsələrə tanınmadığının şahidi oluruq. Buna əsas kimi götürülən, Mülki Məcəllənin 660.8-ci maddəsi bu şəkildə tənzimlənir: "Ayrı şərt qoyulmayıbsa, satın almaqda üstünlük hüququ ixtiyarlı şəxsin vərəsələrinə verilmir və keçmir. Hüquq konkret müddətlə məhdudlaşdırıldıqda, o, şübhə halında vərəsəlik üzrə verilir."

Əslində bu norma müqavilədən irəli gələn hüquqlara münasibətdə tənzimlənməsində baxmayaraq, səhvən qanundan irəli gələn hüquqlara da tətbiq edilərək anlaşılmaz vəziyyət yaratmaqdadır. Nəticədə, böyük ortağın vəfat etməsi anından vərəsəlik şəhadətnaməsi əsasında iştirakçı payına/səhmə hər hansı vərəsənin vərəsəlik hüququ dövlət qeydiyyatına alındığı ana qədər digər payçı/səhmdar öz paylarını/səhmlərini satmaq istəsələr, cəmiyyətin iştirakçı paylarında/səhmlərində planlı olmayan oynamalar belə müşahidə ediləcəkdir. Əvvəlki ssenari üzərindən təhlilə davam edək: M şirkətində B öz payını N şəxsinə satır, hansıki digər təsisçi A-nın 51 % pay/səhmi üzrə vərəsəlik müəyyən olunmadığından və üstünlük hüququna da "malik" olmadıqlarından A-nın vərəsələri olan V1 və V2 bu zaman kənarda qalmaqdadırlar. Nəticədə heç istəmədikləri N ilə bundan sonrakı dövrdə ümumi paylı mülkiyyət zəminində işlərini aparmalı və ya hətta cəmiyyətdən ayrılma yolunu seçməlidirlər. İkinci yolda isə, vərəsələrin artıq təsərrüfat cəmiyyətinin bazardakı biznes payı və imkanlarından meydana gələn faydalardan istifadə edə bilmələri mümkün olmayacaqdır. Hesab edirik ki, bu minvalla Mülki Məcəllənin əsas prinsiplərinin- mülki hüquq subyektlərinin bərabərliyi və iradə sərbəstliyinin pozuntusuna yol verilməkdədir. Ayrıca, mülki hüquq sistemində xüsusi yeri olan ailə-təminat prinsipinin real həyatda qarşılığını ailə başçısının öz övladlarına daha yaxşı həyat şəraitini təmin imkanlarının təşkili kimi ifadə edə bilərik. Yuxarıdakı halda isə, ailə başçısının vəfatı illərdir xüsusi əziyyətlə ərsəyə gətirilmiş şirkətdə övladların tamamilə fərqli atmosferlə üzləşməsinə səbəb olacaqdır. Bunun isə, ortalama insan məntiqinə də, minimal əxlaqi prinsiplərlə də uzlaşmadığı qənaətini daşıyırıq. Halbuki burada diqqətə alınmalı məqam ondan ibarətdir ki, Konstitusiyanın 29-cu maddəsinin V hissəsində təsbit olunmuş vərəsəlik hüququna verilmiş təminat vərəsəlik hüququnun əsasını təşkil edən sosial ədalətlilik prinsipinin qorunmasına və gələcəkdə hər hansı vərəsənin qanuni əsaslarla qəbul edilmiş miras əmlakı üzərində mülkiyyət hüququndan formal tələblərə görə məhrum edilməməsinə yönəlməlidir. Ona görə də, bu məsələ həll edilərkən sosial ədalətlilik və mütənasiblik prinsipi rəhbər tutularaq tərəflərin hüquqları arasında ədalətli balans qurulmalı, hər hansı fərdin üzərinə əlavə yük qoyulmamalı, eləcə də tərəflərdən hər hansı birinin mülkiyyət hüququ əsassız məhdudlaşdırılmamalıdır. Lakin Mülki Məcəllənin vərəsəliklə bağlı normalarını təhlil edəndə belə bir təsəvvür yaranır ki, sanki bu qaydalar yalnız daşınmaz əmlak və dövriyyəsi statik olan əşyalara yönəlik hazırlanmışdır. Halbuki sahibkarlıq münasibətlərinin bazar iqtisadiyyatı çərçivəsində tənzimləndiyi bir cəmiyyətdə əsas vəzifələrindən biri də mülki dövriyyəni düzgün təmin etmək və sərbəst bazar iqtisadiyyatına şərait yaratmaq olan Mülki Məcəllədə bu qüsur sahibkarlıq fəaliyyətini dəstəkləmir, hətta suni maneələr yaratmaqdadır. Özü-özlüyündə canlılıq səciyyəli və bir anlıq zaman diliminin belə dəyərli olduğu bir sferada operativliyi təmin edəcək tənzimləmələr zərurət dərəcəsində lazımdır. Mülki Məcəllənin qəbul olunduğu ilk dövrlərdə təsərrüfat cəmiyyətləri və onların fəaliyyətinə dair qanunvericilik normaları yeni yeni formalaşdığından qeyd olunan məsələ aktual olmasa da, hazırda böyük maliyyə dövriyyəli şirkətlərin və hol dinqlərin fəaliyyətinin olduğu, habelə xarici şirkətlərlə yerli və xarici bazarda rəqabət aparıldığı bir zamanda bu kimi çətinliklərin yaranması orta və uzun vədədə Azərbaycan iqtisadiyyatına təsirsiz keçməyəcəyi şübhəsizdir.

**4. Həll imkanları üzrə təkliflər.**

Qeyd olunan problemlərdən çıxış yolu kimi, bir neçə qanunvericilik normasında müəyyən dəyişiklik/əlavələr aparılmaqla müəyyən həll imkanlarını təklif etmək olar. Mülki Məcəllənin ümumi prinsip və məqsədlərinə xələl gətirmədən spesifik tənzimləmə aparıla biləcəyi kimi, daha ümumi xarakterli tənzimləmə də mümkün həll variantları arasındadır.

Spesifik tənzimləmə üzrə ilkin belə təklif etmək olar ki, təsərrüfat cəmiyyətlərində iştirakçı payına/səhmlərə münasibətdə mirasın qəbulu və ya imtinası daha tez müddətə müəyyən edilsin. Həmin müddətdə miras aktivinin bu elementi üzrə qəbul iradəsi göstərməyən və ya digər vərəsələrin xeyrinə imtina etmiş şəxsin payı miras aktivinin digər hissələri ilə tamamlana bilər və ya müvafiq həcmdə kompensasiya edilə bilər. Bununla da, miras aktivinin bu hissəsinə "maraq" göstərən vərəsənin hüquqları tez bir zamanda dövlət qeydiyyatına alınmaqla hüquqi şəxsin cari fəaliyyətində iştirakçının/səhmdarın vəfatı ilə yaranan ləngidici proses tez bir zamana həll olunmuş olar.

Ümumi xarakterli tənzimləmə üzrə belə təklif etmək olar ki, Mülki Məcəllənin 1317-1320 maddələri yeni redaksiyada verilməklə bu məsələ həmin fəslin normaları çərçivəsində həll edilsin. Belə ki, 1317-ci maddədə "mirasın qorunması" anlayışı bu şəkildə tənzimlənmişdir: "1317.1. Mirasın qəbul edilməsinə qədər mirasın açıldığı yerdəki notariat orqanı, zərurət olarsa, mirasın qorunması üçün tədbirlər görür. Həmin qayda vərəsənin məlum olmadığı və ya onun mirası qəbul edib-etməməsinin bilinmədiyi hala da şamil edilir." Burada "mirasın qəbul edilməsinə" ifadəsindən sonra "və təsərrüfat cəmiyyətlərində iştirakçı payına(səhmlərə) münasibətdə miras bölüşdürülənə" ifadəsi, habelə 1319-cu maddəyə də "Təsərrüfat cəmiyyətindəki iştirakçı payına(səhmlərə) münasibətdə miras bölüşdürülənə qədər təsərrüfat cəmiyyətinin fəaliyyətinin onun nizamnaməsinə uyğun təşkili və miras şəriklərinin ümumi mənafeyi üçün zəruri addımların  atılmasının təmini məqsədilə notariat orqanı qeydə alınmış vərəsələr və ya üçüncü şəxslər arasından müvəqqəti pay/səhm idarəçisi təyin edir. Müvəqqəti pay/səhm idarəçisi notariat orqanı və vərəsələr qarşısında cavabdeh şəxs olmaqla vərəsələrə və ya təsərrüfat cəmiyyətinə dəyən ziyana görə qanunla nəzərdə tutulmuş hallarda məsuliyyət daşıyır." məzmununda bənd əlavə edilməlidir. Bu halda, Müvəqqəti pay/səhm idarəçisi təsərrüfat cəmiy yətinin idarəolunması üzrə qanunda nəzərdə tutulmuş zəruri hərəkətləri icra etməklə qeyd olunan çətinliklərin aradan qaldırılmasına töhfə verə bilər.

Bu tənzimləmələrlə ilə qeyd olunan məsələ üzrə hazırki məqalə ilə qaldırılan problemlər aradan qaldırıla və Konstitusiyamızda "Dövlətin əsasları" başlığı altındakı 15.2-ci maddədə nəzərdə tutulan "Azərbaycan dövləti bazar münasibətləri əsasında sosial yönümlü iqtisadiy yatın inkişafına şərait yaradır, azad sahibkarlığa təminat verir, iqtisadi münasibətlərdə inhi sarçılığa və haqsız rəqabətə yol vermir." vəzifəsinin icrası üzrə daha bir addım atıla bilər.

# Qüsurlu Mallara və Qüsurlu Xidmətlərə görə İstehlakçı Hüquqları



***ROMAN QARAŞOV***

***Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü***

İstehlakçılara təqdim olunan mal və xidmətlərin keyfiyyətliliyini, istehlakçıların mal (xidmət) haqqında məlumatlılığını təmin etmək, onları şişirdilmiş və aldadıcı reklamlardan, habelə, bu münasibətlərdə daha güclü mövqe tutan şirkətlər tərəfindən hazırlanmış və müzakirə edilmədən təqdim edilən müqavilənin standart şərtlərindən qorumaq üçün ölkəmizdə kifayət qədər normativ-hüquqi baza mövcuddur. İstehsal münasibətlərinin daha zəif tərəfi olan istehlakçıları qorumaq üçün "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Lakin, müasir dövrdə yeni ticarət növlərinin meydana çıxması, onlayn alış-verişin daha da genişlənməsi, bütövlükdə istehlakın artması bu münasibətləri yenidən təhlil etməyə, bu sahədə mövcud olan normalara əlavə və dəyişikliklər etməyə rəvac verməklə yanaşı, istehlakçıların hüquqlarının müdafiəsi məsələsini daha da aktual edir. Məqalədə qüsurlu mal (xidmət), həmçinin qüsurlu maldan (xidmət) dolayı yaranan zərər görə məsuliyyətin əsasında dayanan "qüsur" məfhumu araşdırılmışdır. Qüsur- qüsurlu malların (xidmətlərin) vurduğu zərərə görə istehlakçılar tərəfindən satıcıya (icraçıya, istehsalçıya) qarşı irəli sürülən tələblərin istifadəsi və dəymiş zərərin əvəzinin ödənilməsi baxımından böyük əhəmiyyət daşıyır. Məqalədə qüsura anlayış verməklə yanaşı, həmçinin, qüsurun növləri, qüsura görə məsuliyyət yaranması üçün zəruri olan şərtlər, qüsurlu mal (xidmət) qarşısında istehlakçıların hüquqları milli və beynəlxalq qanunvericilik çərçivəsində təhlil edilmişdir.

Hüquq ədəbiyyatlarında qüsura müxtəlif cür anlayış verilir. Qüsur anlayışı ümumi anlamda malın, xidmətin təyinatına uyğun şəkildə istifadə olunmasını çətinləşdirən və ya aradan qaldıran, ya da həmin malın, xidmətin istehlak dəyərini azaldan əksikliklərdir. Başqa sözlə, qüsur dedikdə satıcının istehlakçıya vəd etdiyi və ya istehlakçının satılan malda olmasını gözlədiyi vacib xüsusiyyətlərin olmaması başa düşülür.

Həmçinin, müxtəlif ölkələrin qanunvericiliyində də qüsurun anlayışı ilə bağlı fərqli yanaşmalar vardır.

Məsələn, Avropa İttifaqının 44/EC/1999 saylı direktivində qüsur əsasən, malların, xidmətlərin müqaviləyə uyğun olmaması kimi nəzərdən keçirilir.

Türkiyə qanunvericiliyinə əsasən, malın istehlakçıya təqdim olunduğu anda tərəflərin razılaşmış olduğu nümunə və ya modelə uyğun olmaması, xidmətin icrasının müqavilədə göstərilən müddətdə başlamaması, ya da obyektiv olaraq malın, xidmətin sahib olmalı olduğu xüsusiyyətləri daşımaması səbəbi ilə müqaviləyə uyğun olmayan mal, xidmət qüsurludur.

Həmçinin, qablaşdırmasında, etiketində, istifadə təlimatlarında, internet portalında, ya da reklam və elanlarında göstərilən xüsusiyyətlərdən bir və ya bir neçəsi olmayan, satıcı tərəfindən bildirilən və ya texniki sənədlərində təsbit olunan xüsusiyyətlərə uyğun olmayan, bənzər malların istifadə edilmə məqsədlərinə uyğun gəlməyən, istehlakçının haqlı olaraq gözlədiyi faydaları azaldan və ya aradan qaldıran maddi, hüquqi və ya ekonomik əksiklikləri özündə ehtiva edən mallar, xidmətlər də qüsurlu hesab olunur.

Birləşmiş Krallıq tərəfindən qəbul edilən istehlakçıların hüquqlarının müdafiəsi haqqında qanunvericiliyə əsasən, lazımi keyfiyyətə malik olmayan, istehlakçının məqsədlərinə uyğun gəlməyən və ya təsvir olunmuş nümunəyə uyğun olmayan mallar qüsurlu mallar hesab olunur.

Rusiya qanunvericiliyində qüsur iki kateqoriyada nəzərdən keçirilir:

1) malların qanunun məcburi tələblərinə, müqavilə şərtlərinə, bu növ malların adətən istifadə olunduğu məqsədə və ya istehlakçının məqsədinə (əgər satıcıya bildirilmişdirsə), yaxud malın nümunəyə və təsvirə uyğun satışı zamanı həmin təsvir və ya nümunəyə uyğun gəlməməsi.

2) düzəldilməsi mümkün olmayan və ya qeyri-mütənasib xərclər və ya vaxt sərfiyyatı olmadan aradan qaldırıla bilməyən, dəfələrlə aşkar edilən, aradan qaldırıldıqdan sonra yenidən görünən qüsurlar.

"İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda qüsur və mühüm qüsur olaraq iki anlayış fərqləndirilir. Qüsur dedikdə malın (işin, xidmətin) normativ sənədlərin tələblərinə, müqavilə şərtlərinə, yaxud irəli sürülən başqa tələblərə, habelə icraçı və ya satıcının mal (iş, xidmət) haqqında verdiyi məlumata uyğunsuzluğu; mühüm qüsur dedikdə isə maldan (işdən, xidmətdən) onun məqsədli təyinatına müvafiq surətdə istifadə olunmasını qeyri-mümkün və ya yolverilməz edən, istehlakçı üçün aradan qaldırıla bilməyən, aradan qaldırılması üçün çoxlu əmək və vaxt məsrəfi tələb edən, malı (işi, xidməti) müqavilədə nəzərdə tutulduğundan başqa şəklə salan, ya da aradan qaldırıldıqdan sonra yenidən üzə çıxan qüsurlar başa düşülür. Lakin qanunda qüsur və mühüm qüsur anlayışı fərqləndirilsə də, qüsur və mühüm qüsurun hüquqi nəticələrində əhəmiyyətli bir fərq müəyyənləşdirilmir.

Qüsur müxtəlif meyarlara görə təsnifatlandırılır:

1. Qüsurun aşkarlığına görə açıq və gizli qüsurlar. Açıq qüsurlar ilk baxışdan aydın şəkildə görünən və ya görünməli olan qüsurlardır. Bundan fərqli olaraq, gizli qüsurlar məhsula baxış zamanı aydın görünməsə də, daha sonra istehlak prosesində üzə çıxan qüsurlardır. Məsələn, telefonun ekranında olan hər hansı bir zədə alıcı tərəfindən görünə biləcək açıq bir qüsurdur, lakin onun mikrosxemindəki qüsur alıcının görə bilməyəcəyi, yalnız istifadə zamanı müəyyən edilə bilən gizli bir qüsurdur.

2. Yaranma mənbəyinə görə əsas və ikinci dərəcəli qüsurlar. Əsas qüsurlar malın, xidmətin istehlakçıya təqdim edilən anında mövcud olan qüsurlardır. İkinci dərəcəli qüsurlar isə əsas qüsurdan qaynaqlanan və müəyyən zaman içində meydana çıxan qüsurlardır. İkinci dərəcəli qüsurlar istehlak prosesi zamanı üzə çıxması əlamətinə görə gizli qüsurlara bənzəsə də, yaranma anına görə ondan fərqlənir.

3. Məzmununa görə maddi və hüquqi qüsurlar. Maddi qüsur malın fiziki, kimyəvi, funksional və struktur xüsusiyyətləri ilə bağlı çatışmazlıqlardır. Almaniya qanunvericiliyində maddi qüsur əşyanın keyfiyyəti ilə bağlı əksikliklərin olması, əşyanın müqavilədə nəzərdə tutulmuş istifadəyə uyğun olmaması, adi istifadə üçün nəzərdə tutulmuş və eyni növdən olan əşyaların keyfiyyətinə malik olmaması kimi nəzərdən keçirilir. Həmçinin, satıcı və ya onun nümayəndəsi tərəfindən məhsulun razılaşdırılmış şəkildə və ya lazımınca quraşdırılmaması və ya əşya düzgün şəkildə yığılsa belə quraşdırma təlimatının qüsurlu olması, habelə daha az miqdarda malın verilməsi maddi qüsur kimi qəbul edilir. Hüquqi qüsur isə bütövlükdə əşyanın və ya onun bir hissəsinin alıcı tərəfindən istifadəsində yaranan hüquqi məhdudiyyətlərdir. Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 572.1-ci maddəsinə əsasən satıcının üçüncü şəxslərin hüquqlarından azad əşya vermək vəzifəsi vardır. Başqa sözlə, alıcının üçüncü şəxslərin hüquqları ilə yüklü olan əşyanı qəbul etməyə razılıq verdiyi hal istisna olmaqla, satıcı alıcıya üçüncü şəxslərin hüquqlarından azad əşya verməyə borcludur. Məsələn, girovda olan əşyanın bu barədə alıcıya heç bir məlumat verilmədən satılması halında malda hüquqi qüsur yaranmış olur.

Türkiyə qanunvericiliyində məzmununa görə, maddi və hüquqi qüsurla yanaşı həmçinin, ekonomik qüsurlar da fərqləndirilir. Ekonomik qüsur dedikdə istehlakçının maldan gözlədiyi şəkildə gəlir və ya fayda əldə edə bilməməsi başa düşülür. Məsələn, daha az yanacaq sərf edəcəyi söylənilərək satılan avtomobilin qeyd ediləndən daha çox yanacaq sərf etməsi ekono-

mik qüsura nümunə göstərilə bilər.

4. BMT-nin Ticarət və İnkişaf üzrə Konfransının "İstehlakçıların hüquqlarının müdafiəsi üzrə təlimatı"nda qüsurların aşağıdakı kimi təsnifatı aparılmışdır:

a) İstehsal qüsuru - istehsal prosesində hər hansı bir səhvin baş verməsi və ya qüsurlu xammalın istifadəsi nəticəsində yaranan qüsurlardır.

b) Görünüş (dizayn) qüsuru - bütün məhsul seriyasında və ya bir modeldə məhsulun fiziki görünüşü ilə bağlı qüsurun olmasıdır.

c) İstifadə təlimatının olmaması qüsuru. Məhsulun təhlükəsiz şəkildə istifadə edilməsi ilə əlaqədar olan zəruri təlimatları təmin etmək istehsalçının vəzifəsidir. Bu mənada məhsulun özü mahiyyət etibarilə qüsurlu olmasa da, belə bir təlimatın olmaması qüsur sayıla bilər.

d) İstifadə təlimatının olmamasından yaranan qüsur. Bu qüsurun c) bəndində qeyd edilən qüsurdan fərqli cəhəti ondadır ki, birincidə təlimatın olmaması öz-özlüyündə qüsur sayıldığı halda, bu növ qüsurdan bəhs edə bilmək üçün məhsuldan istifadə qaydaları barədə təlimatın olmaması nəticəsində hər hansı bir təhlükənin yaranması lazımdır.

e) İnkişaf riskli qüsur – yalnız məhsul bazara çıxarıldıqdan sonra yaranan qüsurdur.

f) Post-marketinq qüsuru – bunlara sonradan aşkar edilən qüsurlar daxildir və bu məhsulların təhlükəsizliyi barədə xəbərdarlıq edilməməsi ilə bağlı onların geri çağrılması və ya təhlükə aşkar edildikdən sonra digər tədbirlərin görülməsi ilə əlaqədardır.

Satıcının (icraçının) malda (xidmətdə) olan qüsurlara görə məsuliyyət daşıması üçün ümumi məsuliyyət şərtləri ilə yanaşı aşağıdakı şərtlərin də olması lazımdır.

1) Malın (xidmətin) istehlakçıya təqdim edilməsi anında qüsurun mövcud olması. Bir qayda olaraq, mal satıldıqdan və ya xidmət göstərildikdən sonra (istehlakla əlaqədar olaraq) malda (xidmətdə) meydana gələn qüsura görə satıcı (icraçı) məsuliyyət daşımır. Ancaq əgər həmin qüsur ikinci dərəcəli, yəni əvvəlcədən malda mövcud olan qüsura bağlı yaranan qüsurdursa, bu halda satıcı (icraçı) məsuliyyət daşıyır.

2) Qüsurun gizli olması. Qüsur alıcı üçün gizli olmalıdır. Satıcının bu qüsuru bilib-bilməməsi nəticəni dəyişdirmir. Alıcının bilərək qəbul etdiyi əksikliklər qüsur sayılmır.

Təcrübədə sual doğuran məsələlərdən biri müqavilənin obyekti olan əşyanın əvəzinə tamamilə başqa bir əşyanın verilməsinin qüsur sayılıb-sayılmaması ilə bağlıdır. Hüquq ədəbiy yatlarında bu hal qüsur deyil, "aliud" adlanır. Qeyd edildiyi kimi qüsur malın və ya xidmətin satıcı (icraçı) tərəfindən vəd edilən və ya vacib olan xüsusiyyətlərə uyğun olmamasıdır. Aliud isə satıcının (icraçının) istehlakçıya müqavilədə razılaşdırılan əşyadan başqa bir əşya (xidmət) təqdim etməsidir. Başqa sözlə, mal və ya xidmət istehlakçıya müqavilədə razılaşdırılan keyfiy yətdə, xüsusiyyətdə təslim edilmədiyi halda qüsur, müqavilədə razılaşdırılmış deyil, başqa bir məhsul verildiyi halda isə aliud hesab edilir. Mal (xidmət) qüsurlu olduqda müqavilə lazımi şəkildə icra edilməmiş, aliud halında isə heç icra edilməmiş sayılır və satıcı (icraçı) müvafiq hala görə məsuliyyət daşıyır.

Azərbaycan Respublikasının Mülki Məcəlləsində, "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda, həmçinin, 44/EC/1999 saylı Avropa İttifaqının direktivində və digər ölkələrin qanunvericiliyində zəmanət və yararlılıq müddəti ər zində malda və ya xidmətdə qüsur aşkar edildikdə istehlakçının satıcıya (icraçıya) qarşı bir sıra tələblər irəli sürmək hüququ nəzərdə tutulmuşdur.

1. **Malın dəyişdirilməsini və ya xidmətin (işin) yenidən göstərilməsini tələb etmək hüququ.** Qüsurlu mal lazımi keyfiyyətli, eyni modelli (markalı, tipli və i. a.) mala dəyişdirilərkən qiymət dəyişərsə, istehlakçı qiymət fərqini ödəmir. Qüsurlu mal lazımi keyfiyyətli, eyni əlamətləri olan, lakin başqa modelli (markalı, tipli və i. a.) mala dəyişdirilərkən qiymətlər dəyişdikdə, malın dəyəri göstərilən malın alındığı vaxt qüvvədə olmuş qiymətlər əsas götürülməklə yenidən hesablanır.

**2. Müqavilədən imtina etmək hüququ.** Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 587-ci maddəsində qeyd olunur ki, əşyanın keyfiyyətinə aid tələblər əhəmiyyətli dərəcədə pozulduqda (aradan qaldırıla bilməyən qüsurlar, tənasübsüz xərclər və ya vaxt sərf etmədən aradan qaldırıla bilməyən qüsurlar aşkar edildikdə və ya dəfələrlə aşkar edilən və ya aradan qaldırıldıqdan sonra yenidən üzə çıxan və digər bu cür qüsurlar olduqda) alıcının ixtiyarı var ki, öz seçimi ilə alqı-satqı müqaviləsinin icrasından imtina etsin və əşya üçün ödədiyi pul məbləğinin qaytarılmasını tələb etsin. Bu halda hər iki tərəf aldıqlarını qarşılıqlı olaraq bir-birinə geri verməlidir. İstehlakçının aldığı malı istifadə etməsi səbəbilə görünüşünün pozulması, qüsur səbəbilə malın tələf olması və ya qarşısıalınmaz səbəbdən malın tələf olması istehlakçının müqavilədən imtina etmək tələbindən istifadə etməsinə mane deyildir. Müqavilə ləğv edildikdə, istehlakçı ilə hesablaşmalar mala qiymətlər artan hallarda eyni dərəcəli malların qiy mətlərinin artması nəzərə alınmaqla, qiymətlər aşağı düşdükdə isə malın alındığı vaxt dəyəri əsas götürülməklə aparılır .

**3. Satış qiymətini uyğun məbləğdə azaltmağı tələb etmək hüququ.** Bu tələb satış qiymətinin malın qüsurlu dəyəri nəzərə alınmaqla endirim edilərək yenidən hesablanmasını nəzərdə tutur.

**4. Qüsurun aradan qaldırılmasını tələb etmək hüququ.** Malın qüsuru həm icraçının (istehsalçının, satıcının), həm də istehlakçının və ya üçüncü şəxslərin hesabına aradan qaldırıla bilər. Qüsur istehlakçının və ya üçüncü şəxslərin hesabına aradana qaldırıldıqda (məsələn məhsul istehlakçının vəsaiti hesabına təmir etdirilirsə) satıcı (icraçı, istehsalçı) istehlakçının çəkdiyi xərclərin əvəzini ona ödəməlidir.

**5. Dəymiş ziyanın ödənilməsini tələb etmək hüququ.** Bu hüquqdan istifadə edilməsi yuxarıda qeyd edilən digər hüquqlardan hər hansı birinin tələb edilməsinə mane deyildir. Başqa sözlə, istehlakçı yuxarıda qeyd edilən hər hansı bir hüququndan istifadə etməklə yanaşı, qüsurlu mal və ya xidmət nəticəsində ona dəymiş ziyanın da ödənilməsini tələb etmək hüququnu özündə saxlayır.

44/EC/1999 saylı Avropa İttifaqının Direktivində qeyd olunur ki, istehlakçı ilk növbədə satıcıdan malı təmir etməyi və ya dəyişdirməyi tələb edə bilər. Əgər bu vasitələr qeyri-mümkün və ya qeyri-mütənasibdirsə (hüquqi müdafiə vasitəsinin qeyri-mütənasib olub-olmaması obyektiv şəkildə müəyyən edilməlidir) və ya digər müdafiə vasitəsi ilə müqayisədə tənasübsüz xərc tələb edərsə (xərclərin tənasübsüz olması üçün bir müdafiə vasitəsinin xərcləri digər müdafiə vasitəsinin xərclərindən əhəmiyyətli dərəcədə yüksək olmalıdır) satıcı digər vasitəni seçə bilər. Burada diqqət ediləcək əsas məqam istehlakçının seçim hüququndan mərhələli şəkildə istifadə edə bilməsidir. Yəni, öncəlik malın təmir edilməsinə, dəyişdirilməsinə verilir, yalnız bunlar mümkün olmadıqda müqavilənin ləğv edilməsindən söhbət gedə bilər. Bir digər məsələ, əgər malın təmiri xərcləri, həmin malın yenisi ilə əvəz edilməsindən daha çoxdursa, o zaman da məhsul dəyişdirilməlidir.

Beləliklə, qeyd edilənlərə əsasən, qüsur, bir qayda olaraq, malın (işin, xidmətin) tərəf lər arasında bağlanmış müqavilə şərtlərinə, normativ-texniki tələblərə, mal haqqında verilən məlumatlara və ya istehlakçının gözləntisinə uyğun gəlməməsidir.

Ölkəmizdə təcrübədə ən çox qarşılaşılan qüsurlara aşağıdakılar misal göstərilə bilər:

1) Nümunəyə, təsvirə, reklama əsasən satılmış malların onlara uyğun gəlməməsi;
2) Malların keyfiyyətinin qənaətbəxş olmaması;
3) Malların istehlakçının məqsədinə uyğun olmaması;
4) Müqavilədə razılaşdırılmış çəkiyə və ölçüyə uyğun gəlməyən malların verilməsi;

5) Malın razılaşdırılmış müddətdə çatdırılmaması;

6) Malın, xidmətin müqavilənin şərtlərinə uyğun gəlməməsi;

7) Malın (xidmətin) onun haqqında verilən məlumatlara (həmçinin, texniki pasportlara) uyğun gəlməməsi;

8) Satıcı və ya satıcının nümayəndəsi tərəfindən malların düzgün quraşdırılmaması;

9) Qablaşdırmada səhvlik olması;

10) Komplektə aid malın bir hissəsinin olmaması və istehlakçıların hüquqlarını pozan, istehlakçının maldan istifadə etməsini və fayda götürməsini məhdudlaşdıran bir sıra digər qüsurlar.

İstehlakçının malda və ya xidmətdə yaranmış qüsura görə satıcıya, istehsalçıya və ya icraçıya qarşı bir sıra tələblər irəli sürmək hüququ vardır. Lakin istehlakçıların bu hüquqlardan istifadə edə bilməsi üçün istehlakçının mövcud olan qüsur barədə məlumatsız olması, qüsurun malın və ya xidmətin istehlakçıya təqdim edildiyi ana qədər mövcud olmuş olması (əsas qüsurun nəticəsində istehlakçıya mal və ya xidmət təqdim olunduqdan sonra yaranan qüsurlar istisnadır) lazımdır. İstehlakçıların hüquqlarının müdafiəsi ilə bağlı qeyd olunan tələblərini satıcı (istehsalçı, icraçı) əsassız və qanunsuz olaraq təmin etmədikdə, qanunvericiliyə uyğun olaraq məsuliyyət daşıyır.

**İstifadə olunmuş ədəbiyyat siyahısı:**


1. A.Zevkliler/M.Aydoğdu, Tüketicinin Korunması Hukuku, 3. Cild, Ankara 2004, s.104; M.Aydoğdu/N.Kahveci, Türk Borçlar Hukuku Özel Borç İlişkileri (Sözleşmeler Hukuku), Gözden Geçirilmiş ve Yenilenmiş 3. Cild, Ankara 2017, s. 137.
2. A.Fahrettin/H.Ayrancı, Borçlar Hukuku Özel Borç İlişkileri, Gözden Geçirilmiş ve Genişletilmiş 11. Cild, Ankara 2018, s.117
3. Türkiye Cumhuriyetinin 6502 sayılı "Tüketicinin korunması hakkında kanun", m. 8, m. 13
4. "Consumer Rights Act 2015" UK
5. "Российская Федерация Закон О Защите Прав Потребителей" 07.02.1992
6. "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının 1999-cu il tarixli Qanunu, m. 1
7. German Civil Code BGB, s. 434.
8. A.Zevkliler/M.Aydoğdu, s. 109; M.Aydoğdu/N.Kahveci, s. 141.
9. United Nations Conference on Trade and Development "Manual on Consumer Protection", 12.07.2018
10. M.Aydoğdu/N.Kahveci, s. 142.
11. "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanunu, m. 7

# AİLƏ MƏİŞƏT ZORAKILIĞINI YARADAN SƏBƏBLƏR VƏ ONA QARŞI MÜBARİZƏ TƏDBİRLƏRİ




***FUAD BABAŞOV***

***Bərdə rayon Məhkəməsinin hakimi***

Sivilizasiya yarandığı vaxtdan hazırki günədək onun tərkib hissəsini təşkil edən insan müəyyən sosial mühitdə formalaşaraq cəmiyyətə adaptasiya olunur. İnsanın formalaşmasının əsas sosial mühiti ailədir. İnsan məhz "kiçik dövlət" adlandırılan və cəmiyyətin əsas elementi olan ailə mühitində boya-başa çatır, inkişaf edir, ona vətən və yurd sevgisi, milli-mənəvi dəyərlər və mentalitet aşılanır. Təbii ki, cəmiyyətinə və xalqına layiq, ailəsinə sadiq, vətənpərvər və sağlam insanın yetişməsi əsasən sağlam ailə mühitindən asılıdır. Çünki, məhz həmin mühitdə o, göstərilən xüsusiyyətlərə malik ola bilər. Sağlam olmayan mühitdə inkişaf edən, ailə-məişət zorakılığı şəraitində formalaşan insan sosial-psixoloji problemlərə malik olur, cinayət törətməyə meylli olur və cəmiyyətdən təcrid olunur. Ailə-məişət zorakılığı halları əsasən uşaqların gözü qarşısında baş verir və onların yaddaşında dərin izlər buraxır. Qeyd olunan məqam və ailələrdə baş verən məişət zorakılığı faktları gələcəkdə daha ağır cinayətlərin törədilməsinə, cəmiyyətin mühüm dayaqlarının sarsılmasına və digər sosial bəlalara səbəb olur.

Hal-hazırda qloballaşan dünya cəmiyyətində cinayətlərin və digər hüquqpozmaların sayı artmaqdadır. Azərbaycan Respublikasına gəldikdə isə qeyd etməliyik ki, sovetlər imperiyasının tərkibində olduğu müddətdə ölkəmizdə baş vermiş ailə-məişət zorakılığı halları cəmiyyətdən və xalqdan gizlədilirdi, ictimaiyyətə bu haqda heç bir məlumat verilmirdi və sovet cəmiyyətinin sağlam dayaqlara malik olduğu əhaliyə təbliğ edilirdi. Halbuki, məişət zorakılığı zəminində bu növ cinayətlər baş verirdi. Respublikamızın 1991-ci ildə müstəqillik əldə etməsindən sonra Ümummilli Lider Heydər Əliyevin ölkədə apardığı sosial-iqtisadi, siyasi-hüquqi islahatlar nəticəsində ailə-məişət zorakılığına qarşı dövlətimiz tərəfindən daha ciddi və sərt şəkildə mübarizə aparılmağa başlandı. Bu prosesə Ulu Öndər tərəfindən 1994-cü ildə qəbul edilmiş cinayətkarlığa və digər hüquqpozmalara qarşı mübarizə haqqında fərman da təkan verdi. Çünki, ailə-məişət zorakılığı da cinayət xarakterli hüquqpozmalardan biridir. 1998-ci ildə senzura aradan qaldırıldı. Artıq bu hallar barədə KİV-lərdə geniş məlumatlar verilirdi. Qanunvericilikdə aparılan islahatlar nəticəsində Cinayət, Cinayət-Prosessual Məcəllələrin qəbul edilməsi və qanunvericiliyə edilən digər bir sıra dəyişikliklər, hüquq-mühafizə orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi amilləri də ailə-məişət zorakılığının qarşısının alınması istiqamətində atılan mühüm addımlardan biri oldu.

Hazırda həm ölkəmizdə, həm də digər region ölkələrində ailə-məişət zorakılığı hallarına rast gəlinir. Bu hallar əsasən qadınlara və uşaqlara qarşı ailədə məişət zəminində zorakılıq faktlarının törədilməsi ilə müşahidə olunur. Baş vermiş ailə-məişət zorakılığı hallarını tədqiq etdikdə aydın olur ki, uşaqlar yetkinlik yaşına çatmadığına görə, qadınların isə ictimai qınaqdan çəkinməsi və bu hallarla bağlı hüquq-mühafizə orqanlarına, müvafiq dövlət orqanlarına müraciət etməməsi də həmin halların meydana gəlməsinin əsas faktorlarından biridir. Ailə daxilində zorakılıq faktlarına yol vermiş şəxslər (ər, qardaş, ata və s.) çox vaxt günahı qadının üzərinə yıxmağa çalışır. Ailə-məişət zorakılığını doğuran hallar sırasına gender bərabərliyinin qorunmaması və pozulması faktları, ailədə ər və arvad arasında sosial və iqtisadi bərabərsizlik, işsizlik, ailələrdə yoxsulluq və ya maddi imkanların zəif olması, erkən nigahlar, ailədə xəstə uşaqların doğulması, ailə üzvlərindən birinin əmək qabiliyyətinin olmaması, ailə daxilində və qohumlar arasında qarşılıqlı hörmət və ehtiramın olmaması, nikahdankənar münasibətlərin mövcudluğu, qadınların təhsil almaması və onların sosial dünya görüşünün azlığı, ailə başçılarının keçmiş

psixoloji təfəkkürlərə malik olması və nəsillərdə mühafizəkarlıq psixologiyasının yaşaması, qadınların iş adı ilə evdən çıxması və geri qayıtmaması, bir sıra xanımların insan alverinin qurbanına çevrilməsi, cinsi ayrıseçkilik, ailə-məişət zorakılığına yol verilməməsi və həmin halların qarşısının alınması ilə əlaqədar ictimaiyyət arasında kütləvi maarifləndirmə və sosial təbliğat işinin aparılmaması da daxildir.  Hesab edirik ki, qeyd edilən faktorlar ailə-məişət zorakılığını doğuran səbəblərdir. Bir sıra ekspertlər isə hesab edirlər ki, hazırki cəmiyyətdə ailədaxili zo rakılığa cinayət kimi yox, məhz tərəflər arasında münasibətlərdə yaranmış ötəri problem kimi baxılır. Məhz bu səbəbdən adıçəkilən problemin həlli çətinləşir. Bunun qarşısının alınması məqsədilə ictimai rəyin düzgün formalaşdırılmasının zəruriliyi qeyd olunur. Onu da vurğula yaq ki, ailə daxili konfliktlər, məişət zəminində baş vermiş zorakılıqlar fiziki, cinsi və psixoloji zo rakılıq şəklində baş verir. (3) (5) (6)

Təbii ki, müasir bəşər cəmiyyətinin üzvü olaraq Azərbaycan Respublikasında da ailə-məişət zorakılığı hallarının qarşısının alınması dövlət qarşısında duran prioritet məsələlərdən biridir. Bununla bağlı Respublikanın daxili işlər və prokurorluq orqanları tərəfindən müvafiq tədbirlər görülür, məişət zorakılığı halları qeydə alınan ailələr daim diqqət mərkəzində saxlanılır, müvafiq monitorinq qrupları yaradılır və monitorinqlər keçirilir, mütəmadi olaraq aidiyyatı dövlət qurumlarının (Heydər Əliyev Fondu; Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi; İnsan Hüquqları üzrə Müvəkkil; Milli Məclis) səlahiyyətli nümayəndələrinin iştirakı ilə şəhər və rayon icra hakimiyyətlərində, regionlarda və yerlərdə görüşlər təşkil edilir, iclaslar və dinləmələr, təlim-seminarlar və dəyirmi masalar keçirilir, əhali arasında maarifləndirmə işləri aparılır, ailə-məişət zorakılığının cəmiyyətdə mənfi təzahürlərdən biri olduğu, qeyd edilən hallara qarşı mübarizə tədbirlərinin nəinki dövlət tərəfindən görülməsi, həmçinin bununla bağlı sosial birlik nümayiş etdirilməsinin və cəmiyyət miqyasında aparılmasının vacibliyi vurğulanır. İclaslarda həmçinin məişət zorakılığı problemlərində sosial işin təşkili, riskli ailələrlə sosial iş, uşaqların yerləşdirilməsində qərar qəbul etmə, xüsusi qayğıya ehtiyacı olan uşaqların xidmətlərə yönəldilməsi, cinsi zorakılıq haqqında geniş məlumatlar təqdim edilir.  Hazırki zamanda bir sıra ictimai birliklər tərəfindən sığınacaqlar da təşkil edilmişdir. Dövlət tərəfindən ailə-məişət zorakılığına qarşı qanunvericilik səviyyəsində müvafiq tədbirlərin görülməsi və sosial tədbirlərin aparılması müsbət məqamlardan biridir. Bu sahədə dövlət orqanları arasında əsas aparıcı rol Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin üzərinə düşür. Belə ki, Komitənin Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 9 avqust tarixli 444 nömrəli Fərmanı təsdiq edilmiş Əsasnaməsinə əsasən Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ailə, qadın və uşaq problemləri ilə iş sahəsində dövlət siyasətini və tənzimlənməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır. Komitənin vəzifələri sırasına öz səlahiyyətləri daxilində insan və vətəndaş hüquqlarının və azadlıqlarının, xüsusilə uşaq və qadın hüquqlarının həyata keçirilməsini təmin etmək və onların pozulmasının qarşısını almaq; gender bərabərliyinin təmin edilməsinə nəzarəti həyata keçirmək və s. da xildir. Ailə-məişət zorakılığına qarşı mübarizənin dövlət tərəfindən aktiv şəkildə aparılmasının bariz nümunəsi də Milli Məclis tərəfindən qəbul edilən və ölkə başçısı, prezident İlham Əliyev tərəfindən 22 iyun 2010-cu il tarixdə “Məişət zorakılığının qarşısının alınması haqqında” Azərbaycan Respublikası qanununun imzalanması oldu. Məhz bu qanunun qəbulu həmin halın normativ-hüquqi cəhətdən tənzimlənməsində əhəmiyyətli hadisədir və cəmiyyətimiz tərəfin dən müsbət qiymətləndirildi. Qanun bir sıra anlayışları, məişət zəminində fiziki zorakılıq, məişət zəminində psixi zorakılıq, məişət zəminində iqtisadi xarakterli qanunsuz məhdudiyyətlərin tətbiqi və məişət zəminində cinsi zorakılıq anlayışlarını fərqləndirir. Məişət zorakılığının qarşısının alınmasının əsas prinsipləri insan hüquq və azadlıqlarının təmin edilməsi, qadınlara qarşı ayrı-seçkiliyin qadağan edilməsi, hər kəsin şəxsi və ailə həyatına müdaxilənin yolverilməzliyi,

şəxsi və ailə həyatı sirrinin qorunması məqsədi ilə konfidensiallığa riayət edilməsi, zərər çəkmiş şəxslərin pozulmuş hüquqlarının bərpası və məişət zorakılığının qarşısının alınması sahəsində dövlət orqanlarının və qeyri-dövlət qurumlarının qarşılıqlı əməkdaşlığıdır. Onu da qeyd edək ki, sözügedən qanunda zərərçəkmiş şəxsə qısamüddətli (30 gün) və uzunmüddətli (180 gün) mühafizə orderinin verilməsi nəzərdə tutulur. Müvafiq icra hakimiyyəti orqanı müraciət edilən vaxtdan 24 saat keçənədək zorakılığı törədən şəxsə xəbərdarlıq edir və dərhal zərərçəkmiş şəxsə 30 gün müddətinədək qısamüddətli mühafizə orderi verilir. Uzunmüddətli mühafizə orderi 30 gündən 180 gün müddətinə verilir. (3) (7) (8) (10) (16)

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 fevral 2012-ci il tarixli 46 saylı qərarı ilə məişət zorakılığı barədə şikayətdə cinayət tərkibinin əlamətləri olmadıqda, şikayətlərə baxılma qaydası təsdiq edilmişdir. Qərarda əsasən məişət zorakılığı üzrə araşdırmanın aparılmasının səbəbləri, müvafiq dövlət orqanları tərəfindən məişət zorakılığı ilə bağlı şikayətə baxılma qaydası, şikayətə baxılmasının nəticələrinə dair qərar, məişət zorakılığının təkrarlanmaması barədə xəbərdarlıq edilməsi, bununla bağlı qısamüddətli mühafizə orderinin verilməsi və məişət zorakılığı barədə şikayətə baxılarkən konfidensiallığın təmin edilməsinə dair müddəalar yer almışdır. (12)

Respublikamızda mütəmadi olaraq məişət zorakılığı ilə mübarizəyə dair qanunvericilik təkmilləşdirilir, proqram, plan və digər hüquqi sənədlər qəbul edilərək icraya yönəldilir. Sonuncu belə hüquqi əhəmiyyətli sənəd qismində Azərbaycan Respublikası Prezidentinin 27 noyabr 2020-ci il tarixli 2307 saylı Sərəncamı ilə “Azərbaycan Respublikasında məişət zorakılığı ilə mübarizəyə dair 2020–2023-cü illər üçün Milli Fəaliyyət Planı” təsdiq edilmişdir.

Sözügedən Milli Fəaliyyət Planı giriş, planın məqsədi, istiqamətləri və əsas prinsipləri, bu sahədə normativ hüquqi bazanın təkmilləşdirilməsi, məişət zorakılığının qarşısının alınması və zorakılığa yol verilməməsinin təşviqi istiqamətində görüləcək müvafiq tədbirlər, məişət zora kılığına məruz qalan şəxslərin aşkarlanması və erkən identifikasiyası, belə şəxslərin yardım mərkəzləri və sığınacaqlarla təmin edilməsi, həmin şəxslərin səmərəli müdafiə sisteminin formalaşdırılması və digər zəruri müddəaların cəmləşdiyi hissələrdən ibarətdir. (17)

Müşahidələrimiz göstərir ki, beynəlxalq təşkilatlar tərəfindən bir başa olmasa da qadın və uşaq hüquqlarına dair konvensiyaların qəbul edilməsini bu hallara qarşı mübarizəyə dair beynəlxalq hüquqi tənzimləməyə aid edə bilərik. Məsələn bunlardan biri də qadınlara qarşı ayrı - seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Konvensiyanın 1979-cu ildə qəbul edilməsi olmuşdur. Bu sənəd BMT-nin insan hüquqlarına dair 7 əsas müqaviləsindən biridir və dünyada “Qadın Hüquqları Konvensiyası” kimi tanınır.  (10)

Fikrimizcə ailə-məişət zorakılığına qarşı mübarizə anlayışına geniş kontekstdən yanaşılmalı, mübarizə tədbirləri sosial, hüquqi və psixoloji aspektdə və ya çərçivədə aparılmalıdır. İlk növbədə qeyd etməliyik ki, qüvvədə olan Azərbaycan Respublikasının Cinayət Məcəlləsində ailə-məişət zorakılığı halları ilə bağlı hər hansı norma və sanksiyaya, Cinayət-Prosessual Məcəlləsində isə təhqiqat-istintaq orqanları tərəfindən münaqişəli ailələrin qeydiyyatının aparılması və belə ailələrdə monitorinqlərin həyata keçirilməsi proseduru ilə bağlı hər hansı bir müddəaya rast gəlinmir. Təklif edirik ki, Cinayət məcəlləsinə bununla bağlı norma və sanksiya, Cinayət-Prosessual Məcəlləsinə isə münaqişəli ailələrin qeydiyyatı və ailə-məişət zo rakılığı ilə mübarizəyə dair cinayət-prosessual tədbirləri özündə ehtiva edən müddəalar daxil edilsin. Bu fikri bəzi ekspertlər də dəstəkləyir. Hesab edirik ki, ailə-məişət zorakılığına qarşı dövlət tərəfindən aparılan tədbirlərə əlavə olaraq görüləcək sosial və psixoloji tədbirlər sırasına ölkəmizdə ailə psixologiyası institutunun formalaşdırılması və inkişaf etdirilməsi, maddi imkanları zəif olan ailələrin rifah halının yaxşılaşdırılması istiqamətində əhəmiyyətli tədbirlər görülməsi (müavinətlər, sosial yardımlar verilməsi və s.), zorakılıq qurbanlarına psixoloji

yardımın göstərilməsi, ailə-məişət zəminində baş vermiş zorakılıq hallarının xəbər verilməsi məqsədilə dövlət qurumları tərəfindən qaynar xəttin yaradılması, qadınların və uşaqların pozulmuş hüquqlarının müdafiəsi məqsədilə ictimai hüquq klinikalarının fəaliyyətə başlaması və fəaliyyətdə olan pulsuz hüquqi yardım mərkəzlərinin fəaliyyətinin genişləndirilməsi, zorakılığa məruz qalmış qadınların, uşaqların sığınması və cəmiyyətə sosial inteqrasiyası məqsədilə dövlət tərəfindən reabilitasiya mərkəzlərinin və sığınacaqların tikintisinin sürətləndirilməsi, özəl sosial sığınacaqlara dövlət və kommersiya təşkilatları tərəfindən müvafiq maddi-texniki dəstəyin göstərilməsi, təhsili olmayan qadınların dövlət hesabına xüsusi peşə təhsili kurslarına cəlb edilməsi və işlə təmin edilməsi, ailə-məişət zorkılığına qarşı mübarizə tədbirlərinə dair əhali arasında geniş maarifləndirmə və təbliğat işlərinin aparılması və rəy sorğularının keçirilməsi, maarifləndirici vəsaitlərin nəşr edilməsi və vətəndaşlar arasında paylanılması, ailə-məişət zorakılığı ilə bağlı orta məktəblərdə təbliğat işinin təşkili və psixoloji söhbətlərin aparılması, bu sahədə fəaliyyət göstərən mərkəzi və yerli icra hakimiyyəti orqanları tərəfindən mütəmadi olaraq monitorinqlərin aparılması, zorakılıq halları aşkar edildiyi halda yerli icra hakimiyyəti orqanları tərəfindən qısamüddətli mühafizə orderlərinin verilməsi və uzunmüddətli mühafizə orderlərinin verilməsi ilə bağlı məhkəmələrə, pozuntuların qeydiyyatı, profilaktikası və qarşısının alınması üzrə hüquq-mühafizə orqanlarına müraciətlər edilməsi, qeyri-hökümət təşkilatları və ictimai birliklər tərəfindən məişət zorakılığının qarşısının alınması və məişət zorakılığından zərər çəkən şəxslərlə bağlı sosial layihələrin hazırlanması və həyata keçirilməsi fəaliyyətinin genişləndirilməsi, beynəlxalq və regional miqyasda dünya birliyi tərəfindən ailə-məişət zo rakılığına qarşı mübarizə haqqında konvensiya və sazişlərin müddəalarının təkmilləşdirilməsi və ya ratifikasiya edilmiş sazişlərin icrasına nəzarət, insan hüquqlarının qorunması sahəsində ixtisaslaşmış beynəlxalq qurumlar tərəfindən ölkələrdə ailədaxili münaqişələrin səbəbinin və səviyyəsinin araşdırılması, monitorinqlərin aparılması və hesabat məruzələrinin dinlənilməsi, ölkə daxilində ailə-məişət zorakılığını doğuran səbəblərin sosial, psixoloji və hüquqi cəhətdən tədqiq edilməsi məişət zorakılığının qarşısının alınmasında önəmli rol oynayar.

Sonda bir nüansı da qeyd etməliyik ki, ailə daxili münaqişələrin, məişət zorakılıqlarının qarşısının alınması işində dövlətlə birgə ictimai birliklər və fraksiyalar, qeyri-hökümət təşkilatları, əhali qrupları və vətəndaş cəmiyyətləri birgə hərəkət etməli, bununla bağlı ümumi tədbirlər planı işlənib hazırlanmalı və həyata keçirilməlidir.

**İstifadə olunmuş ədəbiyyat siyahısı:**


1. http://www.e-qanun.az/code/11; AR Cinayət Məcəlləsi;
2. http://www.e-qanun.az/code/14; AR Cinayət-Prosessual Məcəlləsi;
3. http://birlik.az/index.php?do=xeber&id=8979;
4. http://ismayilli-xeberleri.info/2941-mit-zoraklna-qar.html.
5. http://www.gencalim.az/index.php/240-erkaen-nizhah.html. Erkən Nigah
6. http://www.ayna.az/2012/meiset-zorakiligi-siginacaqlar-yeterli-deyil/ Məişət zora akılığı: sığınacaqlar yetərli deyil
7. http://news.milli.az/society/12202.html Parlament məişət zorakılığı haqqında qanun layihəsini qəbul etdi
8. http://ann.az/az/meiset-zorakiliinin-qarsisini-nece-almali-huquqsunas-reyi/#.Vq4yutKLRdj Məişət zorakılığının qarşısını necə almalı? – Hüquqşünas rəyi;
9. http://www.e-qanun.az/framework/12320 Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi haqqında Əsasnamənin, Komitənin strukturunun təsdiq edilməsi və aparatının işçilərinin say həddinin müəyyən edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 9 avqust tarixli 444 nömrəli Fərmanı;

10. http://www.bizimyol.info/news/17109.html "Məişət zorakılığı daha çox kasıb ailələrdə yaşanır";

11. http://kivdf.gov.az/menu/244/Maxsudova+Lal%C9%99+/ Məişət zorakılığı sosial problem kimi. Maxsudova Lalə.;

12. http://www.cabmin.gov.az/?/az/pressreliz/view/627/ "Məişət zorakılığı barədə şikayətdə cinayət tərkibinin əlamətləri olmadıqda, şikayətlərə baxılma Qaydası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 fevral 2012-ci il tarixli 46 saylı qərarı;

13. http://az.strategiya.az/index.php?do=xeber&id=19122 Məişət zorakılıqları... Problemlər və səbəblər. Şəmsəddin Əliyev ."Polisə Dəstək" İB-nin sədri;

14. http://qhtxeber.az/news/a-48893.html QHT-də "Məişət zorakılığı və onu doğuran səbəblər" müzakirə olunub;

15. http://www.heydar-aliyev-foundation.org/az/content/view/104/492/Heydər Əliyev Fondu, BMT-nin Əhali Fondu və Azərbaycanın Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi arasında "XXI əsrdə qadınlara qarşı zorakılıq əleyhinə" birgə layihəyə dair sənədlər imzalanıb;

16. http://www.president.az/articles/825. Məişət zorakılığının qarşısının alınması haqqında Azərbaycan Respublikasının qanunu.

17. https://e-qanun.az/framework/46358. "Azərbaycan Respublikasında məişət zo rakılığı ilə mübarizəyə dair 2020–2023-cü illər üçün Milli Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı.

# Laissez-faire doktrinası və Azərbaycan Respublikası Konstitusiyası üzrə azad sahibkarlıq sistemində dövlət tənzimlənməsi



***BAYRAM ORUCOV***

***Vəkillər Kollegiyasının Aparat rəhbəri,***
***Bakı Dövlət Universitetinin Konstitusiya hüququ kafedrasının doktorantı.***

Azad bazara əsaslanan iqtisadiyyatın formalaşmasında dövlət tənzimlənməsinin azad sahibkarlıq hüququ ilə tarazlaşdırılması mühüm əhəmiyyət kəsb edir. Bir çox inkişaf etmiş ölkələrdə bazar münasibətləri belə münasibətlərin iştirakçıları tərəfindən formalaşdırılır və tənzimlənir və dövlətin müdaxiləsi yalnız belə bazarın öz xüsusiyyətlərini qoruması üçün zəruri hesab olunur.

Dövlət tənzimlənməsinin minimuma endirilməsi üzrə klassik iqtisadi nəzəriyyədə əhəmiyyətli yer tutan doktrinalardan biri də laissez faire prinsipidir. “Laissez faire” fransız sözü olub iqtisadi sistemin dövlətin bazara müdaxilə etmədiyi halda daha yaxşı işləməsi mənasına gələn klassik iqtisadi doktrinadır. Bu doktrina ilk dəfə 18-ci əsrdə Fransada sənayə inqilabı vaxtı fiziokratlar tərəfindən istifadə edilmişdir. Əsasən 1756-1778-ci illərdə fəaliyyət göstərən fiziokratlar inanırdılar ki, azad bazar və iqtisadi rəqabət inkişaf etmiş cəmiyyətin formalaşması üçün son dərəcə vacibdir. Onlar irəli sürürdü ki, dövlət yalnız özəl mülkiyyətin, həyat və fərdi azadlığın qorunması üçün bazarın tənzimlənməsini həyata keçirə bilər.

Müasir iqtisadiyyatın banisi hesab olunan şotland iqtisadçısı Adam Smit laisser faire doktrinasının əsas dəstəkçilərindən biri olmuşdur. Özünün “Millətlərin Var-Dövləti” (Wealth of Nations, 1776) kitabında Adam Smith bazarda görünməyən əlin mövcudluğundan bəhs etmiş və dövlət müdaxiləsi olmadığı təqdirdə azad bazarların özlərini rəqabət, tələb və təklif əsasında idarə edə biləcəyini müdafiə etmişdir. Adam Smitin “görünməyən əl” arqumentasiyasına əsasən azad bazardakı “görünməyən əl” fərdin qazanc əldə etmək niyyətini cəmiyyətin ümumi faydasına transformasiya edir. O hesab edirdi ki, iqtisadi artıma və məhsuldarlığa nail olmağın ən effektiv yolu fərdlərin “mükəmməl azadlıq” şəraitində azad olaraq fəaliyyət göstərməklərinə şərait yaratmaqdır.

Laissez faire doktrinası Adam Smit və David Ricardo tərəfindən daha da təkmilləşdirilərək 18 və 19-cu əsrin sənayə inqilabında mühüm rolu olmuşdur. O cümlədən, bu doktrina İngilis iqtisadçısı John Stuart Mill tərəfindən özünün Siyasi İqtisadiyyatın Prinsipləri (1848) kitabında istifadə edilərək iqtisadi münasibətlərdə dövlət fəaliyyətinə dair arqumentlər səsləndirilmişdir. Qeyd etmək lazımdır ki, Adam Smit bu prinsipin tam formada tətbiqinin yəni, dövlət müdaxiləsinin sıfıra endirilməsinin tərəfdarı olmamışdır. Smit azad ticarətin tərəfdarı olmuş və dövlətin bazarın inkişaf etdirilməsində roluna qatı şübhə ilə yanaşmışdır, lakin o, həmçinin monopoliyalara qarşı mübarizə aparılması və sosial bərabərsizliyin qarşısının alınmasını dəstəkləmişdir.

Laissez-faire doktrinasının prinsipləri aşağıdakı kimidir:

a) İqtisadiyyat özü-özünü tənzimləmə qabiliyyətinə malikdir. Laissez faire prinsipinin dəstəkçiləri irəli sürür ki, bazar iqtisadiyyatında təbii qayda qarşısıalınmaz faktdır və belə qaydanı yaxşılaşdırmağa və ya islah etməyə yönəlmiş istənilən cəhd yalnız mənfi nəticə verə bilər;

b) Fərdin gəlir əldə etmək niyyəti cəmiyyətdə təbii qaydanı yaradan əsas faktordur;

c) Fərdin azadlıq hüququ vardır [14].

Laissez faire prinsipinin iqtisadi sisteminin elementləri bunlardır:

1) özəl mülkiyyətə hörmət;

2) sahibkarlıq fəaliyyətinə başlamaq və məşğul olmaq;

3) ticarətdə azad bazarlar (yəni, dövlətin qiymət tənzimlənməsinin və həddən artıq müdaxiləsinin olmaması); və

4) dövlətin gözətçi funksiyasını yerinə yetirməsi, yəni dövlət tərəfindən öz hüquqi aktları və məhkəmə sistemi ilə müqavilələrin pozulmaması, mübahisələrin sülh yolu ilə həll edilməsi, hər kəsin hüquqlarının qorunması və cəmiyyətin daxildə hüquqpozuntusu törədən şəxslərdən və xaricdə düşmənlərindən qorunmasının təmin edilməsi

Nəzərə alınmalıdır ki, laissez faire prinsipinin dövlətin sıfır dərəcədə müdaxiləsi və dövlət və iqtisadiyyatın tamamilə ayrılması formasında tətbiqi bir sıra mənfi nəticələrə gətirib çıxarmışdır. Laissez faire prinsipinin tənqidi 20-ci əsrin 30-cu illərində Keynanism nəzəriyyəsi ilə inkişaf səviyyəsinə çatmışdır. Keynanism nəzəriyyəsi irəli sürürdü ki, laissez faire iş yerlərinin yaradılmasında və qeyri-sağlam rəqabətin qarşısının alınmasında uğursuzdur və cəmiyyətdə gəlir və qazancın qeyri-bərabər bölüşdürülməsinə səbəb olur. Buna görə də, bu nəzəriyyə hesab edir ki, bazar iqtisadiyyatının mövcudluğu dövlətin dəstəyi olmadan mümkünsüzdür. Keynanism nəzəriyyəsi qarışıq iqtisadiyyatın daha məqbul variant olduğuna inanır, yəni dövlət tənzimlənməsi fərdlərin iqtisadi azadlığı ilə tarazlaşdırılmalıdır.

Azərbaycan Respublikası Konstitusiyasında azad sahibkarlıq sistemi qarışıq iqtisadiyyatın təzahürləri əsasında qurulmuşdur. Yəni, Konstitusiya azad bazarı və sahibkarlığı dəstəkləyir, lakin zəruri hallarda dövlət tənzimləməsinə icazə verir. Qeyd edilməlidir ki, bazarın özü-özünü mükəmməl dərəcədə tənzimləməsi mümkün deyildir. Hazırda dövlətin iqtisadiyyata müdaxilə etməsi, ABŞ kimi ultra-kapitalist dövlətlərdə belə, təbii bir faktor kimi qəbul olunur – əksər hallarda müzakirə mövzusu müdaxilənin dərəcəsidir (yəni marjinal müdaxilə) [12, s. 182]. Belə ki, 1920-30-cu illərdə Amerika Birləşmiş Ştatları baş verən iqtisadi böhrandan sonra bazara dövlətin müdaxiləsinin zəruri olduğu qənaətinə gəlmişdir.

İqtisadi nəzəriyyədə, bazarın dövlət tərəfindən tənzimlənməsinin zəruriliyini müdafiə edən bir sıra iqtisadi əsaslandırmalar mövcuddur:

1) Real xərclər və fayda bazar qiymətlərində düzgün olaraq əks olunmadığı təqdirdə bazarda olan uğursuzluqları aradan qaldırmaq;

2) İqtisadi inkişafa nail olmaq üçün bazara daxil olmaq üzrə mövcud olan maneələri aradan qaldırmaq, rəqabəti və innovasiyanı təşviq etmək və yaxın gələcəkli faydalar əldə etməyə qarşı mübarizə aparmaq;

3) İstehlakçı, işçi və investorların təhlükəsizliyini, məhsul və xidmətlər haqqında məlumatlarda şəffaflığı və net faydanın ədalətli bölüşdürülməsini təmin etmək [11].

Azərbaycan Respublikası Konstitusiyası dövlətin bazara həddindən artıq və ziyanverici müdaxiləsinin qarşısının alınması istiqamətində əsas təminatçı qismində çıxış edir. Konstitusiyanın 59-cu maddəsinin 1-ci bəndində göstərilir ki, hər kəs öz imkanlarından, qabiliyyətindən və əmlakından sərbəst istifadə edərək təkbaşına və ya başqaları ilə birlikdə azad sahibkarlıq fəaliyyəti və ya qanunla qadağan edilməmiş digər iqtisadi fəaliyyət növü ilə məşğul ola bilər [3, md. 59]. Bununla belə, Konstitusiyanın 59-cu maddəsinin 2-ci bəndinə əsasən dövlət sahibkarlıq sahəsində yalnız dövlət maraqlarının, insan həyatının və sağlamlığının müdafiəsi ilə bağlı tənzimləməni həyata keçirir [3, md. 59]. Həmçinin, Konstitusiyanın 15-ci maddəsinin 2-ci bəndinə əsasən Azərbaycan dövləti bazar münasibətləri əsasında sosial yönümlü iqtisadiyyatın inkişafına şərait yaradır, azad sahibkarlığa təminat verir, iqtisadi münasibətlərdə inhisarçılığa və haqsız rəqabətə yol vermir [3, md. 15].. "Sahibkarlıq fəaliyyəti haqqında" Azərbaycan Res publikası qanununun 9-cu maddəsinə əsasən dövlət sahibkarlıq fəaliyyətini qanunvericilik, inzibati-hüquq, büdcə, vergi və pul-kredit sistemləri vasitəsi ilə tənzimləyir [4, md. 9].

Konstitusiyadan da göründüyü kimi azad sahibkarlıq sistemində dövlət tənzimlənməsi iqtisadi və sosial xarakter daşıyır. İqtisadi tənzimləmə iqtisadi münasibətlərdə inhisarçılığa və haqsız rəqabətə yol verilməməsi ilə xarakterizə olunur. Sosial tənzimləmə isə dövlət maraqlarının, insan həyatının və sağlamlığının müdafiəsi və sosial yönümlü iqtisadiyyatın in kişafına şərait yaradılması məqsədilə həyata keçirilir. Dövlət tənzimləməsinin sosial və ya iqtisadi xarakter daşıması bir sıra faktordan asılıdır: tənzimləmə üçün səbəb, tənzimləyici metodların mahiyyəti, tənziməyici prosesin strukturu, tənzimlənən sahənin iqtisadi xüsusiyyətləri və tənzimləmə aparılan sahədə hüquqi və siyasi mühit [9, s. 1451]. Konstitusiyanın 59 və 15-ci maddələri dövlət tərəfindən bazar iqtisadiyyatına müdaxilə edilməsinin aşağıdakı məqsədlərini əsas götürməklə belə tənzimlənmənin dərəcəsini müəyyənləşdirir.

Dövlət maraqlarının müdafiəsi məqsədilə tənzimlənmə. Bu tənzimləmə ümumilikdə dövlətin iqtisadi sahədə olan maraqlarının qorunması məqsədini güdür. Tənzimləmə səmərəsiz və qeyri-bərabər bazar təcrübələrinin qarşısının alınması üçün ümumi maraqların qorunması zərurətinə cavab olaraq həyata keçirilir [13, s. 2].

İnsan həyatının və sağlamlığının müdafiəsi məqsədilə tənzimləmə. Bu cür tənzimləmə sosial xarakter daşıyır və dövlətin əmək münasibətləri sahəsində təhlükəsiz iş şəraitinin yaradılması və ekoloji standartların qorunması üzrə hüquqi aktlar qəbul etməsi ilə həyata keçirilir. Bir çox müəssisələr ətraf-mühiti çirkləndirir və atmosferə çirkləndirici maddələr və tullantılar buraxırlar ki, bu da insan həyatı və sağlamlığına zərər verə bilər. Belə halların aradan qaldırılması məqsədilə dövlət ekologiyanın qorunması üçün normalar müəyyənləşdirir və sahibkarların bu istiqamətdə fəaliyyətini ümumi maraqlar naminə tənzimləyir.

Sosial yönümlü iqtisadiyyatın inkişafına şərait yaradılması. Bu növ iqtisadiyyatın yaradılması üçün dövlət minimum əmək haqqını müəyyənləşdirir, sosial müdafiəyə ehtiyacı olan şəxslər üçün kvotalar və digər sosial müdafiə vasitələri müəyyənləşdirir və işçilərin hüquqlarının işəgötürənlər tərəfindən qorunmasını təmin edir.

İqtisadi münasibətlərdə inhisarçılığa və haqsız rəqabətə yol verilməməsi. Bazar sistemində rəqabət səmərəli fəaliyyət göstərən milli iqtisadiyyatın formalaşdırılması və inkişafında mühüm tənzimləyici və təkanverici qüvvə olduğundan, ölkədə effektiv rəqabət mühitinin yaradılması və gözlənilməsi dövlətin ən başlıca funksiyalarından biridir [10, s. 50]. Dövlət haqsız rəqabət və inhisarçılığın qarşısının alınması üçün hüquqi aktlar qəbul edir və icra mexanizmləri müəyyənləşdirir. Bazar mükəmməl işləmədiyindən dövlətin bu istiqamətdə tənzimləməsi zəruri xarakter daşıyır və yalnız azad sahibkarlıq mühitinin dəstəklənməsinə yönəlmişdir. Bu ona görə zəruridir ki, monopoliya şəraitində görünməyən əlin və ya bazarın tənzimləmək imkanları məhduddur və ya ümumiyyətlə yoxdur, çünki monopolistlər qiymətləri məhz özləri müəyyən edirlər və dövlətin antiinhisar siyasəti də məhz bu çatışmazlığı aradan qaldırmaq məqsədi daşıyır [12, s. 182]. Azərbaycan Respublikasında bazar iqtisadiyyatında haqsız rəqabətin aradan qaldırılması "Haqsız rəqabət haqqında" və "Antiinhisar fəaliyyəti haqqında" qanunlarla tənzimlənir.

Azərbaycan Respublikasında ötən illər ərzində sahibkarlıq fəaliyyətini tənzimləyən prosedur və qaydalar xeyli liberallaşdırılmış, sahibkarlığa dövlət maliyyə yardımı mexanizmi işə salınmış, ölkədə ixrac rüsumları ləğv edilmiş, idxalda rüsumların 15%-lik maksimal həddi müəyyənləşdirilmişdir. Dünya Bankı hər il müxtəlif ölkələrdə dövlət siyasətlərinin və bizneslə məşğul olmağın asanlığını ölçən Doing Business tədqiqatları həyata keçirir. Qeyd etməliyik ki,

Azərbaycan iqtisadi sahədə aparılan siyasətlərin effektivliyi nəticəsində ümumi siyahıda 190 ölkə arasında 28-ci mövqedə, biznesə başlamağın asanlığı aspektində isə 9-cu mövqedə qərarlaşıb.

Beləliklə, dövlətin bazarı tənzimləməsi bazarı inkar etmir, əksinə bazarda olan çatışmaz lıqları aradan qaldırmaqla bazarın inkişafına nail olmaq məqsədi güdür [12, s. 183].

Dövlət azad sahibkarlıq sistemini tənzimləməklə ümumi cəmiyyətin rifahı ilə nəticələnən mühit yaratmağa çalışmalıdır. Bu səbəbdən də bu cür hüquqi tənzimləmə, yəni bu sahədə qəbul olunan hüquqi aktlar və digər tənzimləmə vasitələri azad sahibkarlıq sistemini dəstəkləyən iqtisadi prinsiplərə uyğun olmalıdır. Konstitusiya üzrə azad sahibkarlığa verilən hüquqi təminatın məqsədlərinə nail olması üçün dövlət tənzimləyici aktların qəbul olunması zamanı ilk növbədə nail olunması nəzərdə tutulan məqsədi və iqtisadi göstəriciləri müəyyənləşdirməlidir. Növbəti mərhələdə isə belə aktların uzun müddətli sosial fayda gətirəcəyinə əmin olmaq üçün müvafiq tədqiqatlar aparılmalı və ən optimal tənzimləmə variantı müəyyənləşdirilməlidir. Yalnız bu mərhələlərdən keçən və iqtisadi baxımdan effektivliyi təmin edilən tənzimləyici aktlar azad sahibkarlıq sisteminə və ümumilikdə cəmiyyətin rifahına şərait yarada bilər.

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT:**


1. Adam Smith, The Wealth of Nations, University of Chicago Press; UK ed. Edition, 1977, s.s. - 1152
2. Angus Burgin, Laissez-Faire, The Encyclopedia of Political Thought, ed. Michael T. Gibbons (John Wiley & Sons, Ltd., 2015), s.s – 6 2
3. Azərbaycan Respublikası Konstitusiyası
4. Azərbaycan Respublikasının “Sahibkarlıq fəaliyyəti haqqında” qanunu
5. Brian Blanchard, The Market and The State: The Debate Over Laissez Faire in American Political Thought, 1880-1914, Arizona State University, 2014, s.s – 304
6. John D. Bishop, Adam Smith’s invisible hand argument. J Bus Ethics 14, 1995,
7. Lawrence W. Reed, Laissez Faire and Economic Growth, Mackinac Center for Public Po licy, 2001, https://www.mackinac.org/3479
8. Murray N. Ruthbard, An Austrian Perspective on the History of Economic Thought, Vol.1, Misses İnstitute, 2006, s.s. – 574
9. Paul L. Joskow and Nancy L. Rose, The Effects of Economic Regulation, Handbook of Industrial Organization, Volume II, Edited by R. Schmalensee and R.D. Willig, Elsevier Science Publishers B.V., 1989, s.s – 1450-1506, 1451
10. M.A. Əhmədov, A.C.Hüseyn, İqtisadiyyatın dövlət tənzimlənməsi, Metodiki vəsait. Bakı: “İqtisad Universiteti” – 2011. -120 səh.
11. Policy statement by the Committee for Economic Development of the Conference Board, Regulation & the Economy - the Relationship & How to improve it, 2017, https://www.ced.org/reports/regulation-and-the-economy
12. Rəşid Əliyev, Konstitusiya hüququnun müqayisəli əsasları, 2014, s.s. – 184, http://remells.com/wp-content/uploads/2019/06/Konstitusiya-H%C3%BCququ-M%C3%BCqayis%C9%99li-%C6%8Fsaslar_R%C9%99%C5%9Fid-%C6%8Fliyev.pdf
13. Richard A. Posner, Theories of Economic Regulation, NBER Working Paper Series, Working Paper 4, 1974, s.s. – 44
14. https://corporatefinanceinstitute.com/resources/knwldg/economics/laissez-faire/
15. https://www.investopedia.com/terms/l/laissezfaire.asp#citation-2
16. https://economy.gov.az/article/sahibkarl%C4%B1%C4%9F%C4%B1n-inki%C5%9Faf%C4%B1-dinamikas%C4%B1/21386

## Laissez-faire doktrinası və Azərbaycan Respublikası Konstitusiyası üzrə azad sahibkarlıq sistemində dövlət tənzimlənməsi


### Xülasə

Azərbaycan Respublikasında azad sahibkarlıq sisteminin dövlət tənzimlənməsi qarışıq iqtisadiyyatın təzahürləri əsasında qurulmuşdur. Azərbaycan Respublikasının Konstitusiyası azad sahibkarlıq hüququna təminat verdiyindən elə iqtisadiyyatın dövlət tənzimlənməsi laissez-faire doktrinasının əsas prinsiplərini də dəstəkləyir. Digər tərəfdən, keçmişdə tənzimlənməmiş bazarların yaratdığı sosial bərabərsizlik və haqsız rəqabət nəzərə alınaraq, Konstitusiya dövlətin azad sahibkarlıq sistemindəki maneələri aradan qaldırmasının lazımi yollarını müəyyənləşdirir. Bu məqalə laissez-faire doktrinasını təhlil edir və Konstitusiyanın bazar iqtisadiyyatında dövlət tənzimləməsinin dərəcəsini təmin etməkdəki rolunu araşdırır.


## Laissez-faire doctrine and the state regulation in the free market system of the Republic of Azerbaijan


### Summary

The state regulation of the free market system in the Republic of Azerbaijan is based on the features of the mixed economies. The state regulation of the economy supports the main principles of the laissez-faire doctrine as the Constitution of the Republic of Azerbaijan guarantees the right to free enterprise. On the other side, given the social inequality and the unfair competition caused by the unregulated markets in the past, the Constitution determines necessary ways in which the state can eliminate barriers to free market system. This article analyses the laissez-faire doctrine and explores the role of the Constitution in guaranteeing the degree of state regulation in the market economy.


## Доктрина Laissez-faire и государственное регулирование в системе свободного рынка Азербайджанской Республики


### Резюме

Государственное регулирование системы свободного рынка в Азербайджанской Республике основано на особенностях смешанной экономики. Государственное регулирование экономики поддерживает основные принципы доктрины laissez-faire, поскольку Конституция Азербайджанской Республики гарантирует право на свободное предпринимательство. С другой стороны, учитывая социальное неравенство и несправедливую конкуренцию, вызванную нерегулируемыми рынками в прошлом, Конституция определяет необходимые пути, с помощью которых государство может устранить барьеры для системы свободного рынка. В этой статье анализируется доктрина laissez-faire и исследуется роль Конституция в обеспечении гарантирует степени государственного регулирования в рыночной экономике.

# İbtidai araşdırma mərhələsində vəkilin iş materiallarına çıxış imkanları.



***ALLAHVERƏN ORUCLU***

***Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü, vəkil,***

Vəkillər ədalət mühakiməsinin həyata keçirilməsində, insanların bir sıra konstitusion hüquqlarının, xüsusilə də yüksək keyfiyyətli hüquqi yardım almaq hüququnun təmin edilməsində mühüm rol oynayırlar. Vəkil müdafiəçi kimi şəxsə qarşı irəli sürülmüş ittihamın təkzibi və ya yüngülləşdirilməsi, onun hüquq və azadlıqlarının müdafiəsi, habelə cinayət təqibinə qanunsuz məruz qalmış şəxsin pozulmuş hüquq və azadlıqlarının bərpası məqsədi ilə prosessual fəaliyyəti həyata keçirən, nümayəndə kimi isə zərərçəkmiş şəxsin, mülki iddiaçının, yaxud mülki cavabdehin qanuni mənafeyini təmsil edən, hüquq müdafiə fəaliyyətini peşəkarcasına həyata keçirən şəxsdir. Cinayət işləri ilə bağlı təcrübə göstərir ki, xüsusilə ibtidai araşdırma (təhqiqat və ibtidai istintaq) mərhələsində vəkillərin fəaliyyəti bir sıra hüquqi maneələrin olması, onlara bu mərhələdə müdafiə və ya təmsil etdiyi şəxslərin hüquqlarının qorunmasında müəyyən çətinliklər yaradır. Vəkillərin həmin mərhələdə cinayət işinin materiallarına çıxışına, orada olan sənədlərlə vaxtında tanış olmalarına və surətlərinin çıxarılmasına qoyulan hüquqi məhdudiyyətlər bu qəbildəndir. Bəzi ölkələrdə, o cümlədən, Türkiyə Respublikasında, vəkil hələ ibtidai araşdırma mərhələsində cinayət işinə əlavə edilən sənədlərlə müəyyən məhdudiyyətlər nəzərə alınmaqla tanış ola və onların sürətini ala bilər. Bu hüquq vəkilə ibtidai araşdırma mərhələsində tərəflərin bərabərliyi və çəkişmə prinsipi əsasında müdafiəni və ya təmsilçiliyi düzgün təşkil etmək, irəli sürülmüş sübutlara qarşı alternativ sübutlar təqdim etmək, məsələn, hansısa şahidin ifadəsində olan hala münasibət bildirmək, əlavə şahidlərin dindirilməsini, istintaq hərəkətlərinin və ya ekspertizanın aparılmasını və s. tələb etmək kimi geniş imkanlar verir. Bununla vəkil həm həqiqətə nail olunmasına töhfə verə, həm də müdafiə və ya təmsil etdiyi şəxslərin hüquqlarının daha səmərəli qorunmasına və təmin edilməsinə nail ola bilir.

**Yerli qanunvericilik**

Cinayət prosesi iştirakçılarının Azərbaycan Respublikasının qanunvericiliyində təsbit edilmiş hüquqlarına nəzər yetirdikdə məlum olur ki, vəkilin şübhəli və ya təqsirləndirilən şəxsin müdafiəçisi və ya zərər çəkmiş şəxsin, mülki iddiaçının, mülki cavabdehin nümayəndəsi kimi işin materialları ilə tanış olmaq, zəruri (nümayəndə isə yalnız təmsil etdiyi şəxsə aid) sənədlərin surətlərini çıxarmaq hüququ ibtidai araşdırmanın qurtardığı və ya cinayət işi üzrə icraata xitam verildiyi andan yaranır (Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsinin (CPM) 92.9.11-ci və 102.6.8-ci maddələri). Eyni zamanda, müdafiəçi və ya nümayəndə özünün və ya müdafiə (təmsil) etdiyi şəxsin iştirakı ilə keçirilmiş istintaq və ya digər prosessual hərəkətlərin protokolları, habelə məhkəmə iclasının protokolu və ona əlavə edilmiş audioyazı ilə tanış olmaq hüquqlarına malikdir (CPM-nin 92.9.8 və 102.6.7-ci maddələri).

Müdafiəçi əlavə olaraq, cinayət prosesini həyata keçirən orqanın ekspertizanın təyin edilməsi haqqında qərarı və ona dair ekspertin rəyi ilə tanış ola, müdafiə etdiyi şəxsin tutulması, həbsə alınması və ya həbsdə saxlanmasının qanuni və əsaslı olduğunu təsdiq etmək üçün cinayət prosesini həyata keçirən orqanın məhkəməyə təqdim etdiyi materiallarla tanış ola bilər (CPM-nin 92.9.9 və 92.9.10-cu maddələri). Müdafiəçinin cinayət işinin bütün materiallarının deyil, yalnız hüquqlarına və qanuni mənafeyinə toxunan qərarların, o cümlədən qətimkan tədbirinin seçilməsi, istintaq və ya digər prosessual məcburiyyət tədbirlərinin aparılması,

təqsirləndirilən şəxs qismində cəlb etmə, ittiham elan olunması haqqında qərarların, habelə ittiham aktının, iddia ərizəsinin, hökmün, məhkəmənin digər yekun qərarının, apellyasiya və ya kassasiya şikayətlərinin, yaxud protestlərinin surətlərini almaq, nümayəndənin isə yalnız təmsil etdiyi şəxsin qanuni mənafeyinə toxunan qərarların surətlərini əldə etmək hüququ vardır (CPM-nin 92.9.15 və 102.6.16.-ci maddələri).

CPM-nin qeyd olunan müddəalarından da göründüyü kimi, ölkəmizdə vəkilin ibtidai araşdırma mərhələsində cinayət işindəki materiallarla tanış olmaq, sənədlərin surətlərini çıxarmaq mövzusunda hüququ çox məhduddur. Bu hal vəkili, xüsusilə müdafiəçi qismində, (həm də şübhəli və ya təqsirləndirilən şəxsi) cinayət prosesini həyata keçirən və ittiham tərəfini təmsil edən təhqiqatçı, müstəntiq, prokuror qarşısında olduqca zəif vəziyyətə salır. Halbuki, vəkil, yuxarıda qeyd edildiyi kimi, ədalət mühakiməsinin həyata keçirilməsində və insanların konstitusion hüquqlarının bərpasında vacib rol oynayan şəxsdir və qanunvericiliklə müəyyən edilmiş bir sıra vəzifələr daşıyır. Odur ki, onun bu sahədə hüquqi imkanlarının genişləndirilməsi məqsədəmüvafiq olardı.

**İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin təcrübəsi**

Ölkəmizin tərəfi olduğu İnsan Hüquqlarının və Əsas Azadlıqların Müdafiəsi Haqqında Avropa Konvensiyasını (Konvensiya) tətbiq edən İnsan Hüquqları üzrə Avropa Məhkəməsi (Avropa Məhkəməsi) məhkəməyə qədərki mərhələni (ibtidai araşdırma – təhqiqat və ibtidai istintaq mərhələsini) də Konvensiyanın 6-cı (Ədalətli məhkəmə araşdırması hüququ) maddəsinin əhatə dairəsinə salır. Yəni, bu maddədə təsbit edilən bir sıra hüquqlar və təminatlar ibtidai araşdırma mərhələsində də səlahiyyətli orqanlar (şəxslər) tərəfindən təmin edilməlidir.
Bu, Avropa Məhkəməsinin bir sıra qərarlarında təsbit edilmişdir.

Avropa Məhkəməsi cinayət prosesini bütövlükdə, o cümlədən prosesin məhkəməyə qədərki mərhələsini (təhqiqat, ibtidai istintaq mərhələsini) nəzərdən keçirir (Dvorski Xorvatiyaya qarşı, § 76). 6-cı maddənin 1-ci bəndində nəzərdə tutulmuş bəzi prosessual təminatların tətbiq edilməməsinə baxmayaraq, 6-cı maddənin 1-ci bəndi araşdırma aparan hakim (bizim halda müstəntiq, prokuror) tərəfindən aparılan istintaq proseduruna tətbiq edilə bilər (Vera Fernández-Huidobro İspaniyaya qarşı, §§ 108-114).

Bundan başqa, Avropa Məhkəməsi qeyd edir ki, icraatı bütövlükdə araşdırdıqda məhkəməyədək icraatda və məhkəmədə sübutların qəbuledilənliyini tənzimləyən qanunvericilik bazası və onlara əməl edilib-edilməməsi, habelə, ərizəçinin sübutların həqiqiliyinə etiraz etmək və onun istifadəsinə qarşı çıxmaq imkanının olub-olmaması halları da nəzərə alınmalıdır (İbrahim və başqaları Birləşmiş Krallığa qarşı [GC], § 274; Beuze Belçikaya qarşı [GC], § 150; Sitnevskiy və Çaykovski Ukraynaya qarşı, §§ 78-80).

**İş materiallarına əlçatanlıq öz müdafiəsini hazırlamaq üçün kifayət qədər vaxta və imkana malik olmaq hüququ kimi**

Müvafiq iş materiallarına əlçatanlıq (çıxış) kifayət qədər zaman və kifayət qədər alətlər (imkanlar) ilə yanaşı 6-cı maddənin 3-cü hissəsinin (b) bəndində təminat altına alınan müdafiənin təşkili hüququnun bir elementidir.

Beuze Belçikaya qarşı qərarında (§ 135) Avropa Məhkəməsi nümunə olaraq göstərdi ki, hər bir işin konkret vəziyyətindən və müvafiq hüquq sistemindən asılı olaraq, digər məhdudiyyətlərlə yanaşı, cinayət prosesinin ilkin mərhələlərində və ya ibtidai istintaq zamanı vəkilin iş materialları ilə tanış olmasında (əlçatanlıqda) üzləşdiyi imtina və ya çətinliklər də icraatın ədalətliliyinə xələl gətirə bilər.

Avropa Məhkəməsinin mövqeyinə əsasən, 6-cı maddənin 3-cü hissəsinin (b) bəndi təq-

sirləndirilən şəxsin materialla tanış olması və sübutların açıqlanması üçün əhəmiyyət kəsb edir və bu kontekstdə onlar 6-cı maddənin 1-ci bəndinə uyğun olaraq tərəflərin bərabərliyi və çəkişmə prinsipi əsasında məhkəmə araşdırması prinsipləri ilə üst-üstə düşür (Rowe və Davis Birləşmiş Krallığa qarşı [GC], § 59; Leas Estoniyaya qarşı, § 76).

**"Tərəflərin bərabərliyi" ("equality of arms")**

Hazırki məsələyə Avropa Məhkəməsi həm də "tərəflərin bərabərliyi" ("equality of arms"), başqa sözlə tərəflərin imkanlarının bərabərliyi prinsipi əsasında yanaşır. Yəni icraat (proses) tərəflərinin hüquqi imkanları bütün mərhələlərdə bərabər olmalıdır. Belə ki, Avropa Məhkəməsi qeyd edir ki, tərəflərin bərabərliyi ədalətli məhkəmə araşdırmasının xarakterik xüsusiyyətidir. Bu prinsip hər bir tərəfə öz iddiasını rəqibinə qarşı əlverişsiz vəziyyətə salmayan şəraitdə təqdim etmək üçün ağlabatan imkan verməyi tələb edir (Öcalan Türkiyəyə qarşı [BD], § 140; Foucher Fransaya qarşı, § 34 Bulut Avstriyaya qarşı, Faiq Məmmədov Azərbaycana qarşı, § 19). Tərəf lərin bərabərliyi tərəflər arasında ədalətli tarazlığın təmin edilməsini tələb edir və cinayət və mülki işlərə şamil edilir.
Təqsirləndirilən şəxsin iş materiallarına və ya ictimai maraqlara əsaslanan digər sənədlərə çı xışı məhdud olduqda, tərəflərin bərabərliyi pozula bilər (Matyjek Polşaya qarşı, § 65; Moiseyev Rusiyaya qarşı, § 217).

Məhkəmə müəyyən edib ki, işin materiallarına məhdudiyyətsiz giriş və istənilən qeydlərdən məhdudiyyətsiz istifadə, o cümlədən, zəruri hallarda müvafiq sənədlərin surətlərini əldə etmək imkanı ədalətli məhkəmə araşdırmasının mühüm təminatlarıdır. Bu cür çıxışın təmin edilməməsi tərəflərin bərabərliyi prinsipinin pozulduğunu müəyyən etməyə əsas olmuşdur (Beraru Rumıniyaya qarşı, § 70). Bununla belə, bəzi hallarda təqsirləndirilən şəxsdən iş materiallarındakı konkret sənədlə tanış olmaq xahişi üçün konkret səbəblər göstərməsi istənilə bilər (Matanović Xorvatiyaya qarşı, § 177).

Sübutların müdafiə tərəfinə açıqlanmaması tərəflərin bərabərliyini, eləcə də çəkişmə əsasında dinləmə hüququnu poza bilər (Kuopila Finlandiyaya qarşı, § 38, burada müdafiə tərəfinə polisin əlavə hesabatını şərh etmək imkanı verilməmişdi).

Beuze Belçikaya qarşı ([GC] §§ 125-130) işində öz əvvəlki presedent hüququna əsaslanaraq, Məhkəmə izah etdi ki, vəkilə çıxış hüququnun nəzərdə tutduğu məqsədlərinə o cümlədən  təhqiqat və ya cinayət təqibi orqanları ilə təqsirləndirilən şəxslər arasında tərəflərin bərabərliyi daxildir.

**Çəkişmə prinsipi (sübutların açıqlanması)**

Hazırki məsələyə Avropa Məhkəməsi həm də çəkişmə prinsipi əsasında sübutların açıqlanması nöqteyi-nəzərindən də yanaşmışdır.

Bir qayda olaraq, 6-cı maddənin 1-ci bəndi tələb edir ki, ittiham tərəfi müdafiə tərəfinə malik olduğu, təqsirləndirilən şəxsin lehinə və ya əleyhinə olan maddi sübutlar açıqlamalıdır (Rowe və Davis Birləşmiş Krallıqa qarşı [GC], § 60). Bu kontekstdə, müvafiq mülahizələri həmçinin ərizəçiyə "müdafiəsini hazırlamaq üçün adekvat vaxt və imkanları" təmin edən 6-cı maddənin 3-cü hissəsinin (b) bəndindən də çıxarmaq olar (Leas Estoniyaya qarşı, § 80).

Bununla belə, müvafiq sübutların açıqlanması hüququ mütləq hüquq deyil. Cinayət prosesində milli təhlükəsizlik və ya qisas riski altında olan şahidlərin müdafiəsi və ya polisin cinayəti araşdırmaq üçün istifadə etdiyi üsulların məxfi saxlanması zərurəti kimi maraqlar ola bilər ki, bu da təqsirləndirilən şəxsin hüquqları ilə ölçülməlidir. Bəzi hallarda başqa bir şəxsin əsas hüquqlarını qorumaq və ya mühüm ictimai maraqları qorumaq üçün müdafiədən müəyyən sübutları gizlətmək lazım ola bilər. Bununla belə, yalnız 6-cı maddənin 1-ci bəndinə

əsasən, müdafiə hüquqlarını məhdudlaşdıran ciddi zəruri tədbirlərə icazə verilir (Van Meçelen və başqaları Hollandiyaya qarşı, § 58; Paci Belçikaya qarşı, § 85). Bundan əlavə, təqsirləndirilən şəxsin ədalətli mühakimə olunmasını təmin etmək üçün hüquqlarının məhdudlaşdırılması nəticəsində müdafiə tərəfinə yaranan hər hansı çətinliklər məhkəmə orqanlarının izlədiyi prosedurlarla kifayət qədər tarazlaşdırılmalıdır (Rowe və Davis Birləşmiş Krallıqa qarşı [GC] , § 61; Doorson Hollandiyaya qarşı, § 72).

Müəyyən edilmiş və ya işarələnmiş elektron məlumatlara gəldikdə, müdafiəyə bu cür məlumatların əlavə axtarışının aparılmasına icazə verməkdən hər hansı imtina prinsipcə müdafiənin hazırlanması üçün adekvat imkanların təmin edilməsi ilə bağlı problem yaradır (Sigurdur Einarsson və Digərləri v. İslandiya, § 91).

**Tükiyədə vəkilin cinayət işinin materialları ilə tanış olmaq hüququ və UYAP elektron sisteminin imkanları**

Türkiyə Respublikasında hələ ibtidai istintaq mərhələsində, iş materiallarına xüsusi səbəblərdən hakim tərəfindən "gizlilik qərarı" çıxarılmayıbsa, işdə olan vəkillər bu mərhələdə işə əlavə edilən sənədlərlə tanış ola, onların surətini ala bilirlər.

Vəkillərin bu hüququ Türkiyə Respublikasının Cinayət Prosessual Qanununun (Ceza Muhakemesi Kanunu) "Müdafiəçinin iş materialları ilə tanış olmaq hüququ" adlanan 153-cü maddəsində təsbit edilmişdir. Həmin maddədə müdafiəçinin bir sıra hüquqları (bu hüquqlara həm də zərərçəkmiş şəxsin nümayəndəsi də malikdir), o cümlədən aşağıdakılar qeyd edilir:

(1) Müdafiəçi istintaq mərhələsində iş materiallarını araşdıra (tanış ola) bilər və tələb olunan sənədlərin surətini pulsuz əldə edə bilər;

(2) Müdafiəçinin iş materiallarını araşdırmaq və ya sənədlərdən surətlər götürmək səlahiyyəti, əgər bu, istintaqın məqsədinə təhlükə yarada bilərsə, dövlət ittihamçısının (Cumhuriyyet savcısının) tələbi əsasında hakimin qərarı ilə məhdudlaşdırıla bilər. Belə qərar yalnız aşağıdakı cinayətlər üzrə aparılan istintaq zamanı verilə bilər:

a) Türk Cəza Qanununda nəzərdə tutulmuş:

1. Qəsdən adam öldürmə, 2. Cinsi zorakılıq, 3. Uşaqlara qarşı cinsi zorakılıq,
4. Narkotik və ya stimullaşdırıcı maddələrin istehsalı və ticarəti,
5. Cinayət törətmək üçün təşkilat yaratmaq,
6. Dövlət təhlükəsizliyi əleyhinə cinayətlər,
7. Konstitusiya quruluşuna və onun fəaliyyətinə qarşı cinayətlər,
8. Dövlət sirrinə qarşı cinayətlər və casusluq cinayətləri;

b) Odlu silahlar və bıçaqlar və digər alətlər haqqında qanunda nəzərdə tutulmuş silah alveri cinayətləri.

c) Banklar haqqında qanunun 160-cı maddəsində nəzərdə tutulmuş mənimsəmə cinayəti.

d) Qaçaqmalçılıqla mübarizə qanununda müəyyən edilmiş cinayətlər.

(3) İkinci bənd həbs edilmiş şəxsin və ya şübhəlinin ifadəsini, ekspertiza rəylərini və yuxarıda göstərilən şəxslərin iştirak etmək hüququ olan digər məhkəmə icraatlarının protokollarını əks etdirən protokollara şamil edilmir.

Vəkillər cinayət işinin materialları ilə tanış olmaq və sənədlərin surətini çıxarmaq hüquqlarını həm əyani şəkildə dəftərxana vasitəsi ilə, həm də online şəkildə UYAP (Ulusal Yargı Ağı Bilişim Sistemi) portalından həyata keçirə bilərlər.

Türkiyə Respublikasının Ədliyyə Nazirliyinin idarə etdiyi UYAP portalı vasitəsilə icraatın aparılması bu ölkənin Cinayət Prosessual Qanununun "Elektron əməliyyatlar" adlanan 38/A maddəsində təsbit edilmişdir. Həmin maddənin bəzi bəndlərinə əsasən:

(1) Bütün növ cinayət prosesi işlərində (cinayət mühakiməsinin bütün növlərində) UYAP

istifadə olunur. Bu əməliyyatlarla bağlı hər cür məlumat, sənəd və qərarlar UYAP vasitəsilə işlənir, qeydə alınır və saxlanılır.

(2) Qanunlarda göstərilənlər istisna olmaqla, sənədlər təhlükəsiz elektron imza ilə UYAP-da araşdırıla (incelene) və burada hər cür cinayət işi sənədləşməsi aparıla bilər.

(3) Bu Qanun çərçivəsində fiziki olaraq hazırlanması tələb olunan hər cür sənəd və qərarlar elektron mühitdə təhlükəsiz elektron imza ilə təşkil edilə, emal edilə, saxlanıla və imzalana bilər.

(4) Təhlükəsiz elektron imza ilə imzalanmış sənədlər və qərarlar elektron şəkildə digər şəxslərə və ya qurumlara göndərilir. Təhlükəsiz elektron imza ilə imzalanmaqla göndərilən sənədlər və ya qərarlar fiziki cəhətdən ayrıca tərtib olunmur və zərurət olmadıqca aidiyyəti qurum və şəxslərə göndərilmir...

(7) Üzrlü səbəblərdən fiziki olaraq verilmiş sənədlər və ya qərarlar səlahiyyətli şəxs lər tərəfindən skan edilərək UYAP-a ötürülür, lazım gəldikdə isə elektron qaydada müvafiq bölmələrə göndərilir.

(8) Fiziki surətinin elektron sistemdən alınması lazım olduğu hallarda, sənədin əslinin eyni olduğu bildirilməklə, hakim, dövlət ittihamçısı və ya səlahiyyətli şəxs tərəfindən imzalanır və möhürlənir...

Eyni zamanda, ədalət mühakiməsində dəftərxana işinin təşkilini, o cümlədən UYAP-da cinayət prosesinin aparılması ilə bağlı prosedurları tənzimləyən, Ədliyyə Nazirliyi tərəfindən təsdiqlənmiş "Bölge Adliye Ve Adlî Yargi Ilk Derece Mahkemeleri Ile Cumhuriyet Başsavcilikleri Idarî Ve Yazi Işleri Hizmetlerinin Yürütülmesine Dair Yönetmelik" adlanan sənədin "Sənədlərin tədqiqi və surətlərin götürülməsi qaydası" adlanan 100-cü maddəsinə əsasən təqsirləndirilən şəxslərin, zərərçəkmişlərin, şikayətçilərin, cinayətdən zərər çəkmiş digər şəxslərin, işdə iştirak edənlərin və tərəflərin etibarnamə və ya tapşırıq məktubunu təqdim etmiş və ya UYAP vasitəsilə təhlükəsiz elektron imza ilə daxil olmuş vəkilləri və müdafiəçiləri iş materiallarından istədikləri bütün qeyd və sənədlərin surətini vəsatətlə müraciət etməklə, pulsuz əldə edə bilərlər (2). Müdafiəçi və nümayəndə (vəkil) UYAP Vəkil İnformasiya Sistemindən (avukat.uyap.gov.tr) vasitəsilə iş materiallarını araşdıra və nümunələr götürə bilər (4).

Beləliklə, Türkiyədə vəkillər, https://avukat.uyap.gov.tr ünvanında E-imza və M-imza ilə giriş etməklə UYAP vəkil portalına qoşularaq, öz səlahiyyətləri daxilində on-layn, icraatlar, məhkəmə işi və icra proseslərini aça və izləyə (e-takip), sistemdə etibarnamələri olan açıq və qapalı işlərin materiallarını araşdıra, iş materiallarının surətlərini götürə bilərlər, hüquqi sənədləri (ərizə, şikayət, etiraz, vəsatət, etibarnamə və s.) göndərə, mərhələlər haqqında məlumat əldə edə, dinləmə günləri ilə maraqlana, rüsum və xərcləri ödəyə və UYAP sistemində (avukat.uyap.gov.tr, savci.uyap.gov.tr və s.) qanunvericiliklə onlara verilmiş səlahiyyətlər çərçivəsində digər hərəkətləri edə bilərlər.

**Azərbaycanda cinayət işlərində elektronlaşma, vəkillər üçün yaradıla biləcək imkanlar**

Azərbaycanda məhkəmə işləri ilə bağlı vəkillərin də istifadə etdiyi elektron məhkəmə sistemi və vahid məhkəmə portalı mövcud olsa da, vəkillərə giriş imkanı verən, ibtidai araşdırma mərhələsində olan cinayət işlərinin vahid elektron portalı mövcud deyildir.

Son dövrdə təkmilləşdirilən Prokurorluğun "Elektron cinayət işi" proqramı var ki, o da qlobal çıxışı olmayan daxili şəbəkədir, onun vasitəsilə prokurorlar yalnız öz icraatlarında olan işlərə daxil ola bilərlər (ümumi sistemdə bütün işlərə isə idarə, rayon prokurorları, Baş prokuror və onun müavinləri daxil ola bilərlər). Yəni, bu portal prokurorluq orqanının daxili sistemi olmaqla yalnız prokurorluq əməkdaşlarına açıqdır.

Eyni zamanda, vergi orqanının Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemində (AVİS)

“Elektron cinayət işi” modulu da vardır. Bu modul ibtidai istintaqı vergilər orqanının səlahiy yətinə aid edilmiş cinayətlər üzrə aparılan ibtidai araşdırma zamanı qərar, vəsatət, məktub və digər sənədlərin elektron formada hazırlanması məqsədilə yaradılmış, özündə geniş və dəqiq məlumatları əks etdirən, operativ axtarış imkanlarına malik olan cinayət işlərinin vahid elektron sistemidir və yalnız vergi orqanının müstəntiq və təhqiqatçıları üçün nəzərdə tutulmuşdur.

Hesab edirəm ki, informasiya texnologiyalarının inkişaf etdiyi müasir dövrdə, cinayət prosesini həyata keçirən orqanların “Elektron cinayət işi” proqramları və modulları əsasında və ya ayrıca daha böyük portal yaratmaq və onu vahid məhkəmə portalına inteqrasiya etməklə (məsələn, Türkiyə təcrübəsində olduğu kimi), habelə, müvafiq qanunvericiliyə əlavə və dəyişikliklər etməklə, ibtidai araşdırma mərhələsində cinayət prosesinin tərəflərinə, xüsusilə vəkillərə müdafiəçi və ya nümayəndə olduqları cinayət işləri ilə bağlı elektron sistemlərə giriş, müvafiq iş materialları tanış olmaq və sənədlərin surətlərini götürmək, elektron qaydada şikayətlər, ərizələr, vəsatətlər vermək və digər prosessual imkanlar verilə bilər (şübhəsiz ki, bu imkanlar cinayət qanununda nəzərdə tutulmuş, ibtidai araşdırmanın aparılmasına mane olma, yaxud maraqlı şəxsə mənəvi və ya maddi ziyan vurma ilə nəticələn təhqiqat və ya ibtidai istintaq məlumatlarının yayılmasına səbəb olmamalıdır).

Yuxarıda qeyd olunan hüquq və imkanlar Azərbaycan vəkillərinə xüsusilə ibtidai istintaq mərhələsində müdafiəni düzgün və səmərəli qurmağa, ittiham tərəfinin irəli sürdüyü sübutlara qarşı vaxtında alternativ sübutlar və vəsatətlər təqdim etməyə (əlavə şahidin dəvət o lunmasını, istintaq hərəkətlərinin aparılmasını tələb etməyə və s. zəruri hərəkətlər etməyə), bununla da tərəflərin bərabərliyi və çəkişmə prinsipləri əsasında həm bütün halların şəffaf şəkildə hərtərəfli, tam və obyektiv tədqiq edilməsinə və həqiqətə nail olunmasına töhfə verməyə, həm də müdafiə və ya təmsil etdiyi şəxslərin fundamental hüquqlarının qorunmasına nail olmağa şərait yaradacaqdır.

# AZƏRBAYCANDA BEYNƏLXALQ İNVESTİSİYA MÜHİTİ



***TOĞRUL QULUZADƏ***

***Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü, vəkil,***

**QISA GİRİŞ HİSSƏ**

Dünya iqtisadiyyatının formalaşmasında beynəlxalq investisiyanın rolunun danılmaz olduğu hər kəsə aydındır. Bu sahə hər bir ölkənin iqtisadiyyatının stimullaşdırılmasına təsir göstərir. Bəs Azərbaycan bu sahənin ölkədə inkişafı üçün hansı addımları atmışdır? Azərbaycanda bununla bağlı investisiya mühiti hansı səviyyədədir?

**1. GİRİŞ**

İnvestisiya fəaliyyətinin mahiyyəti

Xarici investisiya, kapital qoyuluşu terminlərini aydınlatmaq üçün, ilk növbədə, investisiya termininin mahiyyətinin və məzmununun nədən ibarət olduğunun araşdırılması zərurəti yaranır. İnvestisiya – "investment" – ingilis dilində kapital qoyuluşu mənasını ifadə edir. C.Şvamberqer xarici investisiyalara orta və uzun müddətli kredit və borclar, istənilən əmlak, hüquq və maraqların sərmayə qoyuluşu elementləri özündə cəmləyən bir anlayış verir. Başqa sözlə desək, investisiya – gəlir (mənfəət) və ya sosial səmərə əldə etmək məqsədilə sahibkarlıq və digər fəaliyyət növləri obyektlərinə qoyulan maliyyə vəsaitindən, habelə maddi və qeyri-maddi (intellektual) əmlaklardan, hüquqlardan ibarətdir. Belə ki, investisiya obyektlərinə qiymətli kağızlar (səhmlər, istiqrazlar və s.), dövriyyə vəsaitləri, pul əmanətləri, elmi-texniki, hasilat məhsulu və mülkiyyətin digər obyektləri, əmlak hüququ və intellektual mülkiyyət hüququ aid edilir. İnvestisiya fəaliyyəti iqtisadiyyatın müxtəlif sahələrində həyata keçirilə bilər. İnvestisiyalar real və maliyyə investisiyaları kimi xarakterizə etmək olar. Maliyyə investisiyaları – səhm, istiqraz, opsion və s. qiymətli kağızlar alqısı ilə bağlıdır. Real investisiya zaman isə investorlar istehsal, hasilat və bu kimi istiqamətlərdə birbaşa iştirak edirlər. İnvestisiya qoyuluşunu bir sıra amillər zəruri edir:

- mövcud maddi-texnıki bazanın yenilənməsi;
- sahibkarlıq fəaliyyəti sferasının genişləndirilməsi;
- yeni fəaliyyət növlərinin yaradılması

Həmçinin, investisiya fəaliyyətini həyata keçirmək üçün bəzi əsas şərtlərin olması vacibdir:

- investisiya fəaliyyətinə olan tələbat;
- investisiya prosesi üçün kadr bazasının olması;
- investisiya layihələrin mövcudluğu;
- hüquqi baza;
- münbit investisiya mühiti və s.
- yuxarıda adıçəkilən şərtlər əsasında texniki-iqtisadi əsaslandırma

Beynəlxalq təcrübədə investisiyanın iki əsas forması fərqləndirilir : Xarici birbaşa investisiya (FDI) və xarici portfel investisiyası (FPI). Xarici birbaşa investisiya zamanı xarici investorlar digər ölkələrdə daimi nümayəndəlik təsis etmək yolu ilə iştirak edirlər. Xarici portfel investisiyası zamanı isə xarici investorların digər ölkələrdə səhmlərin və ya hər hansı digər qiymətli kağızların alınması yolu ilə iştirakı nəzərdə tutulur. Beləliklə, bu növ investisiyalar aşağıdakı kimi kateqoriyalaşdırılır:

- xarici portfel investisiyaları, xarici ölkələrin səhm və istiqrazlar kimi qiymətli kağızlarının birjada alınmasıdır.
- xarici birbaşa investisiyalar, xarici bir ölkədə biznes və bunlarla əlaqəli infrastruktur yaratmaq və ya satın almaqdır.



Xarici birbaşa investisiyalar ölkə iqtisadiyyatına uzunmüddətli investisiya, xarici portfel investisiyaları isə maliyyə vəsaiti qazanmaq üçün qısa müddətli bir investisiya kimi qiymətləndirilə bilər.  Xarici birbaşa investisiyalar, ehtimal ki, yalnız böyük şirkətlər, təşkilatlar və özəl ka pital investorları üçün əlverişlidir.

Xarici investisiya edərkən investorlar iqtisadi qeyri-sabitlik və valyuta mübadiləsi riski kimi digər risk faktorlarını da nəzərə alırlar. Xarici birbaşa investisiyaların riskli formalarından biri "yaşıl" sahə investisiyaları adlanır. Bir çox şirkətlər xarici ölkələrdə, tez-tez inkişaf etməkdə olan bir bazarda yeni bir törəmə müəssisə yaratmaq üçün yaşıl sahə investisiyalarından istifadə edirlər. "Yaşıl" sahə termini ona görə istifadə olunur ki, əsas (ana) şirkət törəmə müəssisəni sıfırdan təşkil edir. "Yaşıl" sahə investisiyalarının mənfi tərəfi, əsas (ana) şirkətin törəmə müəssisənin fəaliyyət göstərməsi üçün xərcləməsi lazım ola biləcək çox böyük məbləğdir. Buraya əmlak (torpaq və s.) alınması, istehsal sahələrinin tikilməsi və yerli işçi qüvvəsinin təhsili misal ola bilər. Bazara daxil olmaq üçün mane ola biləcək maneələr arasında xarici müəssisələr üçün yerli məhdudiyyətlərin olması - tələb olunan vergi və icazə haqlarının ödənilməsi və yerli istehsal komponentlərinin istifadəsinə dair tələblərin olması kimi maneələri də göstərə bilərik.

Xarici investor digər ölkədə sərmayə qoyub sahibkarlıq fəaliyyəti ilə məşğul olmağa başlamazdan əvvəl, həmin ölkənin hüquqi, iqtisadi və siyasi münbitliyini araşdırır. İqtisadi və siyasi sabitliyi olan və xarici investorların hüquq və manəfelərinin qorunduğu ölkəyə xarici investorların maraqları daha da artır. Çünki, xarici investor ilk növbədə əmin olmaq istəyir ki, sərmayə qoyduğu ölkədə onun hüquq və mənafeləri qorunacaq. Buna əmin olduqdan sonra, xarici investor həmin ölkənin qanunlarına uyğun texniki-iqtisadi araşdırmalar aparır. Həmin texniki-iqtisadi araşdırmalar nəticəsində həmin ölkədə sahibkarlıq fəaliyyətinin təşkil edilməsi barədə qərar verilir. Belə ki, beynəlxalq investisiya münasibətlərinin inkişaf etdirilməsi və xarici investisiyaların ölkə iqtisadiyyatına cəlb edilməsi Azərbaycan dövlətinin də müəyyən etdiyi iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsidir. Beynəlxalq investisiyanın inkişaf etdirilməsi və xarici investorların cəlb edilməsi üçün bir sıra amillərin, siyasi və iqtisadi sabitliyin və hüquqi münbitliyin mövcud olmasına ehtiyac vardır. Son dövrlər ölkədəki siyasi sabitlik, iqtisadi inkişaf və hüquqi islahatlar xarici dövlətlərin Azərbaycan iqtisadiyyatına uzunmüddətli sərmayə qoymaq üçün marağını daha da artırmışdır. Bildiyimiz kimi, dünyada beynəlxalq investisiyanın inkişafı birbaşa ayrı-ayrı ölkələrin iqtisadiyyatına təsir göstərir və bunun da nəticəsində dünya iqtisadiyyatı inkişaf edərək formalaşır. Xarici investorlar müxtəlif hüquqi üsullardan istifadə edərək digər ölkələrdə investisiya fəaliyyəti ilə məşqul olurlar. Azərbaycan beynəlxalq investisiya münasibətlərində ilk addımlarını artıq 1992-ci ildən atmağa başlamışdır. Xarici investorların Azərbaycana marağı hər il daha da artır. Bunun səbəbi ölkədə həyata keçirilən bir sıra islahatlardır ki, bunun da nəticəsində xarici investorlar Azərbaycana sərmayə qoymaqla həm öz sahibkarlıq fəaliyyətini genişləndirirlər, həm də Azərbaycan iqtisadiyyatının inkişafına təkan verirlər. Onu da qeyd etmək lazımdır ki, xarici investor dedikdə istənilən xarici fiziki və hüquqi şəxs başa düşülür. Yuxarıda qeyd edildiyi kimi, Azərbaycan da beynəlxalq investisiya münasibətlərinin tələblərini və xüsusiyyətlərini nəzərə alaraq bir sıra təqdirəlayiq islahatlar həyata keçirmişdir. Bu islahatlar iqtisadiyyatın müxtəlif sahələrində özünü biruzə vermişdir. Bu cür islahatların nəticəsi olaraq, xarici investorların sayı və xarici sərmayələrin dövriyyəsi artmışdır. Təbii ki, bu sahənin durmadan inkişaf etdiyini nəzərə alaraq, əlavə tədbirlərin həyata keçirilməsinə hər zaman ehtiyac vardır. Lakin, ilk öncə beynəlxalq investisiyanın həm xarici investor, həm də sərmayə qoyulan ölkə üçün təsir dairələrini, başqa sözlə, üstünlüklərini müzakirə etmək lazımdır. Bunun müzakirəsi nəticəsində beynəlxalq investisiyanın mahiyyətini başa düşmək daha da asan olacaqdır.

Belə ki, investisiya edilən ölkə üçün beynəlxalq investisiyanın üstünlükləri:

- xarici investisiya yerli sənayeni, hasilatı, sahibkarlıq münasibətlərini inkişaf etdirməklə ölkə iqtisadiyyatını stimullaşdırır;
- xarici investisiya yeni iş imkanlarını yaradır, bu da öz növbəsində insanların alıcılıq qabiliyyətinin artmasına və həyat səviyyəsinin yüksəlməsinə səbəb olur;

- xarici investorlar əlavə təcrübə, texnologiya və keyfiyyətli məhsullar əldə etmək üçün sərmayə qoyurlar ki, bu da öz növbəsində ölkədə texnologiyanın inkişafı, əmək bazarında təcrübənin və məhsulların keyfiyyətinin artması deməkdir;

Bəzi iqtisadçılar tərəfindən beynəlxalq investisiyanın neqativ halı kimi yerli şirkətlərin xarici investorlarla rəqabətı göstərilir. Lakin, mənim fikrimcə, azad rəqabət hər bir halda yerli sahibkarların fəaliyyətinə müsbət təsir göstərərək onları inkişaf elətdirir və ölkənin iqtisadi inkişafına təkan verir.

Azərbaycanda investisiya mühitini başa düşmək üçün onu həm daxili, həm də beynəl xalq müstəvidə müzakirə etmək lazımdır.

## 2. AZƏRBAYCANDA İNVESTİSİYA MÜHİTİ

Ölkə iqtisadiyyatına investisiyaların cəlb olunması məqsədilə hökumət tərəfindən "açıq qapı" siyasəti həyata keçirilir. Son illərdə Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyası prosesi intensiv xarakter almışdır. Hazırda Azərbaycan hökuməti ölkədə iqtisadi islahatların davam etdirilməsi, biznes mühitinin daha da yaxşılaşdırılması, qeyri-neft sektorunun inkişaf etdirilməsi ilə bağlı ardıcıl tədbirlər həyata keçirir.

Bu günə kimi Azərbaycanda investorların hüquq və mənafelərinin qorunması, yerli və xarici sahibkarlara eyni iş və biznes şəraitinin yaradılması, əldə edilmiş mənfəətdən maneəsiz istifadə olunması, mülkiyyətin toxunulmazlığı ilə bağlı mühüm normativ hüquqi aktlar qəbul edilmişdir.

Xarici investorları daha çox maraqlandıran məsələlər, yəni mənfəətin digər valyutalara konvertasiya edilməsi, onun xarici ölkələrə köçürülməsi, yaxud yenidən investisiya edilməsi ilə bağlı bütün məhdudiyyətlər ləğv edilmişdir. Bu cür tədbirlər Azərbaycan bazarını xarici investorlar, maliyyə qurumları və digər təşkilatlar üçün daha da maraqlı edir.

Bundan başqa, onu da qeyd edək ki, neft sektoru ilə bərabər, qeyri-neft sektorunun, inkişaf etdirilməsi məqsədilə bir sıra tədbirlər də həyata keçirilir. Qeyri-neft sektorunda fəaliyyət göstərən birgə və xarici investisiyalı müəssisələri cəlb edən əsas sahələr sənaye, tikinti, nəqliy yat və ticarətdir.

**Qanunvericilik**

Azərbaycanda investisiya mühiti - investorların hüquq və mənafelərinin qorunması, mülkiyyətin toxunulmazlığı, yerli və xarici sahibkarlara bərabər şəraitin yaradılması, Azərbaycan Respublikası Prezidentinin 13 yanvar 1995-ci il tarixli 952 nömrəli Sərəncamı ilə təsdiq olunmuş "İnvestisiya fəaliyyəti haqqında", Azərbaycan Respublikası Prezidentinin 15 yanvar 1992-ci il tarixli 57 nömrəli Sərəncamı ilə təsdiq olunmuş "Xarici investisiyanın qorunması haqqında", "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının qanunları və bir sıra normativ sənədlər ilə tənzimlənir.

Bundan başqa, Azərbaycan hökuməti bir sıra xarici ölkələrlə ikiqat vergi tutmanın aradan qaldırılması, investisiyaların təşviqi və investisiya münasibətlərindən irəli gələn hüquq və mənafelərin qarşılıqlı qorunması haqqında bir sıra beynəlxalq investisiya müqavilələrini də imzalamışdır.



İlk növbədə sahibkarlığın ölkədə inkişaf etdirilməsi və xarici investorların maraqlarının artırılması sahəsində son illərdə hüquqi müstəvidə həyata keçirilən bir sıra tədbirlər barədə:

**"Bir pəncərə" sistemi**

"Bir pəncərə" sistemi tətbiq etməklə sahibkarlıq subyektlərinin qeydiyyatı sadələşdiril mişdir. Belə ki, elektron xidmətlərin tətbiqi nəticəsində fiziki və hüquqi şəxslərin sahibkarlıq

fəaliyyətinin onlayn rejimində qeydiyyatı və vergi bəyannamələrin elekron qəbuluna başlanmışdır.

Azərbaycan Respublikası Nazirlər Kabinetin 8 sentyabr 2014-cü il tarixli 300 nömrəli Qərarına əsasən elektron imzanın alınması müddəti 2 gündən 1 günə endirilmişdir.
Həmçinin, "Tikinti layihələrinin ekspertizadan keçirilməsi Qaydaları"nın tələbinə uyğun olaraq, tikinti layihələrinin ekspertizasının "bir pəncərə" prinsipi ilə həyata keçirilməsinə başlanılmışdır.

Aparılan islahatların davamı olaraq, 2015-ci ilin oktyabrında Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurası yaradılmış, Şuranın Əsasnaməsi və tərkibi təsdiq edilmişdir. Azərbaycan Respublikasının ərazisindən dəmir yolları, dəniz nəqliyyatı, dəniz limanları və dəniz terminalları vasitəsilə tranzit yüklərin daşınmasında "bir pəncərə" prinsipinin tətbiq olunması nəzərdə tutulmuşdur və "bir pəncərə" prinsipinin tətbiqi üzrə vahid dövlət orqanının səlahiyyətlərinin həyata keçirilməsi Kordinasiya Şurasına həvalə edilmişdir.

**Lisenziyalar**

Bundan başqa, Azərbaycan Respublikası Prezidentinin "Sahibkarlıq fəaliyyətinin xüsusi razılıq (lisenziya) tələb olunan növlərinin sayının azaldılması, xüsusi razılıq (lisenziya) verilməsi prosedurlarının sadələşdirilməsi və şəffaflığının təmin edilməsi haqqında" 19 oktyabr 2015-ci il tarixli 650 nömrəli Fərmanına əsasən, 2015-ci ilin 2 noyabr tarixindən İqtisadiyyat Nazirliyi tərəfindən dövlət təhlükəsizliyi ilə bağlı hallar istisna olmaqla lisenziyaların "ASAN xidmət" mərkəzləri vasitəsilə verilməsinə prosesinə başlanılmışdır. Bununla da sahibkarlar lisenziyaların alınması zamanı sadələşdirilmiş və şəffaf prosedurlardan keçərək və vaxt itirmədən xüsusi razılıq (lisenziya) tələb olunan sahələr üçün xüsusi razılıq (lisenziya) əldə edərək sahibkarlıq fəaliyyəti ilə məşğul ola bilərlər.

Bunda başqa, Azərbaycan Respublikası Prezidentinin "Lisenziyalaşdırma sahəsində bəzi tədbirlər haqqında" 21 dekabr 2015-ci il tarixli 713 nömrəli Fərmanına əsasən lisenziya tələb olunan fəaliyyət növlərinin sayı azaldılmış və beləliklə, onların sayı 59-dan 37-yə endirilmiş, indiyə kimi verilmiş qüvvədə olan müddətli lisenziyalar müddətsiz elan olunmuş, yeni verilən lisenziyalar isə müddətsiz müəyyən edilmiş, lisenziyanın verilməsinə görə ödənilən dövlət rüsumunun məbləğləri təxminən 2 dəfə, regionlar üzrə 4 dəfə (regional televiziya və radio yayımı istisna olmaqla) azaldılmış, lisenziya verən dövlət orqanların sayı 23-dən 4-ə, lisenziyaların verilməsi müddəti 15 gündən 10 iş gününə endirilmiş, lisenziya verilməsi üçün tələb olunan prosedurlar isə sadələşdirilmiş və şəffaflaşdırılmışdır.

**Gömrük və vergi rejimi**

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 18 yanvar tarixli 745 nömrəli Fərmanı ilə "İnvestisiya təşviqi sənədinin verilməsi Qaydası" təsdiq edilmişdir ki, həmin sənəd Azərbaycan Respublikasının Vergi Məcəlləsində və "Gömrük tarifi haqqında" Qanununda müəyyən edilmiş güzəştləri əldə etməyə əsas verir. Müvafiq olaraq Azərbaycan Respublikasının Vergi Məcəlləsinə 2016-cı il 19 yanvar tarixində edilmiş dəyişikliklərə əsasən, investisiya təşviqi sənədini almış hüquqi şəxslər və fərdi sahibkarlar müvafiq olaraq aşağıdakılardan azad olunmuşlar:

- mənfəət və gəlirin 50 faizinin vergisindən
- müvafiq əmlakına görə əmlak vergisindən
- mülkiyyətində və ya istifadəsində olan torpaqlara görə torpaq vergisindən
- idxal etdikləri texnika, texnoloji avadanlıqlar və qurğular üzrə idxalda 7 il müddətinə əlavə dəyər vergisini ödəməkdən

Həmçinin, “Gömrük tarifi haqqında” Azərbaycan Respublikasının Qanununda 2016-cı il 19 yanvar tarixində edilmiş dəyişikliklərə əsasən investisiya təşviqi sənədini almış hüquqi şəxs lər və fərdi sahibkarlar, habelə sənaye, yaxud texnologiyalar parklarının rezidentləri tərəfindən texnika, texnoloji avadanlıq və qurğuların idxalı 7 il müddətinə, sənaye, yaxud texnologiyalar parklarının idarəedici təşkilatı və ya operatoru tərəfindən texnika, texnoloji avadanlıq və qurğu-ların idxalı isə idxal rüsumlarından azad edilmişdir.

Həmçinin, “Qeyri-neft ixracının təşviqi ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 1 mart 2016-cı il tarixli 811 nömrəli Fərmanına əsasən, qeyri-neft məhsullarının ixracı ilə məşğul olan şəxslərə ixrac gömrük bəyannaməsində nəzərdə tutulan dəyərin 3% baza olmaqla (məhsulların növündən asılı olaraq ixrac təşviqinin baza məbləğinə əmsallar tətbiq edilməklə) ixrac təşviqi ödəniləcəkdir.

Eyni zamanda, “Gömrük sistemində islahatların davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 4 mart 2016-cı il tarixli 1853 nömrəli Sərəncamına əsasən, elektron gömrük xidmətlərinin daha da genişləndirilməsi, gömrük rəsmiləşdirilməsi zamanı tələb olunan sənədlərin və prosedurların sayının minimuma endirilməsi, gömrük orqanlarına əvvəlcədən elektron formada qısa idxal bəyannaməsini təqdim etmək yolu ilə malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirilməsi üçün “Yaşıl dəhliz” və beynəlxalq təcrübədə mövcud olan digər buraxılış sisteminin yaradılması və s. bu kimi tədbirlərin həyata keçirilməsi müəyyənləşdirilmişdir.

Yuxarıda şərh edilən dəyişikliklər Azərbaycan investisiya mühitini daha da münbitləşdirmiş və xarici investorlar üçün əlverişli bazar şəraiti yaratmışdır.

İnvestisiya fəaliyyəti subyektlərinin Azərbaycan ərazisində əsasən aşağıdakı hüquqları vardır.

**İnvestisiya fəaliyyəti subyektlərinin hüquqları:**

1. Azərbaycan Respublikası ərazisində mülkiyyət formasından və təsərrüfat fəaliyyətinin növündən asılı olmayaraq investisiya fəaliyyətinin bütün subyektləri investisiya fəaliyyətinin həyata keçirilməsi sahəsində bərabər hüquqlara malikdirlər.

2. “İnvestisiya fəaliyyəti haqqında” Azərbaycan Respublikasının qanunu və ya Azərbaycan Respublikasının digər qanunvericilik aktları ilə investisiya qoyulması qadağan edilən və ya məhdudlaşdırılan obyektlər istisna olmaqla, hər hansı obyektə investisiya qoyuluşu investorun müstəsna hüququdur və qanunla qorunur.

3. İnvestor müstəqil surətdə investisiya qoyuluşunun məqsədini, istiqamətini, növünü və həcmini müəyyənləşdirir, onun həyata keçirilməsi üçün müqavilə əsasında, o cümlədən müsabiqə (tender) və hərrac yolu ilə fiziki və hüquqi şəxsləri investisiya fəaliyyətinin iştirakçısı qismində cəlb edir.

4. Azərbaycan Respublikasının qanunvericilik aktlarına uyğun olaraq investor ölkə ərazi sində investisiyanın obyektlərinə və nəticələrinə sahiblik, istifadə və sərəncam vermək, həmçinin yenidən investisiya və ticarət əməliyyatları həyata keçirmək hüquqlarına malikdir.

5. Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş mülkiyyət hüququ əmələ gətirməyən obyektlərə investisiya qoyulması sonradan onlara sahiblikdə, əməli idarəetmədə və ya belə obyektlərin istismarından əldə edilən gəlirdə investorun iştirak hüququnu istisna etmir.

6. İnvestorun qərarı ilə investisiyaya və onun nəticələrinə sahiblik, istifadə və sərəncam hüquqları qanunla müəyyənləşdirilmiş qaydada digər fiziki və hüquqi şəxslərə verilə bilər. Hüquqların bu cür verilməsi zamanı yaranan qarşılıqlı münasibətlər onların müstəqil surətdə bağladıqları müqavilə əsasında nizama salınırlar.

7. İnvestor investisiya qoyuluşu üçün maliyyə vəsaitini kredit, qanunvericiliklə müəyyən edilmiş qaydada qiymətli kağızlar buraxılışı və borc kimi də cəlb edə bilər. İnvestor öz öhdəliklərinə təminat vermək üçün yalnız mülkiyyət hüququ əsasında özünə məxsus olan əmlakı girov qoya bilər. Azərbaycan Respublikası ərazisinin hüdudlarından kənarda ipoteka krediti he sabına investor kimi çıxış edən dövlət müəssisələrinin investisiyaları üçün Azərbaycan dövləti tərəfindən təminat verilir

8. Azərbaycan Respublikası qanunvericiliyinə zidd olmadıqda, investorun fiziki və hüquqi şəxslərdən birbaşa və ya vasitəçilik yolu ilə istənilən miqdarda və növdən olan əmlakı tərəf lərin müəyyənləşdirdiyi qiymətlərlə və şərtlərlə almaq hüququ vardır.

9. Dövlət və bələdiyyə mülkiyyətinin, habelə başa çatdırılmamış tikinti obyektlərinin özəlləşdirilməsində investorlar Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş şərtlərlə və qaydada iştirak edə bilərlər. Qeyd etmək lazımdır ki, qanunvericiliklə yalnız investorların hüquqları deyil, habelə vəzifələri də müəyyən edilmişdir.

**Xarici investisiya ilə bağlı hüquqi tənzimləmə**

Azərbaycan Respublikasında xarici investorların qorunmasına gəldikdə isə Azərbaycan Respublikasının "Xarici investisiyaların qorunması haqqında" qanunu Azərbaycan ərazisində xarici investisiya qoyuluşunun hüquqi və iqtisadi prinsiplərini müəyyən edir.

Qanun xarici maddi və maliyyə ehtiyatlarının, qabaqcıl xarici texnikanın və texnologiyanın, idarəetmə təcrübəsinin cəlb olunmasına, bunlardan səmərəli istifadə edilməsinə yönəlmişdir və xarici investorların hüquqlarının müdafiəsinə təminat verir. Azərbaycan Respublikasının ərazisində xarici investisiya ilə bağlı münasibətlər "Xarici investisiyaların qorunması haqqında" qanun, Azərbaycan Respublikasının başqa qanunvericilik aktları və beynəlxalq müqavilələri ilə nizama salınır.

Azərbaycan Respublikasında xarici investorlar aşağıdakılar ola bilərlər:

a) xarici hüquqi şəxslər;

b) xarici vətəndaşlar, vətəndaşlığı olmayan şəxslər və xaricdə daimi yaşayış yeri olan Azərbaycan Respublikası vətəndaşları; bu şərtlə ki, onlar vətəndaşı olduqları və ya daimi yaşadıqları ölkədə təsərrüfat fəaliyyəti ilə məşğul olmaq üçün qeydə alınmış olsunlar;

c) xarici dövlətlər;

d) beynəlxalq təşkilatlar.

Xarici investisiya və onun qoyulması formalarına gəldikdə isə, xarici investorların mənfəət əldə etmək məqsədilə sahibkarlıq fəaliyyəti və başqa növ fəaliyyət obyektlərinə qoyduqları əmlakın və əmlak hüquqlarının bütün növləri, o cümlədən intellektual fəaliyyətin nəticələrinə hüquqlar və əşya hüquqlarına aid olmayan digər hüquqlar xarici investisiyadır.

Xarici investorlar Azərbaycan Respublikası ərazisində aşağıdakı formalarda investisiya qoya bilərlər:

a) Azərbaycan Respublikasının hüquqi şəxsləri və vətəndaşları ilə birlikdə yaradılan müəssisələrdə, təşkilatlarda payçılıq iştirakı;

b) tamamilə xarici investorlara məxsus olan müəssisələrin yaradılması;

c) müəssisələrin, əmlak komplekslərinin, binaların, qurğuların, müəssisələrdə iştirak payının, səhmlərin, istiqrazların və digər qiymətli kağızların, habelə Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq surətdə xarici investorlara məxsus ola bilən başqa əmlakın əldə edilməsi;

d) torpaqdan və başqa təbii ehtiyatlardan istifadə hüquqlarının, habelə digər əmlak hüquqlarının əldə edilməsi;

e) Azərbaycan Respublikasının hüquqi şəxsləri və vətəndaşları ilə xarici investisiya qoyuluşunun başqa formalarını nəzərdə tutan müqavilələr bağlanması.

Xarici investorlar dövlət və bələdiyyə müəssisələrinin, habelə başa çatdırılmamış tikinti obyektlərinin özəlləşdirilməsində Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilən şərtlərlə və qaydada iştirak edə bilərlər.

Bəzi istisnalar nəzərə alınmaqla, xarici investisiyanın hüquqi rejimi, habelə investisiya qoyuluşu sahəsində xarici investorların fəaliyyətinin hüquqi rejimi Azərbaycan Respublikasının hüquqi şəxslərinin və vətəndaşlarının əmlakı, əmlak hüquqları, habelə investisiya fəaliyyəti üçün yaradılmış rejimdən az əlverişli ola bilməz. Xarici investisiya üçün Azərbaycan Respublikasının qanunvericiliyi ilə əlavə güzəştlər müəyyən edilə bilər.

Xarici investisiyalı müəssisələr Azərbaycan Respublikasının qanunvericilik aktları ilə qadağan olunmamış hər hansı fəaliyyət növü ilə məşğul ola bilərlər. Xarici investisiyalı müəssisələr müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi siyahıdakı ayrı-ayrı fəaliyyət növləri ilə yalnız xüsusi razılıq (lisenziya) əsasında məşğul ola bilərlər.

Xarici investisiya üçün ərazi məhdudiyyətləri Azərbaycan Respublikasının qanunvericilik aktları ilə elə ərazilər müəyyən edilə bilər ki, müdafiənin, milli təhlükəsizliyin, ətraf təbii mühitin və əhalinin müdafiəsinin təmin olunması mülahizələrinə görə bu ərazilərdə xarici investisiyalı müəssisələrin fəaliyyəti məhdudlaşdırılsın və ya qadağan edilsin.

**Xarici investorların hüquqlarının qorunmasına dövlət zəmanəti**

Azərbaycan Respublikasının ərazisində xarici investisiya hüquqi cəhətdən tam və qeyd-şərtsiz müdafiə olunur. Belə müdafiə Azərbaycan Respublikasının “Xarici investisiyaların qorunması haqqında” qanunu, başqa qanunvericilik aktları və beynəlxalq müqavilələri ilə təmin olunur. Bəzən, xarici investorları narahat edən suallardan biri, əgər qanunvericlik dəyişdirilərsə və bunun nəticəsində investisiya qoyuluşu şəraiti pisləşərsə, hansı qanunvericilik tətbiq olunacaq?

Buna cavab olaraq, bildirirəm ki, Azərbaycan Respublikasının sonrakı qanunvericiliyi investisiya qoyuluşu şəraitini pisləşdirdikdə on il ərzində xarici investisiyaya investisiyanın qoyul duğu zaman qüvvədə olmuş qanunvericilik tətbiq edilir.

Lakin, bu şərt müdafiənin, milli təhlükəsizliyin və ictimai qaydanın təmin olunması, kredit və maliyyə, ətraf mühitin, əhalinin əxlaq və sağlamlığının mühafizəsi barəsində Azərbaycan Respublikası qanunvericiliyinin dəyişdirilməsinə şamil edilmir.

Bundan başqa, Azərbaycan Respublikasında xarici investisiya, Azərbaycan Respublikasının xalqına və dövlət mənafelərinə zərər vuran müstəsna hallar istisna olmaqla, milliləşdirilmir. Milliləşdirmə haqqında qərarı Azərbaycan Respublikasının Milli Məclisi qəbul edir.

Təbii fəlakət, qəza, epidemiya, epizootiya və fövqəladə xarakter daşıyan başqa hallar istisna olmaqla, xarici investisiya rekvizisiya edilmir. Rekvizisiya haqqında qərarı Azərbaycan Respublikasının Nazirlər Kabineti qəbul edir. Milliləşdirmə və rekvizisiya tədbirləri görüldükdə xarici investora təxirə salınmadan müqabil və səmərəli kompensasiya ödənilir.

**Xarici investorların zərərinin kompensasiya edilməsi və ödənilməsi həyata keçirilirmi?**

Xarici investorlara ödənilən kompensasiya investisiyanın milliləşdirmə və ya rekvizisiya haqqında qərarın qəbul olunduğu vaxtdakı real dəyərinə uyğun olur. Kompensasiya xarici val yuta ilə ödənilir və investorun arzusu ilə xaricə köçürülə bilər.



Xarici investorlar dövlət orqanlarının, yaxud onların vəzifəli şəxslərinin Azərbaycan Res publikası qanunvericiliyinə zidd olan hərəkətləri nəticəsində düşdükləri zərərin, o cümlədən itirdikləri faydanın ödənilməsi hüququna malikdirlər.

Kompensasiyanın və zərərin ödənilməsi məbləğləri, bunun ödənilməsi müddətləri və qaydası haqqında mübahisələr məhkəmədə, habelə tərəflərin sazişi və ya Azərbaycan Res-

publikasının beynəlxalq müqaviləsi ilə nəzərdə tutulmuş hallarda arbitraj məhkəməsində həll olunur.

Investisiya fəaliyyətinə xitam verildikdə xarici investorun hüququ var ki, ona çatası investisiyanı və investisiya ilə əlaqədar gəlirləri investisiya fəaliyyətinə xitam verildiyi zaman real dəyər üzrə pul və əmtəə formasında alsın.
Müvafiq vergi və rüsumları ödədikdən sonra xarici investorların investisiya ilə əlaqədar qanuni əsaslarla xarici valyuta şəklində əldə etdikləri gəlirləri və başqa məbləğləri, o cümlədən kompensasiyaları və zərərin ödənilməsi məbləğlərini xaricə köçürməsinə təminat verilir.

**Xarici investisiya qoyulmuş müəssisələrin yaradılması, formaları və onların hüquq və vəzifələri?**

Xarici investisiyalı müəssisələr səhmdar cəmiyyətləri,məhdud məsuliyyətli cəmiyyətlər, digər təsərrüfat cəmiyyətləri və ortaqlıqları şəklində, habelə Azərbaycan Respublikasının qanunvericiliyinə zidd olmayan hər hansı başqa formalarda yaradılır.

- Azərbaycan Respublikasının ərazisində xarici investorların pay iştirakı ilə müəssisələr (birgə müəssisələr);
- təmamilə xarici investorlara məxsus olan müəssisələr (xarici müəssisələr);
- xarici hüquqi şəxslərin filialları və nümayəndəlikləri (büroları, kontorları, agentlikləri və s.);

Birgə və xarici müəssisələr Azərbaycan Respublikasının hüquqi şəxsləridir. Xarici investisiyalı müəssisələrin yaradılması qaydası Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilir. Xarici investisiyalı bankların yaradılmasının xüsusiyyətləri Azərbaycan Respublikasının banklar və bank fəaliyyəti haqqında qanunvericilik aktları ilə müəyyən edilir.

Xarici investisiyalı müəssisə fəaliyyət göstərdiyi dövrdə və ləğv edilərkən belə rəy almalıdır. İri miqyaslı tikinti və rekonstruksiya aparılması və ya iri faydalı qazıntı yataqlarının işlənilməsi ilə əlaqədar belə müəssisələr yaradılarkən texniki- ekoloji layihələrin müvafiq ekspertizasının keçirilməsi də tələb olunur.

Xarici investisiyalı müəssisələr müvafiq icra hakimiyyəti orqanında dövlət qeydiyyatına alınırlar. Dövlət qeydiyyatı Azərbaycan Respublikasının müvafiq qanunu ilə müəyyənləşdirilmiş qaydada həyata keçirilir, yuxarıda qeyd edildiyi kimi bu proses "bir pəncərə" sistemini tətbiq etməklə daha da sadələşdirilmişdir. Xarici investisiyalı müəssisə dövlət qeydiyyatına alındığı andan hüquqi şəxs hüquqları əldə edir.

Xarici investisiyalı müəssisələr qanunvericiliklə müəyyən edilmiş qaydada hüquqi şəxs lərin dövlət reyestrinə daxil edilir. Xarici investisiyalı müəssisənin dövlət qeydiyyatına alınmasından yalnız «Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında» Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş hallarda imtina edilə bilər. Dövlət qeydiyyatına almaqdan imtina olunduqda bu barədə Azərbaycan Respublikasında inzibati qaydada və (və ya) məhkəmə qaydasında şikayət oluna bilər.

Xarici investisiyalı müəssisə Azərbaycan Respublikasının qanunvericiliyində və xarici dövlətlərin müvafiq qanunvericiliyində müəyyənləşdirilmiş şərtlərə riayət etməklə Azərbaycan Respublikasında və xarici hüquqi şəxs hüquqlarına malik törəmə müəssisələr, habelə filiallar və nümayəndəliklər yarada bilər. Azərbaycan ərazisindəki filiallar və nümayəndəliklər Azərbaycan Respublikasının banklarında hesablar açmaq hüququna malikdirlər.



Xarici investisiyalı müəssisələr Azərbaycan Respublikasının qanunvericilik aktlarında nəzərdə tutulmuş şərtlərlə və qaydada birləşib assosiasiyalar, konsernlər, konsorsiumlar və başqa birliklər yarada bilərlər. Belə müəssisələr əvvəllər yaradılmış birliklərə daxil ola bilər. Birgə müəssisənin nizamnamə fonduna hər bir iştirakçının əmanətlərinin qoyulması müd-

dətləri, məbləği, qoyulması və qiymətləndirilməsi qaydası təsis sənədlərində nəzərdə tutulur.

Birgə müəssisə iştirakçılarının müəssisənin nizamnamə fonduna əmanət kimi qoyduğu əmlakın dəyəri birgə müəssisə iştirakçıları arasında razılığa əsasən müəyyən edilir.

Xarici investisiyalı müəssisə istehsal etdiyi məhsula (işlərə, xidmətlərə) qiymət qoymaq, respublikanın daxili bazarında onun satışı şərtlərini müəyyən etmək, bu bazardan məhsul (işlər, xidmətlər) göndərənləri seçmək ixtiyarına malikdir. Azərbaycan Respublikasının ərazisində xarici investisiyalı müəssisələrin hesablaşması zamanı xarici valyutadan, habelə xarici valyuta şəklində tədiyə sənədlərindən istifadə etməsinə Azərbaycan Respublikasının valyuta tənzimlənməsi haqqında qanunvericiliyi ilə müəyyən olunmuş qaydada yol verilir.

Xarici investisiyalı müəssisənin əcnəbi işçilərinin öz ehtiyacları üçün Azərbaycan Respublikasına gətirdikləri əmlak gömrük rüsumundan azad edilir.

Azərbaycan Respublikasının qanunvericiliyi ilə məcburi sığortalama nəzərdə tutulmadıqda, xarici investisiyalı müəssisə öz əmlakının, istehsal, maliyyə və başqa risklərinin sığortalanıb-sığortalanmayacağını özü həll edir.

Xarici investisiyalı müəssisələr, habelə xarici investorlar Azərbaycan Respublikasının qanunvericilik aktları ilə müəyyən edilən vergiləri ödəyirlər.

Xarici investisiyalı müəssisə Azərbaycan Respublikasında qüvvədə olan qaydalara, yaxud istəsə, həmçinin xarici investorun mənsub olduğu ölkədə qüvvədə olan qaydalara (beynəlxalq mühasibat uçotu və hesabı qaydalarına uyğun olduğu təqdirdə) müvafiq surətdə mühasibat uçotu və hesabat aparır.

Xarici investisiyalı müəssisə götürdüyü öhdəliklərin bütün növlərini təmin etmək, o cümlədən borc vəsaiti cəlb etmək üçün öz əmlakından istifadə edə bilər. Öhdəlikləri təmin etmək üçün o, binalar, qurğular, avadanlıqlar üzərində əmlak hüquqlarından və digər əmlak hüquqlarından, o cümlədən torpaqdan istifadə hüququndan istifadə edə bilər.

Xarici investisiyalı müəssisələrin intellektual fəaliyyət nəticələrinə olan hüquqları, habelə digər qeyri-əşya hüquqları (nou-hau, kommersiya sirri və s.) Azərbaycan Respublikasının qanunvericilik aktlarına müvafiq surətdə müdafiə olunur və həyata keçirilir.

Xarici investisiyalı müəssisədə istehsal və əmək münasibətləri, o cümlədən işəgötürmə və işdən azadetmə, əmək və istirahət rejimi, əmək haqqı, təminat və kompensasiya məsələləri kollektiv müqavilə (saziş) və fərdi əmək müqavilələri (bağlaşmalar) ilə tənzimlənir. Kollektiv və fərdi əmək müqavilələrinin şərtləri həmin müəssisənin işçilərinin vəziyyətini Azarbaycan Respublikasının qanunvericilik aktlarında nəzərdə tutulmuş şəraitə nisbətən pisləşdirə bilməz. Xarici investisiyalı müəssisənin əcnəbi işçilərinin əməyinin ödənilməsi, onlara məzuniyyətlər verilməsi, onların pensiya təminatı məsələləri həmin işçilərin hər biri ilə bağlanan fərdi əmək müqavilələrində həll edilməlidir. Bu işçilər xarici valyuta ilə aldıqları əmək haqqını gəlir vergisi ödədikdən sonra Azərbaycan Respublikası Milli Bankının müəyyən etdiyi qaydada xaricə köçürə bilərlər.

Xarici investisiyalı müəssisənin işçilərinin sosial sığortası və sosial təminatı (əcnəbi işçilərin pensiya təminatı istisna olmaqla) Azərbaycan Respublikasının qanunvericiliyinin normaları ilə tənzimlənir. Xarici investisiyalı müəssisədə işləyən Azərbaycan Respublikası ərazisində daimi yaşayan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin əmək pensiyası təminatı hüququ «Əmək pensiyaları haqqında» Azərbaycan Respublikasının Qanununa uyğun tənzimlənir. Müəssisə yerli və əcnəbi işçilərin sosial sığortası üzrə məcburi dövlət sosial sığorta haqlarını Azərbaycan Respublikasının müəssisələri və təşkilatları üçün müəyyənləşdirilmiş dərəcələr üzrə ödəyir.

Xarici investisiyalı müəssisə Azərbaycan Respublikasının qanunvericilik aktlarında nəzərdə tutulmuş hallarda və qaydada ləğv edilə bilər. Xarici investisiyalı müəssisə ləğv edilərkən onun yığdığı aktivlərdən real dəyəri üzrə vergi tutulur.

Xarici investorlar Azərbaycan Respublikasının ərazisində yerləşən müəssisələrin iştirak

hissələrini, paylarını, səhmlərini və başqa qiymətli kağızlarını Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş qaydada əldə edə bilərlər.

Xarici investorlara və xarici investisiyalı müəssisələrə torpaqdan və başqa təbii ehtiyatlardan istifadə hüquqlarının, o cümlədən torpağın icarəsi hüququnun verilməsi Azərbaycan Respublikasının Torpaq məcəlləsi və Azərbaycan Respublikasının başqa qanunvericilik akt ları ilə tənzimlənir. Xarici investorların və xarici investisiyalı müəssisələrin icarəsinə əmlakı icarəyəverən müqavilələr əsasında və Azərbaycan Respublikasının icarə hüquq normalarına müvafiq surətdə verir.

Xarici investisiya münasibətlərinin özünəməxsusluğu bu münasibətlərə hüquqi vasitələrin böyük qismini, yəni həm milli hüquq, həm də beynəlxalq hüquq tənzimlənməsini, başqa sözlə, hüququn iki sisteminin – milli və beynəlxalq hüququn, daha dəqiq desək beynəlxalq müqavilələrin hüquqi statusunun tətbiqini zəruri edir.

## 3. BEYNƏLXALQ İNVESTİSİYA MÜNASİBƏTLƏRİ VƏ AZƏRBAYCANIN HƏMİN MÜNASİBƏTLƏRDƏ YERİ

**Beynəlxalq investisiya hüququnun prinsipləri**

İlk növbdədə, beynəlxalq investisiya hüququnun prinsiplərini nəzərdən keçirək:

- qəbul edən dövlətin daxili işlərinə qarışmamaq
- qəbul edən dövlətin iqtisadiyyatına zərər vurmamaq;
- qəbul edən dövlət tərəfindən xarici investisiyaların tənzimlənməsi;
- investisiyalardan əldə edilən gəlirin sərbəst xaricə köçürülməsi; subroqasiya və s.
- müvafiq kompensasiya verilmədən xarici investisiyaların milliləşdirilməsinin yolverilməzliyi;

Belə ki, Azərbaycan beynəlxalq investisiya hüquq münasibətlərində ilk addımı 1992-ci il 18 Sentyabr tarixində “Beynəlxalq İnvestisiya Mübahisələrinin Həlli Mərkəzi Konvensiya”sını ratifikasiya etməklə atmışdır. Bu konvensiyanı ratifikasıya etməklə Azərbaycan xarici investisiya zamanı xarici investorların hüquqlarının beynəlxalq hüquq çərçivəsində həllində maraqlı olduğunu göstərmişdir. Bundan başqa, beynəlxalq investisiya hüquq münasibətlərində Azərbaycan digər dövlətlər ilə ikitərəfli beynəlxalq investisiya müqavilələrini bağlamaqla öz mövqe yini daha da gücləndirir. Hal-hazırda, Azərbaycanın 44 dövlətlə ikitərəfli beynəlxalq investisiya müqavilələri vardır.

**İkitərəfli investisiya müqavilələri**

Yuxarıda qeyd edildiyi kimi, xarici kapital qoyuluşu üç komponentdən: qəbul edən dövlətin siyasi rejimindən, iqtisadi inkişafın sabitliyindən və hüquqi təminatdan asılıdır. Hüquqi təminatın daha səmərəli forması isə beynəlxalq hüquqi tənzimetmə ilə həyata keçirilməkdədir. Xarici investisiyaların beynəlxalq hüquqi tənzimlənməsi isə özünün başlanğıcını ikitərəfli beynəlxalq investisiya müqavilələrindən götürür. İkitərəfli investisiya müqavilələrində xarici sərmayənin müdafiə məsələləri ilə yanaşı, bir qayda olaraq, ümumi iqtisadi əməkdaşlığın və investisiya münasibətlərinin sağlam iqtisadi rəqabət və hüquqi münbitlik çərçivəsində genişləndirilməsi zərurəti ifadə edilir.

Yuxarıda qeyd edildiyi kimi, Azərbaycan Respublikasının 44 ölkə ilə ikitərəfli beynəlxalq investisiya müqavilələri mövcuddur, bunlara misal olaraq, Almaniya, Norveç, Türkiyə və digər dövlətlərlə bağladığı investisiyaların qarşılıqlı müdafiəsi və investisiya qoyuluşunun təşviqini nəzərdə tutan müqavilələri göstərmək olar. Həmin müqavilələrdə qarşılıqlı olaraq tənzimetmə prinsipləri, təminat və təhlükəsizlik, mübahisələrin həlli, investorların əsas hüquq və vəzifələri, investorların milli mənsubiyyətinin müəyyən edilməsi meyarları və s. məsələlər öz əksini tapıb.

Xarici investisiyalar sərmayə qoyduğu ölkələrdə ilk növbədə beynəlxalq müqavilələrin tənzimetmə şərtlərini əsas götürür. İkitərəfli investisiya müqavilələri onları imzlayan ölkələr arasında beynəlxalq investisiya münasibətlərinin xüsusi rejimini müəyyən edir, başqa sözlə, investorların hüquqi statusu, onların hüquq və manəfelərinin qorunması, qanunvericilik təminatları və s. məsələləri tənzimləyir.

Bundan başqa, həmin beynəlxalq müqavilələr üzrə tərəflər xarici investorlar üçün onların fəaliyyəti ilə bağlı ədalətli, bərabərhüquqlu və əlverişli rejimin təmin olunması öhdəliyini götürür.

İkitərəfli investisiya müqavilələrinin bir sıra modelləri mövcuddur, buna misal olaraq ABŞ, Almaniya, , Yaponiya və s. modellərinin adını çəkmək olar.

Xarici investisiyaların təhlükəsizliyinin təminat sferasında bir qayda olaraq Almaniya, Yaponiya, ABŞ modelləri daha çox diqqəti cəlb edir. ABŞ investisiya modelinin sığorta sistemi daha çox beynəlxalq müqavilələrin tələblərinə söykənir, lakin, bundan fərqli olaraq alman və yapon sistemləri beynəlxalq müqavilələrin mövcudluğundan asılı olmayaraq, dövlətdaxili təminatı əsas götürür.

İnvestisiya fəaliyyətində meydana çıxan xüsusi məsələlərdən biri də mübahisələrin həlli mexanizmilə bağlıdır. Beynəlxalq investisiya müqavilələrdə bir qayda olaraq milli mənsubiyyətindən asılı olmayaraq mübahisələrin həllinə beynəlxalq kommersiya arbitraj məhkəmələrində baxılmasına üstünlük verilir.

**Enerji Xartiyası Müqaviləsinin investisiya münasibətlərinin tənzimlənməsində əhəmiyyəti**

Enerji Xartiyası Müqaviləsi beynəlxalq hüquqa görə misilsiz olan enerji əməkdaşlığı üçün çoxtərəfli bir çərçivə müəyyən edir. Enerji mənbələri üzərində davamlı inkişaf və suverenlik prinsiplərinə hörmət etməklə, daha açıq və rəqabətə davamlı enerji bazarlarının fəaliyyəti ilə enerji təhlükəsizliyini təşviq etmək üçün hazırlanmışdır. Enerji Xartiyası Müqaviləsi 1994-cü ilin dekabr ayında Azərbaycan tərəfindən imzalanmış və 1998-ci ilin aprel ayında qanuni qüvvəyə minmişdir.

Müqavilə dörd geniş müddəanı əhatə edir:

- yerli investorlar ilə xarici investorlar və ya iki fərqli ölkənin investorları arasında diskriminasiyaya yol verməməklə xarici investorların sərmayələrinin və onların digər qeyri-kommersiya risklərindən qorunması;
- boru kəmər və digər nəqliyyat vasitələri ilə enerji materiallarının, məhsullarının və enerji ilə əlaqəli digər avadanlıqların ticarəti zamanı diskriminasiyaya yol verilməməsi;
- investorlar ilə sərmayə qoyulan dövlət arasında mübahisələrin həlli edilmə üsulları;
- enerji səmərəliliyinin təşviqi və enerji istehsalı və istifadəsinin ətraf mühitə təsirini minimuma endirilməsi;

Müqavilədə həm investor, həm də investisiya məfhumuna geniş açıqlama verilir. Razılığa gələn tərəfin qüvvədə olan qanunvericiliyinə uyğun olaraq müvafiq dövlətin ərazisində yaşayan və ya vətandaşlığa malik olan fiziki şəxslər (m. 1 (7)); müvafiq dövlətin qanunvericiliyinə uyğun olaraq təsis olunmuş müəssisə və ya təşkilat (m. 1 (7)) investisiya münasibətlərin subyekti kimi xarakterizə olunur.



İnvestisiya anlayışına isə investor tərəfindən birbaşa və ya dolayısı ilə idarə edilən və ya ona məxsus aktivlərin bütün növləri kimi-maddi və qeyri-maddi, həmçinin daşınar və daşınmaz əmlak və digər əmlak hüquqları kimi, icarə, ipoteka, girov və əmlakın saxlanılması hüquqları; müəssisədə pay (iştirak) formaları və ya səhm, həmçinin öhdəlik, paylı müəssisənin borc öh-

dəliyi, tələb hüququ; enerji sektorunda hər hansı təsərüfat fəaliyyətini həyata keçirmək üçün qanuna əsasən verilən istənilən lisenziya və icazə (m. 1 (6)) və ya müqavilə üzrə qanuna uyğun təqdim edilən istənilən hüquq, gəlirlər, əqli mülkiyyət aid edilir.

Bundan başqa, müvafiq risklərdən beynəlxalq hüquqi sığortanın təşkilatı mexanizminin yaradılmasına 1985-ci ildə İnvestisiya təminatları üzrə çoxtərəfli Agentliyin (Multilateral İnvestment Guarentee Agency-MİGA) təsis edilməsi ilə nail olunub. MIGA hüquqi status baxımından daimi fəaliyyət göstərən beynəlxalq hökumətlərarası təşkilatdır. MİGA beynəlxalq hüquq subyektliyinə malik olduğundan beynəlxalq müqavilələr bağlayır və fəaliyyət xüsusiyyətlərindən asılı olaraq hüquqi şəxs kimi investisiya təminatları verir.

## 4. XARİCİ İNVESTORLAR ÜÇÜN MÜBAHİSƏLƏRİN HƏLLİ ÜSULLARI

Bildiyimiz kimi əlverişli investisiya mühitinin yaradılması şərtlərindən biri də məhkəmə sisteminin şəffaf və sadə olmasıdır. Bu məqsədlərdən biri olaraq İnizibati və Kommersiya məhkəmələrinin təşkili və hakimlər haqqında qanuna dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının 2019-cu il 19 İyul tarixli 1632 VQD nömrəli Qanunun tətbiqi haqqında Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı verilmişdir. Bu sərəncamın nəticəsində Azərbaycanda Kommersiya məhkəmələri yaradılmışdır.

Bir çox ölkələrdə ixtisaslaşmış məhkəmələr mövcuddur. Kommersiya mübahisələrinin daha obyektiv və tez həlli üçün ixtisaslaşmış kommersiya məhkəmələrinin olması olduqca vacibdir. Çünki, bu cür məhkəmələrin olmaması kommersiya mübahisələrində kommersiya sahəsi üzrə dərin biliyə malik olmayan hakimlər tərəfindən bir çox hallarda yanlış və ya natamam qərarın verilməsinə səbəb olur. Bundan başqa, işə baxılma müddəti də uzadılır, bu da öz növbəsində birbaşa sahibkarların və ya investorların işini ləngidir, ümumilikdə isə iqtisadi proseslərin ölkədə daha gec getməsinə səbəb olur. Bu səbəbdən biznes mühitinin təkmilləşdirilməsi və kommersiya işlərinə daha obyektiv və qısa müddətdə baxılması üçün kommersiya məhkəmələri fəaliyyət göstərməlidirlər.

Lakin, həm yerli, həm də xarici investisiyanın cəlb edilməsini stimullaşdırmaq üçün beynəlxalq kommersiya arbitrajının inkişaf etdirilməsi vacibdir.

Ticarət münasibətlərinin inkişafı ilə mübahisələrin alternativ yolla həll olunması üçün arbitrlərin fəaliyyəti daha çox əhəmiyyətini göstərir. Kommersiya münasibətlərinin inkişaf etdiyi bir dövrdə dünyada arbitraj institutları dövlət məhkəmələri ilə yanaşı iqtisadi mübahisələrin həllində əhəmiyyətli rol oynayırlar. 1917-ci ildə Stokholm Ticarət Palatasının nəzdində yaradılan Arbitraj İnstitutunun fəaliyyəti Avropada kommersiya mübahisələrinin həllində böyük rol oynamışdır. Sonradan, bir sıra Avropa və Asiya ölkələrində, ABŞ-da yaranmış beynəlxalq arbitraj institutları beynəlxalq kommersiya münasibətlərinin tənzimlənməsində öz töhfələrini vermişlər.

Beynəlxalq arbitraj məhkəmələrinin fəaliyyəti Birləşmiş Millətlər Təşkilatının Beynəlxalq ticarət hüququ üzrə Komissiyasının qəbul etdiyi Nümunəvi UNCİTRAL Qanunu və digər normativ sənədlər əsasında tənzimlənir.

Mübahisələrin məhkəmədənkənar alternativ həlli üsulları barədə danışılarkən artıq təkcə arbitraj nəzərdə tutulmur, həmçinin vasitəçinin və ya mediatorun iştirakı ilə mübahisənin barışıq və ya mediasiya yolu ilə həlli mexanizmləri də müzakirə olunur və bu sahədə də islahatlar aparılır.

Belə ki, Azərbaycan Respublikası Prezidentinin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi" haqqında 3 aprel 2019-cu il tarixli Fərmanına və "Mediasiya haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq Mediasiya Şurasının təsis edilməsi prosesinə başlanmışdır.

Azərbaycan Respublikasında xarici investorlar və xarici investisiyalı müəssisələr ilə Azərbaycan Respublikasının dövlət orqanları, müəssisələri, ictimai təşkilatları və başqa hüquqi şəxs ləri arasında mübahisələrə, xarici investisiyalı müəssisənin iştirakçıları arasında mübahisələrə, habelə xarici investisiyalı müəssisənin iştirakçıları ilə həmin müəssisə arasında mübahisələrə məhkəmələrdə, yaxud tərəflərin razılığına əsasən arbitraj məhkəməsində, o cümlədən xaricdəki arbitraj məhkəməsində baxılır.

Beynəlxalq kommersiya mübahisələrin könüllü həlli yolu arbitraj hesab olunur. Tərəflər mübahisənin arbitrajda həll olunması üçün qabaqcadan və ya sonradan razılığa gələ bilərlər.

Beynəlxalq arbitrajin xüsusiyyətləri:

- hüquqi mübahisənin həlli üçün alternativ və könüllü mexanizmdir
- bir qayda olaraq, arbitraj məhkəməsinin qərarları tərəflər üçün hüquqi cəhətdən məcburidir, tərəflər arbitraj məhkəməsinin qərarlarında göstərilən tələbləri yerinə yetirməyə məcburdurlar ki, bu da onu mübahisələrin digər alternativ həlli yollarından fərqləndirir.
- arbitraj məhkəməsində tərəflər arbitrləri özləri seçə bilərlər, arbitrların sayı bir və ya üç olur, hər tərəf bir arbitr təyin edə bilər və təyin eidilmiş arbitrlər üçüncü arbitrı təyin edir.

Onu da qeyd edək ki, beynəlxalq müqavilələrlə Azərbaycan Respublikasının qanunvericiliyi (Azərbaycan Respublikasının Konstitutsiyası və refendumla qəbul edilən aktlar istisna olmaqla) arasında hər hansı bir ziddiyyət olarsa, beynəlxalq müqavilələr üstünlük təşkil edir.

## 5. XÜSUSİ İQTİSADİ ZONADA İNVESTORLARIN HÜQUQİ STATUSU

Azərbaycan Respublikasında xarici investorların, xarici investisiyalı müəssisələrin təsərrüfat fəaliyyəti üçün güzəştli rejimin müəyyən edildiyi ərazi xüsusi iqtisadi zona adlanır.

Xüsusi  iqtisadi zonaların yaradılması qaydası, xarici investorların və xarici investisiyalı müəssisələrin orada qeydə alınması, təsərrüfat fəaliyyəti və başqa fəaliyyət ilə məşğul olması şərtləri Azərbaycan Respublikasının xüsusi iqtisadi zonalar haqqında qanunvericiliyi ilə müəyyən edilir. Belə ki, bununla bağlı 14 Aprel 2009-cu ildə Xüsusi İqtisadi Zona haqqında Azərbaycan Respublikasının qanunu qəbul edilmişdir.

Bir çox ölkələr hər hansı ərazi hissəsinə xüsusi iqtisadi zona status verir. İnvestorlar bu cür ərazilərə sərmayə qoymağa və orada sahibkarləq fəaliyyəti ilə məşğul olmağa daha çox maraqlıdırlar. Çünki, bu ərazilərdə investorlar üçün xüsusi güzəştlər nəzərdə tutulmuşdur. Onu da qeyd edək ki, dövlət kimi tarif və kvotaların mövcud olmadığı yeganə müasir dövlət demək olar ki, Honq Konqdur.

Dünya təsərrüfat əlaqələri üçün xüsusi iqtisadi zonalar əsasən beynəlxalq əmtəə dövriy yəsinin fəallaşdırılması, investisiyaların səfərbər edilməsi, iqtisadi inteqrasiya proseslərinin dərinləşdirilməsi hesabına iqtisadi artımın sürətləndirilməsi faktoru və eyni zamanda inteqrasiya proseslərinin təşkilati formalarından biri kimi çıxış edir.

Beynəlxalq korporasiyalar öz fəaliyyətləri üçün güzəştli şərait axtarışında xüsusi iqtisadi zonalara əlavə mənfəət gətirə biləcək əlverişli ərazilər kimi baxırlar. Yuxarıda qeyd edildiyi kimi, xüsusi iqtisadi zona investorlar üçün bir sıra güzəştləri nəzərdə tutur ki, burada gömrük və vergi güzəştlərindən xüsusilə danışmaq olar.

Güzəştli gömrük rejimi zamanı Azərbaycan Respublikasının qanunvericiliyi ilə idxalı və ixracı qadağan edilməmiş bütün malların xüsusi iqtisadi zonaya aşağıdakı daxil olma və çıxma qaydaları tətbiq olunur:

- mallar (aksizli mallardan başqa) Azərbaycan Respublikasının gömrük ərazisi xaricindən xüsusi iqtisadi zonaya idxal edilərkən idxal rüsumu və əlavə dəyər vergisi tutulmur;
- Azərbaycan Respublikasının gömrük ərazisi xaricindən xüsusi iqtisadi zonaya id xal olunmuş mallar xüsusi iqtisadi zonadan Azərbaycan Respublikasının gömrük ərazisi xaricinə ixrac olunarkən gömrük rüsumları və vergilər tutulmur;

- xüsusi iqtisadi zonada istehsal və ya emal olunmuş mallar Azərbaycan Respublikasının gömrük ərazisi xaricinə ixrac edilərkən gömrük rüsumları və vergilər tutulmur;
- xüsusi iqtisadi zonada istehsal və ya emal olunmuş mallar təmir, yekun-tamam lama işləri, nümunələrin sərgisi və digər bu kimi məqsədlərlə Azərbaycan Respublikasının gömrük ərazisinə müvəqqəti idxal edilərkən gömrük rüsumları və vergilər tutulmur;
- Azərbaycan Respublikasında mallar xüsusi iqtisadi zonalar arasında idxal-ixrac edilərkən gömrük rüsumları və vergilər tutulmur;

Xüsusi iqtisadi zonanın rezidentlərinə qanunvericiliklə nəzərdə tutulmuş güzəştli vergi rejimi tətbiq olunur.

- xüsusi iqtisadi zonanın ərazisində sahibkarlıq fəaliyyəti göstərən, qeydiyyatdan keçmiş rezidentlər malların təqdim edilməsindən, işlərin görülməsindən, xidmətlərin göstə rilməsindən əldə etdikləri vəsaitin məbləğindən (ümumi hasilatın həcmindən) və satışdan kənar gəlirlərindən 0,5 faiz dərəcə ilə vergini (sadələşdirilmiş vergini) hesablayır, rüb qurtardıqdan sonrakı ayın 20-dən gec olmayaraq ödənilməli olan həmin verginin məbləği haqqında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi formada vergi orqanlarına bəyannamə verir və həmin müddətdə bu vergini dövlət büdcəsinə ödəyirlər.
- xüsusi iqtisadi zonanın rezidentləri yuxarıda göstərilən vergi və fiziki şəxslərin muzdlu işlə əlaqədar gəlirindən vergi istisna olmaqla, vergi qanunvericiliyi ilə müəyyən edilmiş digər vergiləri ödəməkdən azaddırlar.
- xüsusi iqtisadi zonanın rezidentinə bu maddədə müəyyən edilmiş vergi rejimi yalnız həmin zonada göstərdiyi sahibkarlıq fəaliyyətinə tətbiq edilir.

Bu cür ərazilərin fəaliyyət göstərilməsi məqsədilə 22 May 2020-ci il tarixində Azərbaycan Respublikasının Prezidentinin fərmanı ilə Ələt azad iqtisadi zonası yaradılmışdır.

Belə ki, Azad Zona səlahiyyətli qurumu, Azad Zona inzibati müəssisələri, Azad Zona hüquqi şəxsləri və onların işçiləri, Azad Zona rezidentləri Azad Zonada fəaliyyətlərinə aid olan bütün vergilərdən azaddırlar. Azad Zonaya idxal edilən mallara, işlərə, xidmətlərə görə gömrük rüsumları və vergilər ödənilmir.

Azad Zona səlahiyyətli qurumu aşağıdakılardan bir və ya bir neçəsinin yaradılmasını təmin edir:

- Arbitraj mərkəzi;
- mübahisələrin digər həlli qurumu;

Beləliklə, Azərbaycan bu sahədə də bir sıra hüquqi və iqtisadi islahatlar həyata keçirmişdir və həyata keçirməyə davam edir.

## NƏTİCƏ

Bu gün tam əminliklə deyə bilərəm ki, son dövrlədə Azərbaycan bütün sahələrdə əsaslı dəyişikliklər aparmışdır ki, bu da öz müsbət nəticəsini iqtisadi stimullaşmada görür. Bu yazıda beynəlxalq investisiyanın əhəmiyyəti, onun təsir dairələri, formaları, Azərbaycanda həyata keçirilən hüquqi islahatlar, xarici investorların hüquq və vəzifələri, Azərbaycanın beynəl xalq investisya münasibətlərində mövqeyi, xüsusi iqtisadi zona və digər məsələlər barədə danışıldı. Göründüyü kimi, daim inkişaf edən Azərbaycan xarici investisiya mühitinin yaradılması məqsədilə durmadan təqdirəlayiq tədbirlər həyata keçirir. Son olaraq onu da qeyd etmək istərdim ki, bu sahədə beynəlxalq kommersiya arbitrajının inkişaf etdirilməsi, sahibkarlara mübahisələrin həlli üçün arbitraj institutunun stimullaşdırılması sahəsində müvafiq tədbirlərin həyata keçirilməsi də vacibdir, çünki, bu institut nəinki xarici investorlar, həmçinin yerli sahibkarlar üçün mübahisələrin rahat, sadə və şəffaf alternativ həlli yolunu vəd edir.

Bütün bunlarla yanaşı, dövlət investisiya fəaliyyətinin tənzimlənməsində müxtəlif metodlardan (iqtisadi mexanizmlərdən) daha fəal istifadə etməlidir. Bu mexanizmlərə əsasən aşağıdakıları aid etmək olar: vergitutma subyektlərinin və obyektlərinin, vergi dərəcələrinin və güzəştlərinin fərqləndirildiyi vergi sisteminin tətbiqi; əsas fondların sürətli amortizasiyası yolu ilə kredit və amortizasiya siyasətinin həyata keçirilməsi və digər iqtisadi mexanizmlər.

Həmçinin, dövlət investisiya sahəsində aşağıdakı istiqamətlərdə öz fəaliyyətini təşkil etməkdə davam etməlidir:

- korporativ idarəetmənin təkmilləşdirilməsinə;
- mülkiyyətin bütün növlərinin daha səmərəli hüquqi alətlərdən istifadə edərək qorunmasına;
- bütün investorlar üçün daha əlverişli azad rəqabət mühitinin yaradılmasına;
- investisiya fəaliyyətinin hüquqi-normativ bazasının daha da təkmilləşdirilməsinə;
- investisiya qoyuluşunun daha səmərəli təşkili məqsədilə müəssisələr və investisiya obyektləri haqqında investorların məlumatlandırılması sisteminin yaxşılaşdırılmasına;
- kapitalın investisiyalara səmərəli transformasiyasını təmin edilməsinə dəstək olunması;
- biznesin informasiya, xüsusilə elektron informasiya təminatının yaxşılaşdırılmasına, mühasibat uçotunun və statistikanın, hüquqi mübahisələrin həlli üsullarının beynəlxalq standartlara uyğunlaşdırılmasına yönəldilmiş tədbirlərin həyata keçirilməsi;

**<u>Ədəbiyyat Siyahısı</u>**


- Energy Charter Treaty (ECT) April 1998, website on https://www.energycharter.org
- International Centre for Settlement of Investment Disputes (ICSID), website on https://icsid.worldbank.org
- UNCITRAL Arbitration Rule, website on https://uncitral.un.org/en/texts/arbitration/contractualtexts/arbitration
- David R Aven v Costa Rica: The Confluence of Corporations, Public International Law and International Investment Law, ICSID Review - Foreign Investment Law Journal, published on 2 August 2020
- International Investment Law, Text, Cases and Materials, 3rd edition, Krista Nadakavukaren Schefer, Vice Director of the Legal Division, Swiss Institute of Comparative Law, Lausanne, Switzerland, published in 2020
- S.Z. İsayev “İnvestisaya fəaliyyətinin hüquqi tənzimlənməsi” Dərs vəsaiti. Bakı. 2010
- Məmmədov İ.S. Azərbaycan sənayesində investisiya fəaliyyəti və onun təkmilləşdirilməsi.Bakı 2005
- Əliyev A. L . Azərbaycan sənayesində xarici və daxili investisiyalardan səmərəli istifadə problemləri.Bakı 2004
- “İnvestisiya fəaliyyəti haqqında” Azərbaycan Respublikasının 13 Yanvar 1995-ci il qanunu
- “Xarici investisiyanın qorunması haqqında” Azərbaycan Respublikasının 15 Yanvar 1992-ci il qanunu
- “Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında” Azərbaycan Respublikasının 1 Noyabr 2015-ci il qanunu
- “Xüsusi iqtisadi zona” haqqında Azərbaycan Respublikasının 14 Aprel 2009-cu il tarixli Azərbaycan Respublikasının qanunu

- Azərbaycan Respublikası Prezidentinin “Sahibkarlıq fəaliyyətinin xüsusi razılıq (lisenziya) tələb olunan növlərinin sayının azaldılması, xüsusi razılıq (lisenziya) verilməsi prosedurlarının sadələşdirilməsi və şəffaflığının təmin edilməsi haqqında” 19 oktyabr 2015-ci il tarixli 650 nömrəli Fərmanı
- Azərbaycan Respublikası Prezidentinin “Lisenziyalaşdırma sahəsində bəzi tədbirlər haqqında” 21 dekabr 2015-ci il tarixli 713 nömrəli Fərmanı
- Azərbaycan Respublikası Prezidentinin “İnvestisiyaların təşviqi ilə bağlı əlavə tədbirlər” haqqında 2016-cı il 18 yanvar tarixli 745 nömrəli Fərmanı
- Azərbaycan Respublikası Prezidentinin “Gömrük tarifi haqqında” Azərbaycan Res publikasının Qanununda 2016-cı il 19 yanvar tarixində edilmiş dəyişiklik haqqında Fərmanı
- Azərbaycan Respublikası Prezidentinin “Qeyri-neft ixracının təşviqi ilə bağlı əlavə tədbirlər haqqında” 1 mart 2016-cı il tarixli 811 nömrəli Fərmanı
- Azərbaycan Respublikası Prezidentinin “Gömrük sistemində islahatların davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında” 4 mart 2016-cı il tarixli 1853 nömrəli Sərəncamı
- Azərbaycan Respublikasının Prezidentinin “İnzibati və Kommersiya məhkəmələrinin təşkili və hakimlər” haqqında qanuna dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının 2019-cu il 19 İyul tarixli 1632 VQD nömrəli Qanunun tətbiqi haqqında Sərəncamı
- Azərbaycan Respublikasının Prezidentinin “Ələt azad iqtisadi zonasının yaradılması” haqqında 22 May 2020-ci il tarixində Fərmanı
- Azərbaycan Respublikası Nazirlər Kabinetin 8 sentyabr 2014-cü il tarixli 300 nömrəli Qərarı

# Kommersiya sirrinizi necə qorumalı



ƏMİRASLAN YUSİFOV

*Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü, vəkil,*

Şirkətinizin gəlirinin artırılması məqsədiylə yeni tərtib etdiyiniz marketinq planı əməkdaşınız tərəfindən rəqib şirkətə sızdırılmış və bununla da potensial müştərilərinizi itirmiş olmuşsunuz. Çünki tətbiq etmək istədiyiniz yeni marketinq planı yeni müştəriləri sizin şirkətin cəlb edəcəyi yerdə, rəqib şirkət bu planı öyrənib, sizdən öncə tətbiq etmişdir. Bu hal tanış gəlir?

Bu kimi hallardan qorunmaq üçün şirkətiniz hansı qabaqlıyıcı tədbirləri görməlidir? Bu suala cavab vermək üçün gəlin aşağıdakı məlumatlarla tanış olaq.

Hər bir kommersiya məqsədli hüquqi şəxs yaradılarkən məqsədi gəlir əldə etmək olur. Gəlir əldə etmək üçün xüsusi ilə də hazırki 4-cü sənayə inqilabı dövründə yenilikçi olmaq, bir sözlə zəmanəyə ayaq uydurmaq lazım gəlir. Bu zaman gəlir əldə etmək üçün öncədən planlaşdırdığınız fəaliyyət olur. Bu fəaliyyət planı kommersiya dəyəri daşıdığından, sizin bu cür məlumatlarınız kommersiya sirri hesab edilə bilər və siz bu cür məlumatları qorumağınız, başqaları tərəfindən əldə edilə bilməməsi üçün əməli addımlar atmalısınız. Azərbaycan Respublikasında kommersiya sirri ilə bağlı bir sıra hüquqi aktlar mövcuddur. Bunlardan ən əsası "Kommersiya sirri haqqında" Azərbaycan Respublikasının qanunudur. Həmçinin bu qanunun tələblərinin pozulmasıyla bağlı həm mülki, həm inzibati həm də cinayət məsuliyyəti yaranması ilə bağlı müvafiq qanunvericlik aktlarında maddələr müəyyən edilmişdir. Tövsiyyə olunur ki, bu hüquqi aktlara əsaslanaraq, kommersiya sirri sayıla biləcək məlumatlarınızın qorunması üçün şirkətinizdə "kommersiya sirrinin qorunması rejimi" tətbiq edəsiniz. Bu rejimi tətbiq etmək aşağıdakı addımların atılması zəruridir:

1. Kommersiya sirri rejimi barədə əsasnamə və ya siyasət (prosedur, qayda, təlimat vəs. adlandırıla bilər) sənədi tərtib etmək;
2. Kommersiya sirri sayıla biləcək məlumatların siyahısını tərtib etmək. Bu siyahıdakı məlumatlar, "Kommersiya sirri haqqında" qanunun 3-cü maddəsində qeyd edilən meyarlara uyğun olmalıdır. Meyarlar bunlardır: (i) kommersiya dəyərinə malik olması (başqa şəxslərə məlum olmadığına görə fəaliyyət sahəsində üstünlük qazanmaq və mənfəət əldə etmək ba xımından əhəmiyyətlidir, digər şəxslərə bütövlükdə, yaxud hissələrlə satıla, bağışlanıla, müqavilə əsasında, yaxud varislik qaydasında verilə bilər və s.); (ii) məlumatın məxfiliyinin qorunması məqsədilə sahibi tərəfindən hüquqi, təşkilati, texniki və digər tədbirlərin həyata keçirilməsi; (iii) bu məlumatların sərbəst əldə olunmasının qanuni əsaslarla məhdudlaşdırılması;
3. Həmin siyahını şirkətin əməkdaşları ilə tanış edib, tanış olması barədə qeyd aparmaq;
4. Kommersiya sirri qorunması barədə şirkət əməkdaşları ilə bağlanmış əmək müqaviləsində müvafiq şərtləri əlavə etmək və ya ayrıca razılaşma imzalamaq; (Əmək Məcəlləsinin 10-cu maddəsinə əsasən, işçinin əsas vəzifələrində biri işəgötürənin kommersiya sirrini müəyyən olunmuş qaydada və şərtlərlə gizli saxlamalıdır)
5. Əgər şirkətin kollektiv müqaviləsi varsa və kommersiya sirrinin yayılmasının qar şısını almaq məqsədiylə əlavə olaraq cərimə müəyyən etmək etmək istəyirsə, bu barədə kollektiv müqaviləyə müvafiq şərt əlavə edilə bilər. Əlavə olaraq, bildirək ki, kommersiya sirrinin pozulması kollektiv müqavilədə cərimə şərti olmasa belə, pozuntu nəticəsində şirkətə dəymiş ziyanı Əmək Məcəlləsinin 199.1.e maddəsinə əsasən işçidən tələb edə bilər. Qeyd etdyimiz cərimə kommersiya sirri rejiminin möhkəmləndirilməsinə xidmət edir.
6. Öz əməkdaşlarınızdan əlavə digər şirkət tərəfindən də əməkdaşlığınızdan yaranan məlumatların qorunması üçün həmin şirkətlə əməkdaşlığınızın rəsmiləşdiyi müqaviləyə müvafiq şərtlər əlavə edə və ya ayrıca məlumatların qorunmasına dair müqavilə bağlaya bilərsiniz.

Yuxarıda yazdıqlarımız kommersiya sirrinin qorunması üçün qabaqlayıcı tədbirlərdir. Hər bir hüquqi pozuntunun qanunvericilikdə nəzərdə tutulmuş məsuliyyəti olur, əsas məsələ həmin pozuntunun baş verməməsi üçün sizin gördüyünüz qabaqlayıcı tədbirlərdir.

Necə deyərlər, "şərti şumda kəsin ki, xırmanda yabalayaşmayasınız".

# İnsan Hüquqları” konsepsiyası pandemiyaya qarşı mübarizə dövründə



*Amil Cəfərquliyev*

*Lund Universiteti Avropa Biznes Hüququ üzrə magistr*

Mövcud olduğu tarix boyu bəşəriyyət çoxsaylı pandemiyalar və yoluxucu xəstəliklərlə üzləşmiş, bunlar milyonlarla insan həyatına son qoymuşdur. Lakin son otuz il ərzində dünyada virusların yayılması əvvəlki dövrlərlə müqayisədə daha tez-tez baş verir və yoluxucu xəstəliklərin epidemiyası adi hala çevrilir. Yeni pandemiyaların meydana gəlməsi bu gün bütün bəşəriyyət üçün ciddi problem hesab edilir. Bunun ən son nümunəsi yeni növ koronavirus və ya "COVID-19" 2019-cu ildən indiyə kimi davam edir. Bu cür hallarda aktual olan məsələlərdən biri də, təbii ki, insan hüquqları və onların məhdudlaşdırılmasıdır. Məhz bu yazının məqsədi də pandemiyaya qarşı mübarizədə "insan hüquqları" konseptini təhlil etmək və insan hüquqlarının məhdudlaşdırılmasının hüquqi əsaslarını müəyyənləşdirmək və bu istiqamətdəki problemləri ortaya çıxarmaqdır. Bunun üçün yazıda müxtəlif xarici dövlətlərin, beynəlxalq təşkilatların praktikası araşdırılmış, həmçinin xarici doktrinadan onlarla müəllifin əsərlərinə istinad edilərək məsələ ilə bağlı təkliflər irəli sürülmüşdür. Alman sosioloqu Ulrix Beck sivilizasiya risklərinin qloballaşmasından danışaraq müasirləşmə nəticəsində mövcud cəmiyyətin sosial strukturunun prosesinin "mütərəqqi və inkişaf etməkdə olan" dinamikası ilə transformasiya edilmiş "risk cəmiyyəti" adlandırılan yeni tipologiyaya malik olduğunu düşünür. Onun sözlərinə görə, cəmiyyətin müəyyənləşdirdiyi bu tipologiya müasirliyin davamlılığında yeni sosial forma yaradıb. Ulrix Beckə görə, müasirliyə doğru inkişaf edən bu yeni sosial tipologiya "risk" anlayışını müəyyən etmişdir. Qloballaşma ilə bağlı bu risklər bütün insanları ayırd etmədən təhdid edir. Beck bu reallığı belə formalaşdırıb: yoxsulluq iyerarxikdir, çirklənmiş hava - demokratik təbəqədir. [23, s. 49]. Mütəfəkkirə görə hazırda dünyada baş verən qlobal təhlükələr və onların təbiəti bir növ cəmiyyət üçün "bumeranqın sosial effekti" hesab edilməlidir. Belə ki, onun sözlərinə görə, "hətta varlı və hakim şəxslər risk qarşısında sığortalanmış hesab oluna bilməzlər." [23, s. 50] Nəticə olaraq müasir tibb və səhiyyə sisteminin inkişafına baxmayaraq epidemiyalar, pandemiyalar və digər fövqəl təbii hadisələr və onların dağıdıcı nəticələri müasirləşmə dövründə də daha mürəkkəbləşmiş şəkildə sərhədsiz risk faktoru kimi bütün bəşəriyyəti təhdid edir. Təbii ki, bu cür halların "insan hüquqları" konsepsiyasına təsiri və dövlətlərin bu kimi qabaqcadan görünə bilməyən hallara məruz qaldıqdan sonra yeni "insan hüquqları" siyasəti formalaşdırmaları da istisna təşkil etmir.

Pandemiya kimi fövqəladə halların insan hüquqlarına qaçılmaz şəkildə təsirlərinin olması heç kəsə sirr deyil. Xüsusilə, bu kimi hallarda insan və vətəndaşların əsas hüquq və azadlıqları diqqət mərkəzində olmalı və heç vaxt ikinci plana atılmamalıdır. Araşdırma zamanı təhlil edilmiş ədəbiyyatlara, doktrinadakı müxtəlif müəlliflərin fikirlərinə və ayrı-ayrı xarici dövlətlərin praktikasına əsasən qeyd edilməlidir ki, pandemiya dövründə əsas diqqət mərkəzində olan və məhkəmə mübahisələrinin yaranma mənbəyi kimi daha çox aşağıdakı hüquq və azadlıqlar çıxış edir:
Sağlamlıq hüququ və tibbi xidmətlərə çatımlılıq;

- Hərəkət və səyahət azadlığı;
- Şəxsi toxunulmazlıq və azadlıq hüququ;
- Fikir və məlumat azadlığı;
- Digər iqtisadi və sosial hüquqların təmini.

Bu baxımdan əhalinin bütün təbəqələrinin: həm xəstəliyə yoluxmuş, həm də digər şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi və qorunması üçün bütün zəruri tədbirlər həyata keçirilməlidir. [9, s. 50]. Ələxsus, bu kimi hallar zamanı fərdlər arası ayrı-seçkiliyə yol verilməməlidir.

Müxtəlif ədəbiyyatların və fərqli xarici dövlətlərin pandemiyaya qarşı mübarizə strategiyalarının təhlili onu göstərir ki, pandemiya dövründə daha çox həssas olan qruplar aşağıdakılardır:

- Evsiz və yoxsul şəxslər;
- Həbsxana və digər cəza çəkmə müəssisələrində olan məhkumlar;
- Xroniki xəstəliklərdən əziyyət çəkən şəxslər;
- Yaşı 50-55-dən, bəzən 60-65-dən yuxarı olan və fiziki qüsurları olan şəxslər.

İnsan hüquqları siyasətinin formalaşdırılmasında beynəlxalq təşkilatların rolu.

Birləşmiş Millətlər Təşkilatının (bundan sonra BMT) "Covid 19 və İnsan Hüquqları" adlı siyasi sənədində də pandemiyaya qarşı mübarizədə insan hüquqlarının ilkinliyi bir daha bəyan edilmişdir. Bu sənəddə mövcud pandemiya vəziyyətində üç əsas insan və vətəndaş hüquqlarının prioritetliyi müəyyən edilmişdir: "Yaşamaq hüququ və onun qorunması" (dövlətlərin həm pozitiv, həm də neqativ öhdəlikləri), "Sağlamlıq hüququ və tibbi xidmətlərə əlaçatanlıq" (dövlətlərin həm pozitiv, həm də neqativ öhdəlikləri), "hərəkət azadlığı və onun məhdudlaşdırılmasının legitimliyi". Həmin sənədin preampulasına əsasən, özlüyündə virusa nəzarət etmək və insanların yaşamaq hüququnun qorunması virusun yayılması zincirinin qırılması hesab edilə bilər. Burada əsas məsələ insanların bir-birinə olan təması və ünsiyyətini limitləndirilməsi və ba lanslaşdırılmasıdır. Sənədə görə, dövlətlər tərəfindən pandemiyaya qarşı atılan ilkin addımlar ictimai sağlamlığın təmin eidlməsi, karantin rejimlərinin tətbiqi və hərəkət azadlığının məhdudlaşdırılması olmalıdır. Həmçinin o da qeyd edilmişdir ki, dövlətlər sağlamlıq hüququnun təmini baxımdan sosial-iqtisadi vəziyyəti qənaətbəxş olmayan şəxslərin də tibbi xidmətlərə çıxışını təmin etməlidir. Eyni zamanda beynəlxalq və milli təhlükəsizliyin, habelə, təcili tibbi yardımın göstərilməsinin təmin edilməsi məqsədilə hüquqlara müdaxilədə "proporsionallıq" və "ayrı-seçkilik olmadan" prinsiplərinə uyğun olaraq dövlətlərə hərəkət azadlığına müdaxi ləyə icazə verilmişdir.

Beynəlxalq Amnistiya Təşkilatı isə "ilk olaraq insan" prinsipini rəhbər tutaraq dövlətlərin pandemiyaya qarşı mübarizə strategiyalarının formalaşdırılması məqsədi ilə bir sıra tövsiyələrlə çıxış etmişdir. Pandemiyadan əziyyət çəkən və ya virusa yoluxmuş istənilən şəxslərin əsas hüquqlarının qorunması, azlıqlara və ayrı-ayrı icmalara qarşı ayrı-seçkiliyin ləğvinin vacibliyi təşkilat tərəfindən bir daha qeyd edilmişdir. Ona görə də, dövlətdaxili hüququn tətbiqi zamanı hər hansı potensial pozuntu və ya təzyiq təşkil edə biləcək hərəkətlərdən qaçınılmalıdır. Pandemiyaya qarşı mübarizənin təşkilində insan və vətəndaşların hüquq və azadlıqlarına edilən istənilən müdaxilədə "proporsionallığın" və "müddətliliyin" gözlənilməsi müəyyən edilmişdir. Həmçinin, "hesabatlılıq" və "aşkarlıq" müddəalarının təmini baxımından məhdu diyyətləri tətbiq edən istənilən qurumun uyğun, yaxud ağlabatan müddət ərzində məhdudiyyətlərin əhatəsini təşkil edən hədəf kütləsinin qabaqcadan məlumatlandırılmasının məqsədə uyğunluğu müəyyən edilmişdir. Eyni zamanda təşkilat "beynəlxalq əməkdaşlıq" və "qarşılıqlı yardım" prinsiplərindən çıxış edərək pandemiyanın yayılması nəticəsində ağır şəkildə əziyyət çəkmiş dövlətlərə yardım göstərilməsini effektiv hesab etmişdir. Bununla da təşkilat insan hüquqlarının qorunması və təmin edilməsi ilə yanaşı olaraq pandemiyanın səbəb olduğu zərər və itkilərin bərpası və minimuma endirilməsinin də priroritetliyini vurğulamışdır. Əlavə olaraq təşkilat tərəfindən gələcəyə baxış perspektivindən çıxış edilərək istər pandemiya davam etdiyi dövrdə, istərsə də post-pandemiya dövründə atılacaq bütün addımlar zamanı "ədalətlilik", "dayanıqlı və davamlı iqtisadi inkişafın təmini", "sülhün və təhlükəsizliyinin təmini və qorunmasının" vacibliyi qeyd edilmişdir.



Hüquqda elə bir rejim mövcuddur ki, ictimai həyatı tənzimləyən münasibətlər kəskin şəkildə dəyişir. Dövlətin vətəndaş qarşısında səlahiyyətləri artdığı kimi, vətəndaşın da hüquqları azalır və məhdudlaşır. Bu qeyri-adi bir rejim olduğuna görə, buna fövqəladə hallar

rejimləri deyilir. Fövqəladə rejim istisna haldır. Bu rejim ictimai həyatda bir çox məhdudiyyətə səbəb ola biləcəyi üçün, onun tətbiqi (başladılması) ağır şərtlərə və təminatına tabedir. Dünya dövlətlərinin praktikasının təhlilinə əsasən, insan hüquq və azadlıqlarının təmini baxımdan öhdəliklərdən çəkilməyə imkan verən istisna halların mövcudluğu zamanı dövlətlərin öz öhdəliklərindən geri çəkilməsinin mövcudluğu şərtləndirən üç əsas sistem mövcuddur: Birincisi odur ki, bəzi dövlətlərdə bu cür geri çəkilməyə ümumiyyətlə yol verilmir. İkinci tip dövlətlərdə belə hallarda geri çəkilmənin əsası konstitusiyalarda öz əksini tapır. Üçüncü tip dövlətlərdə isə, bu kimi halların ayrı-ayrı növlərində geri çəkilmənin həyata keçirilməsi üçün müxtəlif qanunlar vardır. [7, s. 32]

Müasir cəmiyyətlər, fövqəladə rejimlərdə hüquq və azadlıqların məhdudlaşdırıla biləcə yini qəbul edirlər. 1995-ci il Azərbaycan Respublikası Konstitusiyasının 71-ci maddəsində: Müharibə, hərbi vəziyyət və fövqəladə vəziyyət, habelə, səfərbərlik elan edilərkən insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsi Azərbaycan Respublikasının beynəlxalq öhdəliklərini nəzərə almaq şərti ilə qismən və müvəqqəti məhdudlaşdırıla bilər. Həyata keçirilməsi məhdudlaşdırılan hüquq və azadlıqlar haqqında əhaliyə qabaqcadan məlumat verilir. 71-ci maddənin göstərdiyi əsaslar bunlardır: Müharibə vəziyyəti, hərbi vəziy yət, fövqəladə hal və səfərbərlik zamanında; Beynəlxalq öhdəlikləri nəzərə alaraq; Qismən və müvəqqəti məhdudlaşdırma. [64]

Müharibə, hərbi vəziyyət, fövqəladə hal və səfərbərliyin elan edilməsi, idarənin özbaşınalığına qalmayıb, nə zaman elan edilə biləcəyi qanunla məhdudlaşdırılıb və çox vaxt qanunverici orqanın təminatına bağlıdır, yəni parlament belə qərarları təsdiq etməlidir. Digər tərəfdən beynəlxalq öhdəliklərin nəzərə alınması onu tələb edir ki, dövlət tərəf olduğu insan hüquqları sənədlərinə uyğun davransın.

İnsan hüquqları rejimini müəyyən edən bir sıra beynəlxalq sənədlərdə də haqqında danışdığımız fövqəladə vəziyyətlər zamanı dövlətlərin insan və vətəndaşların hüquq və azad lıqlarının təmini baxımından öhdəliklərindən bəzi istisnalarla və müəyyən əsasların mövcudluğu ilə geri çəkilə bilməsini (derogation) müəyyən etmişdir. Bunların ən əsası kimi Birləşmiş Millətlər Təşkilatının "Müki və Siyasi Hüquqlar haqqında Pakt"ının 4.1-ci maddəsi hesab olunmalıdır. [25] Həmin maddənin məzmununa əsasən: "Dövlət daxilində əhalinin həyatını təhlükə altına salan fövqəladə vəziyyət zamanı və belə halın mövcudluğu rəsmən elan edilərkən, hazırkı Paktda iştirak edən dövlətlər hazırkı Pakt üzrə öz öhdəliklərindən yalnız həmin vəziy yətin tələb etdiyi ölçüdə geri çəkilmək üçün tədbirlər görə bilərlər, bu şərtlə ki, belə tədbirlər onların beynəlxalq hüquq üzrə digər öhdəliklərinə zidd olmasın və insanın yalnız irqi, dərisinin rəngi, cinsi, dili, dini və ya sosial mənsubiyyəti ilə bağlı əlamətləri əsasında ayrı-seçkiliyə yol verilməsinə gətirib çıxarmasın".

Həmçinin nə olursa-olsun məhdudlaşırıla bilməyən hüquqlar da göstərilib. Bunlar: ölüm cəzasının ləğvi gecikdirilə bilməz; 18 yaşdan kiçik olanlara ölüm cəzası tətbiq edilə bilməz; işgəncə qadağası, köləlik və qul ticarəti qadağası; müqavilə öhdəliyinə zidd davranmağa görə (mülki hüquq pozuntu-suna görə) həbs qadağası; cinayət və cəzada qanunçuluq prinsipi; fikir, vicdan və din, din seçmə və ibadət etmə azadlığı; valideynlərin uşaqlarının dini, əxlaqi və təhsilini seçmə hüququdur. Yuxarıda sayılan hüquqlar heç vaxt, müvəqqəti belə olsa, məhdudlaşdırıla bilməz. Digər tərəfdən isə məhdudlaşdırılan hüquqlar haqqında tərəf dövlət, Konvensiyanın hansı müddəalarını və hansı səbəblə məhdudlaşdırdığını, BMT Baş Katibliyinə dərhal məlumat verməlidir. Eyni proseduraya görə, məhdudlaşdırma tədbirləri bitdikdə, müvafiq bildiriş verilir. Bundan əlavə sırf fövqəladə vəziyyətlər zamanı dövlətlərin insan və vətəndaşların hüquq və azadlıqlarının təmini baxımından öhdəliklərindən geri çəkilə bilməsini müəyyən edən 1984 ta rixli "Siracusa Prinsipləri" adlı sənəddə, fövqəladə vəziyyət rejimi ilə əlaqədar insan hüquqlarının

təmini və qorunması ilə bağlı dövlətlərin öhdəliklərindən geri çəkilməsi bir sıra halların mövcudluğu ilə şərtləndirilmişdir. Bu sənədə əsasən ilk hal “əhalinin yaşamaq hüququnu təhlükə altına alan təcili vəziyyət”in mövcudluğudur. Siracusa prinsiplərinə görə öz öhdəliklərindən bu əsasla geri çəkilən dövlər belə bir halın mövcudluğunu “dərhal” məhdudlaşdırmaların əhatə etdiyi hədəf kütləsinə ictimai şəkildə bildirməli, başqa sözlə elan etməlidir.

Bundan əlavə sırf fövqəladə vəziyyətlər zamanı dövlətlərin insan və vətəndaşların hüquq və azadlıqlarının təmini baxımından öhdəliklərindən geri çəkilə bilməsini müəyyən edən 1984-ci il tarixli “Siracusa Prinsipləri” adlı sənəddə, fövqəladə vəziyyət rejimi ilə əlaqədar insan hüquqlarının təmini və qorunması ilə bağlı dövlətlərin öhdəliklərindən geri çəkilməsi bir sıra halların mövcudluğu ilə şərtləndirilmişdir. Bu sənədə əsasən ilk hal “əhalinin yaşamaq hüququnu təhlükə altına alan təcili vəziyyət”in mövcudluğudur. Siracusa prinsiplərinə görə öz öhdəliklərindən bu əsasla geri çəkilən dövlər belə bir halın mövcudluğunu “dərhal” məhdudlaşdırmaların əhatə etdiyi hədəf kütləsinə ictimai şəkildə bildirməli, başqa sözlə elan etməlidir. Həmin sənədin dördnücü maddəsinə əsasən öhdəliklərdən geri çəkilməyə əsas verən hallar aradan qalxdıqdan sonra fərdlər bütün hüquq və azadlıqlarını tam həcmdə bir növ “geriyə alırlar”. “Siracusa Prinsipləri”nin müəyyən etdiyi digər əsas şərtlərdən biri də geri çəkilmənin “zəruriliyi” dir (“necessity”). Bu prinsipin tələbinə əsasən dövlətlərin öz öhdəliklərindən geri çəkilməsinin ciddiyyəti, zamanı, demoqrafik və coğrafi əhatə dairəsi yanlız əhalinin yaşamaq hüququna ciddi təhlükə yaradan halı ələ almaq üçün zəruri olmalı, həmçinin təbiəti və həcmi etibarilə proporsional olmalıdır. [26]

1953-cü il 3 sentyabr tarixli “İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında” Avropa Konvensiyasının (bundan sonra Konvensiya) 15-ci maddəsinin birinci bəndinə əsasən: “Müharibə və ya millətin həyatını təhdid edən digər fövqəladə hallar zamanı Razılığa gələn Yüksək Tərəflərdən hər hansı biri onun beynəlxalq hüquqa müvafiq digər öhdəliklərinə zidd olmamaq şərti ilə, yalnız vəziyyətin fövqəladəliyinin şərtləndirə biləcəyi səviyyədə bu Konvensiya üzrə öhdəliklərinə uyğun olmayan tədbirlər görə bilər”. Həmin maddənin ikinci bəndi isə, Konvensiyada təsbit edilmiş hüquqların mütləq hüquqlar, yəni 15.1-ci maddənin təsir qüvvəsindən kənar olan məhdudlaşdırıla bilinməyən hüquqlar sırasına aid edir. Bu hüquqlar aşağıdakılardır: İşgəncənin qadağan olunması (3-cü maddə); Köləliyin və məcburi əməyin qadağan olunması (4-cü maddənin birinci bəndi); Qanunla nəzərdə tutulmamış cəzanın yolverilməzliyi (7-ci maddə). 15-ci maddənin 3-cü bəndinə əsasən: “bu geri çəkilmə hüququndan istifadə edən Razılığa gələn Yüksək Tərəf gördüyü tədbirlər və onların səbəbləri haqqında Avropa Şurasının Baş katibini tam məlumatlandırmalıdır. O, həmçinin belə tədbirlərin dayandırılması və Konvensiyanın müddəalarının yenidən tam həyata keçirilməyə başlanması haqqında Avropa Şurasının Baş katibinə məlumat verməlidir”. [27]

Lakin Konvensiya və onun protokollarında sadalanan digər hüquqlar mütləq hüquqlar olmayıb məhdudlaşdırıla bilən qəbildən hesab olunurlar. Məsələn: “azadlıq və şəxsi toxunulmazlıq hüququ” (5-ci maddə), “şəxsi həyata və ailə həyatına hörmət hüququ” (8-ci maddə) və s. Bu qəbildən olan hüquqlara müdaxilənin edilməsi üçün 15-ci maddədən əlavə olaraq həmin hüquqları özündə ehtiva edən maddələrdə məhdudlşadırma bəndləri (derogation clause) yer alır. Məsələn 8-ci maddənin 2-ci bəndinə əsasən dövlət yanlız aşağıdakı halların kompleks şəkildə mövcudluğu zamanı “şəxsi həyata və ailə həyatına hörmət hüququ”na müdaxilə edə bilər: “Milli təhlükəsizlik, ictimai asayiş və ölkənin iqtisadi rifah maraqları naminə, iğtişaş və ya cinayətin qarşısını almaq üçün, sağlamlığı, yaxud mənəviyyatı qorumaq üçün və ya digər şəxslərin hüquq və azadlıqlarını müdafiə etmək üçün qanunla nəzərdə tutulmuş və demokratik cəmiyyətdə zəruri olan hallar istisna olmaqla, bu hüququn həyata keçirilməsinə dövlət hakimiyyəti orqanları tərəfindən müdaxiləyə yol verilmir”.

Beləliklə, bu qəbildən olan hüquqlara edilmiş müdaxilənin pozuntu hesab edilməməsi

üçün aşağıdakı hallar kompleks şəkildə mövcud olmalıdır: Müdaxilənin əsaslı-qanuni olmalıdır; Müdaxilə legitim olmalıdır; Müdaxilə zəruri olmalıdır. Müdaxilənin əsaslılığı məsələsində AİHM qanunvericilik normasının olub-olmadığı müəyyənləşdirilir. Əgər müdaxilə qanunla nəzərdə tutulubsa, pozuntu tanınmır (hərçənd ki, həmin hərəkət araşdırmanın sonrakı mərhələsində zəruri və ya mütənasib hesab edilməyə bilər). Əgər müdaxilə qanunla nəzərdə tutulmayıbsa, o halda iddia edilən məhdudiyyət Konvensiyanın pozuntusu hesab edilir və bundan sonra AİHM-in işi dərindən araşdırmasına ehtiyac qalmır. Bu şərt məhdudlaşdırıla bilən bütün hüquqlara şamil olunur, baxmayaraq ki, 9-11-ci maddələrin mətninin ingilis versiyasında «qanunla nəzərdə tutulmuş» ifadəsi fransız versiyasındakı ifadədən fərqlənir. [11, s. 77]. Bununla belə, Komissiya və AİHM bu fərqin hər hansı konkret əhəmiyyət daşıdığını həmişə təkzib ediblər və hər iki ifadənin eyni mənada işləndiyini bildiriblər, çünki fransızca «prévue par la loi» ifadəsi hər hansı fərqli mənanı bildirmir. [16, s. 98]. Strasburq Məhkəməsi müdaxilənin qanunla nəzərdə tutulub-tutulmadığını müəyyənləşdirmək üçün üç mərhələli qiymətləndirmə aparır. Belə ki, Məhkəmə qiymətləndirməni həyata keçirərkən aşağıdakıları müəyyənləşdirir: milli qanunvericilikdə müdaxiləni nəzərdə tutan norma varmı; onun mətni aydın və dəqiqdirmi; onun məqsədləri nədən ibarətdir? [20, s. 464]

Məhkəmə müdaxilənin qanunla nəzərdə tutulmuş olduğunu müəyyənləşdirdikdən sonra müdaxilənin legitimliyini, yəni qanuni məqsəd daşıyıb-daşımadığını araşdırır. Bu isə özlüyündə nəzərdə tutulmuş müdaxilənin gözlənilən nəticələrə gətirib-gətirməyəcəyi və həmin müda xilənin zəruriliyi məsələsini ortaya çıxarır. Milli hakimiyyət orqanı tərəfindən bu və ya digər tədbirin tətbiqinin zəruriliyinin qiymətləndirilməsini nəzərdə tutan qiymətləndirmə sərbəstliyi doktrinası mütənasiblik prinsipini özündə əks etdirir. Lakin bunlardan birincisi ikinciyə nisbətən daha geniş anlayışdır və müəyyən qiymətləndirici «rəyləri» əks etdirən anlayış olaraq bu və ya digər səviyyədə məhkəmə nəzarətinin mümkünlüyünü özündə ehtiva edir. Nəzarətin səviy yəsi «rəylərin nə dərəcədə ağlabatan olmasından» asılı olaraq fərqlənir [52], belə ki, etiraz edilən qanunun qəbulu üçün milli hakimiyyət orqanı ağlabatan əsas gətiribsə, bu, Məhkəmənin həmin orqanın qərarı ilə razılaşması üçün kifayətdir, lakin milli səviyyədə tədbirin «ciddi dövlət maraqları» naminə görüldüyü iddia edilirsə, Məhkəmənin həyata keçirdiyi nəzarətin səviyyəsi daha yüksək olur və bu halda dövlətin həmin tədbirə haqq qazandırmaq üçün daha «inandırıcı səbəblər» göstərməsi tələb olunur. [50] .Müdaxilə tədbiri barədə qərar qəbul edən orqanın qiy mətləndirmə sərbəstliyinin hüdudlarının genişliyi həm Avropa Məhkəməsindən, həm də milli hakimiyyət orqanlarından asılıdır. Bir çox hallarda qiymətləndirmə sərbəstliyini tətbiq edərkən dövlətlərin ziddiyyətə girən şəxsi və ya ictimai maraqlarla Konvensiya hüquqları arasında ba lansa riayət etmələri tələb olunur. [51]

Epidemik xəstəliklərlə milli miqyasda mübarizə aparmaq üçün ölkə rəhbərliyi tərəfindən görülən tədbirlərin məqsədə uyğunluğu ilə əlaqədar Avropa İnsan Hüquqları Məhkəməsinin (bundan sonra AİHM) 2005-ci il tarixli Enhorn v. İsveç məhkəmə işi bu məsələ barəsində pre sedent formalaşdırmaq yolunda uğurlu bir nümunə olmuşdur. Covid-19 pandemiyası ilə HİV epidemiyası arasında yoluxma riski, yayılma təsiri, ölüm və xəstələnmə nisbəti kimi fərqlər olmasına baxmayaraq, hər ikisi qlobal pandemiya kimi qəbul edilməkdədir. Sözü gedən məhkəmə işində HİV virusuna yoluxmuş şəxs eyni zamanda onu başqasına yoluxdurmuşdur. Müvafiq məhkəmə işində yoluxmuş şəxs planlanmış olan həkim müayinəsinə getmədiyi üçün səhiyyə işçisi İsveçin “1988-ci il 33-cü tarixli Yoluxucu Xəstəliklər Qanununa” uyğun olaraq Rayon İnzibati Məhkəməsinə xəstənin hərəkət azadlığının məhudulaşdırılması və üç ayadək xəstəxanada saxlanılması üçün müraciət etmişdir. Ölkədaxili məhkəmə qərarına əsasən xəstənin təcrid altında saxlama müddəti altı ayda bir uzadılmış və ümumilikdə təcrid müddəti bir il yarım davam etmişdir. Məhkəmə bu qərarını bu cür əsaslandırmışdır ki, xəstəyə tətbiq olunan məcburi təcridetmənin HİV virusunun yayılmasının qarşısını almaq və ictimai mənafeyi qorumaq üçün

yetərli deyil, ona görə də, onun izaloiyasiya müddəti davam etməlidir. [49]

Adı çəkilən mübahisədə, AİHM mahiyyət etibarı ilə alınan tədbirləri ictimai sağlamlığı və təhlükəsizliyi qorumaq olduğunu qəbul etmişdir. Bu vəziyyətdə ərizəçiyə tətbiq olunan "həbs qətimkan tədbiri" ictimai sağlamlığı qanunun tətbiqi çərçivəsində cəmiyyətin digər üzvlərini qorumaq üçün könüllü tədbirlərə riayət etməməsinə görə verilən məhkəmə qərarına əsaslanır. Buradakı məcburi təcrid olunma tədbirinin səbəbi, ərizəçinin cinsi əlaqəyə girərək xəstəliyin yaymasının qarşısını almaq üçün müəyyən edilmişdir. [12, s. 155] Beləliklə, AİHM məcburi təcridetmənin daxili qanunlarda əsası olduğunu qəbul etmişdir. Bununla birlikdə, AİHM Konvensiyanın 5-ci maddəsinin 1-ci bəndinin (e) bəndinə əsasən "yoluxucu xəstəliklər" altında təcridetmənin qanuniliyini müəyyənləşdirmək üçün iki meyar müəyyən etmişdir. Bu meyarlardan birincisi "yoluxucu xəstəliyin yayılmasının ictimai sağlamlıq üçün təhlükəli olub-olmaması ilə bağlıdır". Məhkəmənin təyin etdiyi ikinci meyar, "ictimai maraqların qorunması üçün daha yüngül tədbirlərin yetərli olmadığını nəzərə alaraq, yoluxucu xəstəlik keçirən bir şəxsin tutulmasının, xəstəliyin yayılmasının qarşısını almaq üçün son vasitə olub-olmadığı" məsələsidir. [12, s. 156] Məhkəmə bu meyarlar çərçivəsində pozuntunu tanıyaraq epidemiyalara qarşı qabaqlayıcı mübarizə tədbirlər sistemi müəyyən etmişdir.

Pandemiyalar, epidemiyalar, hərbi və fövqəladə vəziyyətlər dünyanın istənilən ölkəsində ictimai qayda və təhlükəsizliyə qarşı təhdid əmələ gətirdiyindən pandemiyanın aktual ol duğu dövrdən bu yana müxtəlif dövlətlər pandemiyaya qarşı müxtəlif mübarizə strategiyaları seçmişlər. İstənilən halda atılan addımların bir çox insan və vətəndaşların bu və ya digər hüquq və azadlıqlarına müxtəlif cür təsir göstərmişdir. Bu başlıqda ayrı-ayrı dövlətlər tərəfindən pandemiyaya qarşı mübarizə məqsədi ilə qəbul edilən qanunlardan və onların insan hüquq və azadlıqlarına hansı dərəcədə təsir göstərdiyi müzakirə olunacaq.

Araşdırmaya Pandemiyanın dünyaya yayılmasının mənbəyi qismində çıxış edən Çin Xalq Respublikasından başlamaq daha düzgün olar. Pandemiyaya qarşı mübarizədə atılacaq ilkin addımlar, demək olar ki, Çində müəyyənləşdirilmişdir. Məhz ayrı-ayrı əyalətlərdə yaşayan milyonlarla insanının hərəkət azadlığının məhdudlaşdırılması, karantin müddətlərinin tətbiq edilməsi, insanların bu və ya digər açıq məkanlarda toplaşması və girişinin məhdudlaşdırılması kimi tədbirlər ilk dəfə Çində yazılı şəkildə qəbul edilən müxtəlif rəsmi sənədlərlə tətbiq edilmişdir. [31] Kiber məkanda ilkin məhdudiyyətlər isə Argentinada tətbiq edilmişdir. Belə ki, Argentina hökuməti sosial mediya hesablarında əhalinin yanlış və təhrif edilmiş məlumat yaymasının qarşını almaq üçün müxtəlif izləmə və qabaqlayıcı alqoritmlər tətbiq etmişdir. [32]

Avstraliyada 2005-ci il tarixli "Fövqəladə vəziyyətin idarə edilməsi" Qanununa dəyişiklik edilərək virusun daha çox yayıldığı qərbi Avstraliyada hökumətə belə bir icazə verilmişdir ki, pandemiya ilə əlaqədar izoliyasiya edilməli olan şəxslərin cəmiyyətdən təcrid olunmasını təmin etmək üşün evlərə müşahidə cihazları quraşdırılsın. Bu qaydaya əməl etməyəcək şəxs lər üçün 12.000 dollar məbləğində cərimə və ya bir ilə qədər müddətdə azadlıqdan məhrum etmə cəzası müəyyən edilmişdir. [33]

Pandemiya ilə mübarizədə digital-elektronik izləmə və təqib startegiyasını əsas götürən Bəhreyndə "BeAware" (Ayıq olmaq) adlı layihə həyata keçirilmişdir. Özünü evlərində və digər yaşayış sahələrində izoliyasiya etməli olan şəxslərin telefonlarına GPS yerləşdirildiyi üçün bu layihə çərçivəsində onların qollarına telefonlarından 15 metr uzaqlaşacaqları təqdirdə izləmə mərkəzinə siqnallar ötürəcək qolbağlar taxılmışdır. [34]. Oxşar siyasətin həyata keçirildiyi HonKonqda hökumət karantinə alınmış şəxsləri effektiv şəkildə izləyə bilmək üçün onların elektron qolbağ taxması məcburiyyətini tətbiq etmişdir. [37]

Pandemiya dövründə müzakirələrə və tənqidlərə səbəb olan digər tədbirlər İsrail hö küməti tərəfindən tətbiq edilmişdir. Hökumət tərəfindən fərdlərin mobil telefonlarında verilən-

lərin izlənməsi üçün izləmə sistemləri daxil edilmişdir. Hökumət öz mövqeyini onunla əsaslandırmışdır ki, onlar bununla məhkəmə qərarını gözləməyə vaxt sərf etmədən Covid-19 xəstəsi olduğunu gizlədən şəxsləri aşkara çıxarmağa çalışırlar. [41]

Koronavirusa qarşı mübarizə dövründə şəxslərin məlumat əldə etmək azadlığına dair də müxtəlif məhdudiyyətlərin bəzi ölkələr tərəfindən tətbiq edilməsinə də rastlanılmışdır. Milli Müdafiə Qanunu çərçivəsində İordaniya Nazirlər Kabineti (Jordanian Council of Ministers), Covid-19-un yayılmasına səbəb ola biləcək istənilən qəzet, jurnal və ya digər nəşrlərin satışını dayandırmışdır.

Pandemiyaya qarşı mübarizədə digər maraqlı tədbirlər Hindistanda həyata keçirilmişdir. Ölkənin Karnataka əyalətində karantinə alınıb özünü təcrid etməli olan şəxslər üçün belə bir məcburiyyət tətbiq edilmişdir ki, həmin şəxslər evlərində hər bir saatdan bir selfie (öz çəkim) edərək-çəkərək yaşayış yerləinə müvafiq hökumətin təsis etdiyi müxtəlif izləmə mərkəzlərinə göndərməlidirlər. Hökumət həmin şəkillərin göndərilməsi zamanı şəxslərin location (məkan) funksiyasını aktivləşdirməsi məcburiyyətini də tətbiq etidyi üçün bu tədbirin nəticəsində həmin şəxslərin effektiv şəkildə izoliyasiyası ediləcəyinə inanırdı. Həmçinin, ölkənin müxtəlif yerlərinə mərkəzi hakimiyyət tərəfindən Covid-19 xəstələrinin ünvanlarını təsbit etməyə imkan verəcək mobil tətbiq aktivləşdirilmişdir. [39]. Yenə Hindistanda – Maxarashtra əyalətində karantinə alınmalı olan şəxslərin əllərinin damğalanmasına dair strategiya müəyyən edilmişdir. Bu damğalarda (hand stamps) xəstələrin evlərində iki həftə və ya daha artıq müddətdə izoliyasiya edilməli olduğu və onların təcrid müddətləri öz əksini tapmışdır. [40]

İlk koronavirus keysinin 10 mart 2020-ci ildə aşkar edildiyi qardaş Türkiyə Respublikasında isə Koronavirusu Öyrənmə Qurumunun (Koronavirüs Bilim Kurulu) 80 müddəadan ibarət mərkəzi idarəetmə praktikası formalaşdırılmışdır. Bu praktikanın çərçivəsində ölkənin Səhiyyə Nazirliyi “Pandemiyada Karantin Rejminə Nəzarət” (“Pandemi İzolasyon İzleme Projesini”) layihəsini başlatmışdır. Koronavirus xəstələri üçün eyni adlı mobil tətbiqin yüklənilməsi və aktivləşdirilməsi məcburiyyəti tətbiq edilmişdir. (81) Eyni zamanda Türkiyə Respublikasının Daxili İşlər Nazirliyi 65 yaşından qoca şəxslərin, xroniki xəstəliklərdən əziyyət çəkən vətəndaşların, 20 yaşından aşağı olan uşaqların və digər azyaşlıların küçəyə çıxmasına yönəlmiş məhdudiyyətlər tətbiq etmişdir. Eyni zamanda bu qəbildən olan insan və vətəndaşların istənilən ictimai və iaşə obyektlərinə daxil olması və ictimai nəqliyyatdan istifadəsi də məhdudlaşdırılmışdır. [48]

Avropa İttifaqına üzv ölkələrdən olan Macarıstanda isə fövqəladə vəziyyət rejimində dövlət orqanlarının səlahiyyəti məsələsi haqqında olduqca müzakirələrə səbəb olan bir qanuni tənzimləməyə müraciət edilmişdir. Belə ki, “Koronavirusa qarşı müdafiə” qanunu ilə hökumətin fövqəladə vəziyyət səlahiyyətləri qeyri-müəyyən müddətə uzadılmış və bu müddət daxilində baş verə biləcək istənilən seçkilər təxirə salınmışdır. Həmin qanunla hökumətə belə bir səlahiyyət də verilmişdir ki, qüvvədə olan hər hansı bir qanuna bağlı qalmadan fərman və dekretlərlə istənilən aidiyyəti məsələ barəsində tədbirlər həyata keçirsin. Həmçinin həmin qanunla pandemiya haqqında yanlış məlumatlar yayacaq şəxslərin azadlıqdan məhrum etmə cəzası ilə cəzalandırılması müəyyən edilmişdir. [38]

Avropada Pandemiyanın öz təsirlərini ən ciddi şəkildə büruzə verdiyi dövlətlərdən biri olan Fransada Covid-19-a qarşı mübarizədə 2020-290 nömrəli “Fövqəladə vəziyyət” qanunu qəbul edilmişdir. Həmin qanunla Fransa Konstitusiyasının 38-ci maddəsinin tələblərinə uyğun olaraq sağlamlıq hüququnun qorunmasını fövqəladə elan edilmişdir. Həmin qanunla ölkənin Baş Nazirinə insan və vətəndaşların hüquq və azadlıqlarının məhdudlaşdırılması ilə nəticələnəcək istənilən qərar və dekretlərin qəbul edilməsi səlahiyyətli delege edilmişdir. [35]. Avropada Pandemiyaya qarşı mübarizədə olduqca sərt və istiqrarlı mövqe ortaya qoymuş Almaniya Federal Respublikasında isə “Federal Dövlət Başçılarının 15 Aprel Qərarı” qəbul edil

mişdir. Bu qərarla müştərək şəkildə bütün federal dövlətlərdə eyni vaxtda, 12 və 22 aprel tarixlərində insanların yığışmaq hüququnu və bu və ya digər ictimai məkanlarda vaxt keçirmələrini məhdudlaşdıran qərarlar qəbul edilmişdir. [36]

Covid-19-dan olduqca ağır şəkildə əziyyət çəkimş İtaliyada isə "Covid-19-un Epidomoloji Fövqəladə Vəziyyət Rejimini Bildirən və Idarə Edən Təcili Addımlar" paketi qəbul edilmişdir. Səkkiz nömrəli qərara əsasən, Nazirlər Kabinetinin rəhbərinə, İtaliyada Covid-19-un yayılması ilə əlaqədar qırmızı bölgələr elan edilmiş yerlərdə virusun yayılmasının qarşısını almaq və insanların hüquq və azadlıqlarının məhdudlaşdırılmasına birbaşa və ya dolayı yolla təsir edə biləcək istənilən səlahiyyətin həyata keçirilməsi həvalə edilmişdir. qarşısını almaq və insanların hüquq və azadlıqlarının məhdulaşdırılmasına birbaşa və ya dolayı yolla təsir edə biləcək istənilən səlahiyyətin həyata keçirilməsi həvalə edilmişdir. Bütün xidməti və ictimai yerlərdə insanların toplaşması, aşkar edilmiş Covid-19 xəstələri ilə ünsiyyətdə olmuş şəxslərin karantinə alınması qət edilmişdir. [42]

Avropada koronavirusun ən çox itkilərə səbəb olduğu ölkələrdən biri olan İspaniyada isə 463/2020 saylı "Covid-19-un Səbəb Olduğu Sağlamlıq Təhlükəsinin İdarə Etmək üçün Fövqəladə Vəziyyət Rejimini Bildirən" krallıq qərarı dərc edilmişdir. Həmin qərara əsasən, ölkədə ilk dəfə olaraq 15 günlük sərt karatin rejimi elan edilmiş və həyati əhəmiyyət daşıyan (qida və tibbi) sektorlar istisna olmaqla bütün xidməti və ictimai obyektlər fəaliyyətini dayandırmış və ölkədə səhiyyə qurumlarının fəaliyyəti mərkəzləşdirilmişdir. [43]

Pandemiyanın başlanğıcında "kütlə immunteti" strategiyasını əldə rəhbər tutan, lakin sonradan virusun kəskin şəkildə yayılması ilə nəzarəti itirən Böyük Britaniyada koronavirus qanunu qəbul edilmişdir. Əlaqədar qanunla Birləşmiş Krallığın istənilən yerində potensial olaraq yoluxucu hesab edilən fərdlərin aşakar edilməsi və onların təcrid edilməsi üçün yaradılmış xüsusi mərkəzlərə yerləşdirilməsi də daxil olmaqla virusa qarşı mübarizədə bir sıra sərt tədbirlər tətbiq edilmişdir. [44]

Bu pandemiyanın dünyada ən çox itkilərə səbəb olduğu, pandemiya ölkənin səhiyyə sistemini iflasa uğratdığı dünyanın güc mərkəzi hesab edilən Amerika Birləşmiş Ştatlarında da bir sıra tədbirlər tətbiq edilmişdir. Hərəkət azadlığının məhdulaşdırılması və karantin rejiminin tətbiqi kimi ənənəvi tədbirlərlə yanaşı sırf Birləşmiş Ştatlarda tətbiq edilmiş belə bir maraqlı mübarizə tədbirini qeyd etmək olar: New Jersey və Washington DC kimi bi sıra ştatlarda pandemiya müddəti boyunca dövlət arxivi tələbləri (public record requests) və ən son cavab vermə tarixləri (deadline) təxirə salınmışdır. [45]

## NƏTİCƏ:

Mövzu ilə bağlı yazıda qeyd olunmuş bütün müddəaları nəzərə alaraq və tədqiqatın predmeti ilə əlaqədar aparılmış araşdırmanının bütün nəticələrini ümumiləşdirərək pandemiyaya qarşı mübarizənin hüquqi əsaslarının müəyyənləşdirilməsi üçün aşağıdakı müddəalar qeyd edilməlidir:

Pandemiyaya qarşı mübarizə strategiylarının müəyyən edilməsində BMT-nin müəyyən etdiyi "proporsionallıq" və "ayrı-seçkilik olmadan" və Beynəlxalq Amnistiya Təşkilatının müəyyən etdiyi "proporsionallıq", "müddətlilik", "hesabatlılıq" və "aşkarlıq" prinsiplərinin göz lənilməsi və onlara əməl edilməsi;

Pandemiyaya qarşı hüquqi mübarizədə sağlamlıq hüququ və tibbi xidmətlərə çatımlılıq; hərəkət və səyahət azadlığı; şəxsi toxunulmazlıq və azadlıq hüququ; fikir və məlumat azadlığı kimi hüquq və azadlıqların təmin edilməsi və qorunması istiqamətində daha həssas yanaşmanın müəyyən edilməsi vacibdir, çünki bu kimi hüquqlar pandemiya dövründə daha çox diqqət mərkəzindədir və məhkəmə mübahisələrinin yaranma mənbəyi kimi daha çox çıxış edir;

Pandemiyaya qarşı hüquqi mübarizənin təşkilində beynəlxalq təşkilatların tövsiyələrində

də qeyd edildiyi kimi ayrı-seçkiliyin ləğv edilməsi və həssas qruplara aid edilən şəxslərin (evsiz və yoxsul şəxslər; həbsxana və digər cəza çəkmə müəssisələrində olan məhkumlar; xroniki xəstəliklərdən əziyyət çəkən şəxslər; yaşı 55-60-dan yuxarı olan və fiziki qüsurları olan şəxs lər) hüquqlarının təmin edilməsinin diqqət mərkəzindən kənarda qalmaması;

Digər bir yandan pandemiyaya qarşı mübarizə prosesində insan hüquqlarının məhdudlaşdırılması istiqamətində aşağıdakı müddəaların qeyd edilməsi araşdırmanın məntiqi yekunu üçün məqsədə uyğun hesab edilir:

"Müki və Siyasi Hüquqlar haqqında Pakt"dan irəli gələn öhdəliklərin pozulmaması üçün BMT-nin insan hüquqlarırnın məhdudlaşdırılmasının əsaslarını müəyyən edən 1984 tarixli "Siracusa Prinsipləri" adlı sənədində öz əksini tapmış iki əsas şərtin gözlənilməsi: "əhalinin yaşamaq hüququnu təhlükə altına alan təcili vəziyyət"in mövcudluğu; geri çəkilmənin yalnız buna əsas verən "zəruri hal" ("necessity") olduqda mümkün olması;

"İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyasından irəli gələn öhdəliklərə əməl edilməsi üçün insan hüquqlarının məhdudlaşdırılması halında aşağıdakı meyarların kompleks şəkildə mövcudluğunun gözlənilməsi: Müdaxilənin əsaslılığı-qanuniliyi; Müdaxilənin legitimliyi; Müdaxilənin zəruriliyi;

Yoluxucu xəstəliklərin yayılmasının qarşının alınması məqsədi ilə tətbiq edilən karantin rejimlərinin və digər özünü təcrid tədbirlərinin insan hüquqlarının pozuntusuna səbəb olmaması üçün bu kimi hallarda Avropa İnsan Hüquqları Məhkəməsinin presi-dent hüququnda müəyyən edilmiş iki əsas meyarın gözlənilməsi: "yoluxucu xəstəliyin yayılmasının ictimai sağlamlıq üçün təhlükəli olub-olmaması"; "yoluxucu xəstəlik keçirən bir şəxsin tutulmasının xəstəliyin yayılmasının qarşısını almaq üçün son vasitə olub-olmaması".

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI:

**Elmi doktrina:**


1. Alindogan Jamela, HRW: COVID-19 Lockdown Violators in Philippines Abused, 13 August 2020;
2. Alonso-Zaldivar, Rocardo, U.S. Faces 'Truly Daunting' Challenges on Needed COVID Tests, 13 August 2020;
3. B. Bennett, Legal rights during pandemics: Federalism, rights and public health laws – a view from Australia, 235 (2006);
4. Brian Opeskin, The architecture of public health law reform: harmonisation of law in a federal system, 22 Melbourne Univ Law Rev 337, 369 (1998);
5. Cheng, V. C., Lau, S. K., Woo, P. C., & Yuen, K. Y., Severe acute respiratory syndrome coronavirus as an agent of emerging and reemerging infection, 20(4) Clinical microbiology reviews 660, 661 (2007);
6. Daniel O'Donnell, Commentary by the Rapporteur on Derogation, 7 Human Rights Quarterly 23, 23-25 (1985);
7. Dowty Alan, Closed Borders: the Contemporary Assault on Freedom of Movement, (1989);
8. Emilie M. Hafner-Burton et al. "Emergency and Escape: Explaining Derogations from Human RightsTreaties", 2020;
9. Gostin LO, Archer R., The duty of states to assist other states in need: ethics, human rights and international law, 35 J. Law Med Ethics 526, 533 (2007)
10. James G. Hodge, Jr., Lawrence O. Gostin, Kristine Gebbie, and Deborah L. Erickson, Transforming public health law: the Turning Point Model State Public Health Act, 34 J

Law Med Ethics 77, 84 (2006).
11. Joan F. Hartman, Derogation from Human Rights Treaties in Public Emergencies – A Critique of Implementation by the European Commission and Court of Human Rights and the Human Rights Committee of the United Nations, 22 HARV. INT'L LJ. 1, 2-3 (1981);
12. Harris, D. J.; O'Boyle, M.; Bates, E. P.; Buckley, C. M., "The Law of European Human Rights Convention", 2013. 35 - 155 , 36 - 156
13. Hauer E. Computing what the public wants: some issues in road safety cost-be nefit analysis. Accid Anal Prev. 2011;
14. Karl Doehring, "Public İnternational Law edition 2", İnkılâp Kitabevi, İstanbul, 2002, 4. Baskı. (7)
15. Karl J. Partsch, « Experiences RegardingtheWar and Emergency Clause (art.15) ofthe European Convention of Human Rights, (1971);
16. Katharina Ó Cathaoir, "Human Rights and Health in Times of Pandemics: Necessity and proportionality", Kings inn Law review, edition 4 volume 1, 2020;
17. Ludwig, S., Stitz, L., Planz, O., Van, H., Fitch, W. M., & Scholtissek, C., European swine virus as a possible source for the next influenza pandemic?, 212(2) Virology 555, 556 (1995);
18. Martin Scheinin, Helga Molbæk-Steensig, "Human-rights-based versus Populist Responses to the Pandemic", Pinset and Masons Law Review, volume 5, 2020;
19. Michel Rose, 'We are at war': France imposes lockdown to combat virus (Reuters, Mar. 16, 2020);
20. Steven L. B. Jensen, "Human Rights against Human Arbitrariness: Pandemics in a human rights historical perspective", Lousiana Law Review, edition 15 volume 2, (2020);
21. Tove H. Malloy, "COVID-19 Risk Communication: The right to information and participation", Kings inn Law review, edition 4 volume 3, 2020;
22. Valentino BA. The true costs of humanitarian intervention-the hard truth about a noble notion. Foreign Aff. 2011;
23. Ulrich Beck, «Risk Society towards brand new modernity", İthaki Yayınları, 2. nəşr, İstanbul, 2016.
Beynəlxalq sənədlər:
24. Amnesty International, "Covid-19 Response and Rebuilding Principles", April 2020.
25. Birləşmiş Millətlər Təşkilatı "Müki və Siyasi Hüquqlar haqqında Pakt", 1966.
26. The Siracusa Principles on the Limitation and Derogation Provisions in the International Covenant on Civil and Political Rights, 1984.
27. "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyası, Roma, 1953-cü il 3 sentyabr;
28. Human Rights Committee, Statement on derogations from the Covenant in connection with the COVID-19 pandemic, 24 Apr., 2020, CCPR/C/128/2.
29. United Nations, "COVID-19 and Human Rights-We are all in this together", April 2020.
İnternet resursları:
30. https://www.coe.int/en/web/human-rights-rule-of-law/covid19
31. https://www.icnl.org/covid19tracker/#,
32. https://www.icnl.org/covid19tracker/?location=&issue=10&date=&type=,
33. https://www.parliament.wa.gov.au/Parliament/Bills.nsf/5924018EE-A598B994825853B 001C0B08/$File/Bill179-1.pdf,

34. http://www.iga.gov.bh/en/article/the-iga-begins-distribution-of-electronic-bracelets-compatible-with-beaware-app,
35. https://www.legifrance.gouv.fr/affichTexte.do?cidTexte=JORFTEXT000041746313 &categorieLien=id#,
36. https://www.bundeskanzlerin.de/bkin-de/aktuelles/bund-laender-beschluss-1744224,
37. https://www.gazzettaufficiale.it/eli/id/2020/03/08/20A01522/sg,
38. https://www.icnl.org/covid19tracker/#,
39. http://www.legislation.gov.uk/ukpga/2020/7/pdfs/ukpga_20200007_en.pdf,
40. https://docs.google.com/spreadsheets/d/e/2PACX1vTyXoIXl2whyI9akO7WT-5tL9dzUdwOfFJZC9K-DHu1C7JhmD-R5QM4EMe2k9gmBrY5c3-P08qhs8ijW/pubhtml#,
41. https://www.icnl.org/covid19tracker/#,
42. https://www.iletisim.gov.tr/english/haberler/detay/director-of-communications-altun-shares-a-post-on-pandemic-isolation-tracking-project,
44. https://www.icisleri.gov.tr/65-yas-ve-uzeri20-yas-altikronik-rahatsizligi-bulunan-kisilerin-sokaga-cikma-kisitlamasi-istisnasi-genelgesi,

**Məhkəmə qərarları:**

45. Avropa İnsan Hüquqları Məhkəməsi, Enhorn v. İsveç (Enhorn v. Sweden).
46. Avropa İnsan Hüquqları Məhkəməsi, Əbduləziz, Kabales və Balkandali Birləşmiş Krallığa qarşı (Abdulaziz, Cabales and Balkandali v. the United Kingdom).
47. Avropa İnsan Hüquqları Məhkəməsi, Həndisayd Birləşmiş Krallığa qarşı (Handyside v. the United Kingdom); və Reyes Birləşmiş Krallığa qarşı (Rees v. the United Kingdom).
48. Avropa İnsan Hüquqları Məhkəməsi, Rasmussen Danimarkaya qarşı (Rasmussen v. Denmark).

# HÜQUQİ AKTLAR

# 01

“Palladium Defence and Security Solutions” Məhdud Məsuliyyətli Cəmiyyətinin şikayəti üzrə “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununun 29.4-cü maddəsinin Azərbaycan Respublikası Konstitusiyasının 29-cu maddəsinin I və II hissələrinə uyğunluğunun yoxlanılmasına dair

**AZƏRBAYCAN RESPUBLİKASI KONSTİTUSİYA MƏHKƏMƏSİ PLENUMUNUN QƏRARI**

*səhifə 70-76*

# 02

*Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 18.4.4 və 83.3.2-ci maddələrinin həmin Məcəllənin 8, 9, 61.1.1 və 65.2-ci maddələri baxımından şərh edilməsinə dair*

**AZƏRBAYCAN RESPUBLİKASI KONSTİTUSİYA MƏHKƏMƏSİ PLENUMUNUN QƏRARI**

*səhifə 77-83*

**AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN**

**Azərbaycan Respublikası**
**Konstitusiya Məhkəməsi Plenumunun**

**Q Ə R A R I**

"Palladium Defence and Security Solutions" Məhdud Məsuliyyətli Cəmiyyətinin şikayəti üzrə "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 29.4-cü maddəsinin Azərbaycan Respublikası Konstitusiyasının 29-cu maddəsinin I və II hissələrinə uyğunluğunun yoxlanılmasına dair

16 sentyabr 2022-ci il Bakı şəhəri

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr), Sona Salmanova, Humay Əfəndiyeva, Rövşən İsmayılov (məruzəçi-hakim), Ceyhun Qaracayev, Rafael Qvaladze, Mahir Muradov, İsa Nəcəfov və Kamran Şəfiyevdən ibarət tərkibdə, məhkəmə katibi Fəraid Əliyevin iştirakı ilə,

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin V hissəsinə, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 27.2 və 34-cü maddələrinə və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Daxili Nizamnaməsinin 39-cu maddəsinə müvafiq olaraq, konstitusiya məhkəmə icraatının yazılı prosedur qaydasında keçirilən məhkəmə iclasında "Palladium Defence and Security Solutions" Məhdud Məsuliyyətli Cəmiyyətinin şikayəti üzrə "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 29.4-cü maddəsinin Azərbaycan Respublikası Konstitusiyasının 29-cu maddəsinin I və II hissələrinə uyğunluğunun yoxlanılmasına dair konstitusiya işinə baxdı.

İş üzrə hakim R.İsmayılovun məruzəsini, ərizəçinin şikayətini, cavabverən orqan Azərbaycan Respublikası Milli Məclisi Aparatının İqtisadi qanunvericilik şöbəsinin müdiri M.Bazıqovun, mütəxəssislər Azərbaycan Respublikası Ali Məhkəməsinin Kommersiya Kollegiyasının sədri K.Abiyevanın, Azərbaycan Respublikasının İqtisadiyyat naziri M.Cabbarovun və Azərbaycan Respublikası Vəkillər Kollegiyasının sədri A.Bağırovun mülahizələrini, ekspert Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Mülki hüquq kafedrasının dosenti, hüquq üzrə fəlsəfə doktoru S.Süleymanlının rəyini, habelə iş materiallarını araşdırıb müzakirə edərək, Azərbaycan Res publikası Konstitusiya Məhkəməsinin Plenumu

**MÜƏYYƏN ETDİ:**

"Palladium Defence and Security Solutions" Məhdud Məsuliyyətli Cəmiyyəti (bundan sonra – "Palladium Defence and Security Solutions" MMC) Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə (bundan sonra – Konstitusiya Məhkəməsi) şikayət verərək, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun (bundan sonra – "Dövlət satınalmaları haqqında" Qanun) 29.4-cü maddəsinin Azərbay can Respublikası Konstitusiyasının (bundan sonra – Konstitusiya) 29-cu və 60-cı maddəsinin I hissəsinə uyğunluğunun yoxlanılmasını xahiş etmişdir.

Şikayətə əsasən, ərizəçi "Palladium Defence and Security Solutions" MMC iddiaçı olaraq (tender şərtlərinə əsasən təklif verən və iştirak haqqını ödəyən hüquqi şəxs) siqnalizasiya bloku və əl fanarının, sərhəd gözətçi gəmilərinin ehtiyat hissələrinin, 2 ədəd Şahdağ tipli sərhəd gözətçi gəmilərinin servis xidmətinin və 4 ədəd Şahdağ tipli sərhəd gözətçi gəmilərinin cari təmirinin alınması məqsədi ilə ümumilikdə 5050 manat məbləğində tenderdə iştirak haqqını Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin (bundan sonra – Dövlət Sərhəd Xidməti)

Lakin tenderlər “Dövlət satınalmaları haqqında” Qanunun 50-4.2-ci maddəsinin tələbinə əsasən ləğv edilmişdir. Həmin maddədə elektron satınalmada iştirak etmək üçün qeydiyyatdan keçən malgöndərənlərin (podratçıların) sayı səmərəli rəqabəti təmin etmək üçün 3 iştirakçıdan az olduqda, satınalan təşkilatın bu proseduru ləğv etməsi müəyyən edilmişdir.

Dövlət Sərhəd Xidmətinin Tender Komissiyası tərəfindən ərizəçinin iştirak haqqının geri qaytarılması tələbi “Dövlət satınalmaları haqqında” Qanunun 29.2-ci maddəsinə müvafiq olaraq təmin edilməmişdir.

Bundan sonra ərizəçi Dövlət Sərhəd Xidmətinə qarşı tenderlərdə iştirak haqqı kimi ödənilmiş 5050 manat məbləğin geri qaytarılması tələbinə dair iddia ərizəsi ilə Bakı Kommersiya Məhkəməsinə müraciət etmişdir. Bakı Kommersiya Məhkəməsinin 1 mart 2021-ci il tarixli qətnaməsi ilə “Palladium Defence and Security Solutions” MMC-nin iddia ərizəsi rədd edil mişdir.

Bakı Apellyasiya Məhkəməsinin Kommersiya Kollegiyasının 24 iyun 2021-ci il tarixli qətnaməsi ilə apellyasiya şikayəti təmin edilməmiş, birinci instansiya məhkəməsinin qətnaməsi dəyişdirilmədən saxlanılmışdır.

Apellyasiya instansiyası məhkəməsi “Dövlət satınalmaları haqqında” Qanunun 29.2-ci maddəsinə istinad edərək belə qənaətə gəlmişdir ki, tenderdə iştirak haqlarının geri qaytarılmaması, tenderin baş tutub-tutmamasından asılı olmayaraq, birmənalı təsbit olunmuşdur, apellyasiya şikayətinin dəlilləri isə qanunun səhv təfsirinin nəticəsidir. Həmin maddəyə əsasən, tenderdə iştirak haqqını malgöndərən (podratçı) tenderin əsas şərtlər toplusunu almaq və iddiaçı kimi qeydiyyatdan keçmək üçün satınalan təşkilata ödəyir. Tenderdə iştirak haqqı geri qaytarılmır.

Şikayətdə qeyd edildiyi kimi, “Dövlət satınalmaları haqqında” Qanunun 29-cu maddəsi “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” 27 may 2021-ci il tarixli Azərbaycan Respublikası Qanunu ilə yeni redaksiyada verilmişdir. Qanuna əlavə olunmuş 29.4-cü maddəyə müvafiq olaraq, iştirak haqqı heç bir halda geri qaytarılmır.

Ərizəçi hesab edir ki, “Dövlət satınalmaları haqqında” Qanunun 29.4-cü maddəsi (“İştirak haqqı heç bir halda geri qaytarılmır”) natamamdır. Belə ki, onun məzmunundan baş tutan tenderlərlə yanaşı, baş tutmayan tenderlərə tətbiq edilib-edilməməsi aydın deyil, göstərilən norma həddən artıq ümumi olduğu üçün birmənalı yozula bilmir və buna görə hüquqi müəyyənlik prinsipinin tələblərinə cavab vermir.

Eyni zamanda şikayətdə qeyd olunur ki, həmin Qanunun 29.4-cü maddəsi baş tutmayan tenderlərə şamil edildikdə, iştirakçının iradəsindən asılı olmayaraq baş tutmayan tenderdə iştirak haqqını ödəmiş podratçının (mülkiyyətçinin) vəsaitinin qaytarılmaması onu əsassız olaraq qeyri-mütənasib və həddən artıq yükləyir. Belə ki, həmin tender yenidən elan edildikdə, pod ratçı yenidən iştirak haqqı ödəmək məcburiyyətində qalır, bu isə onun mülkiyyət hüququnun pozulmasına səbəb olur.

Konstitusiya Məhkəməsinin Plenumu ilk növbədə qeyd edir ki, hazırkı konstitusiya işinin predmetini “Dövlət satınalmaları haqqında” Qanunun 29.4-cü maddəsinin satınalmada iştirak etmək üçün qeydiyyatdan keçən malgöndərənlərin (podratçıların) sayının üç iştirakçıdan az olması səbəbindən baş tutmamış satınalmalara münasibətdə hüquqi müəyyənlik konstitusion prinsipinə və Konstitusiyanın 29-cu maddəsinin I hissəsinə uyğunluğunun yoxlanılması təşkil edir.

Konstitusiya Məhkəməsinin Plenumu şikayətlə əlaqədar aşağıdakıların qeyd edilməsini zəruri sayır.

“Dövlət satınalmaları haqqında” Qanunun preambulasına əsasən, bu Qanun dövlət satınalmalarının iqtisadi, hüquqi və təşkilati əsaslarını müəyyənləşdirir, satınalmalar zamanı dövlət vəsaitindən səmərəli və qənaətlə istifadə edilməsi, müsabiqə və aşkarlıq əsasında bütün malgöndərənlərə (podratçılara) bərabər rəqabət mühitinin yaradılması prinsipləri və qaydalarını müəyyən edir. Qanunverici burada dövlət satınalmalarında ehtiyac duyulan mal və xidmətlərin daha keyfiyyətli şəkildə təmin olunması, eyni zamanda dövlət vəsaitlərindən səmərəli və

qənaətlə istifadə olunması məqsədini güdür. Qeyd olunan məqsədlərə, bununla da bütövlükdə ictimai mənafelərin təmin edilməsinə nail olmaq üçün məhz tender vasitəsi ilə şəffaf və ədalətli rəqabət mühitinin formalaşdırılması nəzərdə tutulmuşdur.

Qanunun istifadə olunan əsas anlayışların mənasını izah edən 2-ci maddəsində iştirak haqqı tenderin əsas şərtlər toplusunu və ya kotirovka sorğusunun şərtlərini almaq və iddiaçı kimi qeydiyyatdan keçmək üçün malgöndərən (podratçı) tərəfindən ödənilən vəsait kimi göstərilmişdir.

"Dövlət satınalmaları haqqında" Qanunun 29.1-ci maddəsində iştirak haqqının hansı məqsədlə alındığı və nələrə sərf olunması müəyyən edilmişdir. Həmin maddəyə əsasən bu Qanunun 50-1.1-ci maddəsində nəzərdə tutulmuş hallar istisna olmaqla, keçirilən satınalmalar zamanı malgöndərən (podratçı) tenderin əsas şərtlər toplusunu və kotirovka sorğusunun şərtlərini almaq və iddiaçı kimi qeydiyyatdan keçmək üçün satınalan təşkilata iştirak haqqı ödəyir. İştirak haqqının ümumi məbləğini tender predmetinin ehtimal olunan qiymətinin 0,3 faizindən və tender xərclərinin 1,2 mislindən çox olmamaq şərti ilə satınalan təşkilat müəyyən edir. Tenderin keçirilməsi ilə bağlı bütün xərclər, o cümlədən elan, reklam, tender keçirilən yerin icarəsi, tender komissiyasının maliyyələşdirilməsi, tender sənədlərinin hazırlanması və iddiaçılara çatdırılması xərcləri, həmçinin tenderin keçirilməsi ilə birbaşa əlaqədar olan bütün digər xərclər tenderdə iştirak haqları hesabına ödənilir. Tenderdə iştirak haqlarından toplanmış vəsait tender xərclərindən çox olduqda fərq satınalan təşkilatın sərəncamında qalır (büdcədən maliyyələşən təşkilatlarda dövlət büdcəsinə köçürülür), az olduqda isə fərq satınalan təşkilatın hesabından ödənilir.

Maddənin məzmunundan göründüyü kimi, iştirak haqqı tenderin keçirilməsi ilə əlaqədar xərclərin qarşılanması üçün ödənilir. Bundan əlavə iştirak haqqını ödəməklə iddiaçı eyni zamanda tenderdə iştirak etmək niyyətinin nə dərəcədə ciddi olduğunu göstərmiş olur.
Ərizəçinin "Dövlət satınalmaları haqqında" Qanunun 29.4-cü maddəsinin baş tutan tenderlərlə yanaşı, baş tutmayan tenderlərə tətbiq edilib-edilməməsinin bu normanın məzmunundan aydın olmaması və bu səbəbdən də həmin maddənin hüquqi müəyyənlik konstitusion prinsipinin tələblərinə cavab verməməsinə dair şikayətinin dəlili ilə əlaqədar aşağıdakılar qeyd olunmalıdır.

Konstitusiya Məhkəməsinin Plenumu bir sıra qərarlarında qanunverici tərəfindən hər hansı ictimai münasibətlərin tənzimlənməsinə dair normativ hüquqi aktlar qəbul edilərkən hüquqi müəyyənlik prinsipinə riayət edilməsinin vacibliyini vurğulamışdır. Nəzərə almaq lazımdır ki, qanunverici tərəfindən Konstitusiyada təsbit olunmuş hər hansı hüququn həyata keçirilməsinin tənzimlənməsi zamanı hüquqi müəyyənlik prinsipinin nəzərə alınmaması həmin hüququn pozulması ilə nəticələnə bilər.

Hüquqi müəyyənlik prinsipi hüququn aliliyinin əsas aspektlərindən biri kimi çıxış edir. Hər bir qanunun və ya onun hər hansı bir müddəasının hüquqi müəyyənlik prinsipinə cavab verməsi olduqca vacibdir. Bunun təmin edilməsi üçün hüquq normaları birmənalı və aydın olmalıdır. Bu, öz növbəsində hər kəsə onun hüquq və azadlıqlarının müdafiə ediləcəyinə, hüquq tətbiqedənin hərəkətlərinin isə proqnozlaşdırıla bilən olacağına əminlik verməlidir. Bunun əksi, yəni hüquq normasının məzmununun qeyri-müəyyənliyi hüquq tətbiqetmədə məhdudiyyətsiz mülahizə üçün imkan yaratmaqla, hər bir normativ hüquqi aktın əsasında dayanmalı olan qanunun aliliyi, qanun və məhkəmə qarşısında bərabərlik və ədalət prinsiplərinin pozulmasına gətirib çıxara bilər ("Azərbaycan Respublikasında hərbi xidmətə çağırışın əsasları haqqında" Azərbaycan Respublikası Qanununun 21-ci maddəsinin və Azərbaycan Respublikası Cəzaların İcrası Məcəlləsinin 180.3-cü maddəsinin müddəalarının şərh edilməsinə dair" 2008-ci il 22 sentyabr və "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 59.1.9 və 60-cı maddələrinin bəzi müddəalarının şərh edilməsinə dair" 2012-ci il 2 aprel tarixli Qərarlar).

İnsan Hüquqları üzrə Avropa Məhkəməsi (bundan sonra – Avropa Məhkəməsi) dəfələrlə qeyd etmişdir ki, istənilən hüquq sistemində norma nə qədər dəqiq tərtib olunsa da, məhkəmə şərhi qaçılmazdır. Anlaşılmayan məqamların izah olunmasına hər zaman ehtiyac olacaq. Müəyyənlik arzuedilən olsa da, bəzən lüzumsuz sərtliklə müşayiət oluna bilər, halbuki hüquq

dəyişən şəraitlə addımlamaq xüsusiyyətinə malik olmalıdır. Müvafiq olaraq bir çox qanunlar qaçılmaz terminlərin istifadəsi ilə tərtib olunmuşlar ki, onlar az və ya çox dərəcədə qeyri-müəyyəndir, onların şərhi və tətbiqi təcrübədən asılıdır. Hüquq müddəasının müxtəlif cür təfsir olunması özü-özlüyündə öncədən görmə tələbinin pozulmasına gətirib çıxarmır. İşlərə baxılarkən məhkəmələrin üzərinə qoyulmuş rol ondan ibarətdir ki, onlar bu cür şübhələri təfsirlə aradan götürsünlər (Böyük Palatanın CentroEuropa 7 S.R.L. və Di Stefano İtaliyaya qarşı iş üzrə 2012-ci il 7 iyun, §141; Gorzelik və digərləri Polşaya qarşı iş üzrə 2004-cü il 17 Fevral, § 65; Rekvenyi Macarıstana qarşı iş üzrə 1999-cu il 20 may, § 34 tarixli Qərarları).

Konstitusiya Məhkəməsinin Plenumu Klark Qordon Morrisin şikayəti üzrə 2017-ci il 26 may tarixli Qərarında qanunun aydın olması tələbi ilə bağlı hesab etmişdir ki, qanunun aydın və proqnozlaşdırıla bilən olması hüquqi dövlətin vacib təzahürlərindən biri olan qanunun ümumiliyini təmin etmək zərurəti ilə uzlaşmalıdır. Nəzərə almaq lazımdır ki, qanunun mətninin mütləq aydınlığı (qanunvericinin bütün mümkün ola biləcək həyati halları qanunda nəzərdə tutması) qeyri-realdır. Bu səbəbdən qanunda ümumi anlayışlardan istifadə edilməsi qaçılmazdır.

Bu baxımdan, hüquqi normaların bəzən qaçılmaz olan natamamlığı və ya qeyri-müəyyənliyi məhz məhkəmə təcrübəsi vasitəsi ilə aradan qaldırılır (Konstitusiya Məhkəməsi Plenumunun R.Cəfərovun şikayəti üzrə 2012-ci il 18 may tarixli Qərarı).

Lakin hazırkı halda Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, ərizəçinin mübahisələndirdiyi "Dövlət satınalmaları haqqında" Qanunun 29.4-cü maddəsində istifadə olunan "heç bir halda" müddəası kifayət qədər aydın olmaqla, həmin normanın istisnasız olaraq bütün tenderlərə, yəni həm baş tutmuş, həm də müxtəlif səbəblərdən baş tutmamış tenderlərə şamil olunmasını nəzərdə tutur.

Burada həmçinin nəzərə almaq lazımdır ki, qanunverici "Dövlət satınalmaları haqqında" Qanunun 11.3-cü maddəsində satınalan təşkilatın, tenderdə iştirak etmək üçün tender təklifi vermiş iddiaçıların sayının üçdən az olması səbəbindən tenderin davamından imtina etdikdə də, tender təklifi, oferta və ya kotirovka təqdim etmiş malgöndərənlər (podratçılar) qarşısında heç bir məsuliyyət daşımadığını müəyyən etmişdir.

Beləliklə, "Dövlət satınalmaları haqqında" Qanunun 29.4-cü maddəsinin müddəalarının baş tutmamış tenderə şamil edilib-edilməməsi ilə bağlı qeyri-müəyyənlik mövcud deyil.

Ərizəçinin "Dövlət satınalmaları haqqında" Qanunun 29.4-cü maddəsi ilə onun Konstitusiyanın 29-cu maddəsində təsbit edilmiş mülkiyyət hüququnun pozulmasına dair qənaəti ilə bağlı Konstitusiya Məhkəməsinin Plenumu aşağıdakıların bir daha vurğulanmasını vacib bilir.
Konstitusiyanın 29-cu maddəsinin I və II hissələrinə görə hər kəsin mülkiyyət hüququ vardır. Mülkiyyətin heç bir növünə üstünlük verilmir. Mülkiyyət hüququ, o cümlədən xüsusi mülkiyyət hüququ qanunla qorunur.

Mülkiyyət hüququnun məzmunu Konstitusiyanın 13-cü maddəsinin müddəaları nəzərə alınmaqla başa düşülməlidir. Vətəndaş cəmiyyətinin mühüm institutu olan mülkiyyət iqtisadiyyatın inkişafının əsasını təşkil edən ən vacib amillərdən biridir. Buna görə də mülkiyyət Əsas Qanunun 13-cü maddəsi ilə toxunulmaz elan olunaraq dövlət tərəfindən qorunur. Mülkiyyət hüququ isə cəmiyyətdəki hər bir fərdin azadlığının əsası kimi çıxış edir, şəxsiyyətin inkişafı üçün zəruri şərtdir.

Bununla belə, qeyd olunan hüququn əhəmiyyətinə baxmayaraq, o mütləq deyil və məhdudlaşdırıla bilər. Nəzərə almaq lazımdır ki, Konstitusiyada mülkiyyət hüququ təsbit edilməklə yanaşı, onun ümumi və xüsusi məhdudiyyətlərinin hədləri də müəyyən olunmuşdur (Konstitusiyanın 13-cü maddəsinin III hissəsi, 29-cu maddəsinin VI hissəsi və 71-ci maddəsinin II hissəsi, "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Konstitusiya Qanununun 3.3-cü maddəsi).

Belə ki, mülkiyyət hüququnun məhdudlaşdırılması qanunçuluğun tələbinə cavab verməli, başqa şəxslərin hüquq və azadlıqlarının müdafiəsi məqsədilə tətbiq edilməli, mütənasib olmalı və bu konstitusion hüququn mahiyyətini dəyişməməlidir. Avropa Məhkəməsi "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın (bundan sonra – Konvensiya) 1 saylı Protokolunun 1-ci maddəsində təsbit olunan mülkiyyət hüququ üzrə oxşar

hüquqi mövqelər ifadə etmişdir. Belə ki, Məhkəmənin presedent hüququna əsasən, Konvensiyanın 1 saylı Protokolunun 1-ci maddəsinin birinci və ən mühüm tələbi ondan ibarətdir ki, mülkiyyətdən maneəsiz istifadə hüququna dövlət hakimiyyəti orqanı tərəfindən edilən istənilən müdaxilə qanuni olmalıdır. Qanunilik prinsipi onu da nəzərdə tutur ki, daxili qanunvericiliyin tətbiq edilə bilən normaları kifayət qədər əlçatan, dəqiq olsun və tətbiq edilərkən onların nəticələrini öncədən görmək mümkün olsun. Konvensiya tərəfindən tanınan hüququn və ya azadlığın həyata keçirilməsinə hər hansı müdaxilə legitim məqsəd daşımalıdır. Konvensiyanın 1 saylı Protokolunun 1-ci maddəsinə xas olan "ədalətli balans" prinsipi özlüyündə cəmiyyətin ümumi marağının mövcudluğunu nəzərdə tutur. Mülkiyyətdən maneəsiz istifadə etmək hüququna müdaxilə zamanı cəmiyyətin ümumi maraqları ilə fərdin əsas hüquqlarının müdafiəsi tələbləri arasında "ədalətli balans" gözlənilməlidir. Konkret olaraq, dövlət istənilən tədbiri tətbiq edərkən, ... tətbiq edilən vasitələrlə qarşıya qoyulan məqsəd arasında ağlabatan mütənasiblik əlaqəsi olmalıdır (Böyük Palatanın Broniowski Polşaya qarşı iş üzrə 2004-cü il 22 iyun, §147-148, 150; Scordino İtaliyaya qarşı iş üzrə 2006-cı il 29 mart, § 93 tarixli Qərarları). Tələb edilən ədalətli balansa nail olmaq üçün müvafiq şəxs fərdi və həddən artıq yükə məruz qalmamalıdır (Böyük Palatanın Belane Nagy Macarıstana qarşı iş üzrə 2016-cı il 13 dekabr tarixli Qərarı, § 115).

"Dövlət satınalmaları haqqında" Qanunun 29.1-ci maddəsindən isə görünür ki, iştirak haqqının toplanılması ictimai mənafelərin daha yaxşı təmin edilməsi məqsədi ilə keçirilən tenderlərin təşkilinə çəkilən xərclərin qarşılanması, habelə bu tenderlərdə iştirakın ciddiyyətinin təmin edilməsi məqsədini daşıyır. Bu məqsədlər isə özlüyündə tenderin təşkili və keçirilməsinin səmərəliliyinə, dövlət vəsaitinin effektiv xərclənməsinə, nəticə etibarilə ictimai maraqlara cavab verdiyindən tenderdə iştirak haqqının toplanılması legitim hesab edilməlidir.

Lakin tenderdə iştirak etmək üçün tender təklifi vermiş iddiaçıların sayının qanunla tələb olunan saydan az olması səbəbindən davamından imtina edilmiş tenderin yenidən elan olunması zamanı əvvəlki iddiaçıdan təkrarən iştirak haqqının tutulması onu sonradan qoşulan digər iddiaçılara nisbətən əlverişsiz vəziyyətdə qoyur. Nəticədə "Dövlət satınalmaları haqqında" Qanunun preambulasında əks olunmuş mühüm prinsiplərdən birinin (bütün malgöndərənlərə (podratçılara) bərabər rəqabət mühitinin yaradılması prinsipinin) pozulması ilə yanaşı, baş tutmamış tender iddiaçısının fərdi və həddən artıq yükə məruz qalması, mülki dövriyyə subyektlərinin dövlət satınalmalarında iştirakla bağlı təşəbbüskarlığına əlavə maneənin yaradılması da baş verir.

Oxşar nəticəyə tenderin keçirilməsi ilə əlaqədar xərclərin qarşılanması məqsədinə münasibətdə də gəlmək olar. Belə ki, lazımi sayda iddiaçıların iştirak etməməsi səbəbindən tenderin davamından imtina olunması zamanı artıq yığılmış iştirak haqlarının hamısı və ya çox hissəsi, qanunla nəzərdə tutulmuş istiqamətlər üzrə xərclənməmiş qalır. Buna görə də imtina edilmiş tender üçün ödənişlərin eyni iddiaçıdan təkrar tutulması həmin subyektin fərdi və həddən artıq yükə məruz qalmasına səbəb olur. Bu fikir elektron satınalma vasitəsilə keçirilmiş satınalmalara da aiddir.

Yuxarıda göstərilənlərə əsasən Konstitusiya Məhkəməsinin Plenumu belə nəticəyə gəlir ki, "Dövlət satınalmaları haqqında" Qanunun 29.4-cü maddəsinin müddəalarının malgöndərənlərin (podratçıların) sayının üç iştirakçıdan az olması səbəbindən baş tutmamış tenderlərə şamil edilməsi Konstitusiyanın 29-cu maddəsinin I və II hissələrinin tələbləri ilə uzlaşmamasına səbəb olur.

Lakin Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, bu normanın qüvvədən düşmüş hesab edilməsi ümumilikdə (sövdələşmə səbəbindən baş tutmayan və ya baş tutmuş) tenderlər üzrə toplanan iştirak haqları ilə bağlı məsələlərin tənzimetmədən kənar qalması, habelə iştirak haqlarının toplanılmasının xidmət etdiyi yuxarıda göstərilən əsas məqsədlərə nail olunmaması və dövlət satınalmalarının keçirilməsinin səmərəliliyinə ciddi zərər vurulması ilə nəticələnə bilər.

Konstitusiya Məhkəməsinin Plenumu onun da nəzərə alınmasını vacib bilir ki, "Dövlət satınalmaları haqqında" Qanunun 11.5-ci maddəsinə əsasən tenderin davamından imtina olunduğu

halda satınalan təşkilat həmin malların (işlərin və xidmətlərin) satın alınması üçün yeni tender elan edə yaxud satın alınan malların (işlərin və xidmətlərin) xüsusiyyətlərinin imkan verdiyi təqdirdə, mahiyyətini dəyişdirməməklə onları hissələrə bölərək, hər hissə üzrə ayrıca tender keçirə bilər. Həmin maddənin mənasından göründüyü kimi, qanunverici hər bir halda iştirakçıların azlığı səbəbindən baş tutmayan tenderlərin yenidən keçirilməsini istisna etmir, hətta tenderin yenidən elan edilməsini yaxud onun hissələrlə keçirilməsini də nəzərdə tutur.

Eyni zamanda, qanunverici "Dövlət satınalmaları haqqında" Qanunun 29.4-cü maddəsində iştirak haqqının heç bir halda qaytarılmamasını nəzərdə tutsa da, bu, həmin Qanunun 11.1-ci maddəsində göstərilən əsasa görə baş tutmayan, lakin gələcəkdə keçirilən tenderlərdə iştirak haqqını ödəmiş və iddiaçı kimi qeydiyyatdan keçmiş iştirakçıların iştirak haqqının əvəzləşdirilməsini istisna etmir.

Burada nəzərə almaq lazımdır ki, Azərbaycan Respublikasının vergi qanunvericiliyində artıq ödənilmiş vergi məbləğlərinin əvəzləşdirilməsi mexanizmi nəzərdə tutulmuş və aydın şəkildə tənzimlənmişdir. Göstərilənlərə əsasən, Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, bu hüquqi vəziyyətdə müvafiq tənzimləmənin "Dövlət satınalmaları haqqında" Qanunda da nəzərdə tutulması yuxarıda göstərilən uyğunsuzluğu aradan götürmüş olar. Belə ki, Konstitusiyanın 13 və 29-cu maddələrinin, habelə 71-ci maddəsinin II hissəsinin mənasına görə, dövlət yalnız özünün iqtisadi təhlükəsizliyi ilə bağlı olan publik maraqlarından deyil, müvafiq hüquq münasibətlərinin iştirakçısı olan fiziki və hüquqi şəxslərin maraqlarından da çıxış etməlidir. Nəticədə cəmiyyətin maraqları ilə şəxsiyyətin əsas hüquqlarının qorunması arasında ədalətli balansın və Konstitusiyanın müdafiə etdiyi dəyərlər arasında ədalətli tarazlığın təmin edilməsi mümkün olar.

Sadalanan konstitusiya normalarının tələblərindən irəli gələrək Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, ümumi maraqlarla şəxsi maraqlar arasında tarazlığın təmin olun ması məqsədilə, "Dövlət satınalmaları haqqında" Qanunun 11.1-ci maddəsində göstərilən halda tenderdə iştirak etmək üçün tender təklifi vermiş iddiaçıların iştirak haqqının əvəzləşdirilməsi mexanizminin həmin Qanunda aydın və birmənalı şəkildə tənzimlənməsi Konstitusiyadan irəli gələn tələblərə cavab vermiş olardı. Belə ki, iştirakçıların tələb olunandan az sayda olması səbəbindən baş tutmayan tenderlər üzrə ödənilmiş iştirak haqqının yenidən keçirilən tenderlərdə əvəzləşdirilməsi Konstitusiyanın 29-cu maddəsində nəzərdə tutulmuş mülkiyyət hüququnun qeyri-mütənasib məhdudlaşdırılmasının qarşısını alar, bərabər rəqabət mühitinin yaradılmasını və Konstitusiyanın müdafiə etdiyi dəyərlər arasında ədalətli tarazlığı təmin edər. Bununla belə Azərbaycan Respublikası Milli Məclisinin bu sahədə geniş mülahizə sərbəstliyi nəzərə alınaraq qeyd olunmalıdır ki, qanunverici yuxarıda göstərilən məqsədə nail olmaq üçün digər hüquqi vasitələrin nəzərdə tutulmasında sərbəstdir.

Məsələ qanunvericilik qaydasında həll edilənədək "Dövlət satınalmaları haqqında" Qanunun 11.1-ci maddəsində göstərilən əsasa görə baş tutmayan, lakin gələcəkdə keçirilən tenderlərdə iştirak haqqını ödəmiş və iddiaçı kimi qeydiyyatdan keçmiş iştirakçıların iştirak haqqının əvəzləşdirilməsi Azərbaycan Respublikasının vergi qanunvericiliyində təsbit olunmuş artıq ödənilmiş vergi məbləğlərinin əvəzləşdirilməsi qaydalarına uyğun olaraq həyata keçi rilməlidir.

Qeyd edilənlərə əsasən, Konstitusiya Məhkəməsinin Plenumu aşağıdakı nəticələrə gəlir:

- Konstitusiyanın 29-cu maddəsinin I və II hissələrinin mənasına görə "Dövlət satınalmaları haqqında" Qanunun 29.4-cü maddəsinin tələbləri həmin Qanunun 11.1-ci maddəsində göstərilən əsasa görə baş tutmayan tenderə şamil edilə bilməz;
- bu Qərarın təsviri-əsaslandırıcı hissəsində əks olunmuş hüquqi mövqelərə əsasən "Dövlət satınalmaları haqqında" Qanunun təkmilləşdirilməsi Milli Məclisə tövsiyə olunmalıdır;
- məsələ qanunvericilik qaydasında həll edilənədək, "Dövlət satınalmaları haqqında" Qanunun 11.1-ci maddəsində göstərilən əsasa görə baş tutmayan, lakin tender üzrə iştirak haqqını ödəmiş və iddiaçı kimi qeydiyyatdan keçmiş iştirakçıların iştirak haqqının həmin Qanunun 11.5-ci maddəsinə əsasən keçirilən növbəti tenderdə əvəzləşdirilməsi bu Qərarın təsviri-əsaslandırıcı hissəsində müəyyən edilmiş qaydada təmin edilməlidir.

**QƏRARA ALDI:**

1. Azərbaycan Respublikası Konstitusiyasının 29-cu maddəsinin I və II hissələrinin mənasına görə "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 29.4-cü maddəsinin tələbləri həmin Qanunun 11.1-ci maddəsində göstərilən əsasa görə baş tutmayan tenderə şamil edilə bilməz.

2. Bu Qərarın təsviri-əsaslandırıcı hissəsində əks olunmuş hüquqi mövqelərə əsasən "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun təkmilləşdirilməsi Azərbaycan Respublikasının Milli Məclisinə tövsiyə olunsun.

3. Məsələ qanunvericilik qaydasında həll edilənədək, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 11.1-ci maddəsində göstərilən əsasa görə baş tutmayan, lakin tender üzrə iştirak haqqını ödəmiş və iddiaçı kimi qeydiyyatdan keçmiş iştirakçıların iştirak haqqının həmin Qanunun 11.5-ci maddəsinə əsasən keçirilən növbəti tenderdə əvəzləşdirilməsi bu Qərarın təsviri-əsaslandırıcı hissəsində müəyyən edilmiş qaydada təmin edilsin.

4. Qərar dərc olunduğu gündən qüvvəyə minir.

5. Qərar rəsmi dövlət qəzetlərində və "Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı"nda dərc edilsin, habelə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəsmi internet saytında yerləşdirilsin.

6. Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir oluna bilməz.

**Sədr** **Fərhad Abdullayev**

**AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN**

**Azərbaycan Respublikası**
**Konstitusiya Məhkəməsi Plenumunun**

**Q Ə R A R I**

*Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 18.4.4 və 83.3.2-ci maddələrinin həmin Məcəllənin 8, 9, 61.1.1 və 65.2-ci maddələri baxımından şərh edilməsinə dair*

28 sentyabr 2022-ci il Bakı şəhəri

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr), Sona Salmanova, Humay Əfəndiyeva, Rövşən İsmayılov, Ceyhun Qaracayev, Rafael Qvaladze, Mahir Muradov, İsa Nəcəfov və Kamran Şəfiyevdən (məruzəçi-hakim) ibarət tərkibdə, məhkəmə katibi Fəraid Əliyevin iştirakı ilə,

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsinə, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 27.2 və 33-cü maddələrinə və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Daxili Nizamnaməsinin 39-cu maddəsinə müvafiq olaraq, xüsusi konstitusiya icraatının yazılı prosedur qaydasında keçirilən məhkəmə iclasında Gəncə Apellyasiya Məhkəməsinin müraciəti üzrə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 18.4.4 və 83.3.2-ci maddələrinin həmin Məcəllənin 8, 9, 61.1.1 və 65.2-ci maddələri baxımından şərh edilməsinə dair konstitusiya işinə baxdı.

İş üzrə hakim K.Şəfiyevin məruzəsini, maraqlı subyektlərin nümayəndələri Gəncə Apellyasiya Məhkəməsinin Cinayət Kollegiyasının sədri T.Muxtarovun və Azərbaycan Respublikası Milli Məclisi Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin müdiri H.M.Seyidin, mütəxəssislər Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət Kollegiyasının sədri H.Nəsibovun, Bakı Apellyasiya Məhkəməsinin Cinayət Kollegiyasının sədri E.Rəhimovun, Azərbaycan Respublikası Baş Prokurorluğunun Hüquqi təminat və insan hüquqları məsələləri idarəsinin rəisi A.Osmanovanın və Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvləri Ş.Məmmədov və B.Məmişovun mülahizələrini, ekspert Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Cinayət hüququ və kriminologiya kafedrasının müdiri, hüquq elmləri doktoru, professor Ş.Səmədovanın rəyini və iş materiallarını araşdırıb müzakirə edərək, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**MÜƏYYƏN ETDİ:**

Gəncə Apellyasiya Məhkəməsi Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə (bundan sonra – Konstitusiya Məhkəməsi) müraciət edərək Azərbaycan Respublikası Cinayət Məcəlləsinin (bundan sonra – Cinayət Məcəlləsi) 18.4.4 və 83.3.2-ci maddələrinin həmin Məcəllənin 8, 9, 61.1.1 və 65.2-ci maddələri baxımından şərh edilməsini xahiş etmişdir.

Müraciətdən görünür ki, G.Cəfərov Sabirabad Rayon Məhkəməsinin 9 fevral 2016-cı il tarixli hökmü ilə Cinayət Məcəlləsinin 177.2.3 və 177.2.4-cü maddələri ilə təqsirli bilinib 3000 manat cərimə cəzasına, Cinayət Məcəlləsinin 29, 232.1-ci maddələri ilə təqsirli bilinərək həmin Məcəllənin 62-ci maddəsi tətbiq olunmaqla 1 il müddətinə azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş, Cinayət Məcəlləsinin 66.3-cü maddəsinə əsasən cəzaları tam toplamaq yolu ilə qəti olaraq 1 il müddətinə azadlıqdan məhrum etmə və 3000 manat cərimə cəzalarına məhkum edilmişdir. G.Cəfərov azadlıqdan məhrum etmə cəzasını 16 iyun 2016-cı il tarixində çəkib qurtarmış, cəriməni isə 12 fevral 2019-cu il tarixində dövlət büdcəsinə tam ödəmişdir.

Bundan sonra G.Cəfərov 9 oktyabr 2020-ci il tarixində Cinayət Məcəlləsinin 234.1-ci

maddəsində nəzərdə tutulmuş cinayət əməlini törətmişdir.

Goranboy Rayon Məhkəməsinin 17 fevral 2021-ci il tarixli hökmü ilə G.Cəfərov Cinayət Məcəlləsinin 234.1-ci maddəsində nəzərdə tutulmuş cinayət əməlini törətməkdə təqsirli bilinərək 1 il 6 ay müddətinə azadlığın məhdudlaşdırılması cəzasına məhkum edilmişdir.

Dövlət ittihamçısı həmin hökmdən apellyasiya protesti verərək G.Cəfərov qəsdən az ağır cinayət törətməyə görə əvvəllər azadlıqdan məhrum etmə cəzasına məhkum olunduqdan sonra yenidən hazırkı hökm üzrə 9 oktyabr 2020-ci il tarixində qəsdən az ağır cinayət törətdiyindən, onun əməlində cinayətlərin residivi olduğunu nəzərə alaraq G.Cəfərova cinayətlərin residivinə görə cəza təyin edilməsini xahiş etmişdir.

Gəncə Apellyasiya Məhkəməsinin Cinayət Kollegiyasının 24 iyun 2021-ci il tarixli qərarına əsasən apellyasiya protesti təmin edilməmiş, Goranboy Rayon Məhkəməsinin 17 fevral 2021-ci il tarixli hökmü dəyişdirilmədən saxlanılmışdır.

Dövlət ittihamçısı tərəfindən verilmiş eyni məzmunlu kassasiya protesti əsasında Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət Kollegiyasının (bundan sonra – Ali Məhkəmənin Cinayət Kollegiyası) 5 yanvar 2022-ci il tarixli qərarı ilə apellyasiya instansiyası məhkəməsinin qərarı ləğv edilmiş və iş yeni apellyasiya baxışına göndərilmişdir.

Ali Məhkəmənin Cinayət Kollegiyası "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 68.2 və 83-cü maddələrinin şərh edilməsinə dair" Konstitusiya Məhkəməsi Plenumunun 2010-cu il 22 dekabr tarixli Qərarını rəhbər tutaraq belə nəticəyə gəlmişdir ki, məhkum qeyd edilən hökm üzrə Cinayət Məcəlləsinin 66.3-cü maddəsinə əsasən qəti olaraq təyin edilmiş 3000 manat cərimə cəzasını 12 fevral 2019-cu il tarixində tam icra etdiyinə görə onun məhkumluğunun ödənilməsi müddətinin axımı 12 fevral 2019-cu il tarixindən başlanmış və məhkumluğu ödənilmədiyi dövrdə yenidən az ağır cinayət əməli törətmişdir. Ali Məhkəmənin Cinayət Kollegiyası hesab etmişdir ki, apellyasiya instansiyası məhkəməsi Cinayət Məcəlləsinin 61.1.1-ci maddəsi ilə cinayətlərin residivini cəzanı ağırlaşdıran hal kimi nəzərə almayaraq maddi hüquq normalarını pozmaqla qərar qəbul etmişdir.

Müraciətdə göstərilir ki, məhkum əvvəlki hökmlə iki əsas cəzaya, yəni azadlıqdan məhrum etmə cəzasına və cərimə cəzasına məhkum edilmiş, hər iki cəzanı çəkib qurtarmışdır. Məhkuma əvvəlki hökmlə təyin edilmiş hər iki cəza əsas cəza olduğundan və Cinayət Məcəlləsinin 83.4 və 83.4-1-ci maddələrində yalnız əsas və əlavə cəzaya münasibətdə məhkumluğun ödənilməsi müddətləri tənzimləndiyindən, iki əsas cəzaya münasibətdə isə Cinayət Məcəlləsində konkret norma olmadığından, bu məsələ məhkəmə təcrübəsində müxtəlif yanaşmalara səbəb olur.

Müraciətdə həmçinin qeyd olunur ki, "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 68.2 və 83-cü maddələrinin şərh edilməsinə dair" Konstitusiya Məhkəməsi Plenumunun 2010-cu il 22 dekabr tarixli Qərarında ifadə olunmuş hüquqi mövqeyə görə, Cinayət Məcəlləsinin 68.2-ci maddəsində nəzərdə tutulmuş cəzalar toplandıqda məhkumluğun ödənilmə müddətinin axımı cinayətlərin və ya hökmlərin məcmusu üzrə təyin edilmiş qəti cəzanın çəkilib qurtarması və ya cəzadan azad edilmə anından başlayır.

Lakin Konstitusiya Məhkəməsinin qeyd edilən Qərarı qəbul edilərkən Cinayət Məcəlləsinin 18.4.4-cü maddəsi Məcəlləyə daxil edilməmişdi və cinayətin təsnifatından və cəzanın növündən asılı olmayaraq bütün qəsdən törədilmiş cinayətlərə görə məhkumluqlar cinayətin residivi müəyyən edilərkən nəzərə alınırdı.

Gəncə Apellyasiya Məhkəməsinin Cinayət Kollegiyası müraciətdə göstərilən cinayət işi üzrə mövcud hüquqi məsələyə məhkəmələrin və ittiham tərəfinin müxtəlif yanaşmalarının olmasını əsas gətirməklə, cinayətin residivi və məhkumluq institutlarının hüquqi müəyyənlik prinsipinin tələbləri baxımından yenidən şərh edilməsi üçün Konstitusiya Məhkəməsinə müraciət edilməsinin zəruri olduğu qənaətinə gəlmişdir.

Konstitusiya Məhkəməsinin Plenumu müraciətlə bağlı aşağıdakıların qeyd edilməsini vacib hesab edir.

Cinayət Məcəlləsinin 18.1-ci maddəsinə görə, qəsdən cinayət törətməyə görə əvvəllər məhkum olunmuş şəxs tərəfindən yenidən qəsdən cinayətin törədilməsi cinayətin residivini

yaradır.

Residiv cinayət üçün xarakterik olan əlamətlər aşağıdakılardır:

- residiv şəxsin iki və ya daha artıq müstəqil cinayət törətməsi ilə yaranır;
- residiv yaradan cinayətlərin əsasında konkret cinayətlər durur;
- residiv yaradan cinayətlər müxtəlif vaxtlarda törədilir;
- təkrar törədilən cinayətlərdən fərqli olaraq, residiv qəsdən törədilən əvvəlki cinayətə görə məhkumluğun olmasını və yenidən qəsdən cinayət törədilməsini tələb edir.

Şəxsin əməlində residivin mövcud olması üçün onun əvvəllər qəsdən cinayət törətməyə görə qanunla müəyyən edilmiş qaydada götürülməmiş və ya ödənilməmiş məhkumluğunun olması və onun yenidən qəsdən cinayət törətməsi tələb olunur.

Cinayət Məcəlləsinin 18.4-cü maddəsinə müvafiq olaraq, residivin müəyyən edilməsi zamanı böyük ictimai təhlükə törətməyən cinayətlər, yetkinlik yaşına çatmayanlar tərəfindən törədilmiş cinayətlər, bu Məcəllənin 83-cü maddəsində nəzərdə tutulmuş qaydada götürülmüş və ya ödənilmiş məhkumluqlar, azadlıqdan məhrum etmə ilə bağlı olmayan cəza təyin edilmiş cinayətlərə görə məhkumluqlar nəzərə alınmır.

Cinayətlərin residivinə görə Cinayət Məcəlləsində göstərilən əsaslarla və hədlərdə daha sərt cəzanın tətbiq edilməsi nəzərdə tutulmuşdur. Belə ki, məhkumluğun ödənilmədiyi və ya götürülmədiyi dövrdə şəxs tərəfindən yenidən qəsdən cinayətin törədilməsi həmin şəxsdə cinayət törədilməsinin vərdişə çevirilməsinə, fərdi maraqları ilə cəmiyyətin maraqları arasında davamlı ziddiyyətin olmasına dəlalət edir ki, bu da həmin şəxsin törətdiyi əməlin ictimai təhlükəliliyinə və onun şəxsiyyətinə adekvat qiymətin verilməsini zəruri edir.

Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 18 və 83.1-ci maddələrinin şərh edilməsinə dair" 2010-cu il 6 sentyabr tarixli Qərarında qeyd olunmuşdur ki, şəxsin məhkumluğu ödənilmədən yenidən qəsdən cinayət törətməsi əvvəlki cəzanın islah təsirinin yetərli olmamasına, cəzanın məqsədinə nail olunmamasına, təqsirkarın şəxsiyyətinin yüksək ictimai təhlükəliliyinə dəlalət etdiyindən, qanunverici həmin şəxsə daha sərt cəza tətbiq olunmasını nəzərdə tutmuşdur.

Cinayət Məcəlləsinin 83.1-ci maddəsinin tələbinə görə, cinayət törətməyə görə məhkum edilmiş şəxs məhkəmənin ittiham hökmü qanuni qüvvəyə mindiyi gündən məhkumluğun götürüldüyü və ya ödənildiyi günə qədər məhkum olunmuş hesab edilir. Cinayətlərin residivi zamanı və cəza təyin edilərkən həmin Məcəlləyə uyğun olaraq məhkumluq nəzərə alınır.

Məhkumluq institutunun mahiyyəti ondan ibarətdir ki, məhkumluğu olan şəxs mülki və ya inzibati-hüquqi xarakterli məhrumiyyətlərə məruz qalır, həmin şəxs tərəfindən yeni cinayətin törədilməsi onun vəziyyətinin ağırlaşdırılmasını şərtləndirən cinayət-hüquqi nəticələrin əmələ gəlməsinə səbəb olur. Məhkumluğu olan şəxs tərəfindən yeni cinayətin törədilməsi, bir qayda olaraq, onun sabit kriminal meylliliyinə, məhkəmə tərəfindən edilmiş xəbərdarlığa məhəl qoymamasına dəlalət edir, bu isə nəticə etibarilə onun yüksək ictimai təhlükəliliyini göstərir.

Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 83-cü maddəsinin şərh olunmasına dair" 2009-cu il 25 may tarixli Qərarına əsasən, məhkumluq təkcə şəxsin məhkum olunması və ona cəzanın təyin edilməsi faktı ilə şərtləndirilmir. Məhkumluq şəxs tərəfindən təkrarən cinayət törədilərkən cinayət qanunvericiliyi ilə müəyyən olunmuş hüquqi nəticələrə səbəb olan məhkumun hüquqi vəziyyətini ifadə edir. Şəxsdə olan ödənilməmiş və ya götürülməmiş məhkumluq, onunla dövlət arasında cinayət-hüquqi tənzimləmə əsasında formalaşan, bu şəxs tərəfindən yeni cinayətlər törədilərkən onun şəxsiyyətinin və törətdiyi cinayətlərin yüksək ictimai təhlükəli kimi qiymətləndirilməsinə xidmət edən xüsusi ictimai-hüquqi münasibətləri yaradır və buna görə onun barəsində cinayət-hüquqi xarakterli daha ağır tədbirlərin tətbiqini nəzərdə tutur.

Məhkumluq cinayət törətməyə görə müəyyən cəza növünə məhkum edilmiş şəxs barəsində məhkəmənin ittiham hökmünün qanuni qüvvəyə mindiyi gündən başlanır və bütün cəzaçəkmə müddəti ərzində və cəzaçəkmə müddətindən sonrakı dövrdə qanunla müəyyən edilmiş müddətlər çərçivəsində davam edir.

Qüvvədə olan qanunvericilik məhkumluğun xitamının iki qaydasını nəzərdə tutur: məh-

kumluğun ödənilməsi və ya götürülməsi (Cinayət Məcəlləsinin 83.3 və 83.5-ci maddələri).

Məhkumluğun ödənilməsi şəxsin törətdiyi cinayətə görə məhkum olunması faktı ilə əlaqədar bütün hüquqi nəticələrin qanunla nəzərdə tutulmuş müddətin keçməsi nəticəsində sona yetməsi deməkdir. Bu halda şəxsin məhkum olunmamış hesab edilməsi üçün xüsusi məhkəmə qərarı və yaxud bu faktı təsdiq edən hər hansı başqa sənəd tələb olunmur.

Qüvvədə olan cinayət qanunvericiliyində məhkumluğun ödənilməsi müddətlərinin təyin olunmuş cəzaya və törədilmiş cinayətin xarakterinə uyğun olaraq differensasiyası aparılmışdır.

Cinayət Məcəlləsinin 83.3-cü maddəsinin tələbinə görə aşağıdakı hallarda məhkumluq ödənilmiş hesab olunur:

- böyük ictimai təhlükə törətməyən cinayət törətməyə görə azadlıqdan məhrum etməyə məhkum edilmiş şəxslər barəsində - onlar cəzanı çəkib qurtardıqları gündən bir il keçdikdə;

- az ağır cinayət törətməyə görə azadlıqdan məhrum etməyə məhkum edilmiş şəxslər barəsində - onlar cəzanı çəkib qurtardıqları gündən iki il keçdikdə;

- ağır cinayət törətməyə görə azadlıqdan məhrum etməyə məhkum edilmiş şəxslər barəsində - onlar cəzanı çəkib qurtardıqları gündən altı il keçdikdə;

- xüsusilə ağır cinayət törətməyə görə məhkum edilmiş şəxslər barəsində - onlar cəzanı çəkib qurtardıqları gündən səkkiz il keçdikdə.

Həmin maddədə həmçinin şərti məhkum edilmiş, cəzasının çəkilməsi təxirə salınmış, ittiham hökmü qanunla müəyyən edilmiş müddətdə icra edilməmiş və azadlıqdan məhrum etməyə nisbətən daha yüngül cəza növünə məhkum edilmiş şəxslər barəsində məhkumluğun ödənilməsinin fərqli müddətləri müəyyən edilmişdir.

Göstərilənlərlə yanaşı, şəxs cəzanı çəkib qurtardıqdan sonra nümunəvi davranışı ilə islah olunduğunu sübut edərsə, məhkəmə həmin şəxsin vəsatəti əsasında məhkumluğu vaxtından əvvəl onun üzərindən götürə bilər (Cinayət Məcəllənin 83.5-ci maddəsi).

Cinayət Məcəlləsinin 83.6-cı maddəsinə müvafiq olaraq, məhkumluğun ödənilməsi və ya götürülməsi məhkumluqla bağlı olan bütün hüquqi nəticələri ləğv edir.

Beləliklə, Cinayət Məcəlləsinin 18 və 83-cü maddələrinin tələblərindən göründüyü kimi, residiv qanuni qüvvəyə minmiş hökmlə azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş, ödənilməmiş və ya götürülməmiş məhkumluğu olan şəxs tərəfindən yenidən qəsdən cinayət əməlinin törədildiyi andan yaranır.

Müraciətdə qeyd olunmuş şəxsin cinayətlərin və ya hökmlərin məcmusu üzrə bir hökmlə iki əsas cəzaya məhkum edildiyi halda, məhkumluğun ödənilməsi müddətlərinin cinayət qanunvericiliyi ilə tənzimlənməməsinə dair məsələyə gəldikdə Konstitusiya Məhkəməsinin Plenumu əvvəlki qərarlarında formalaşdırdığı hüquqi mövqelərinin və Cinayət Məcəlləsinin müvafiq normalarının nəzərdən keçirilməsini vacib hesab edir.

Belə ki, Cinayət Məcəlləsinin 83.4 və 83.4-1-ci maddələrinə görə, məhkum edilmiş şəxs qanunla müəyyən edilmiş qaydada vaxtından əvvəl cəza çəkməkdən azad edildikdə və yaxud cəzanın çəkilməmiş hissəsi daha yüngül cəza növü ilə əvəz edildikdə, məhkumluğun ödənilməsi müddəti əsas və əlavə cəzanı çəkməkdən azad edildiyi vaxtdan hesablanır. Əsas cəzanı çəkib qurtarmış, yaxud əsas cəzasını çəkməkdən vaxtından əvvəl azad edilmiş və ya cəzasının çəkilməmiş hissəsi daha yüngül cəza növü ilə əvəz edilmiş şəxsin çəkilməmiş əlavə cəzası olduğu hallarda, məhkumluğun ödənilməsi müddəti əlavə cəzanın çəkilib qurtardığı gündən hesablanır.

Konstitusiya Məhkəməsinin Plenumu "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 83-cü maddəsinin şərh olunmasına dair" 2009-cu il 25 may tarixli Qərarında belə nəticəyə gəlmişdir ki, Cinayət Məcəlləsinin 83.3 və 83.4-cü maddələrinin mənasına görə şəxs cinayətlərin və ya hökmlərin məcmusu üzrə məhkum olunduqda, məhkumluğun ödənilmə müddətinin axımı cinayətlərin və ya hökmlərin məcmusu üzrə təyin edilmiş qəti cəzanın çəkilib qurtarması və ya cəzadan azad edilməsi anından başlayır.

Eyni yanaşma Konstitusiya Məhkəməsi Plenumunun yuxarıda qeyd olunan 2010-cu il 22 dekabr tarixli Qərarında da sərgilənmiş və göstərilmişdir ki, Cinayət Məcəlləsinin 68.2-ci maddəsində nəzərdə tutulmuş cəzalar toplandıqda məhkumluğun ödənilmə müddətinin axımı

cinayətlərin və ya hökmlərin məcmusu üzrə təyin edilmiş qəti cəzanın çəkilib qurtarması və ya cəzadan azad edilməsi anından başlayır.

Konstitusiya Məhkəməsi Plenumunun göstərilən qərarlarındakı bu mövqeyi ondan irəli gəlir ki, cinayətlərin və ya hökmlərin məcmusu üzrə təyin edilmiş qəti cəza vahid məhkumluğun yaranması ilə nəticələndiyindən, məhkumluğun ödənilməsi müddətinin axımının başlanğıcı da bir anla əlaqələndirilməlidir.

Göründüyü kimi, Cinayət Məcəlləsinin qeyd olunan normaları ilə əsas və əlavə cəzalarla bağlı məhkumluğun ödənilməsi müddətinin başlanğıcına dair məsələnin tənzimlənməsinə baxmayaraq, Konstitusiya Məhkəməsi Plenumunun qeyd olunan qərarlarında əks olunmuş hüquqi mövqelər cinayətlərin və ya hökmlərin məcmusu üzrə yalnız əsas və əlavə cəzalara məhkum olunma ilə əlaqədar deyil, təyin olunmuş cəzaların hər biri əsas cəza olduğu hallara da aiddir.

Müraciətin edilməsinə səbəb olan hal isə "Azərbaycan Respublikası Cinayət Məcəlləsinə dəyişiklik edilməsi barədə" 2017-ci il 20 oktyabr tarixli Azərbaycan Respublikasının Qanunu ilə Cinayət Məcəlləsinin 18.4-cü maddəsində təsbit edilmiş residivin müəyyən edilməsi zamanı nəzərə alınmayan halların dairəsinin genişləndirilərək azadlıqdan məhrum etmə ilə bağlı olmayan cəza təyin edilmiş cinayətlərə görə məhkumluqların əlavə edilməsi olmuşdur.

Konstitusiya Məhkəməsinin Plenumu əvvəlki qərarlarında əks olunmuş hüquqi mövqelərini və Cinayət Məcəlləsinin 83.4-1-ci maddəsinin tələblərini nəzərə alaraq bir daha qeyd edir ki, bir hökmlə qəti olaraq bir neçə cəzaya (həmin cəzaların hər birinin əsas cəza yaxud əsas və əlavə cəza olmasından asılı olmayaraq) məhkum edilmiş şəxsin məhkumluğunun ödənilməsi müddətinin axımı ümumi qaydaya müvafiq olaraq şəxs barəsində təyin edilmiş qəti cəzanın çəkilib qurtarması və ya cəzadan azad edilməsi anından başlayır və bu zaman qəti cəzanın parçalanmasına, hər bir cəza üçün məhkumluq müddətinin müstəqil, yəni cəzalardan birinə görə bu müddətin bir tarixdən, digərinə görə isə başqa tarixdən hesablanmasına yol verilə bilməz.

Şəxs təyin olunmuş cəzalardan birini çəkməkdə davam etdiyi vəziyyətdə (nə qədər ki bu cəza qəti cəzanın tərkib elementidir) o, hökmlə müəyyən edilmiş cəzanı çəkib qurtarmış hesab edilə bilməz və bu səbəbdən ayrıca olaraq çəkilib qurtarmış cəzaya görə məhkumluğun ödənilməsi müddətinin axımının başlanması istisna edilir.

Qəti cəzanın tərkibinə daxil olan cərimə cəzasının residivin müəyyən edilməsi zamanı nəzərə alınmamasının mümkünlüyü ilə bağlı müraciətdə qaldırılmış məsələyə dair qeyd olunmalıdır ki, Cinayət Məcəlləsinin 18.4.4-cü maddəsində məhz azadlıqdan məhrum etmə ilə bağlı olmayan cəzanın yaratmış olduğu məhkumluğun nəzərə alınmaması müəyyən edildiyindən, cinayətlərin və ya hökmlərin məcmusu üzrə təyin edilmiş qəti cəzanın tərkib elementi olan cərimə cəzası residivin yaranmasına səbəb olmayan məhkumluq kimi qiymətləndirilə bilməz.

Bu halda cinayətlərin residivi bütün cəzalar çəkilib qurtardıqdan, o cümlədən cərimə cəzası ödənildikdən sonra məhz azadlıqdan məhrum etmə cəzasına görə axmağa başlamış, lakin hələ bitməyən məhkumluğun ödənilməsi müddətində qəsdən yeni cinayətin törədilməsinə görə müəyyən edilir. Başqa sözlə, residivi şərtləndirən hallar qismində şəxsin üzərində azadlıqdan məhrum etmə cəzası ilə bağlı ödənilməyən məhkumluğun olması və qəsdən yeni cinayətin törədilməsi çıxış edir.

Əks yanaşma, vahid hökmlə təyin olunmuş hər bir cəzanın müstəqil hesablanan bir neçə məhkumluq yaratması, həmçinin eyni bir hökmlə müxtəlif cəzalara məhkum olunmuş şəxsin həm məhkumluğu ödənilən, həm ödənilməyən, hətta cəza çəkən şəxs statusunda ola bilməsi kimi yanlış nəticəyə gətirib çıxarar.

Buna görə Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, vahid hökmlə təyin edilmiş qəti cəzanın və onun yaratmış olduğu məhkumluğun bölünməsinə yol verilmədiyindən, Cinayət Məcəlləsinin 18.4-cü maddəsinin tələbləri baxımından cinayətlərin və ya hökmlərin məcmusu üzrə azadlıqdan məhrum etmə və digər cəzaya məhkum olunmuş şəxsin məhkumluğunun ödənilməsi müddətinin başlanğıcı qəti cəzanı çəkib qurtardığı və ya cəzadan azad edildiyi andan hesablanmalı, məhkumluğun ödənilmədiyi və ya götürülmədiyi dövrdə yenidən

edildiyi andan hesablanmalı, məhkumluğun ödənilmədiyi və ya götürülmədiyi dövrdə yenidən qəsdən cinayət törətdikdə isə əməlində residiv müəyyən edilməli və bu hal cinayət qanununun prinsipləri ilə uzlaşmayan vəziyyət kimi qiymətləndirilməməlidir.

Göstərilənlərə əsasən Konstitusiya Məhkəməsinin Plenumu aşağıdakı nəticələrə gəlir:

- Cinayət Məcəlləsinin 18.4.4-cü maddəsi yalnız azadlıqdan məhrum etmə ilə bağlı olmayan cəzaların yaratmış olduğu məhkumluğu nəzərdə tutur;

- Cinayət Məcəlləsinin 18.4 və 83.4-1-ci maddələrinin məzmununa görə, cinayətlərin və ya hökmlərin məcmusu üzrə azadlıqdan məhrum etmə ilə yanaşı digər cəzaya məhkum olunmuş şəxs məhkumluğun ödənilmədiyi və ya götürülmədiyi dövrdə yenidən qəsdən cinayət törətdikdə, onun əməli cinayətin residivini yaradır.

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsini, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 60, 62, 63, 65-67 və 69-cu maddələrini rəhbər tutaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**QƏRARA ALDI:**

1. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 18.4.4-cü maddəsi yalnız azadlıqdan məhrum etmə ilə bağlı olmayan cəzaların yaratmış olduğu məhkumluğu nəzərdə tutur.

2. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 18.4 və 83.4-1-ci maddələrinin məzmununa görə, cinayətlərin və ya hökmlərin məcmusu üzrə azadlıqdan məhrum etmə ilə yanaşı digər cəzaya məhkum olunmuş şəxs məhkumluğun ödənilmədiyi və ya götürülmədiyi dövrdə yenidən qəsdən cinayət törətdikdə, onun əməli cinayətin residivini yaradır.

3. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

4. Qərar Azərbaycan Respublikasının rəsmi dövlət qəzetlərində və "Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı"nda dərc edilsin, habelə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəsmi internet saytında yerləşdirilsin.

5. Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

Sədr Fərhad Abdullayev

# XƏBƏRLƏR

1. 18 noyabr 2022-ci il tarixdə "Badamdar Estates" mehmanxanasında vəkillərin təntənəli təltifetmə mərasimi keçirilib.
2. Baş Prokurorluqda Vəkillər Kollegiyasının rəhbərliyi ilə görüş keçirilmişdir.
3. Vəkillər Kollegiyasının geniş nümayəndə heyəti Özbəkistan Respublikasında keçirilən II Beynəlxalq Vəkillər Konfransında iştirak etmişdir.
4. Gürcüstan Vəkillər Kollegiyasının nümayəndə heyəti Azərbaycana səfər etmişdir.
5. "1958-ci il Nyu-York konvensiyasının şərhinə dair Beynəlxalq Kommersiya Arbitraj Şurasının Təlimatı: Hakimlər üçün əl kitabı"nın təqdimatı keçirilib.
6. Qadın Vəkillər Alyansı Gəncədə regional tədbir keçirmişdir.
7. "Dövlət hesabına göstərilən hüquqi yardımla bağlı qərarların icrası vəziyyətinin öyrənilməsi üzrə" Ümumrespublika Müşavirəsi keçirilmişdir.
8. "Vəkillik və İKT, müasir çağırışlar" mövzusunda tədbir keçirilib.
9. Ölkəmizdə səfərdə olan Avropa Şurasının nümayəndə heyəti ilə Vəkillər Kollegiyasında görüş keçirilib
10. Vəkillər Kollegiyasının üzvü UNESCO-nun Apellyasiya Şurasının alternativ sədri seçilib
11. Vəkillər Kollegiyası Avropa Vəkillər Assosiasiyasına üzv qəbul olunmuşdur
12. Vəkillər Kollegiyasının nümayəndə heyəti Dağıstan vəkilliyinin 100 illiyinə həsr olunmuş tədbirlərdə iştirak etmişdir.
13. Biznes Hüququ Komitəsinin ilk ümumi yığıncağı keçirilmişdir.
14. Ölkədə ilk dəfə 300-dən çox hüquqşünas tələbənin müraciət etdiyi 1 aylıq Yay Məktəbi yekunlaşdı
15. Zəngilan rayonunun Ağalı kəndində "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdış: pozulmuş hüquqlar və onların bərpası" mövzusunda konfrans keçirilib
16. ELAN: MAPS-a ünvanlanan sorğular ilə bağlı problem dərhal öz həllini tapıb
17. Vəkillər Kollegiyasının nəzdində daha 3 Komitə təsis edildi
18. Vəkillər Kollegiyasının rəhbərliyi ilk dəfə CCBE üzvü kimi beynəlxalq konqresdə iştirak edib.
19. Ölkədə ilk dəfə keçirilən "Vəkillik peşəsi uşaqların gözü ilə" rəsm sərgi-müsabiqəsinin rəsmi açılışı baş tutub.
20. Azərbaycan vəkil futbolunun uğurlarına həsr edilən tədbir keçirilmişdir.
21. CCBE-ə üzvlüyə qəbulla bağlı ictimai təqdimat keçirilmişdir.
22. Vəkillər Kollegiyasının dəstəyi ilə Ali Məhkəmədə keçirilən ELSA məhkəmə müsabiqəsinin qalibi məlum oldu.
23. Əli Hüseynli: "Azərbaycan vəkilliyi nüfuzlu beynəlxalq hüquq tribunasına çıxış əldə edib"
24. Məhkəmə iclası təyin olunmuş vaxtda başlamırsa, vəkil necə davranmalıdır?
25. Vəkillər Kollegiyasının 3 nümayəndəsinin də yer aldığı Avropa Şurasının yeni təsis edilmiş Vəkillərin (hüquqşünasların) müdafiəsi üzrə Ekspertlər Komitəsinin ilk iclası keçirilib.
26. "Nə? Harada? Nə zaman?" oyunu üzrə "I Vəkil Kuboku" təşkil olunmuşdur.
27. Milli Məclis sədrinin təşəbbüsü ilə Şəmkirdə ödənişsiz hüquqi yardım aksiyası keçirilib.
28. "Vəkillikdə qadınlar: dünən, bu gün və sabah" mövzusunda dəyirmi masa keçirilmişdir.
29. Vəkillər Kollegiyası və Mediasiya Şurasının birgə müraciəti
30. Avropa Vəkillər Kollegiyaları və Hüquq Cəmiyyətləri Şurası (CCBE) ilə əməkdaşlıq uğurla davam etdirilir.



**18 noyabr 2022-ci il tarixdə "Badamdar Estates" mehmanxanasında vəkillərin təntənəli təltifetmə mərasimi keçirilib.**

Mərasimi açılış sözü ilə açan Kollegiyanın sədri Anar Bağırov tədbirdə iştirak edən hər kəsi salamlayaraq qeyd etmişdir ki, bu gün çox əlamətdar gündür. Müasir vəkilliyin tarixində ilk dəfə Kollegiyanın Ağsaqqallar Şurasının sədri, vəkil İkram Kərimov müzəffər xalqın nümayəndəsi kimi, "Şuşa" ilində cənab Prezidentin müvafiq Sərəncamı ilə Azərbaycan Respublikasında hüquq sahəsində uzunmüddətli səmərəli fəaliyyətinə görə "Şöhrət" ordeni ilə təltif edilib. İ.Kərimovun "Şöhrət" ordeni ilə təltifi cənab Prezident tərəfindən Azərbaycanda vəkillərə göstərilən diqqətin təzahürü kimi qiymətləndiririk.

A.Bağırov çıxış edərək həmçinin İkram Kərimovun bu il 80 illik yubileyini qeyd edərək onun hüquq sahəsindəki məhsuldar fəaliyyəti barədə tədbir iştirakçılarına məlumat vermişdir. O.İ.Kərimovun 18.04.1942-ci il tari xində Kürdəmir şəhərində qulluqçu ailəsində anadan olduğunu, 1966-cı ildən 1987-ci ilə kimi prokrorluq orqanlarında, 1987-ci ildən



2012-ci ilə kimi Respublikanın müxtəlif məhkəmələrində sədr vəzilərində fəaliyyət göstərdiyini qeyd etmişdir. 2019-cu ildən Vəkillər Kollegiyasının üzvü olan İ.Kərimov bir sıra dövlət təltiflərinə layiq görülüb.

Sonra Anar Bağırov İkram Kərimova "Şöhrət" ordenini və vəsiqəsini təntənilə təqdim etmişdir.

Daha sonra, çıxış edən İkram Kərimov qeyd etmişdir ki, "bu gün heç kimə sirr deyil ki, Vəkillər institutu Anar Bağırovun rəhbərliyi ilə yeni keyfiyyət alıb. Anar Bağırov çətinliklə də olsa, Kollegiyanın nüfuzunun yüksəlməsinə nail olub. Hesab edirəm ki, bu mükafat ölkə Prezidentinin mənim timsalında vəkilliyə olan diqqətinin bariz nümunəsidir.

Tövsiyəm ondan ibarətdir ki, vəzifəsindən asılı olmayaraq, hər kəs mənalı



ömür sürməli, insanlara faydalı olmalıdır. Vəzifəsindən asılı olmayaraq, hakim, müstəntiq, vəkil – bir sözlə, bütün hüquqşünaslar hər zaman ədalətin, haqqın bərpasına çalışmalıdır. Arzu edirəm və inanıram ki, gələcəkdə bu ordeni alan vəkillərin sayı artacaq".

Daha sonra Azərbaycan Respublikasının Hərbi prokuroru, Baş prokurorunun müavini Xanlar Vəliyev çıxış edərək qeyd etmişdir ki, "bilirsiniz ki, Cinayət mühakimə icraatının təməl daşı müstəntiqdir. İkram müəllim də sözün əsl mənasında ən yaxşı müstəntiq kimi tanınıb. Hər zaman ədalətli, obyektiv dövlətini sevən insandır. Ümumiyyətlə, mən deyə bilərəm ki, bu gün də Vəkillər Kollegiyasının sıralarında dövlət və dövlətçi-

lik ideyalarına sadiq adamlar birləşib". X.Vəliyev Kollegiyanın son dövrlərdəki fəaliyyətini, inkişafını müsbət qiymətləndiridiyini qeyd edərək İkram müəllimi təbrik etmiş və ona gələcək həyatında uğurlar arzulamışdır.

Tədbirdə, həmçinin, hüquq müdafiəçisi, sabiq deputat Çingiz Qənizadə, Azərbaycan Banklar Assosiasiyasının prezidenti Zakir Nuriyev, Kollegiyanın üzvləri, eyni zamanda, hüquq elmləri doktorları Namiq Əliyev və Alış Qasımov, "Yusifbəyli və partnyorları" vəkil bürosunun müdiri Rəsul Yusifbəyli çıxış edərək İ.Kərimovun keçdiyi həyat yolu, onun fəaliyyəti, Kollegiyanın son dövrlərdəki fəaliyyəti barədə öz fikirlərini bölüşmüşlər.

Daha sonra, fəaliyyətləri dövrlərində fərqlənən və həmçinin yubileylərini qeyd edən Kollegiyanın bir qrup üzvləri təltif olunmuş və xatirə fotosu çəkilmişdir.



**Baş Prokurorluqda Vəkillər Kollegiyasının rəhbərliyi ilə görüş keçirilmişdir.**

Noyabrın 16-da Baş prokuror Kamran Əliyev Vəkillər Kollegiyasının Rəyasət Heyətinin sədri Anar Bağırovla görüşmüşdür.

Rəyasət Heyətinin sədrini və üzvlərini səmimi salamlayan Baş prokuror Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə müvəffəqiyyətlə həyata keçirilən məhkəmə-hüquq islahatları



çərçivəsində prokurorluq orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində görülmüş tədbirlər məlumat vermişdir.

Kamran Əliyev hüquqi dövlət quruculuğu və insan hüquqlarının müdafiəsi sahəsində səylərin gücləndirilməsinin dövlət siyasətinin əsas prioritetlərindən biri kimi müəyyən edildiyini vurğulayaraq qanunvericilik və institusional islahatlarla ölkəmizdə insan və vətəndaş hüquq və azadlıqlarının təmini istiqamətində effektiv müdafiə mexanizmlərinin formalaşdırıldığını, dövlət orqanlarının fəaliyyətinin insan hüquqlarının təmini baxımından təkmilləşdirilməsinin mühüm əhəmiyyətini qeyd etmişdir.

Görüşə görə minnətdarlığını bildirən Vəkillər Kollegiyasının Rəyasət Heyətinin sədri Anar Bağırov cinayət mühakimə icraatında ittihamı və müdafiəni həyata keçirən təsisatlar olaraq cinayət mühakimə icraatının obyektivliyi, qərəzsizliyi və ədalətliliyi istiqamətində, habelə hüquqi yardım almaq və müdafiə hüququnun təmin edilməsində ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorluq orqanları ilə səmərəli və işgüzar münasibətlərin vacibliyini bildirmişdir.

Görüş zamanı cinayət prosesinin həyata keçirilməsi zamanı meydana çıxan aktual məsələlər üzrə fikir mübadiləsi aparılmışdır.



**Vəkillər Kollegiyasının geniş nümayəndə heyəti Özbəkistan Respublikasında keçirilən II Beynəlxalq Vəkillər Konfransında iştirak etmişdir**

2022-ci il 4 noyabr tarixdə Özbəkistan Respublikasının Vəkillər Palatasının Ədliyyə Nazirliyi, BMT-nin İnkişaf Proqramı, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT - OSCE) Özbəkistan Respublikası üzrə Layihə Koordinatoru, BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlıq (İHAK) Mərkəzi Asiya üzrə Regional Ofisi ilə birgə təşkil etdiyi Özbəkistan Respublikasının paytaxtı Daşkənd şəhərində «Vəkillik peşəsinin inkişaf perspektivləri: Özbəkistan və xarici ölkələrin təcrübəsi» mövzusuna həsr olunmuş II Beynəlxalq Vəkillər Konfransında baş tutmuşdur.

Beynəlxalq təşkilatların və 20-dən çox ölkənin vəkillər kollegiyalarının nümayəndələrinin iştirak etdiyi tədbirdə Azərbaycan Respublikasının Vəkillər Kollegiyasının geniş nümayəndə heyəti də iştirak etmişdir.






Konfransın əsas məqsədi xarici ölkələrin vəkillər kollegiyalarının nümayəndələrinin təcrübə mübadiləsi və rəqəmsallaşma dövründə vəkilliyin perspektivləri ilə bağlı eks pert rəylərini nəzərdən keçirmək, qabaqcıl təcrübələri öyrənmək və pulsuz hüquqi yardım sahəsində yaranan problemlərin həlli yollarını tapmaq olmuşdur.

Konfransın açılış nitqində Özbəkistan Respublikasının Vəkillər Palatasının sədri Alim Ernazarov və digər məsul şəxslər dünyada vəkillik fəaliyyətinin həyata keçirilməsi zamanı üzləşilən problemlər, onların həlli yolları, gələcək perspektivlər və bir sıra digər məsələlər üzrə çıxışlar etmişlər.

Daha sonra konfrans öz fəaliyyətini 4 fərqli



sessiya zalında keçirilən plenar iclaslarda davam etdirmişdir.

İlk plenar iclasda «Pulsuz hüquqi yardım və Pro bono: 2018-ci ildən Azərbaycan Respiblikasının təcrübəsi» mövzusunda çıxış edən Azərbaycan Respublikasının Vəkillər Kollegiyasının sədri Anar Bağırov və üzvü Gülşən Salmanova ölkəmizdə aparılan məhkəmə-hüquq islahatları, o cümlədən Azərbaycanda vəkillik institunun nüfuzunun artırılması istiqamətində həyata keçirilmiş tədbirlər, habelə qanunvericiliyin təkminləşdirilməsi, ölkə başçısının bir sıra fərmanları, onların əhəmiyyəti, pulsuz hüquqi yardımın göstərilməsi ilə əlaqədar mövcud problemlər, görülmüş işlər, qarşıda duran vəzifələr və perspektivlərlə bağlı məlumatları

tədbir iştirakçılarının diqqətinə çatdırmışdır.

«Biz Azərbaycan Respublikasının Vəkillər Kollegiyası üçün müxtəlif aktual məsələlər üzrə Özbəkistan Respublikasının və xarici ölkələrin təcrübəsi ilə birbaşa tanış olmaq üçün unikal imkan əldə etdik», - deyə A.Bağırov forumun yekunları üzrə qeyd edib.

Bundan əlavə, forumun plenar iclaslarında spiker qismində Azərbaycan Respublikasının Vəkillər Kollegiyasının 4 nümayəndəsi çıxış etmişdir.

İkinci plenar iclasda məruzəçilərdən ARVK-nın üzvü Şaiq Mirzəyev «Azərbaycan Respublikasında sahibkarlığın hüquqi müdafiəsi» mövzusunda çıxış etmişdir. Ş. Mirzəyev sahibkarlığa dəstək üzrə dövlət siyasəti, sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsi sistemi və "bir pəncərə" siyasəti, sahibkarlığın dəstəklənməsində ARVK-nın rolu və iştirakı, Biznes hüququ komitəsinin yaradılması və bir sıra digər aktual məsələləri tədbir iştirakçılarının diqqətinə çatdırmışdır.

Daha sonra, üçüncü plenar iclasda «Azərbaycan Respublikasında vəkillik peşəsinin rəqəmsallaşması: mövcud vəziyyət və gələcək perspektivlər» mövzusunda çıxış edən Yunis Nəsibov maraqlı təqdimatlar keçirmiş, iştirakçıları ölkəmizdə yaradılan elektron hökümət, elektron məhkəmə sistemi, mobil notariat, vəkillərin elektron portallara inteqrasiyası, həmçinin ARVK-nın internet saytı, elektron vəkil kabineti və bir sıra digər rəqəmsal yeniliklər ilə yaxından tanış etmişdir.

Sonda isə, dördüncü plenar iclasda «Azərbaycan Respublikasında vəkillərin peşə hazırlığının əsas prioritetləri» mövzusunda hazırladığı təqdimat ilə çıxış edən Arif Məmmədov, vəkillərin peşə hazırlığının və ixtisasının artırılması sahəsində zəruri tədbirlərin görülməsi, peşə hazırlığının beynəlxalq standartlara ca vab verməsi, bu sahədə mövcud problemlər, görülmüş işlər, habelə qarşıda duran vəzifələr və perspektivlərlə bağlı məlumatları tədbir iştirakçılarının diqqətinə çatdırmışdır.

Forum çərçivəsində bir sıra ölkələrin vəkillər kollegiyalarının rəhbərləri ilə ikitərəfli görüşlər zamanı Anar Bağırov daha sıx faydalı əməkdaşlığın inkişaf etdirilməsi barədə qarşılıqlı fikir mübadiləsi aparmışdır.

Bundan əlavə, ARVK-nın sədri cənab Anar Bağırov və nümayəndə heyəti tədbir çərçivəsində uzun illərdir Özbəkistan Respublikasında yaşayan, əslən Şuşadan olan Özbəkistan Vəkillər Kollegiyasının və Yazıçılar Birliyinin üzvü Əli Nəsirli ilə görüşmüşdür. Qeyd edək ki, Əli Nəsirli Azərbaycan və Özbəkistan Respublikaları arasında əlaqələrin inkişafında göstərdiyi yüksək xidmətlərə görə Özbəkistan və Azərbaycan Respublikalarının «Dostluq» ordeni ilə təltif edilmişdir.

II Beynəlxalq Vəkillər Konfransında iştirak etmiş digər vəkillər - Muxtar Mustafayev, Şəfayət Həsənov, Kamandar Nəsibov, Mehman Muradlı, Polad Mehdiyev, Vüsal Mirzəyev, Zaur Abiyev, Gülşən Salmanova, Elxan Quliyev, İlhamə Həsənova, Arif Məmmədov, Amid Məmmədov, Rəsul Yusifbəyli  və Seymur Səfərov plenar iclaslarda fəal iştirak etmiş, mövzularla bağlı fikir mübadiləsi aparmışdırlar.

Sonda tədbir iştirakçıları üçün Özbəkistan Vəkillər Palatası tərəfindən rəsmi ziyafət və Özbəkistan Respublikasının tarixi məkanlarına səfərlər təşkil olunmuşdur.






**Gürcüstan Vəkillər Kollegiyasının nümayəndə heyəti Azərbaycana səfər etmişdir.**

Bu gün ölkəmizdə səfərdə olan Gürcüstan Respublikası Vəkillər Kollegiyasının sədri, Avropa Vəkillər Assosiasiyasının (AEA-EAL) vitse-prezidenti cənab David Asatianinin rəhbərlik etdiyi nümayəndə heyəti Vəkillər Kollegiyasının rəhbərliyi ilə görüşmüşdür.

Görüşdə Kollegiyanın sədri Anar Bağırov qonaqları salamlamış, son dövrlər hər 2 Kollegiya arasında qurulmuş səmərəli əməkdaşlıq münasibətlərindən, faydalı və qar şılıqlı fəaliyyətdən, əlaqələrin daim inkişaf etdirildiyindən bəhs etmişdir.

Geniş təqdimat ilə çıxış edən Vəkillər Kollegiyasının Aparat rəhbəri Bayram Orucov ötən dönəm ərzində yerli və xüsusilə beynəlxalq arenada Kollegiya tərəfindən görüşən işlər barədə təfərrüatlı məlumat vermişdir.

Daha sonra Gürcüstan Vəkillər Kollegiyasının



sədri David Asatiani çıxış edərək bildirib ki, "Azərbaycan Vəkillər Kollegiyası beynəlxalq səviyyədə çox böyük nüfuz qazanıb, CCBE və bir sıra beynəlxalq formatlarda layiqli şəkildə təmsil olunur. Hesab edirəm ki, burada Vəkillər Kollegiyasının sədri Anar Bağırovun böyük xidməti var. Çünki o, Azərbaycan vəkilliyini daim yeniliklərlə inkişaf etdirir. Məncə, azərbaycanlı həmkarlarım belə nüfuzlu və fəal sədrlə fəxr etməlidirlər".

O, iki ölkə arasında vəkillik sahəsindəki əməkdaşlığı yüksək qiymətləndirib: "Gürcüstan Vəkillər Kollegiyası ilə Azərbaycan Vəkillər Kollegiyası uzun illərdir ki, çox fəal şəkildə əməkdaşlıq edir. Birincisi, ona görə ki, biz qardaş ölkələrik, mehriban qonşuluq münasibətlərimiz var. Digər tərəfdən, peşəkar əlaqələrimiz mövcuddur. Bilirsiniz ki, hər iki



ölkənin vətəndaşları da fəal şəkildə həm biznes, həm də iqtisadi əlaqələr qurublar və bu əlaqələr inkişaf etməkdədir. Həm vətəndaşların, həm də biznes subyektlərinin hüquqlarının müdafiəsi bizdən böyük məsuliyyət tələb edir. Bu da daha sıx əməkdaşlıq etməyimizə təkan verir. Mən Azərbaycan vəkillərinə fəaliyyətlərində uğurlar arzulayır və əlaqələrimizin daha da inkişaf edəcəyinə ümid edirəm".

O cümlədən, nümayəndə heyətləri tərəfindən ünvanlanan suallar cavablanmış, fikir mübadiləsi aparılmışdır.

Görüşdə həmçinin Gürcüstan Vəkillər Kollegiyası İdarə Heyətinin üzvləri - xanım Mari

am Kublashvili, cənab Tarieli Kakabadze və kollegiyanın üzvü Amiran Giguashvili və Azərbaycan Vəkillər Kollegiyasının Rəyasət Heyətinin üzvü Lalə Nağıyeva və Kollegiyanın Beynəlxalq Əməkdaşlıq şöbəsinin müdiri Nərmin Abbasova iştirak etmişlər.

Görüşün sonunda xatirə fotosu çəkil mişdir.

Sonra qonaqlar Kollegiyanın Hüquqi Yardım və Tədris Mərkəzini ziyarət ediblər. Mərkəzin direktoru Şahmar Məmmədov qonaqlara Mərkəzin fəaliyyəti barədə ətraflı məlumat vermişdir.

Daha sonra qonaqlar "Kamandar Nəsibov və Partnyorları" Vəkil Bürosunda olublar. Məlumat verilib ki, Vəkillər Kollegiyasının dəstəyi ilə ofisdə Dünya Vəkillik tarixinin simvolu olan "Dünya Vəkil Cübbələri Muzeyi" yaradılıb və dünyanın müxtəlif ölkələrindən Vəkil cübbələri (Mantiya) gətirilib. Bildirilib ki, muzeyin kolleksiyasında ümumilikdə 10 minə yaxın eksponat yerləşir.

Sonda qonaqlar üçün rəsmi ziyafət təşkil edilib.




**"1958-ci il Nyu-York konvensiyasının şərhinə dair Beynəlxalq Kommersiya Arbitraj Şurasının Təlimatı: Hakimlər üçün əl kitabı"nın təqdimatı keçirilib**

Oktyabrın 28-də "1958-ci il Nyu-York Konvensiyasının şərhinə dair Beynəlxalq Kommersiya Arbitraj Şurasının (ICCA) Təlimatı: Hakimlər üçün əl kitabı"nın təqdimatı keçirilib.

BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığının maliyyəsi və Vəkillər Kollegiyası ilə KOBİA-nın təşkilatçılığı ilə keçirilən tədbirdə Vəkillər Kollegiyasının Rəyasət Heyətinin sədri Anar Bağırov, KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov, deputatlar, vəkillər, elm xadimləri, ekspertlər və hüquqşünaslar iştirak ediblər.

Əvvəlcə Vəkillər Kollegiyasının sədri Anar Bağırov çıxış edərək bildirilib ki, Vəkillər Kollegiyası ilə BMT və onun ixtisaslaşdırılmış təşkilatları, xüsusilə də İnsan Hüquqları üzrə Ali Komissarlıq arasında uzun müddətli və səmərəli əməkdaşlıq var. Bu əməkdaşlıq çərçivəsində bir sıra dərs və metodik vəsaitlər çap olunub, regionlarda vətəndaşların keyfiyyətli hüquqi yardım almaq hüququnun təmin olunması ilə bağlı vətəndaşlara ödənişsiz hüquqi yardımlar göstərilib. Eyni zamanda 20-dən çox vəkil BMT və onun ixtisaslaşdırılmış orqanları ilə əməkdaşlıq çərçivəsində hakimlər, vəkillər, ədliyyə və prokurorluq orqanı əməkdaşları üçün təşkil olunan təlimlərdə təlimçi kimi fəaliyyət göstərirlər.

Sədr təqdimatı keçirilən vəsaitin hüquq ictimaiyyəti üçün əhəmiyyətindən danışaraq tədbirin ərsəyə gəlməsində xüsusi rolu olan BMT-nin İnsan Haqları Komissarlığının Azərbaycan Ofisinə, xüsusilə Komissarlığın milli müşaviri Kamran Bağırova, Beynəlxalq Kommersiya Arbitraj Şurasının (ICCA-nın) təmsilçisi Deyvid Reyzenberqə, habelə təqdimatı keçirilən kitabın Azərbaycan dilində hazırlanmasında xüsusi əməyi keçmiş Vəkillər Kollegiyasının üzvləri Toğrul Quluzadə və Şahlar Məmmədova təşəkkürünü bildirib.

"Qeyd olunan kitabın bir neçə il əvvəl nəşr olunmasına baxmayaraq, hesab edirəm ki, onun ölkəmizdə məhz bu dövrdə işıq üzü görməsi xüsusilə əlamətdardır. Düzdür, ölkəmiz Xarici ticarət arbitrajı haqqında Av-

ropa Konvensiyasına 1996-cı ildə, Nyu-York Konvensiyasına 1999-cu ildə qoşulmuşdur, həmçinin təxminən eyni dövrdə “Beynəlxalq arbitraj haqqında” Qanun qəbul olunsa da, etiraf etmək lazımdır ki, qeyd olunan Arbitraja müraciət son illər daha da aktuallaşmışdır. Fikrimcə, bu aktuallaşmada ölkədə biznes mühitinin inkişafı, onun sağlamlaşdırılması mühüm rol oynayır”, - deyə A.Bağırov qeyd edib.

Daha sonra tədbirdə çıxış edən Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədov biznes mübahisələrinin alternativ həll yolu kimi arbitrajın tətbiqi və təşviqinin əhəmiyyətinə toxunub, bu sahədə Agentliyin göstərə biləcəyi dəstək barədə məlumat verib. Qeyd edib ki, arbitrajla bağlı beynəlxalq təcrübənin öyrənilməsi və təbliği məqsədilə nüfuzlu beynəlxalq arbitrların, təşkilatların və kommersiya arbitraj mərkəzlərinin nümayəndələrinin iştirakı ilə konfrans və se minarlar keçirilə bilər. O.Məmmədov bildirib ki, belə tədbirlərin təşkilinə KOBİA da öz dəstəyini göstərə bilər. Kommersiya hüququ sahəsində arbitraj üsulunun tətbiqi xarici investorların öz hüquqlarının qorunmasının əlavə qarantiya mexanizminə çevrilməklə onların ölkəyə investisiya etməsinin və bununla da kiçik və orta biznesin hərəkətliliyinin daha da artırılmasına xidməti mümkündür.

“Mübahisələrin alternativ həlli ilə bağlı KOBİA qarşısında mühüm istiqamətlər durur. Abritraj qurumları yaradılarkən müvafiq dövlət dəstəyinin göstərilməsi, zəruri hüquqi bazanın yaradılmasını vacibdir. Arbitraj bütün dünyada xarici investorlar üçün mübahisələrin həllinə üstünlük verən metoda çevrilib. Güclü abritraj qanunun olması xarici investiyanın axışı üçün böyük imkan yaradır”, - deyə KOBİA sədri vurğulayıb.

Ədliyyə Nazirliyinin İnsan hüquqları və ictimaiyyətlə əlaqələr idarəsinin rəisi Aynur Sabitova da çıxışında belə bir kitabın Azərbaycan dilinə tərcümə olunmasını yüksək qiymətləndirib. O, vəsaitin əhəmiyyətindən danışıb və nəşrin ərsəyə gəlməsində rolu olanlara təşəkkür edib.



Tədbirdə eyni zamanda çıxış edən Beynəlxalq Kommersiya Arbitraj Şurasının (ICCA-nın) təmsilçisi Deyvid Reyzenberq həmin təşkilatın yaradılması tarixi və onun yaradılmasının əhəmiyyətindən beynəlxalq səviyyədə baş vermiş real kazuslardan istifadə etməklə danışmış, müasir dövrdə dünya ölkələrin böyük əksəriyyətinin (170 ölkənin) Nyu-York konvensiyasına qoşulmasının baş tutmuş olmasından lakin, hələ də bəzi ölkələrin qoşulmaması barədə məlumat vermişdir. O, həmçinin dövlətin beynəlxalq səviy yədə kommersiya fəaliyyətinə dəstəyinin ən önəmli nümunələrindən birinin də 1958-ci il konvensiyasına hələ 22 il bundan öncə qoşulmağın olduğunu bildirmişdir. O, həmçinin “Əl-Qərqani” işi üzrə arbitraj qərarının icrası haqqında təqdimatla da çıxış etmişdir.

Qeyd edək ki, Nyu-York Konvensiyasının şərhinə dair hakimlər üçün əl kitabı xarici arbitraj qərarlarının tanınması və icrası sahəsinin daha təfərrüatlı öyrənilməsi və tətbiqi məqsədilə 2011-ci ildə Beynəl xalq Kommersiya Arbitraj Şurası (ICCA) tərəfindən nəşr olunub. Kitab 10-dan çox dilə, o cümlədən Azərbaycan dilinə tərcümə edilib. Kitabın Azərbaycan dilində tərcüməsi beynəlxalq təşkillatın əsas veb-saytında hər kəs üçün əl çatan olması üçün yerləşdiril mişdir.

Qeyd edək ki, ICCA-nın rəsmi veb-saytında bu kitab dünya ictimaiyyəti üçün müxtəlif dillərdə mövcuddur və artıq bu dillər sırasına hazırda azərbaycan dili də əlavə edilmişdir. Kitabın elektron versiyası ilə buradan tanış ola bilərsiz.





**Qadın Vəkillər Alyansı Gəncədə regional tədbir keçirmişdir.**

22.10.2022-ci il tarixində Vəkillər Kollegiyasının Qadın Vəkillər Alyansı Gəncə şəhərində regional görüş keçirmişdir. Tədbirdə Qadın Vəkillər Alyansının sədri, təsisçiləri, Gəncə, Şəmkir, Mingəçevir və digər rayonlarda vəkillik fəaliyyəti ilə məşğul olan qadın vəkillər, “Təmas Regional İnkişaf” İctimai Birliyinin rəhbəri, eyni zamanda Gəncə 1 saylı Mediasiya Təşkilatının direktoru Südabə Məmmədova və digər şəxslər iştirak etmişlər.

Tədbiri giriş sözü ilə açan Alyansın sədri vəkil Dilarə Əfrasiyabova Qadın Vəkillər Al yansının fəaliyyəti haqqında tədbir iştirakçılarına geniş məlumat vermişdir. O, Alyansın əsas məqsədini tədbir iştirakçılarının diqqətinə çatdırmışdır.

Daha sonra tədbirə onlayn qaydada qoşulan Vəkillər Kollegiyasının sədri Anar Bağırov tədbir iştirakçılarını salamlamış və onlara fəaliyyətlərində uğurlar arzulamışdır. O, qadın vəkillərin cəmiyyətdə rolu, həssas



də gender balansının təmin edilməsinin vacibliyini vurğulamışdır. A.Bağırov həmçinin Vəkillər Kollegiyasının Alyansın hər cür təşəbbüsünü dəstəklədiyini və dəstəkləyəcəyini qeyd etmişdir.

Tədbirdə regionlarda fəaliyyət göstərən qadın vəkillərin problemləri dinlənilmiş, mövzü ətrafında müzakirələr aparılmışdır. İclasda iştirak edən qadın vəkillər Alyansa üzv qəbul edilmişlər.

Səfər çərçivəsində Alyansın fəaliyyət istiqamətini genişləndirmək məqsədilə Gəncə şəhərində bir sıra görüşlər keçirilmişdir. O cümlədən, Alyansın üzvləri “Təmas” Regional İnkişaf İctimai Birliyinin direktoru Südabə Məmmədova tərəfindən İB-yin ofisinə dəvət olunmuşlar. Görüşdə təşkilatın rəhbərləri Südabə Məm-



mədova və Kübra Ələkbərova tərəfindən İB-in fəaliyyəti haqqında geniş məlumat verilərək, regionda yaşayan qadınların problemləri qo naqlarla müzakirə edilmiş və onların həlli istiqamətində Qadın Vəkillər Alyansı ilə birgə əməkdaşlığa başlamağa qərar verilmişdir. Vəkil xanımlar Təmas RİİB nin nəzdində fəaliyyət göstərən “Həssas vəziyyətdə olan zorakılıq qurbanları üçün reabilitasiya və reintiqrasiya mərkəzinin sığınacağı”na baş çəkib sakinlərin problemlərini dinlədilər.

Görüşün davamı olaraq, Alyans iştirakçıları 1 saylı Gəncə Mediasiya Təşkilatında da olmuşlar. Görüş iştirakçıları təşkilatın ofisi ilə tanış olmuşlar, orada mediasiya haqqında geniş müzakirələr aparmışlar.



**“Dövlət hesabına göstərilən hüquqi yardımla bağlı qərarların icrası vəziyyətinin öyrənilməsi üzrə” Ümumrespublika Müşavirəsi keçirilmişdir**

24.10.2022-ci il tarixdə “Dövlət hesabına göstərilən hüquqi yardımla bağlı qərarların icrası vəziyyətinin öyrənilməsi üzrə monitorinq hesabatı” mövzusunda geniş tərkibdə “Badamdar Estate” mehmanxanasında Ümumrespublika Müşavirəsi keçirilmişdir. Vəkillər Kollegiyası Rəyasət Heyəti, İntizam və İxtisas Komissiyasının üzvlərinin, 100-dən çox vəkil bürosu və fərdi vəkillərin iştirak etdiyi Müşavirədə dövlət büdcəsinin vəsaiti hesabına göstərilən hüquqi yardım işi ilə bağlı aparılan monitorinqin nəticələrinin təhlili, bu sahədə mövcud olan problemlər müzakirə olunmuşdur.

Müşavirəni giriş sözü ilə açan Vəkillər Kollegiyasının sədri Anar Bağırov qeyd etmişdir ki, cənab Prezident İlham Əliyevin Azərbaycan vəkilliyinə göstərdiyi diqqət və böyük etimadın nəticəsi olaraq 03 aprel 2019-cu il tarixli Fərmanı ilə dövlət büdcəsi hesabına göstərilən hüquqi yardıma görə



ödənilən pul vəsaitinin ödənilməsi Vəkillər Kollegiyasına həvalə edilmişdir. Bu sahədə Kollegiya öz üzərinə götürdüyü öhdəlikləri tam icra edir.

Sonra Vəkillər Kollegiyasının Hüquqi Yardım və Tədris Mərkəzinin direktoru Şahmar Məmmədov və Mərkəzin təlimçisi Anar Əsədov dövlət hesabına hüquqi yardımın həyata keçirilməsi ilə bağlı çıxış etmişlər.

Daha sonra Mərkəzin direktor müavini Afət Qazıyeva çıxış edərək bildirmişdir ki, dövlət hesabına göstərilən hüquqi yardımla bağlı qərarların icrası vəziyyətinin öyrənilməsi üzrə Monitorinqin aparılması Azərbaycan Respublikası Vəkillər Kollegiyasının Rəyasət Heyətinin dəyərli



və davamlı dəstəyi sayəsində mümkün olmuşdur.

Qeyd olunmalıdır ki, Azərbaycan Respublikasının Vəkillər Kollegiyasının Rəyasət Heyətinin 23 fevral 2022-ci il tarixli 03 saylı qərarına əsasən dövlət hesabına göstərilən hüquqi yardımla bağlı qərarların icrası vəziyyətinin öyrənilməsi məqsədilə minitorinq qrupu yaradılmışdır. Bugünkü tədbir də məhz buna həsr olunmuşdur.

O, monitorinq qrupuna 4 vəkilin - “Arbitrum” Vəkil Bürosunun vəkili Mehdiyev Polad Aley oğlu, “Kredo” Vəkil Bürosunun vəkili müdiri Elvin Səlimov, Bakı şəhəri 34 saylı Vəkil Bürosunun müdiri Könül İsgəndərli və Bakı şəhəri 12 saylı Vəkil Bürosunun vəkili

Afət Qaziyevanın daxil edildiyini qeyd etmişdir.

Daha sonra Afət Qazıyeva 2022-ci ildə dövlət hesabına göstərilən hüquqi yardım işinin təhlili ilə bağlı müvafiq statistik hesabatlar barədə iclas iştirakçılarına məlumat verərək bu sahədə mövcud olan bəzi problemləri, xüsusilə də bürolar tərəfindən sənədlərin düzgün tərtib olunmaması, növbətçilik siyahılarına riayət edilməməsi, vəkil qurumlarına və fərdi vəkillərə təyinat üzrə qərarların göndərilməsi zamanı aidiyyəti dövlət qurumları tərəfindən seçkili yanaşma, formal vəkillik və s. kimi nöqsanları büro rəhbərlərinin diqqətinə çatdırmışdır.

Sonda məsələ ətrafında geniş müzakirələr aparılmış, təcrübədə rastlaşılan bir çox problemlər qeyd olunmuş və bu sahədə gələcək fəaliyyət ilə bağlı konkret praktiki təkliflər verilmişdir.



**“Vəkillik və İKT, müasir çağırışlar” mövzusunda tədbir keçirilib.**

24.10.2022-ci il tarixində “Vəkillik və İKT, müasir çağırışlar” mövzusunda “Badamdar Estate” mehmanxanasında tədbir keçirilib.

Vəkillər Kollegiyası və Ədliyyə Nazirliyinin birgə təşkilatçılığı ilə keçirilən tədbirdə



hər iki qurumun rəsmi şəxsləri, vəkillər və QHT nümayəndələri iştirak edib.

Əvvəlcə Vəkillər Kollegiyası Hüquqi Yardım və Tədris Mərkəzinin direktor müavini Afət Qazıyeva çıxış edərək yeni istifadəyə veri lən “Vəkillərin onlayn tədris platforması” barədə məlumat verib. O bildirib ki, platforma vəkillərin onlayn qaydada öz bilik və bacarıqlarını artırmasında mühüm rol oyna yacaq: “Bütün vəkillər bu platformadan yararlana bilərlər. Bu, həm də bölgələrdə fəaliyyət göstərən vəkillərin təlimlərdə aktiv iştirak etməsi üçün çox əlverişlidir. Biz bir ildən artıqdır ki, bu platforma üzərində çalışırıq və təkmilləşdirmə işlərimiz davam edir. Şəxsi kabinetə daxil olarkən çətinliklə qarşılaşan vəkillər bizə müraciət edərək yardım ala bilərlər. Onu da bildirim ki, platformada vəkillər barədə məlumatların məxfiliyi qorunur”.

Daha sonra Vəkillər Kollegiyasının sədri Anar Bağırov çıxış edərək vəkillik sahəsində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi barədə danışıb. Sədr deyib ki, bu istiqamətdə bir sıra işlər görülüb və əsas məqsəd vəkillərin fəaliyyətinin asanlaşdırılmasıdır: “Biz son illərdə bir çox yeniliklərə imza atmışıq. Yeni layihələr, yeni təşəbbüslər həyata keçiririk. Heç bir ideyamız kağız üzərində qalmır. Biz hamısını reallaşdırırıq. Təbii ki, bu işdə dövlətimiz, dövlət qurumları bizə dəstək olur. Ədliyyə Nazirliyi isə bizə dəstək göstərən qurumlar arasında birinci sıradadır. Başda cənab nazir Fikrət Məmmədov olmaq-

la, Ədliyyə Nazirliyinə təşəkkür edirik".

A.Bağırov həmçinin vəkilləri narahat edən məsələlərdən də danışıb: "Bu gün vəkilləri narahat edən məsələlərdən biri də sorğuların kağız daşıyıcıda göndərilməsidir. Bu, bəzən neqativ hallara, prosessual pozuntulara gətirib çıxarır. Hesab edirik ki, vəkil sorğularının elektron qaydada göndərilməsi bizim işimizi daha rahat, səmərəli edər və vaxt itkisinin qarşısını alar. Bu məsələdə Ədliyyə Nazirliyindən dəstək istəyirik". Ədliyyə Nazirliyi İnsan hüquqları və ictimaiyyətlə əlaqələr idarəsinin rəisi Aynur Sabitova da çıxış edərək Ədliyyə Nazirliyi ilə Vəkillər Kollegiyası arasında sıx əməkdaşlıq həyata keçirildiyini bildirib: "Birgə əməkdaşlığımız çərçivəsində bizim birgə tədbirlərimiz – ictimai müzakirələr, açıq qapı günləri, brifinqlərimiz keçirilmişdir ki, bu da ictimaiyyət üçün faydalı olmuşdur. Eyni zamanda vəkillər üçün Ədliyyə Akademiyasında təlimlər, ixtisasartırma kursları təşkil olunur, təlimçi vəkillər hazırlanır".

Nazirlik rəsmisi vəkillərin penitensiar müəssisələrində həyata keçirdiyi ödənişsiz hüquqi yardım aksiyalarına toxunub: "Mütəmadi xarakter daşıyan bu aksiyalardan məhkumlar çox geniş bəhrələnirlər. Bu işdə Anar müəllimin dəstəyi böyükdür. Düşünürəm ki, bugünkü tədbirimiz qarşılıqlı fəaliyyətimizə əlavə töhfə verəcək".

Ədliyyə Nazirliyinin İnformasiya-kommunikasiya texnologiyalar idarəsinin rəisi Ağakərim Səmədzadə isə çıxışında "Elektron məhkəmə" informasiya sisteminin vəkillər üçün daha səmərəli olması istiqamətində işlər görüldüyünü diqqətə çatdırıb. Bildirib ki, "Elektron məhkəmə" informasiya sisteminin funksionallığının artırılması üzrə tədbirlər davam etdirilir, hakimlərlə yanaşı, məhkəmə tərəfinin digər iştirakçıları, o cümlədən vəkillər üçün də yeni imkanlar yaradılır: "Vəkillərdən də təkliflər gəlir. Hazırda 40-a yaxın təklifdən ibarət paket var. Biz onları reallaşdıracağıq" – deyə nazirlik rəsmisi bildirib.



Daha sonra Ədliyyə Nazirliyinin məsul əməkdaşları tərəfindən "Elektron məhkəmə" informasiya sistemi, "Mobil Notariat" və mobil "E-qanun" tətbiqlərinin mahiyyəti və əhəmiyyəti, vətəndaşlara yaradılan yeni imkanlar barədə təqdimatlarla çıxış ediblər.

Tədbirin sonunda vəkillərin sualları cavablandırılıb, informasiya və kommunikasiya texnologiyaları, onlarda istifadə vasitələri, bu sahədə vəkillərin yaşadıqları problemlərlə bağlı müzakirələr aparılıb.




**Ölkəmizdə səfərdə olan Avropa Şurasının nümayəndə heyəti ilə Vəkillər Kollegiyasında görüş keçirilib**

Ölkəmizdə səfərdə olan Avropa Şurasının İnsan Hüquqları və Qanunun Aliliyi Direktoratlığının Məhkəmə qərarlarının icrası departamentinin bölmə rəhbəri Pavlo Puşkarın başçılıq etdiyi nümayəndə heyəti Vəkillər Kollegiyasının rəhbərliyi ilə görüşmüşdür.

Görüşdə Kollegiyanın sədri Anar Bağırov qonaqları salamlamış, son dövrlər Avropa Şurası ilə Kollegiya arasında qurulmuş səmərəli əməkdaşlıq münasibətlərindən, faydalı və qarşılıqlı fəaliyyətdən, əlaqələrin daim inkişaf etdirildiyindən və bunun Kollegiya üçün əhəmiyyətindən bəhs etmişdir.

Daha sonra, Kollegiyanın Aparat rəhbəri Bayram Orucov qanunvericilik bazasının təkmilləşdirilməsi də daxil olmaqla, ötən müddət ərzində həyata keçirilən islahatları qonaqların diqqətinə çatdırıb.

B.Orucov prosessual məcəllələrə və digər qanunvericilik aktlarına əlavə və də yişiklərdən və Qanun layihəmizdəki təkliflərdən bəhs etmiş, həmçinin, Vəkillərin İntizam Komissiyasının fəaliyyətinin “Avropada vəkil peşəsinə dair əsas prinsiplər haqqında” Xartiya və “Avropa vəkillərinin davranış Kodeksi”nə uyğun təşkil olunmasını bildirmiş, aktual mövzular üzrə hazırlanmış tədris proq ramları barədə məlumat vermiş, sonra, Kollegiyanın digər sahələrdəki fəaliyyətindən danışmışdır.

Bundan sonra, ölkəmizə səfərindən məmnunluğunu ifadə edən cənab Puşkar son illərdə görülən işləri müsbət qiy mətləndirərək, Kollegiyanın insan hüquq və azadlıqlarının qorunmasındakı yerinin müstəsna əhəmiyyətini vurğulamış, hər iki qurum arasında gələcəkdə də əlaqələrin genişləndirilməsi barədə müsbət fikirlərini bölüşmüş, Avropa Məhkəməsi qərarlarının icrası, presedent hüququnun milli məhkəmələrdə tətbiqi, bununla əlaqədar yaranan məsələlər barədə faydalı fikir mübadiləsi aparılmışdır.



Sonra, nümayəndə heyəti tərəfindən ünvanlanan suallar cavablandırılmış və əlavə olaraq, tədris proqramları da daxil olmaqla, Avropa Şurasının fəaliyyət planında daha çox nəzərə alınmalı olduğu, ehtiyac duyulan, güclü və nüfuzlu vəkillik üçün zəruri hesab edilən xüsusatlar qonaqların diqqətinə çatdırılmışdır.

Görüşdə, həmçinin, departamentin sektor müdiri Yasemin Çağ, əməkdaşları Kamran İsayev və Musa Həsənov, Vəkillərin İntizam Komissiyasının sədri, Hüquqi Yardım və Tədris Mərkəzinin direktoru Şahmar Məmmədov və Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri Nərmin Abbasova da iştirak etmişlər.




**Vəkillər Kollegiyasının üzvü UNESCO-nun Apellyasiya Şurasının alternativ sədri seçilib**

UNESCO-nun İcraiyyə Şurasının 215-ci sessiyası çərçivəsində qurumun Apellyasiya Şurasının alternativ sədri vəzifəsinə seçkilər keçirilib.

Azərbaycanın UNESCO üzrə Milli Komissiyasından verilən məlumata əsasən, seçkilərdə vəkil Ruhiyyə İsayeva İcraiyyə Şurasının üzvlərinin səsinin mütləq əksəriyyətini toplayaraq, qurumun Apellyasiya Şurasının alternativ sədri vəzifəsinə seçilib.

Beləliklə, azərbaycanlı ilk dəfə UNES CO-nun Apellyasiya Şurasının alternativ sədri seçilir.

Qeyd edək ki, UNESCO-nun Apellyasiya Şurası qurumun İşçi Qaydaları çərçivəsində işçi heyətin inzibati qərara və ya intizam tənbehi tədbirinə qarşı verdiyi şikayətlər üzrə tövsiyə vermək üçün Baş direktor tərəfindən yaradılmış inzibati orqandır.

Bu uğur münasibətilə Vəkillər Kollegiyası adından Ruhiyyə İsayevanı təbrik edir və qarşıdakı fəaliyyətlərində uğurlar diləyirik!




**Vəkillər Kollegiyası Avropa Vəkillər Assosiasiyasına üzv qəbul olunmuşdur**

Azərbaycan Respublikası Vəkillər Kollegiyasının (ARVK) beynəlxalq arenada uğurları davam edir. Son 4 il yarım ərzində bu sferada görülən işlərin məntiqi davamı olaraq, ARVK bu il də Avropa Vəkillər Assosiasiyasına (AEA-EAL) üzvlüklə bağlı müraciət etmişdir. Müsbət qiymətləndirilmə və uğurlu keçən prosesdən sonra, 29 sentyabr 2022-ci il tarixdə ARVK rəsmi olaraq AEA-EAL-a üzv qəbul olunmuşdur.

AEA-EAL 1986-cı ildə üzvlər arasında əlaqələrin gücləndirilməsi (şəbəkənin qurulması), peşəkar fəaliyyətlə bağlı məsələlərdə qarşılıqlı təcrübə mübadiləsinin aparılması və Avropa hüququ haqqında biliklərin paylaşılması məqsədilə Beynəlxalq Gənc Vəkillər Assosiasiyasının keçmiş üzvləri tərəfindən yaradılmışdır.

Assosiasiyanın Avropada və Avropadan kənarda müxtəlif yurisdiksiyalardan (Argentina, Avstriya, Belçika, Çexiya, Danimarka, Gürcüstan, Almaniya, İtaliya, Qazaxıstan, Polşa, İspaniya, İsveçrə, Hollandiya, Birləşmiş Krallıq, ABŞ və d.) üzvləri var. Genişlənməkdə davam edən şəbəkə üzv lərinin peşəkar və sosial əlaqələrini inkişaf etdirməyə xidmət edir.

Hazırda Assosiasiyanın üzvlərinin yarısı fərdi hüquqşünaslar, 40%-i hüquq firmaları və 10%-i vəkillər kollegiyalarıdır.

Assosiasiya və onun üzvlərimiz üçün yaratdığı imkanlar haqqında daha ətraflı məlumatla keçid vasitəsilə tanış ola bilərsiniz.




**Vəkillər Kollegiyasının nümayəndə heyəti Dağıstan vəkilliyinin 100 illiyinə həsr olunmuş tədbirlərdə iştirak etmişdir.**

16-18 sentyabr 2022-ci il tarixlərində Azərbaycan Respublikası Vəkillər Kollegiyasının (ARVK) nümayəndə heyəti, ARVK Rəyasət Heyətinin sədri Anar Bağırov və üzvü Muxtar Mustafayev, Rusiya Federasiyası Dağıstan Respublikasının Mahaçqala şəhərində Dağıstan vəkilliyinin 100 illiyinə və Dağıstan Respublikası Vəkillər Palatasının 20 illiyinə həsr olunmuş təntənəli tədbirlərdə iştirak etmişdirlər.

Tədbirin rəsmi mərasimi Dağıstan Res publikasının dövlət rəsmiləri, Rusiya Federa siyası Vəkillər Palatasının rəhbərliyi və çoxsaylı ölkələrin vəkillər kollegiyalarının nümayəndələrinin iştirakı ilə baş tutmuşdur.

Tədbirdə iştirakçıların diqqətinə Dağıstan Vəkillər Palatasının tarixi və inkişaf yolu haqqında təqdimat çatdırılmışdır.

Tədbirdə xarici qonaqlardan ARVK-nın sədri A.Bağırov çıxış etmiş, RF Dağıstan ilə Azərbaycan arasında olan dostluq münasi-

bətinin vəkillik təsisatları tərəfindən də qorunduğunu, bu xoş münasibətlərin Azərbaycan vəkilləri üçün əhəmiyyətini vurğulamış, habelə iki dost təsisat arasında illərlə daha da möhkəmlənmiş əməkdaşlığın qorunub saxlanmasının vacibliyini qeyd etmişdir. Həmvətənlərimizin hüquqlarının RF Dağıstan Respublikasında qorunmasında Dağıstan Vəkillər Palatasının rolunu qeyd etmiş və eynilə RF Dağıstan Respublikasında yaşayan vətəndaşların Azərbaycanda hüquqlarının müdafiəsində Azərbaycan vəkillərinin iştirakından bəhs etmişdir. Həmçinin, A.Bağırov çıxışında 1942-1948-ci illərdə Dağıstan Respublikasına rəhbərlik etmiş görkəmli ictimai xadim Əziz Əliyevin xatirəsini ehtiramla andıqlarına və onun xidmətlərini unut madıqlarına görə dağıstanlı həmkarlarına Azərbaycan vəkil korpusu adından minnətdarlığını bildirmişdir.



Daha sonra, A.Bağırov təbrik nitqini davam etdirərək Dağıstan vəkilliyinin inki şafını təqdirəlayiq hesab etdiyini bildirmiş, Azərbaycan Respublikası Vəkillər Kollegiyası adından dağıstanlı həmkarlarını təbrik etmiş, o cümlədən Rusiya Federasiyası Vəkillər Palatasının vitse-prezidenti, Dağıstan Respublikası Vəkillər Palatasının prezidenti Akif Behbudova təltif və xatirə hədiyyəsi təqdim etmişdir.

Tədbirin rəsmi hissəsindən sonra konsert proqramı və təntənəli qəbul baş tutmuşdur. O cümlədən, 17-18 sentyabr ta rixlərində konfrans iştirakçılarının Dərbənd şəhərinə səfəri təşkil edilmişdir.

Həmçinin, səfər çərçivəsində Dağıstan xalqının sürgün edilməsinin qarşısının alınmasında əhəmiyyətli rola malik olan görkəmli dövlət xadimi Əziz Əliyevin abidəsi ziyarət edilmiş, xatirəsi yad olunmuşdur.




**Biznes Hüququ Komitəsinin ilk ümumi yığıncağı keçirilmişdir.**

Məlum olduğu kimi Vəkillər Kollegiyasının tərkibində biznes hüququ sahəsində ixtisaslaşan, tanınmış vəkilləri bir arada birləşdirən Biznes Hüququ Komitəsi yaradılmışdır.

10.09.2022-ci il tarixində Biznes Hüququ Komitəsinin ilk ümumi yığıncağı keçirilmişdir. İclasda Komitənin sədri Nazlı Əhmədova, sədr müavinləri Altay Mustafayev və Əkram Həsənov, həmçinin Komitənin işçi qruplarının sədrləri və üzvləri iştirak etmişdir.

Ümumi yığıncağı giriş sözü ilə açan Komitənin sədri Nazlı Əhmədova iclas iştirakçılarına Komitənin məramı, məqsədi və cari fəaliyyəti barədə məlumat vermişdir.

Sonra Komitənin sədr müavini Əkrəm Həsənov Komitənin Əsasnaməsinin təqdimatını etmişdir. O, Komitənin fəaliyyətinin əsas məqsədi, komitənin strukturu, idarə olun ması, üzvlük, komitənin işinin təşkili barədə geniş məlumat vermiş, iclas iştirakçılarının

suallarını cavablandırmışdır.

Daha sonra Komitənin sədr müavini Altay Mustafayev Biznes Hüququ Komitəsinin işçi qrupları, onların tərkibi barədə pre zentasiya ilə iclas iştirakçılarına məlumat vermişdir. O, qeyd etmişdir ki, Komitənin tərkibində hal-hazırda 6 İşçi Qrupu fəaliyyət göstərir.

İclasda həmçinin Nazlı Əhmədova 2022-ci ilin sonunadək Komitənin fəaliyyət planının təqdimatı və müzakirəsi ilə bağlı çıxış etmişdir. O, bu günə qədər Komitə tərəfindən görülən işlər və gələcəkdə planlaşdırılan işlər barədə geniş məlumat vermişdir. O, Komitə tərəfindən keçirilməsi planlaşdırılan “Business Law Discussion Club” (“Biznes hüququ üzrə müzakirə klubu”) la yihəsi, onun formatı və mümkün tərəfdaşları, Komitənin yaradılmaqda olan saytı barədə məlumatları iclas iştirakçılarının diqqətinə çatdırmışdır.

Daha sonra Komitə üzvlərini maraqlandıran suallar cavablandırılmış, “Business Law Discussion Club”da müzakirə olunacaq mövzular barədə fikir mübadiləsi aparılmışdır.

İclasın yekununda Komitənin fəaliy yəti ilə əlaqədar əhəmiyyət kəsb edən sair məsələlər müzakirə edilmiş və xatirə şəkli çəkilmişdir.






**Ölkədə ilk dəfə 300-dən çox hüquqşünas tələbənin müraciət etdiyi 1 aylıq Yay Məktəbi yekunlaşdı**

Ölkədə ilk dəfə Azərbaycan Respublikasının Vəkillər Kollegiyası və Azərbaycan Respublikasının Gənclər Fondunun birgə təşkilatçılığı ilə 13 yerli və xarici universitetdən 300-dən artıq hüquqşünas tələbənin müraciət etdiyi 1 aylıq Yay Məktəbi təşkil olundu. Cari ilin 15 iyul - 15 avqust tarixlərində keçirilmiş “Vəkil olmaq istəyirəm” adlı Yay Məktəbini uğurla bitirən hüquqşünas tələbələrə sertifikatlar təqdim edilib, fərqlənmə ilə bitirən 36 tələbə isə bölgələrdə təşkil olunmuş yay düşərgəsində iştirak edib.

Sentyabrın 7-də Vəkillər Kollegiyasının və Gənclər Fondunun rəhbərliyinin, Milli Məclisin sədrinin I müavini, Hüquq siyasəti və dövlət quruculuğu Komitəsinin sədri Əli Hüseynlinin, Ali Məhkəmənin sədrinin müavini Çingiz Əsgərovun, Prezident Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin hüquq mühafizə orqanlarının fəaliyyətinin əlaqələndirilməsi sektorunun müdiri Otari Qvaladzenin, Baş prokurorun müavini Heydər Məmmədovun, Konstitusiya Məhkəməsinin, Ədliyyə Nazirliyinin, Mediasiya Şurasının, digər dövlət orqanlarının, ali təhsil müəssisələrinin, vəkil qurumlarının rəhbər şəxslərinin, hüquq müdafiəçilərinin, beynəl xalq səviyyədə tanınan təlimçi-ekspertlərin,

eləcə də KİV nümayəndələrinin iştirakı ilə Yay Məktəbinin təntənəli qapanış mərasimi baş tutub.

Tədbirin əvvəlində ilk öncə Dövlət Himni səsləndirilib, torpaqlarımızın azadlığı uğrunda şəhid olan Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Daha sonra, Kollegiyanın əməkdaşı Günay Sultanova Yay Məktəbi barədə hazırlanmış video çarxı nümayiş etdirib və tədris proqramı barədə təfərrüatlı məlumatları tədbir iştirakçılarının diqqətinə çatdırıb.

Tədbirdə açılış nitqi ilə çıxış edən Kollegiyanın sədri Anar Bağırov layihənin yekunlarına həsr edilmiş tədbirdə iştirak edən hər kəsi salamlayıb və bildirib ki, ölkə başçısının rəhbərliyi ilə bütün sahələrdə olduğu kimi, gənclərlə iş sahəsində də uğurla davam etdirilən gənclər siyasəti nəticəsində cəmiyyətimizdə gənclərin ictimai həyatın bütün sahələrində fəallığı artıb. Belə bir şəraitdə təşkil olmuş Yay Məktəbinin gözləntiləri doğrultmasından, gələcəkdə bu kimi la yihələrin davamlı keçiriləcəyindən, gənclərə dəstəyin daim diqqət mərkəzində olmasından bəhs etdi.

Açılış nitqini davam etdirən Fondun icraçı direktoru Fərid Cəfərov layihənin uğurlu təşkili və başa çatması münasibətilə Yay Məktəbinin təşkilində əməyi olan hər kəsi və iştirakçıları təbrik edib, bu Məktəbin gənc hüquqşünasların həm də praktiki biliklərinin artırılmasında böyük töhfə verdiyini qeyd etdi.





Daha sonra, Kollegiyanın Aparat rəhbəri Bayram Orucov təqdimat ilə çıxış edərək, son 4 il yarım ərzində Kollegiyanın müxtəlif sahələrdəki fəaliyyəti, həyata keçirilən islahatlar, yerli və beynəlxalq sahədə görülən çoxsaylı işlər və digər məsələlər barədə tədbir iştirakçılarına ətraflı məlumat verdi.

Ali Məhkəmənin sədrinin müavini Çingiz Əsgərov çıxış edərək bildirmişdir ki, möhtərəm cənab Prezident İlham Əliyevin liderliyi ilə Vətən Müharibəsində Azərbaycan xalqının qazandığı Böyük Zəfər dövlətimizin davamlı inkişafı üçün yeni imkanlar yaratmışdır. Gənc nəslin bu imkanlardan səmərəli şəkildə istifadə etməsi üçün xalqımızın adətənənələrinə uyğun təhsil, tərbiyə, peşəkarlıq məsələlərinə xüsusi diqqət yetirməsi xüsusi əhəmiyyət kəsb edir. Bu, o cümlədən gənc hüquqşünaslara aiddir. Çünki güclü dövlət güclü iqtisadiyyatla bərabər, ədalət və hüququn aliliyi prinsiplərinə əsaslanır.

Tədbir zamanı çıxış edən Baş prokurorun müavini Heydər Məmmədov müasir Azərbaycan gənclərinin dövlət idarəetmə sistemində təmsil olunmaları üçün tam şərait yaradıldığını qeyd etmişdir. Baş prokuror Kamran Əliyevin rəhbərliyi ilə prokurorluq orqanlarında aparılan sistemli islahatların mərkəzində bilikli, müasir dünyagörüşlü və yüksək əxlaqi keyfiyyətlərə malik gənclərin dayandığını vurğulayan H.Məmmədov 23 müsabiqə nəticəsində uğur qazanmış hüquqşünasların prokurorluq kadr korpusunun 83,9 faizini təşkil et-

diyini diqqətə çatdırmışdır. H.Məmmədov çıxışında hüquqşünas tələbələrin praktiki bacarıqlarının formalaşması məqsədilə prokurorluq orqanları tərəfindən həyata keçirilən layihələrin uğurlu nəticələrindən bəhs etmişdir.

Bundan əlavə, Yay Məktəbində iştirak edən bir neçə fəal tələbə də bu Məktəb barədə öz təəssürat və fikirlərini bölüşüb, yay tətillərinin səmərəli keçirilməsində verilən töhfələrə görə təşəkkürlərini bildirib və bu kimi layihələrin davamlı olması arzuladıqlarını vurğulayıblar.




Qeyd edək ki, Yay Məktəbində prosessual sənədlərin tərtib edilməsi, hüquqi yazı, vətəndaşlara məsləhətlərin verilməsi qaydaları və natiqlik qabiliyyəti də daxil olmaqla, çoxsaylı mövzular üzrə təlimlər, səhnələşdirilmiş məhkəmə müsabiqələri Ali Məhkəmənin, Nəsimi Rayon Məhkəməsinin hakimlərinin, Prokurorluq orqanlarının əməkdaşlarının və təcrübəli vəkillərin iştirakı ilə təşkil edilib.

Tədbirin yekununda Yay Məktəbini uğurla başa vuran tələbələrə sertifikatlar verilib, verdikləri töhfələrə görə təlimçilərə təşəkkürnamə təqdim olunub, sonra qonaqlar və iştirakçılarla birlikdə xatirə şəkli çəkilib.



**Zəngilan rayonunun Ağalı kəndində “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdış: pozulmuş hüquqlar və onların bərpası” mövzusunda konfrans keçirilib**

Bu gün Azərbaycan Respublikası Baş Prokurorluğunun təşkilatçılığı ilə Zəngilan rayonunun Ağalı kəndində çoxsaylı dövlət qurumları, beynəlxalq təşkilatların ölkəmizdəki nümayəndəliklərinin və qeyri-hökumət təşkilatlarının nümayəndələrinin iştirakı ilə “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdış: pozulmuş hüquqlar və onların bərpası” mövzusunda konfrans keçirilmişdir.

Tədbirdən öncə konfrans iştirakçıları xalqımızın Ümummilli Lideri Heydər Əliyevin büstü önünə əklil və gül dəstələri düzərək onun xatirəsini dərin ehtiramla yad etmişlər.

Konfransı giriş sözü ilə Baş prokuror Kamran Əliyev açmış və çıxışı zamanı Vətən müharibəsinin Qələbə ilə başa çatmasından cəmi 1 il 8 ay sonra “Ağıllı kənd” layihəsinin ilk nümunəsi olaraq Zəngilanın rayonunun Ağalı kəndinə əhalinin köçürülməsini, evlərin müasir texnologiyalarla təchiz edilməsini, o cümlədən, ölkəmizə qarşı absurd torpaq iddiaları əsasında aparılmış məqsədyönlü etnik təmizləməni, soyqırımı siyasətini və hərbi təcavüzü, 1994-cü ildə ölkə əhalisinin hər 7

nəfərindən 1-nin qaçqın və ya məcburi köçkün olmaqla digər ölkələrlə müqayisədə dünyada bu baxımdan ən yüksək nisbi göstəriciyə malik olduğunu bildirmiş və prokurorluq orqanları tərəfindən vətəndaşlarımızın pozulmuş hüquqlarının bərpası, ölkəmizə dəymiş maddi-mənəvi zərərə görə bütün təqsirli şəxslərin məsuliyyətə cəlb edilməsi istiqamətində zəruri tədbirlərin görüldüyü diqqətə çatdırmışdır.

Həmçinin, konfransda Azərbaycan Respublikası Vəkillər Kollegiyasının sədri, Məhkəmə-Hüquq Şurasının üzvü Anar Bağırov "Erməni işğalı nəticəsində pozulmuş hüquqların müdafiəsində beynəlxalq hüququn səmərəliliyi" mövzusunda çıxış etmiş, ilk olaraq, doğma torpaqlarımızda, ələlxüsus Zəngilan rayonunda Dövlət başçısının rəhbərliyi ilə aparılan misilsiz quruculuq işlərinin əyani şahidi olduğunu qeyd etmiş, daha sonra çıxışı zamanı beynəlxalq hüququn norma və prinsiplərinin işləməməsini, beynəlxalq təşkilatların fəaliyyətlərini formal şəkildə davam etdirməsini, cənab Prezidentin inamı və xalqın dəstəyi ilə ərazi bütövlüyümüzün bərpa edilməsini vurğulamışdır. Bununla bərabər, 90-cı illərdən etibarən edilən səylərin nəticəsində, dünyanın aparıcı təşkilatlarının münaqişə ilə bağlı qəbul etdikləri qərar və qətnamələr də bizə əlavə güc verdiyini, bunlarsız münaqişənin ətrafında cərəyan edən prosesləri nəzarət altında saxlamaq asan olmayacağını, hüquqi müdafiə vasitələrinin əhəmiyyətini nəzərə alaraq, A.Bağırov əlavə





etmişdir ki, Kollegiya tərəfindən Avropa İnsan Haqları Məhkəməsinə möcburi köçkün olan vətəndaşlarımızın mülkiyyət və əlaqəli hüquqlarının bərpası istiqamətində 2000-dən çox müraciətlər göndərilmiş, o cümlədən, yalnız cəbhədə deyil, həmçinin informasiya sahəsində gedən müharibədə Vəkillər Kollegiyası tərəfindən müharibə zamanı da, sonra da çoxsaylı hüquqi və faktiki cəhətdən əsaslandırılmış hesabat xarakterli müraciətlər hazırlanmış, həmçinin, Kollegiyanın dəstəyi ilə dünyaca tanınan, müstəqil ekspertlər də münaqişə ilə bağlı mötəbər hesabat tərtib etmiş və bunların hər biri beynəlxalq hüquq-müdafiə təşkilatları, xarici ölkələrin vəkillər kollegiyaları və hüquq cəmiyyətləri daxil olmaqla, 230 beynəlxalq təşkilata və ali qurumların 40 səlahiyyətli şəxslərinə ünvanlanmışdır.

A.Bağırov əminliklə qeyd etmişdir ki, 44 günlük savaşda hərbi, iqtisadi, siyasi və mənəvi baxımdan darmadağın edilən Ermənistan törətdiyi əməllərinə görə cavab verəcək, müvafiq kompensasiya ödəməyə məcbur qalacaq. İnanırıq ki, bundan sonra beynəlxalq hüquq daha işlək və səmərəli olacaq və Cenevrə Konvensiyası da daxil olmaqla, beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozanlar, hərbi və digər cinayətlər törədənlər qanun qarşısında məsuliyyət daşıyacaqlar.

O cümlədən, tədbirdə BMT-nin Qaçqınlar üzrə Ali Komissarının Azərbaycandakı nümayəndəsi Guido Ambroso "Məcburi köçkünlərin davamlı qayıdışları üçün ən

yaxşı təcrübələr", Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev "Böyük Qayıdış: Repatriasiya prosesinin təşkili", Ali Məhkəmənin sədr müavini Çingiz Əsgərov "Azərbaycan vətəndaşlarının pozulmuş hüquqlarının beynəlxalq məhkəmələr vasitəsilə bərpası istiqamətində Azərbaycan dövləti tərəfindən həyata keçirilən fəaliyyət", İnsan hüquqları üzrə müvəkkil (Ombudsman) Aparatının rəhbəri Aydın Səfixanlı "Qaçqın və keçmiş məcburi köçkün soydaşlarımızın hüquqlarının müdafiəsi sahəsində Ombudsman təsisatı tərəfindən həyata keçirilən tədbirlər", Baş prokurorunun müavini Heydər Məmmədov "Azərbaycan ərazilərindən olan məcburi köçkünlərin beynəlxalq müstəvidə tanınmış hüquqları" mövzularında çıxışlar etmişlər.

Çıxışlardan sonra mövzu ətrafında müzakirələr aparılmaqla QHT və KİV nümayəndələri, eləcə də Ağalı kənd sakini Möhübbət Səmədov fikirlərini bildirməklə mövzunun aktuallığını qeyd etmişlər. Konfrans çərçivəsində tədbir iştirakçıları "Ağıllı kənd" layihəsi əsasında inşa edilmiş Ağalı kəndi ilə tanış olmuş, qısa müddət ərzində sakinlər üçün ən müasir texnologiyalar əsasında yaradılmış şəraitdən məmnunluq ifadə edilmişdir.






**ELAN: MAPS-a ünvanlanan sorğular ilə bağlı problem dərhal öz həllini tapıb**

Məlum olduğu kimi, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Pasport, Qeydiyyatı və Miqrasiya İdarəsinin Milli Avtomatlaşdırılmış Pasport Sistemi üzrə məlumat şöbəsinə (MAPS) ünvanlanan vəkil sorğuları ilə bağlı cavabların gec verilməsi vəkillərimiz haqlı narahatlığına səbəb olmuşdur. Bununla əlaqədar, Vəkillər Kollegiyasının və Daxili İşlər Nazirliyinin rəhbərliyi arasında bu məsələ müzakirə olunmuş və problem dərhal öz həllini tapmışdır.

Belə ki, artıq həm elektron formada ünvanlanması, həm də dərhal cavab alınması üçün, büronun blankı ilə sorğunun və iş ilə bağlı orderin skan versiyalarını vəkillər aşağıdakı e-poçta göndərərək, sorğuya tez cavab alacaqlar. Əgər cavabın elektron deyil, kağız daşıyıcıda da əldə edilməsi lazım olarsa, vəkillər bunu da həmin e-poçtda bildirə bilərlər: bpqmi-maps@bpqmi.gov.az

Əlavə olaraq qeyd edək ki, vəkillərin hüquqi yardımı vaxt itirmədən daha səmərəli şəkildə həyata keçirə bilmələri üçün, vahid elektron kabinet vasitəsilə sorğuların yerləşdirilməsinə və dərhal avtomatik cavablanmasına dair inteqrasiyanın vəziyyəti ilə bağlı Daxili İşlər Nazirliyi ilə hazırda müzakirələr getməkdədir.




**Vəkillər Kollegiyasının nəzdində daha 3 Komitə təsis edildi**

Xəbər verdiyimiz kimi, 01.07.2022-ci il tarixində Vəkillər Kollegiyası Rəyasət Heyətinin üzvləri, vəkil qurumlarının rəhbərləri, hüquq müdafiəçiləri və KİV nümayəndələrinin iştirakı ilə Rəyasət Heyətinin (RH) geniştərkibli iclası və vəkilliyə namizədlərin təntənəli andiçmə mərasimi keçirilib.

Sonra iclas gündəlikdəki digər məsələlərə baxılmış və müzakirənin nəticəsinə uyğun olaraq müvafiq qərarlar verilmişdir.

Belə ki, məlum olduğu kimi, öncəki RH iclaslarında "Azərbaycan Qadın Vəkillər Alyansı"nın və Vəkillər Kollegiyasının "Biznes hüququ" Komitəsinin yaradılması ilə bağlı qərarlar verilmiş və bu keçirilən iclasda isə həm Komitənin, həm də Alyansın əsasnamələri təsdiq edilmişdir.

O cümlədən, Alyansın İdarə Heyətinin sədrinin təyin edilməsi ilə bağlı məsələyə baxılaraq, Vəkillərin İntizam Komissiyasının üzvü, vəkil Dilarə Əfrasiyabovanın sədr təyin olunması barədə qərar qəbul olunmuşdur.

Bununla yanaşı, vəkillər tərəfindən irəli sürülən təşəbbüslərin və müəyyən hüquq sahələrində görülən işlərin daha peşəkar şəkildə həyata keçilməsi zərurəti nəzərə alınaraq, Vəkillər Kollegiyasının nəzdində "Əmək hüququ", "Elektron vəkillik", "Kibercinayətkarlıq və kibertəhlükəsizlik" komitələrinin təsis edilməsi ilə bağlı məsələlərə baxılaraq müsbət qərar verilmişdir.

Həmçinin, iclasda, yeni vəkil bürosunun təsisi, vəkillərin başqa vəkil qurumuna keçmək, müəyyən müddətə üzvlük haqqından azad olunma, vəkillərə müxtəlif formada dəstəyin göstərilməsi və sairə məsələlərə baxılmış, müvafiq qərarlar qəbul olunmuşdur.

Sonda Kollegiyanın fəaliyyəti ilə əlaqədar əhəmiyyət kəsb edən sair məsələlərə baxılmışdır.




**Vəkillər Kollegiyasının rəhbərliyi ilk dəfə CCBE üzvü kimi beynəlxalq konqresdə iştirak edib.**

Məlum olduğu kimi, Avropa Şurasına və Avropa İttifaqına üzv olan ölkələrin Vəkillər Kollegiyalarını, Hüquq Cəmiyyətlərini və 1 milyondan çox vəkili özündən birləşdirən CCBE təşkilatına İrlandiyada 13.05.2022 tarixində keçirilən plenar iclasda Azərbaycan Respublikasının Vəkillər Kollegiyası (ARVK) üzv qəbul olunmuşdur.

Avropada hüquq peşəsinin səsi kimi tanınan CCBE təşkilatına üzv seçiləndən son

ra, ARVK-nın beynəlxalq əməkdaşlıq imkanları daha da genişlənməkdədir. Belə ki, üzv ölkələrin iştirakı və Bolqarıstan Ali Vəkillər Kollegiyası Şurası (BAVKŞ)-nın ev sahibliyi ilə, 22-24 iyun 2022-ci il tarixlərində CCBE Komitələrinin iclasları keçirilmişdir. ARVK isə, sədr Anar Bağırov, Rəyasət Heyəti (RH) üzvü Elçin Usub və ARVK Aparat rəhbəri Bayram Orucov tərəfindən təmsil olunmuşdur.




Bilindiyi kimi, 25.05.2022 tarixli RH qərarına əsasən, CCBE-nin ən əhəmiyyətli Komitəsi "PECO"ya (Mübadilə, əməkdaşlıq və dəstək platforması) ARVK tərəfindən E.Usubun üzvlüyü irəli sürülmüş, keçirilən bu ilk PECO iclasında Kollegiya sədri A.Bağırov onu Komitəyə rəsmən təqdim etmiş və E.Usub tərəfindən həm gələcək əməkdaşlıq, həm də Komitənin fəaliyyət istiqaməti üzrə fikirlər səsləndirilmişdir.

Bu iclas zamanı B.Orucov tərəfindən son yeniliklər və Azərbaycanda vəkil peşəsinin durumu barədə hesabat tədbir iştirakçılarının diqqətinə çatdırılmış, problemlərin həlli istiqamətində müzakirələr aparılmış, həyata keçirilən isalahatlarla bağlı vəkilliyin rolu barədə diskussiyalar yer almışdır.

Bununla yanaşı, CCBE-nin Daimi Komitəsində BAVKŞ sədri İ. Dermendjievin salamlama nitqindən və Aİ-nin Ümumi Məhkəməsinin hakimi A.Kornesovun video müraciətindən sonra, CCBE nümayəndə heyətləri tərəfindən istehlakçı hüquqları, Üzv Dövlətlər arasında valideynlik hüququnun tanınması, Tədris məsələləri, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (İƏİT) Vergi və Digər Cinayətlər üzrə İşçi Qrupunun, Çirkli Pulların Yuyulmasına Qarşı Mübarizə (ÇPYQM), Avropa Konvensiyası, İT, Miqrasiya, Cinayət hüququ üzrə Komitələrin hazırladığı yeni Sənədlər məruzə və müzakirə edilmiş, ÇPYQM sahəsində vəkillərin rolu və davranışı ilə bağlı müxtəlif ölkələrin təcrübəsi paylaşılmış, CCBE-nin xarici fəaliyyəti, Ukraynadakı vəziyyətlə bağlı bir neçə qərar verilmiş və Avropa Şurası ilə CCBE arasındakı Anlaşma Memorandumunun realizəsi və s. istiqamətlərində fikir mübadilələri aparılmışdır.

Bundan başqa, 24 iyun tarixində CCBE və FBE (Avropa Vəkillər Kollegiyaları Federasiyası)-nın birgə təşkilatçılığı ilə "2022-ci il pandemiyadan sonra vəkillərin rolu - Qütbləşmiş cəmiyyətlərdə işlərin dinamikası, vəkillərin imicinin dəyişməsi və hüquqi təcrübənin təkamülü" mövzusunda konfrans keçirilmişdir. Konfransın açılış nitqi Bolqarıstan Parlamentinin sədri, ədliyyə naziri, CCBE və FBE prezidentləri, qlobal hüquq firma rəhbərləri və digər rəsmilər tərəfindən edilmişdir. Daha sonra, sosial məsuliyyətin təşviqi və sui-istifadəli məhkəmə çəkişmələrinə qarşı mübarizə, o cümlədən innovasiyalar və hüquqi təcrübənin rəqəmsallaşdırılması kimi bir sıra məsələlərin həlli ilə bağlı müzakirələr aparılmışdır.

Bunlarla yanaşı, CCBE üzv ölkələrin nümayəndələri ilə heyətimiz arasında ikitərəfli görüşlər keçirilmiş, qarşılıqlı maraq doğuran məsələlər üzrə fikir mübadiləsi edilmiş və gələcək əməkdaşlıq barədə təkliflər müzakirə olunmuşdur.

Ənənəvi proqram çərçivəsində, ev sahibi ölkənin dəvəti ilə əzəmətli Kral Sarayında qonaqlar üçün təntənəli qarşılama mərasimi keçirilmiş və növbəti gün isə Milli Tarix Muzeyində rəsmi ziyafət təşkil olunmuşdur.



**Ölkədə ilk dəfə keçirilən "Vəkillik peşəsi uşaqların gözü ilə" rəsm sərgi-müsabiqəsinin rəsmi açılışı baş tutub.**

Ölkəmizdə elan olunan "İnsan Hüquqları Aylığı" çərçivəsində, Vəkillər Kollegiyası tərəfindən həyata keçirilən silsilə tədbirlərin davamı kimi, ilk dəfə 18 iyun Azərbaycanda İnsan Hüquqları gününə həsr olunan "Vəkillik peşəsi uşaqların gözü ilə" adlı uşaq rəsm sərgi-müsabiqəsinin və Qarabağ Dirçəliş Fonduna dəstək aksiyasının bu gün təntənəli açılış mərasimi baş tutmuşdur.

BMT-in İnsan Hüquqları üzrə Ali Komissarlığı, Qarabağ Dirçəliş Fondu və "Dirçəliş" Gənclərin Sosial-Psixoloji Reabilitasiya Mərkəzi ilə birgə əməkdaşlıq çərçivəsində Azərbaycan Rəssamlar İttifaqının sərgi salonunda keçirilən sərgidə 80-dən çox şagirdin rəsm əsəri nümayiş olunmaqdadır.





Sərginin açılış mərasimində Vəkillər Kollegiyasının sədri Anar Bağırov, BMT-nin Rezident Əlaqələndiricisinin müavini Kanako Mabuchi, Avropa İnsan Hüquqları Məhkəməsinin hakimi Lətif Hüseynov, Gənclər və İdman nazirinin müavini Fərhad Hacıyev, Konstitusiya Məhkəməsinin sədr müavini Sona Salmanova, Ali Məhkəmənin sədr müavini Çingiz Əsgərov, Məhkəmə Hakimləri Assosiasiyaları İttifaqının sədri Ələddin Cəfərov, Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitənin sədri Hicran Hüseynova, İnsan hüquqları komitəsinin sədri Zahid Oruc, 10-dan çox deputat, Mediasiya Şurasının sədri Nadir Adilov, hüquq-mühafizə orqanlarının rəhbərliyi də daxil olmaqla, çoxsaylı vəzifəli şəxslər, vəkillər, hüquq müdafiəçiləri, gənc rəssamlar və media nümayəndələri iştirak etmişlər.

Açılış nitqləri ilə çıxış edən qonaqlar tədbirin əhəmiyyəti, şagirdlərin yaşının az olmasına baxmayaraq ərsəyə gətir dikləri belə peşəkar əsərlərin valehedici olması, şagirdlərin gözü ilə vəkilliyin, məhkəmə-hüquq sisteminin necə təsəvvür edilməsi, ilk dəfə fərqli formatda keçirilən tədbirin böyük marağa səbəb olması barədə fikirlərini bölüşmüş, habelə Azərbaycan Res publikasında İnsan hüquqları gününün ta rixi əhəmiyyəti, Avropa Şurasına üzv qəbul olunduqdan sonra Azərbaycanın "İnsan hüquqlarının müdafiəsi haqqında Avropa Konvensiyasına" qoşulması, milli qanunvericiliyin beynəlxalq standartlarına uyğun təkmilləşdirilməsi, ulu öndər Heydər Əliyevin

1998-ci il 18 iyun tarixli Sərəncamı ilə təsdiq edilən Dövlət Proqramında İnsan Hüquqları üzrə Müvəkkil təsisatının yaradılması, Prezident İlham Əliyev tərəfindən 18 iyun Azərbaycan Respublikasında İnsan hüquqları gününün təsis edilməsi, ölkəmizin bütün regionlarında keçirilən tədbirlər, vətəndaşların hüquqlarının təmin edilməsində səmərəli liyin artırılması məqsədilə müəyyən olunan fəaliyyət istiqamətləri və s. ilə bağlı çıxışlar etmişlər.

Qeyd edək ki, iki yaş kateqoriyası (6-10 yaş və 11-17 yaş arası uşaqlar) üzrə elan edilən müsabiqədə hər iki kateqoriya üzrə ayrı-ayrılıqda ilk 3 yerə layiq görüləcək əsərlərə - I yerə 500 azn, II yerə 300 azn, III yer 200 azn, o cümlədən ilk 10 yerin hər birinin sahiblərinə 100 azn pul mükafatları təqdim olunacaq və bütün iştirakçılara isə diplomlar verilmişdir.

17 iyun tarixində saat 15:00-da Rəssamlar İttifaqının sərgi salonunda həm rəssam alimlərdən, həm də peşəkar rəssam vəkillərdən ibarət münsiflər heyəti tərəfin dən qiymətləndirilərək seçilən qaliblər elan edilərək, qaliblərə müvafiq hədiyyələr, həmçinin bütün iştirakçılara müvafiq sertifikatlar təqdim olunmuşdur.



Sözügedən, sərgi 4 gün (16-17 və 21-22 iyun tarixlərində) davam etmişdir və giriş hər kəs üçün sərbəst olmuşdur. Bakı şəhəri Xaqani küçəsi 43 ünvanında yerləşən Azərbaycan Rəssamlar İttifaqının sərgi salonunda yerləşən rəsm əsərləri ilə tanışlıq üçün şərait yaradılmış.



**Azərbaycan vəkil futbolunun uğurlarına həsr edilən tədbir keçirilmişdir.**

02.06.2022-ci il tarixində Vəkillər Kollegiyasının təşkilatçılığı ilə "Badamdar Estates" mehmanxanasında vəkil futbolunun uğurlarına həsr edilən tədbir keçirilmişdir. Tədbir Kollegiya sədri Anar Bağırov, Vəkillər Kollegiyası Rəyasət Heyətinin üzvləri, hakimlər, vəkillər hüquq müdafiəçiləri və mətbuat nümayəndələrinin iştirakı ilə baş tutub.

"Vəkil marşı" ilə start verilən mərasimdə Azərbaycan Vəkillər Kollegiyası Rəyasət Heyətinin üzvü, "Advokat" komandasının rəhbəri Elçin Usub keçdikləri yola nəzər salıb, vəkil futbolunun tarixi barədə iştirakçılara məlumat verib. O, 2017-ci ildə Ukraynanın Lvov şəhərindən gələn dəvət məktubunun bu yolun başlanğıcı olduğunu qeyd edib, qatıldıqları ilk turnirin də məhz Lvov şəhərində keçirilmiş beynəlxalq turnir olduğunu söylə yib. Daha sonra komandanın iştirakçısı olduğu turnirlərdə vurulmuş maraqlı qolların yer aldığı videoçarx nümayiş olunub.

"Advokat" Azərbaycan Kubokunda ən böyük uğuruna isə 2019-cu ildə imza atıb. Azərbaycan kubokunun finaladək irəliləyən



kollektiv həlledici görüşdə peşəkar fut zalçılardan ibarət EKOL-a uduzub. Vəkil futbolçulardan ibarət Azərbaycan yığması isə beynəlxalq turnirlərdə çıxış edib. Bu komanda vəkillər arasında dünya çempionatında ilk dəfə Azərbaycanı təmsil edib. 40-dan çox ölkənin qatıldığı sayca 20-ci mundialda bu kollektiv 3-cü yeri tutub. Turnirin ən yaxşı oyunçusu və ən yaxşı bombardiri nominasiyalarında da yığma üzvləri fərqləniblər. Azərbaycan millisi dünya çempionatında ən çox qol vuran komanda olmaqla yanaşı, turnirin qalibi İtaliya "Palermo"suna uduzmayan yeganə komanda olub. O, qeyd edib ki, 2023-cü ildə vəkil və hüquqşünaslar arasında beynəlxalq yarışın Azərbaycanda keçirilməsinin mümkünlüyünü də dilə gətirib. Usub bundan ötrü müvafiq qurumların dəstəyinə də ehtiyac duyduqlarını vurğulayıb.



Daha sonra çıxış edən Vəkillər Kollegiyasının sədri Anar Bağırov əldə olunmuş nai liyyətlərdə vəkil idmanının futbolla yanaşı, digər növlərdən, o cümlədən şahmatdan və qadın voleybolundan da ibarət olduğunu, belə turnirlərlə Azərbaycanın Cənubi Qafqaz da bütün sahələrdə söz sahibi kimi göstərdiklərini diqqətə çatdırıb.

Sədr həmçinin digər hüquq-mühafizə orqanlarının da komandalarının olmasını arzuladıqlarını əlavə edib, qazanılan uğurlarda əməyi olan hər kəsə təşəkkürünü bildirib.

Ardından "Advokat" komandasının üzv ləri futzal üzrə Azərbaycan çempionatının II Liqasının qalibi, Vəkillər Kollegiyasının yığması isə qeyri-rəsmi dünya çempionatının bürünc mükafatçısı olması münasibətilə təltif olunmuşlar.



Tədbirdə eyni zamanda Vəkil Klubu tərəfindən Vətən müharibəsinə həsr olunmuş "Qarabağ Azərbaycandır" II vəkil bədii yaradıcılıq müsabiqəsinin qalibləri təltif olu nub. Belə ki, ilk üç yerin qaliblərinə müvafiq sertifikatlar və Libraff kitab mağazasından müvafiq hədiyyə kuponları verilmişdir. Qeyd etmək istərdik ki, ilk 3 yerin qalibləri aşağıdakı şəxslərdir:

1. Elşən Məcidli
2. Zərifə Mustafayeva
3. Xəlil Məmmədli




**CCBE-ə üzvlüyə qəbulla bağlı ictimai təqdimat keçirilmişdir.**

Azərbaycan Respublikasının Vəkillər Kollegiyasının təşkilatçılığı ilə 25 may 2022-ci il tarixində, "Badamdar Estates" mehmanxanasında CCBE-ə üzvlüyə qəbulla bağlı ictimai təqdimat keçirilmişdir.

Tədbir Kollegiya sədri Anar Bağırov, Vəkillər Kollegiyası Rəyasət Heyətinin üzvləri, hüquq müdafiəçiləri – Çingiz Qənizadə, Səidə Qocamanlı və Sahib Səfərovun, 140-dan çox vəkilin və mətbuat nümayəndələrinin iştirakı ilə baş tutub.

Konfransda açılış nitqi ilə çıxış edən Kollegiyanın sədri Anar Bağırov tədbir iştirakçılarını salamlamış və bildirmişdir ki, 4 il ərzində davam edən danışıqların, keçirilən iclasların, hazırlanan hesabatların nəticəsi olaraq Azərbaycan Vəkillər Kollegiyası müstəqil peşə birliyi olaraq rəsmən tanınıb.

A.Bağırov: "Bu il mayın 13-də İrlandiyanın paytaxtı Dublin şəhərində keçirilən plenar iclasda təqdimat və çıxışlarımızdan sonra bütün ölkələrin suallarının cavablandırılmasının nəticəsi etibarilə Vəkillər Kollegiyası böyük səs çoxluğu ilə CCBE təşkilatına üzv olub. Bu üzvlüklə Azərbaycan vəkillərinin avropalı vəkillər, kollegiyalar, o cümlədən hüquq cəmiyyətləri ilə əməkdaşlıq imkanları genişlənəcək. Avropada təcrübə keçmək imkanları mümkün olacaq, vəkillərin peşə hazırlığı artırılmaqla, onların fəaliyyətinin Avropa standartlarına uyğun həyata keçirilməsində müstəsna əhəmiyyət kəsb edəcəkdir. Bu, eyni zamanda, Vəkillər Kollegiyasının işinin daha da təkmilləşdirilməsi üçün böyük imkanlar yaradır.

Hesab edirik ki, bu, son dörd ilin ən böyük uğurlarından biridir. Bu uğur ölkəmizin imicinə də müsbət təsir göstərir. İllər ərzində həmin təşkilatla gərginlik yaşanıb və tənqidi fikirlər səsləndirilib. Amma dövlətimizin uğurlu xarici siyasəti nəticəsində bizə qarşı münasibətlər artıq dəyişir, beynəlxalq sahədə aktiv fəaliyyət, bu kimi uğurlar və üzvlüklərlə əsassız fikirlərə qarşı mövqe sərgiləmək və ölkəmizin maraqlarını dəstəkləmək imkanı daha çox yaranmış olur".

Sədr qeyd edib ki, Avropa Şurasına və Avropa İttifaqına üzv olan ölkələrin vəkillər kollegiyalarını, hüquq cəmiyyətlərini və 1 milyondan çox vəkili özündə birləşdirən CCBE təşkilatı Avropada ən böyük və nüfuzlu təşkilatlardan sayılır və Avropa hüquq peşəsinin səsi kimi tanınır.

Sonra geniş təqdimat ilə çıxış edən Vəkillər Kollegiyasının Aparat rəhbəri Bayram Orucov son 4 ildə müxtəlif istiqamətlərdə köklü şəkildə görülən işlər barədə məlumat vermiş, qısa zaman içində uzaq şərqdən Amerikaya qədər Kollegiyanın beynəlxalq əlaqələrinin qurulmasından, çoxsaylı nüfuzlu təşkilatlara üzv qəbul edilməsindən danışmış və əldə olunmuş beynəlxalq təcrübələrin Kollegiyanın fəaliyyətindəki rolundan nümunələr gətirmişdir.



B.Orucov vəkillik sahəsində innovasiyaların tətbiqindən, elektron xidmətlərdən, o cümlədən vəkil fəaliyyəti ilə bağlı bir çox qanunlara, həmçinin prosessual məcəllələrə və digər qanunvericilik aktlarına əlavə və dəyişiklərdən bəhs etmişdir.

Eyni zamanda, B.Orucov ölkədə vəkillərin sayının dəfələrlə artmasını, əldə olunan razılığa əsasən vəkillərimizin İngiltərə və Uelsdə vəkilliyə qəbul oluna bildiyini, gənclərə, tələbələrə maddi və akademik dəstəyi, yerli və beynəlxalq layihələri qonaqların diqqətinə çatdırmışdır.

Digər tərəfdən, B.Orucov son illərdə 25 000-dən çox aztəminatlı vətəndaşa göstərilən pulsuz hüquq yardım, sosial və idman sahələrində tez-tez təşkil edilən aksiyalar və müsabiqələrdən də söz açmışdır.

Daha sonra çıxış edən Vəkillər Kollegiyasının Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri Ayşə Abdel Qadir CCBE təşkilatına üzv olaraq Azərbaycan vəkillərinin avropalı vəkillər, kollegiyalar, o cümlədən hüquq cəmiyyətləri ilə əməkdaşlıq imkanları genişlənməsindən danışıb.

Ayşə Abdel Qadir onu da vurğulayıb ki, Azərbaycan beynəlxalq qurum müşahidəçi üzvü kimi qəbul edilib.

O qeyd etmişdir ki, Avropa Şurasına və Avropa İttifaqına üzv olan ölkələrin vəkillər kollegiyalarını, hüquq cəmiyyətlərini və bir





milyondan çox vəkili özündə birləşdirən CCBE təşkilatı Avropada ən böyük və nüfuzlu təşkilatlardan sayılır və Avropa hüquq peşəsinin səsi kimi tanınır.

A.Abdel Qadir: “Dörd il ərzində davam edən danışıqların, keçirilən iclasların, hazırlanan hesabatların nəticəsi olaraq, Azərbaycan Respublikasının Vəkillər Kollegiyası müstəqil peşə birliyi olaraq rəsmən tanınmış və 13 may 2022-ci il tarixdə İrlandiyanın paytaxtı Dublin şəhərində keçirilən plenar iclasda təqdimat və çıxışlarımızdan sonra, bütün ölkələrin suallarının cavablandırılmasının nəticəsi etibarilə Vəkillər Kollegiyası böyük səs çoxluğu ilə üzv qəbul olunub” deyə çıxışında qeyd etmişdir.

Sonra hüquq müdafiəçisi, hüquq üzrə fəlsəfə doktoru Çingiz Qənizadə çıxış edərək Vəkillər Kollegiyasının CCBE təşkilatına üzv seçilməsini müsbət qiymətləndirmiş, son dövrlər Kollegiya tərəfindən görülən işlərin təqdirəlayiq olduğunu vurğulamışdır. O həmçinin vəkillik sahəsində innovasiyaların tətbiqi, elektron xidmətlərlə bağlı öz görüşlərini tədbir iştirakçılarının diqqətinə çatdırmışdır.

Tədbirin ikinci hissəsində vəkillər, media nümayəndələrinin iştirakı ilə Vəkillər Kollegiyası Rəyasət Heyətinin geniş iclası keçirilmişdir.

İclasda Kollegiyanın Avropa Vəkillər Kollegiyaları və Hüquq Cəmiyyətləri Şurası-

(CCBE) üzvlüyündən irəli gələn məsələlərin həlli ilə bağlı məsələyə baxılmış və RH-nin üzvü Elçin Usub  CCBE-nin PECO komitəsinin üzvü təyin edilmişdir.

Eyni zamanda iclasda Vəkillər Kollegiyasının "Biznes Hüququ Komitəsi"nin təsis edilməsi və Qadın Vəkillər Alyansının əsasnaməsi təsdiqi ilə bağlı məsələlərə baxılmış, Komitənin yaradılması və Əsasnamənin təsdiq olunması ilə bağlı müsbət qərar qəbul olunmuşdur.

Həmçinin, iclasda, vəkillərin başqa vəkil qurumuna keçmək, müəyyən müddətə üzvlük haqqından azad olunma və sairə məsələlərə baxılmış, müvafiq qərarlar verilmişdir.

Eyni zamanda fəaliyyətlərində fərqlənən, həmçinin yubileylərini qeyd edən bəzi vəkillər mükafatlandırılıb.









**Vəkillər Kollegiyasının dəstəyi ilə Ali Məhkəmədə keçirilən ELSA məhkəmə müsabiqəsinin qalibi məlum oldu.**

21 May 2022-ci il tarixində Azərbaycan Respublikasının Ali Məhkəməsində ELSA Azərbaycan tərəfindən Azərbaycan Respublikası Vəkillər Kollegiyasının tam dəstəyi ilə həyata keçirilən Milli Məhkəmə Müsabiqəsinin XI buraxılışının Final mərhələsi keçiril mişdir.

Ali Məhkəmənin sədr müavini Çingiz Əsgərov açılış nitqi ilə çıxış edərək qeyd etmişdir ki, "ELSA Azərbaycan tərəfindən Vəkillər Kollegiyasının dəstəyi ilə keçirilən Milli Məhkəmə Müsabiqəsində müsbət nəticələr əldə olunub. Ümid edirəm ki, bu layihə davamlı olacaq". Ç.Əsgərov final mərhələsinə yüksələn komandaları təbrik edib və onlara uğurlar arzulayıb. "Ali Məhkəmə, ümumiyyətlə məhkəmə sistemi tələbələrin inkişafında, onların hazırlıqlı olmasında  maraqlıdır. Biz istəyirik ki, onlar təkcə nəzəriyyəni deyil, həm də təcrübəni bilsinlər. Məhkəmələrdə təcrübə keçsinlər, fəaliyyətin nədən ibarət olduğunu görsünlər", - deyə o qeyd edib.

Sonra çıxış edən Vəkillər Kollegiyasının sədri Anar Bağırov qeyd edib ki, Vəkillər Kollegiyası ilə ELSA Azərbaycan arasında qurulmuş səmərəli əməkdaşlıq uğurla davam edir. 2018-ci ildən etibarən əməkdaşlıq haqqında saziş imzalanmışdır.



Bu əməkldaşlıq çərçivəsində bir sıra uğurlu layihələr həyata keçirmişik. O, bildirib ki, Kollegiya gənc hüquqşünaslara hər zaman dəstək göstərir: “Biz ali təhsil müəssisələri ilə əməkdaşlığa xüsusi önəm veririk. Çünki Azərbaycanın gənc hüquqşünaslarına dəstək göstərilməlidir. Son illər ərzində biz bu siyasəti həyata keçiririk. Vəkillər Kollegiyası olaraq bu tip müraciətlərə müsbət ca vab veririk. Həm maddi, həm mənəvi, həm də təşkilati baxımdan bundan sonra da gənclərə dəstək verməyə hazırıq. Biz istəyirik ki, gənc hüquqşünaslar beynəlxalq səviyyədə də uğur əldə etsinlər. Bunun üçün də gücümüzü səfərbər etməliyik və bu istiqamətdə əlimizdən gələni də etməyə hazırıq”.



Daha sonra, Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü, deputat Kamal Cəfərov çıxış edərək qeyd etmişdir ki, “Gənc hüquqşünaslar ölkəmizdə aparılan məhkəmə-hüquq islahatlarına töhfə vermək üçün daha çox çalışmalıdırlar. 10 il əvvəl belə bir layihənin həyata keçiriləcəyinin arzusu belə ağlımıza gəlməzdi. Hesab edirəm ki, bu kimi layihələr cənab Prezident İlham Əliyevin gənclərə göstərdiyi qayğının, eyni zamanda ölkəmizdə həyata keçirilən məhkəmə-hüquq islahatlarının təzahürüdür. Gənc hüquqşünaslar da etik davranış prinsipləri çərçivəsində yüksək peşəkarlıqla fəaliyyət göstərərək bu islahatlara töhfə verməlidir. Layihənin həyata keçirilməsində göstərdiyi dəstəyə görə Vəkillər Kollegiyasına və Ali Məhkəməyə təşəkkkür edirəm. Final mərhələsinə yüksələn komandaları təbrik edir və onlara uğurlar arzulayıram. Düşünürəm ki, belə uğurlar beynəlxalq səviyyədə də əldə olunmalıdır”, - deyə K.Cəfərov qeyd edib.

Final mərhələsində iddiaçı qismində “De Facto Force”, cavabdeh qismində isə “Gold Boys” komandası çıxış etmişdirlər.

Finalistlərin çıxışları Ali Məhkəmənin Mülki kollegiyasının hakimləri Abiddin Hüseynov, Elşad Şamayev və Vüqar Həsə nov tərəfindən qiymətləndirilmişdir. Qiy mətləndirilmə nəticəsində “De Facto Force” komandasının üzvləri Sinarə Məmmədova və Xədicə Şirin qalib elan olunmuş, “Gold Boys” komandasının üzvləri Murad Vəliyev və Əli Məmmədov isə II yerə layiq görülmüşdürlər.

Müsabiqənin sonunda qaliblərə 500 AZN dəyərində mükafat, sertifikat, kubok təqdim edilmiş və “GRATA International”-da təcrübə keçmək imkanı verilmişdir, ikinci ye rin qaliblərinə isə 250 AZN dəyərində müka fat və sertifikat verilmişdir.

Həmçinin, Milli Məhkəmə Müsabiqəsi çərçivəsində ilk dəfə “Ən yaxşı natiq” müəyyən olunmuş, və qiymətləndirilmənin nəticəsində həmin nominasiyaya “De Facto Force” komandasının üzvü Xədicə Şirin layiq görülmüşdür.



addımlar və mütərəqqi təcrübəyə söykənən səmərəli fəaliyyətlə müşaiyət olunur.




**Əli Hüseynli: "Azərbaycan vəkilliyi nüfuzlu beynəlxalq hüquq tribunasına çıxış əldə edib"**

"Mayın 13-də İrlandiyanın paytaxtı Dublin şəhərində keçirilən Avropa Vəkillər Kollegiyaları və Hüquq Cəmiyyətləri Şurasının (CCBE) plenar iclasının yekunları ölkəmizin hüquq ictimaiyyəti üçün xoş müjdə ilə yadda qaldı. Belə ki, 4 il ərzində davam edən əməkdaşlığın nəticəsi olaraq Azərbaycan Respublikasının Vəkillər Kollegiyası Avropa Şurası və Avropa İttifaqına üzv olan ölkələrin vəkillər kollegiyalarının və 1 milyondan çox vəkilin birləşdiyi nüfuzlu təşkilat olan CCBE-yə üzv qəbul olunub".

E-huquq.az xəbər verir ki, bu sözləri Modern.az-a deputat Əli Hüseynli deyib. O bildirib ki, təşkilatın əsas məqsədinin vəkil peşəsini tənzimləyən normativ qayda ların qəbulu vasitəsilə qanunun aliliyi, insan haqları və demokratik dəyərlərin müdafiəsi olduğunu nəzərə alsaq, bu hadisə artıq Avropa səviyyəsində müstəqil peşə birliyi kimi rəsmən tanınan Vəkillər Kollegiyasının beynəlxalq miqyasda əldə etdiyi çox böyük nailiyyətdir:

"Təbii ki, bu uğura aparan yol Azərbaycanda həyata keçirilən ardıcıl hüquqi islahatlar, vəkillik institutunun təkmilləşdirilməsi istiqamətində dövlət səviyyəsində atılan ciddi addımlar və mütərəqqi təcrübəyə söykənən səmərəli fəaliyyətlə müşaiyət olunur.

Ötən dövr ərzində "CCBE" ilə əməkdaşlıq çərçivəsində Azərbaycan vəkillərinin peşə davranış qaydalarını tənzimləyən əsasnamə CCBE-nin Avropa vəkillərinin etik davranış kodeksinə uyğunlaşdırılıb, kodeksin mütərəqqi normaları əsasnaməyə inkorporasiya olunub. Bundan əlavə, Avropa İnsan Haqları Məhkəməsinin presedent praktikası, habelə deontolgiya mövzularında keçirilən təlimlər Azərbaycan vəkillərinin peşə hazırlığının yüksəlməsinə mühüm töhfə verib".

Əli Hüseynlinin fikrincə, Avropa Vəkillər Kollegiyaları və Hüquq Cəmiyyətləri Şurasına üzvlük vəkillərimizin digər Avropa ölkələri ilə birgə layihələrin təşkili sayəsində müasir təcrübədən bəhrələnmək, peşə hazırlığının artırılması, onların fəaliyyətinin Avropa standartlarına uyğunlaşdırılması baxımından müstəsna əhəmiyyətə malikdir:

"Bu, eyni zamanda Vəkillər Kollegiyasının işinin mütərəqqi metodların tətbiqi ilə daha da təkmilləşdirilməsinə təsir göstərən mühüm amildir.



Böyük siyasi əhəmiyyət kəsb edən bu nailiyyət həm də Azərbaycan vəkilləri üçün artıq beynəlxalq tribuna vasitəsilə Ermənistanın Azərbaycana qarşı törətdiyi müharibə

cinayətlərini digər beynəlxalq təşkilatlara və dünya ictimaiyyətinə çatdırmaq imkanı yaradır.

İkili standartların hələ də mövcud olduğu bir şəraitdə Azərbaycan Vəkillər Kollegiyasının Avropanın nüfuzlu CCBE təşkilatına böyük səs çoxluğu ilə üzv seçilməsi həm də ölkəmizin bugünkü reallıqlarının etirafı və son illər demokratiyanın, insan hüquqlarının daha vüsətlə inkişaf etdiyi Azərbaycanın hüquq institutlarının fəaliyyətinə verilən yüksək qiymətdir".




**Məhkəmə iclası təyin olunmuş vaxtda başlamırsa, vəkil necə davranmalıdır?**

Bir çox hallarda vəkil həmkarlarım mənə, məhkəmə iclaslarının təyin olunmuş vaxtda başlamadığı, yubanmanın səbəbi və iclasın başlayacağı vaxt barədə dəqiq məlumat ala bilmədikləri hallarda necə davranmalı olduqları ilə bağlı sual ünvanlayırlar.

Nəzərə alsaq ki, müvafiq hallar vəkilin başqa məhkəmə iclaslarında, istintaq hərəkətlərində iştirakını, hüquqi yardım göstərilməsi ilə bağlı planlaşdırılmış görüşlərini pozur, əlbəttə ki, vəkil bu cür hallarda vəkillərin davranış qaydalarına uyğun olaraq necə davranmalı olduğunu bilməlidir. Ona görə də bu məsələ ilə bağlı fikirlərimi Sizinlə bölüşmək istəyirəm. "Vəkillər və vəkillik fəaliyyəti haqqında" AR Qanunun 16-cı maddəsinə əsasən, peşə fəaliyyətini həyata keçirərkən vəkil qanunun tələblərini icra etməli, müdafiə edilən və ya hüquqları təmsil edilən şəxsin mənafelərini qorumaq üçün qanunvericiliklə nəzərdə tutulmuş bütün üsullardan istifadə etməlidir. Bu halda vəkilin öhdəliyi həm onun məhkəmə iclaslarında iştirakını, həm də məhkəmə iclaslarında iştirakı ilə əlaqəli olmayan peşə fəaliyyətini əhatə edir. Vəkillərin peşə etikası normalarına əsasən, hər bir vəkil müvafiq prosessual qanunvericiliyin tələblərinə əməl etməli, məhkəməyə və prosesin digər iştirakçılarına hörmətlə yanaşmalı, hüquqi yardım göstərdiyi şəxsə münasibətdə vicdanlı və dürüst olmalı və həmin şəxsə münasibətdə qanun pozuntularına yol verilərsə, bu pozuntuların aradan qaldırılması üçün müvafiq tədbirlər görməlidir. Məhkəmənin və prosesin digər iştirakçılarının hərəkətlərinə etiraz edərkən, vəkil səbrli, mədəni və nəzakətli olmalı və qanunauyğun davranmalıdır. Məhkəməyə və prosesin digər iştirakçılarına hörmət, həm də vəkilin məhkəmə iclasına təyin olunmuş vaxtda gəlməsi və bu barədə müvafiq qaydada məlumat verməsində ifadə olunur. Vəkilin təyin olunmuş vaxtda məhkəmə iclasına gəlməməsi vəkilliyin nüfuzuna xələl gətirir və vəkil barəsində intizam icraatının başlanması üçün əsas ola bilər. Bütün bunlarla yanaşı ədalət mühakiməsi qaydalarına əməl edilməsi vəzifəsi prosesin bütün iştirakçılarına aiddir. Azərbaycan Respublikası CPM-nin 322-ci maddəsində imperativ şəkildə göstərilir ki, məhkəmə baxışı üzrə məhkəmə iclası üçün təyin edilmiş vaxtda məhkəmə tərkibi (cinayət işinə təkbaşına baxıldığı halda hakim) məhkəmənin iclas zalına daxil olur və orada hakimlərin yerini tutur.

Təyin olunmuş məhkəmə iclasının vaxtında başlaması nəinki prosessual qanunvericiliyin, həm də Hakimlərin Etik Davranış Kodeksinin tələbidir. Həmin Kodeksin 6-cı maddəsinə əsasən, hakim öz peşə vəzifələrini vicdanla icra etməli, işlərə və ma-

teriallara vaxtında baxılması üçün qanunla nəzərdə tutulmuş bütün zəruri tədbirləri görməlidir. Məhkəmə iclasının başlanmasını gözləyərkən, vəkil imkan daxilində məhkəmə iclasının yubanmasının səbəblərini və faktiki başlama vaxtını öyrənmək üçün mümkün tədbirləri görməlidir. Əgər yubanmanın səbəblərini və iclasın faktiki başlama vaxtını müəyyənləşdirmək mümkün olmazsa, onda vəkil hüquqi yardım göstərdiyi digər şəxslər qarşısındakı öhdəliklərini də vicdanla yerinə yetirmənin zəruriliyini nəzərə almaqla iclasın başlanmasını gözləmək imkanını qiymətləndirir. Əgər vəkilə bildirilən prosesin faktiki başlama vaxtı onun əvvəlcədən təyin olunduğu vaxtdan əhəmiyyətli dərəcədə fərqlidirsə, onda vəkil Vəkillərin Davranış Qaydaları Haqqında Əsasnamənin tələblərini rəhbər tutaraq həmin gün üçün iş qrafikinə uyğun şəkildə prosesdə iştirak edib etməyəcəyinə müstəqil qərar verə bilər.

Vəkilə məhkəmə iclasının gecikmə səbəbləri və faktiki başlama vaxtı barədə məlumat verilməməsi proses iştirakçısına, o cümlədən, vəkilə hörmətsizlik kimi qiymətləndirilə bilər. İş vaxtının əsassız, qeyri-müəyyən müddət davamlı itirilməsi vəkilin hüquqi yardım göstərdiyi digər şəxslər qarşısında da öhdəliklərinin icra edilməməsi, təyin olunmuş digər məhkəmə iclaslarında və istintaq hərəkətlərində iştirak edilməməsi və ya gecikməsi ilə nəticələnə bilir. Əgər vəkilin gördüyü tədbirlərlə məhkəmə iclasının yubanma səbəbini və faktiki başlama vaxtını müəyyən etmək mümkün olmazsa, və ya bu səbəb açıq aşkar üzürsüzdürsə, onda vəkil bu barədə hüquqi yardım göstərdiyi şəxsə, həmin iclasda iştirak edən digər vəkillərə, prosesin digər iştrakçılarına, həmçinin səlahiyyətli məhkəmə əməkdaşına məlumat verməklə məhkəmə zalını tərk edə bilər. Belə bir qərarın qəbul edilməsi üçün əsas motiv vəkilin digər məhkəmə iclasında və ya istintaq hərəkətində iştirak etməsi olmalıdır. Bu halda vəkilin həm də məhkəmə iclasına gəlmə və məhkəmə zalını tərk etmə vaxtının fiksasiya edilməsi formasını müəyyənləşdirərək bunu etməsi vacib şərtdir (məsələn, məhkəmənin dəftərxanasına bu barədə yazılı məlumat verməklə).

Hər bir halda məhkəmə iclasının başlamasını gözləməsi, vəkilin hüquqi yardım göstərdiyi digər şəxslər qarşısında öhdəliyinin icrası, digər məhkəmə iclaslarında və istintaq hərəkətlərində iştirakına əhəmiyyətli dərəcədə çətinlik yaratmırsa, səbr nümayiş etdirməklə məhkəmə iclasının başlanmasını gözləməlidir.



**Vəkillər Kollegiyasının 3 nümayəndəsinin də yer aldığı Avropa Şurasının yeni təsis edilmiş Vəkillərin (hüquqşünasların) müdafiəsi üzrə Eks pertlər Komitəsinin ilk iclası keçirilib.**

Azərbaycan Respublikası Vəkillər Kollegiyası Avropa Şurasının alt-Komitəsində vəkillərin (hüquqşünasların) peşə fəaliyyətinin inkişafı və maneəsiz həyata keçirilməsi istiqamətində aparılan işlərdə yaxından iştirak edir.

6-8 aprel 2021-ci il tarixlərində Avropa Şurasının Hüquqi əməkdaşlıq üzrə Avropa Komitəsinin (CDCJ) yeni təsis edilmiş alt-qurumu olan Vəkillərin (hüquqşünasların) müdafiəsi üzrə Ekspertlər Komitəsinin (CJ-AV) Strazburqda hibrid formada keçirilən ilk iclasında üzv dövlətin nümayəndələri qis-

mində Vəkillər Kollegiyasının Aparat rəhbəri Bayram Orucov (onlayn), Kollegiya sədrinin müşaviri Fərhad Nəcəfov (onlayn) və Kollegiyanın üzvü Allahverən Oruclu (birbaşa) iştirak etmişlər.

Ekspertlər Komitəsinin əsas məqsədi 2 il ərzində vəkillərin (hüquqşünasların) peşə fəaliyyətini sərbəst həyata keçirmələrini və bu peşə ilə məşğul olmaq hüququnun müdafiəsini gücləndirməyə yönələn, onların müstəqilliyini təmin etmək üçün tətbiq edilən minimum standartların toplusunu müəyyən edən, eləcə də bu sahədə müəyyən mexa nizmin yaradılmasını ehtiva edəcək hüquqi sənəd layihəsini hazırlamaqdır.

Peşə fəaliyyətinin sərbəst, təhlükəsiz və müstəqil şəkildə həyata keçirilməsi ilə bağlı məlumatlı olan, öz ölkələrində bu sahədə qanun, siyasət və təcrübə barədə biliyə malik olan nümayəndələrin qatıldığı iclasda vəkillərin (hüquqşünasların) müdafiəsi üzrə hüquqi sənədin hazırlanması istiqamətində müzakirələr aparılmış, gələcək sənədin əhatə dairəsi, sənəddə əks ediləcək anlayışlar, standartlar, mexanizmlər və digər əlaqədar məsələlər üzrə fikir mübadilələri edilmişdir. Azərbaycan nümayəndələri rəylər, şərhlər və təkliflərlə müzakirələrdə yaxından iştirak etmişlər.






**“Nə? Harada? Nə zaman?” oyunu üzrə “I Vəkil Kuboku” təşkil olunmuşdur.**

12.03.2022-ci il tarixində “Badamdar estates” mehmanxanasında Vəkillər Kollegiyasının üzvləri arasında intellektual oyunların təşviq edilməsi və vəkillərin intellektual bacarıqlarının nümayiş etdirilməsinə şərait yaradılması məqsədilə Vəkillər Kollegiyası tərəfindən “Nə? Harada? Nə zaman?” oyunu üzrə “I Vəkil Kuboku” təşkil olunmuşdur.

Tədbirdə Kollegiyanın rəhbərliyi, Gənc lər və idman nazirinin müavini və “Yüksəliş” müsabiqəsinin işçi qrupunun rəhbəri Fərhad Hacıyev, 100-dən çox vəkil iştirak etmişdir.

Turnirin əsas məqsədi vəkillərin asudə vaxtının səmərəli təşkili və intellektual yaradıcılıq qabiliyyətlərinin reallaşdırılması üçün əlverişli şəraitin yaradılması, qoyulmuş problemlərin həllinə qeyri-standart yanaşmanın stimullaşdırılması, yaradıcı yanaşma vərdişlərinin stimullaşdırılmasına dəstək verilməsi, intellektual oyunlar hərəkatının kütləviləşməsi və s. bu kimi bir sıra məqsədləri özündə ehtiva edir.

Tədbirdə açılış nitqi ilə çıxış edən Kollegiyanın sədri Anar Bağırov qeyd etmişdir ki, “Vəkillər arasında belə bir turnir ilk dəfədir ki, keçirilir, hətta deyərdim ki, hüquq sahəsindəki qurumlar sırasında bu bir ilkdir

və çox sevindirici haldır ki, bu oyuna həm vəkillərimiz, həm də ictimaiyyət tərəfindən çox böyük maraq göstərilib. Onu da qeyd edim ki, qeydiyyat dövründə pandemiya ilə əlaqədar mövcud olan say məhdudiyyətinə görə yalnız ilk qeydiyyatdan keçən komandaları dəvət edə bilmişik. Lakin inanıram ki, Kollegiya üçün intellektual yarışlar bir ənənə halını alacaq və gələcəkdə oyunları daha geniş miqyasda təşkil edəcəyik".




A.Bağırov həmçinin qeyd etmişdir ki, "Hal-hazırda Turnirdə 17-si Bakı, 4-ü regional bürolarımızdan və "Yüksəliş" müsabiqəsinin qalib və finalçılarından ibarət 1 qonaq komanda olmaqla ümumilikdə 22 komanda iştirak edir. Vəkillər arasında intellektual oyun ların təşviq edilməsi və vəkillərin intellektual bacarıqlarının nümayiş etdirilməsinə şərait yaradılması Kollegiyanın gündəmində olan məsələlərdəndir. Nəzərə alsaq ki, istənilən ölkədə vəkillər öz peşə fəaliyyətlərindən əlavə cəmiyyətin intellektual və yüksək erudisiyalı təbəqəsi olmaqla fərqlənirlər, Kollegiyanın üzvləri etik qaydalar və dünya görüşü ilə cəmiyyət üçün bir nümunə olmalıdırlar. Bu baxımdan, tədbirin Azərbaycan vəkilliyi üçün çox əhəmiyyətli olduğunu hesab edirəm."

O cümlədən, açılış nitqi ilə çıxış edən Gənclər və idman nazirinin müavini və "Yüksəliş" müsabiqəsinin işçi qrupunun rəhbəri Fərhad Hacıyev son illərdə vəkillik sahəsində aparılan islahatları yüksək dəyərləndirmiş və Vəkillər Kollegiyasının həyata keçirdiyi işlər nəticəsində Azərbaycanda vəkillik institutunun nüfuzunu artdığını qeyd etmişdir. F.Hacıyev Yüksəliş komandasının turnirə dəvət etdiyinə görə Anar Bağırova görə təşəkkür etmiş, iştirakçılara uğurlar arzulamış və bu tip intellektual yarışların davamlı keçiriləcəyinə inandığını qeyd etmişdir.



Daha sonra, 3 turdan ibarət turnir öz fəaliyyətinə başlamış və turnirin nəticələrinə görə, "BM-Prospekt" komandası "I Vəkil Kuboku"nun qalibi olmuşdur. "Femida" komandası 2-ci, "Ədalət" komandası 3-cü, "14 saylı VB" komandası 4-cü, "3,14" Yüksəliş komandası isə 5-ci yerdə qərarlaşmışdır.

Sonda təltifetmə mərasimi baş tutmuş və ilk 3 yerin qalib komandalarına müvafiq sertifikat, kubok və "Libraff" kitab mağazasından hədiyyə kuponları təqdim edilmişdir.



**Milli Məclis sədrinin təşəbbüsü ilə Şəmkirdə ödənişsiz hüquqi yardım aksiyası keçirilib.**

Martın 5-də Şəmkir rayonunda Milli Məclisin sədri, 98 saylı Şəmkir şəhər seçki dairəsindən deputat Sahibə Qafarovanın təşəbbüsü ilə vətəndaşlara hüquqi yardım aksiyası keçirilib.

Gəncə və Şəmkir Vəkil Bürolarının vəkilləri tərəfindən rayon sakinlərinə ödənişsiz hüquqi yardımın göstərildiyi aksiyanın açılış tədbirində çıxış edən spiker Sahibə Qafarova, tədbir iştirakçılarını salamlayaraq, əvvəlcə ölkəmizdə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən genişmiqyaslı islahatlar və onların uğurlu nəticələri barədə danışıb. Milli Məclisin sədri deyib ki, ölkəmizdə Prezident İlham Əliyevin rəhbərliyi ilə reallaşdırılan sosial-iqtisadi inkişaf strategiyası həyatın bütün sahələrində böyük uğurların əldə olunmasını təmin edib. Görülən məqsədyönlü tədbirlər nəticəsində ölkəmiz dinamik inkişaf edir, vətəndaşların sosial müdafiəsi, rifah halının yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Bu inkişaf meylləri regionlarda da özünü aydın şəkildə göstərir. Əvvəllər seçicilərin müraciətlərində əks olunan bir sıra məsələlər artıq öz həllini tapıb.

Sahibə Qafarova deyib ki, Milli Məclisin deputatlarının başlıca vəzifələrindən biri seçiciləri narahat edən məsələləri dövlət qurumları qarşısında qaldırmaq, onların həllinə dəstək verməkdir. Spiker, ötən dövrdə seçicilərin müraciətlərində yer almış və onun müraciəti əsasında müvafiq dövlət qurumları tərəfindən həll edilmiş məsələlər, həmçinin, Milli Məclis sədrinin təşəbbüsü ilə həyata keçirilmiş sosial, humanitar layihələr barədə tədbir iştirakçılarını məlumatlandırıb.

Sahibə Qafarova daha sonra bu günkü aksiya barədə məlumat verərək, deyib ki, Azərbaycan müasir, demokratik, hüquqi dövlət kimi, fundamental hüquq və azadlıqların səmərəli müdafiəsinin təmin olunmasını özünün əsas prioriteti elan edib. Bu istiqamətdə möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar ölkəmizdə hüquq sisteminin modernləşməsini və inkişafını təmin edib. Azərbaycan dövləti hər kəsin hüquq və azadlıqlarının müdafiəsinə təminat verir. Bununla belə, seçici müraciətlərində qaldırılan bir sıra məsələləri araşdıranda məlum olur ki, bu problemlər daha çox vətəndaşın həmin məsələ ilə bağlı lazımi məlumata malik olmamasından irəli gəlir. Xüsusilə, hüquqi məsələlərlə əlaqədar olan müraciətlərin bir çoxunda bu tendensiya müşahidə olunur. Milli Məclisin sədri seçicilərə hüquqi yardım göstərilməsi ilə bağlı tədbirlərin keçirilməsinin bu məsələlərin həllinə dəstək olacağını bildirib.



Tədbirdə çıxış edən Vəkillər Kollegiyası Rəyasət Heyətinin sədri Anar Bağırov bu kimi aksiyaların keçirilməsinin əhəmiyyətini qeyd edərək, tədbirin təşkilinə görə Milli Məclisin sədrinə minnətdarlığını bildirib.

A.Bağırov deyib ki, Prezident İlham Əliyevin 22 fevral 2018-ci il tarixli "Azərbaycan Respublikasında vəkilliyin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncamına əsasən görülən işlər ölkəmizdə vəkillik institutunun inkişafına mühüm təkan verir. O, bu Sərəncamdan irəli gələrək aztəminatlı ailələrə ödənişsiz hüquqi yardım göstərilməsi məqsədilə bir sıra addımlar atıldığını xatırladıb. A.Bağırov qeyd edib ki, bu cür ödənişsiz hüquqi yardımın həyata keçirilməsində Vəkillər Kollegiyasının üzvləri fəal iştirak edirlər. Bu aksiyada da Kollegiyanın üzvləri, təcrübəli hüquqşünaslar seçicilərin suallarını cavablandıracaq, onlara hüquqi yardım göstərəcəklər.







Qeyd edək ki, tədbirdə Milli Məclisin deputatları Nizami Səfərov, Kamran Bayramov və Nurlan Həsənov iştirak ediblər.

Vurğulamaq istərdik ki, aksiya zamanı ümumilikdə 58 nəfərə hüquqi yardım göstərilmişdir. Müraciət edən şəxslərdən 47 nəfərə şifahi məsləhət verilmiş, 11 nəfərə üçün isə müvafiq ərizələr yazılmışdır. Müraciətlərin böyük hissəsi torpaq, pensiya, aliment, borc mübahisələri ilə bağlı olmuşdur.



**"Vəkillikdə qadınlar: dünən, bu gün və sabah" mövzusunda dəyirmi masa keçirilmişdir.**

8 mart Beynəlxalq Qadınlar Günü ərəfəsində Azərbaycan Respublikasının Vəkillər Kollegiyasının təşkilatçılığı, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin iştirakı ilə 3 mart 2022-ci il tarixində, "Excelsior" mehmanxanasında "Vəkillikdə qadınlar: dünən, bu gün və sabah" mövzusunda dəyirmi masa təşkil edilib.

Tədbir Kollegiya sədri Anar Bağırovun, Komitə sədri Bahar Muradova, Kollegiyanın rəhbərliyi və 50-dən çox qadın vəkilin iştirakı ilə baş tutub.

Dəyirmi masanın əsas məqsədi qadın vəkillərin cəmiyyətdə rolu, həssas qrupların hüquqi yardıma çatımlılığı, məişət

zorakılığı qurbanlarının müdafiəsində qadın vəkillərin rolu, ölkədə insan hüquq və azad lıqlarının müdafiəsində qadın vəkillərin bilik və bacarıqlarının təkmilləşdirilməsi, qadın hüquqşünasların vəkilliyə marağının artırılması və qeyd edilən sahələrdə Kollegiya və Komitənin əməkdaşlıq imkanlarının müzakirə edilməsidir.

Tədbirdə açılış nitqi ilə çıxış edən Kollegiyanın sədri A.Bağırov tədbirin Azərbaycan vəkilliyi üçün əhəmiyyətini vurğulayaraq vəkillikdə gender balansının təmin edilməsinin vacibliyindən, bu sahədə görülmüş layi hələrdən, qadın vəkillərin müxtəlif sahələrdə bilik və bacarıqlarının artırılmasının zərurətindən, Komitə tərəfindən Kollegiyaya daxil olan sorğuların xüsusi həssaslıqla araşdırılmasından danışıb, o cümlədən qadınlar arasında vəkilliyə marağın çoxalmasını və son 4 ildə qadın vəkillərin sayının 3 dəfə artmasını qeyd edib.

Bundan başqa, A.Bağırov əlavə edib ki, 10 dekabr 2019-cu il tarixində Komitə, Vəkillər Kollegiyası və Birləşmiş Millətlər Təşkilatının Azərbaycan nümayəndəliyi arasında məişət zorakılığından zərər çəkmiş şəxslərə hüquqi yardım göstərilməsinə dair imzalanmış Memorandumun icrası çərçivəsində məişət zorakılığının qurbanlarına əvəzsiz hüquqi yardımın göstərilməsi ötən bu dövrdə də Kollegiya tərəfindən təmin edilib.





O cümlədən, açılış nitqi ilə çıxış edən Komitə sədri Bahar Muradova tədbirin təşkili üçün Kollegiyanın rəhbərliyinə öz təşəkkürünü bildirmiş, tədbir iştirakçılarına Komitəyə daxil olan sorğularla bağlı işlərdə qadın vəkillərin fəaliyyətinin önəmindən, bu sahədə uğurlu dövlət siyasətindən, ölkə Prezidenti və Birinci Vitse-prezidentin qeyd edilən sahələrə xüsusi diqqətindən, o cümlədən məişət zorakılığı və insan alveri qurbanlarına hüquqi yardımın göstərilməsində Kollegiya ilə birgə fəaliyyətin davam etdirilməsindən bəhs etmişdir. Bundan əlavə, B.Muradova “Azərbaycan Respublikasının Uşaqlara dair 2020-2030-cu illər üçün Strategiyası”nın təsdiq edilməsi haqqında”, “Azərbaycan qadınlarının təltif edilməsi haqqında”, o cümlədən “Azərbaycan Respublikasında məişət zorakılığı ilə mübarizəyə dair 2020-2023-cü illər üçün Milli Fəaliyyət Planı”nın təsdiq edilməsi haqqında” Sərəncamlarının və bu sahədə fəaliyyətin səmərəli təşkilinə töhfə verən bir sıra digər sənədləri xüsusi qeyd edib.

Daha sonra, xanım vəkillər qadınların hüquqa və vəkilliyə marağının artırılması, qadın vəkillərin fəaliyyətlərində qarşılaşdığı çətinliklər və onların həlli yolları, dövlət vəsaiti hesabına hüquqi yardımın göstərilməsində qadın vəkillərin iştirakı və onların bilik və bacarıqlarının artırılması, məişət zorakılığı qurbanlarının müdafiəsində qadın vəkillərin rolu, regionlarda cəmiyyətin həs-

sas qruplarının hüquqi yardıma çatımlılığı və müasir dövrdə qadın vəkillərin İKT-dən istifadəsi, birgə fəaliyyəti və təşkilatlanması mövzularında çıxışlar etmişlər.

Çıxışlardan sonra, sual-cavab sessiyası və müzakirələr keçirilmiş, çoxsaylı təkliflər, qeydlər, bu sahədə mövcud çatışmazlıqlar və müxtəlif fikirlər səsləndirilmiş, bildirilən məsələlər qeyd edilərək, Kollegiya tərəfin dən ümumiləşdirilmiş və gələcəkdə bu sahədə peşəkar və səmərəli fəaliyyət üçün müvafiq olaraq nəzərə alınacaqdır.



Bu müzakirələr zamanı, Komitənin Hüquqi-təminat şöbəsinin müdiri Taliyə İbrahimova da qeyd etmişdir ki, məişət zora kılığından zərər çəkmiş şəxslərə dövlət hesa bına hüquqi yardımın göstərilməsinə ehtiyac var. Azərbaycan Respublikasında məişət zorakılığı ilə mübarizəyə dair Milli Fəaliyyət Planı qəbul olunub. Məişət zorakılığından zərər çəkmiş şəxslərə pulsuz hüquqi yardım göstərilməsi ilə bağlı mexanizmin işlənib hazırlanması da həmin planda nəzərdə tutulub. Biz bununla bağlı bir layihə işləyib hazırlamışıq. Həmin layihə aidiyyəti qurumlarla razılaşdırılıb və təsdiq olunması üçün Nazirlər Kabinetinə təqdim olunub. Bilirsiniz ki, qanunvericilikdə mülki işlər üzrə yalnız yuxa rı instansiya məhkəmələrində aztəminatlı şəxslərə dövlət hesabına hüquqi yardımın göstərilməsi nəzərdə tutulub. Lakin məişət zorakılığından zərər çəkən şəxslərin hər bir məhkəmə instansiyasında, dövlət orqanlarına müraciətdə, qısa və ya uzunmüddətli mühafizə orderlərinin alınmasında hüquqi yardıma böyük ehtiyacları olur. Bu baxımdan belə bir normativ-hüquqi aktın olması vacibdir. Gələcəkdə pulsuz hüquqi yardım haqqında qanun layihəsinin işlənib hazırlanması nəzərdə tutulub. Düşünürəm ki, belə bir qanun qəbul edilsə, həssas qruplardan olan müxtəlif neqativ hallara görə zərərçəkmiş şəxslərə dövlət vəsaiti hesabına hüquqi yardımın göstərilməsi artıq xüsusi qanunla tənzimlənəcək və artıq burada boşluqlar olmayacaq. Məlum olduğu kimi, ölkəmizdə ödənişsiz hüquqi yardım göstərmək istəyən vəkillərin vahid reyestri də yaradılıb. Həmin reyestrə üzv olan vəkillər könüllü olaraq, aztəminatlı şəxslərə hüquqi yardım göstərirlər. Bu, çox yaxşı bir haldır. Komitə olaraq, biz də o reyesterdəki vəkillərə müraciət etməyə, onlarla əməkdaşlığa hər zaman hazırıq. Məişət zorakılığından zərərçəkmiş şəxsləri də məhz bu vəkillərə yönəldəcəyik.

Eyni zamanda, tədbirdə Vəkillərin İntizam Komissiyasının sədr müavini İlhamə Həsənova çıxış edərək qeyd etmişdir ki, "bu gün ölkəmizdə qadın vəkillərin fəaliyyətinə mane olan heç bir səbəb yoxdur. Peşə fəaliy yətində qadın-kişi bölgüsü yoxdur. Vəkilin cinsi olmur. Amma deyə bilərəm ki, qadın vəkillər icraatlarında olan işlərə daha həssas yanaşırlar. Komissiyanın sədr müavini olaraq qeyd etməliyəm ki, bu gün qadın vəkillər barəsində intizam işləri daha azdır. Onlarla bağlı işlər olduqda belə, o qədər də ciddi intizam xətalarının olmadığını görürük. Qadın vəkillər arasında birlik var. Biz qeyri-rəsmi də olsa, təşkilatlanmışıq. Çox sıx dostluq və əməkdaşlıq münasibətlərimiz var. Hər zaman bir-birimizə dəstək oluruq. Rəhbərlik tərəfindən də bizə dəstək göstərilir. Bu, bizim özümüzə olan inamın artmasına çox kömək edir. Bu gün mən bir qadın olaraq böyük bir vəkil bürosuna rəhbərlik edirəm. Özümdə bu cəsarəti tapmışamsa, bu bizə göstərilən etimadın nəticəsidir. Hörmətli Anar müəllim Bağırov bizim bütün təşəbbüslərimizə diqqətlə yanaşır və onların həyata keçməsinə hər zaman dəstək göstərir".

Tədbirdə eyni zamanda, iştirakçılara Şuşa şəhərində anadan olmuş türk dünyasının ilk qadın vəkili olan Süreyya Ağaoğlunun xatirələrinə həsr olunmuş və Azərbaycanda dərc edilmiş "Bir ömür belə keçdi" adlı kitab hədiyyə edilib.




**Vəkillər Kollegiyası və Mediasiya Şurasının birgə müraciəti**

Azərbaycan Respublikasının Vəkillər Kollegiyası Rəyasət Heyəti və Mediasiya Şurası İdarə Heyəti Azərbaycan Respublikası "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Qanunun və "Mediasiya haqqında" Qanunun tələblərinə əsasən yaradılan vəkil bürolarında və mediasiya təşkilatlarında fəaliyyət göstərən vəkillərin və mediatorların peşə fəaliyyətinin həyata keçirilməsi zamanı nəzərə alınmalı olan prinsiplərə riayət edilməsi, həmçinin mediasiya və vəkillik fəaliyyətində şəxslər arasında maraq toqquşmasının qarşısının alınması məqsədi ilə tədbirlərin həyata keçirilməsi ilə bağlı birgə müraciət yayıb.

Müraciətə əsasən:

""Mediasiya haqqında" Qanunun 4-cü maddəsinə əsasən, tərəflərin hüquq bərabərliyi və əməkdaşlığı, mediatorların qərəzsizliyi və müstəqilliyi, mediasiya prosesinə müdaxilənin yolverilməzliyi, konfidensiallıq mediasiyanın əsas və təməl prinsiplərini təşkil edir. Bu prinsiplərə görə, tərəflər mediasiya zamanı bütün məsələlərdə, o cümlədən mediatorun seçilməsində bərabər hüquqlardan istifadə edirlər və bərabər vəzifələr daşıyırlar, mediasiya zamanı mediator müstəqil və qərəzsiz olmalıdır. Mediator mediasiya prosesini həyata keçirən zaman tərəflərdən, dövlət və yerli özünüidarəetmə orqanlarından, hüquqi və fiziki şəxslərdən asılı olmamalıdır və mediasiya zamanı adıçəkilən orqanların və şəxslərin mediatorun fəaliyyətində müdaxiləsinə yol verilmir. Mediator mediasiya zamanı hər iki tərəfə bərabər yanaşmalı, tərəflərin mediasiya zamanı bərabər iştirakını təmin etməli və hər iki tərəfə proses zamanı tələblərini təqdim etmək üçün bərabər imkanlar yaratmalıdır. Mediatorun qərəzsizliyinə mane olan hallar olduqda mediator mediasiyanı aparmaqdan imtina etməlidir. Eyni zamanda, mediasiya zamanı əldə olunan bütün məlumatların (o cümlədən, tərəflərdən birinin mediasiyanın həyata keçirilməsi barədə təşəbbüsü, mediasiyaya və mübahisənin mümkün həll variantına razılıq verməsi, tərəflərdən birinin və ya mediatorun mübahisənin mümkün həllinə dair rəy və ya təklifləri, mediasiya zamanı tərəflərdən birinin verdiyi bəyanatları və ya etdiyi etirafları, mediasiyanın həyata keçirilməsi məqsədi ilə tərtib olunmuş sənədlər və s.) konfidensiallığı mediasiya iştirakçıları və mediasiyada iştirak edən digər şəxslər tərəfindən qorunur. Göründüyü kimi, mediasiya tərəflər arasında münaqişə səviyyəsinin azaldılması və onları razı salacaq şəkildə mübahisənin həllini təmin etmək məqsədini daşıdığı üçün bu məqsədə yalnız qanunla müəyyən edilmiş və yuxarıda qeyd edilən prinsiplərə riayət edildiyi halda nail olmaq mümkündür.

Eyni zamanda, "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Qanunun 1-ci maddəsinin II hissəsinə əsasən vəkillik qanunun aliliyi, müstəqillik, demokratizm, humanizm, ədalət, aşkarlıq və konfidensiallıq prinsipləri əsasında fəaliyyət göstərir. "Vəkillərin

davranış qaydaları haqqında" Əsasnamənin 1.2-ci bəndinə əsasən hər bir vəkil qanunun aliliyi, müstəqillik, demokratizm, humanizm, ədalət, aşkarlıq, konfidensiallıq prinsiplərini, insan hüquqlarını və davranış qayda larını rəhbər tutaraq, bu Əsasnamənin müddəalarına əməl etməyə borcludur. Həmin Əsasnamənin 1.3-cü bəndinə əsasən hər bir vəkil, vəkil andına sadiq qalmalı, peşə fəaliyyətində və peşə fəaliyyətindən kənar davranışında bu Əsasnamənin müddəalarını rəhbər tutmalıdır. Vəkilin peşə fəaliyyətindən kənar fəaliyyəti vəkilliyin nüfuzuna xələl gətirməməlidir.

"Vəkillərin davranış qaydaları haqqında" Əsasnamənin 2.5-ci bəndinə görə vəkil öz davranışlarında ictimai etimad qaydasına riayət etməlidir. İctimai etimad prinsipinə əsasən, vəkil vəkillik peşəsinin nüfuzunu artırmağa və möhkəmləndirməyə borcludur. Vəkil davranış qaydalarının onun tərəfin dən pozulmasının nəticələrini aradan qaldırmağa, o cümlədən ictimai etimadın bərpası üçün tədbirlər görməyə borcludur.

"Avropada vəkil peşəsinə dair əsas prinsiplər haqqında" Xartiyaya görə şirkət və ya dövlət tərəfindən tutulmasından asılı olmayaraq vəkil 3-cü şəxslər tərəfindən etimad göstərilən peşəkar şəxs olmaqla öz müştərisinin etibarlı məsləhətçisi, təmsilçisi, habelə ədalət mühakiməsinin şəffaf həyata keçirilməsinin ayrılmaz hissəsidir. Qeyd olu nan əlamətləri özündə ehtiva etməklə öz müştərisinin maraqlarına vicdanla xidmət göstərən və onun hüquqlarını müdafiə edən vəkilin həmçinin, ictimai funksiyaları – mübahisələrin qarşısını almaqla onun aradan qaldırılması, habelə bu mübahisələrin insan hüquq və maraqlarına xələl gətirmədən mülki, inzibati və cinayət hüququna uyğun həll edilməsi vəzifələri vardır ki, bu vəzifələr öz növbəsində hüququn inkişafına, azadlığın, ədalətin və qanunçuluğun müdafiəsinə rəvac verir.



Hazırda mediasiya xidməti göstərən mediatorların böyük hissəsinin həm də vəkil peşəsinə malik olmalarını, həmçinin Qanunun tələbləri əsasında fəaliyyət göstərən mediasiya təşkilatlarının böyük hissəsinin rəhbərinin vəkil olmasını və bəzi mediasiya təşkilatları ilə vəkil bürolarının eyni ünvanda fəaliyyət göstərməsini nəzərə alaraq, hər iki peşə fəaliyyəti üzrə xidmətlərin göstərilməsi zamanı şəxslər arasında, habelə peşə fəaliy yətləri arasında maraq toqquşmasının qarşısının alınması, mediatorların və vəkillərin nüfuzunun artırılması, hər iki peşəyə olan ictimai etimadın yüksəldilməsi və qorunması məqsədi ilə, Vəkillər Kollegiyası Rəyasət Heyəti və Mediasiya Şurası İdarə Heyəti aşağıdakı qaydalara riayət etməyi vəkillərə və mediatorlara tövsiyyə edir:

Vəkil büroları ilə eyni ünvanda fəaliyyət göstərən mediasiya təşkilatlarında mediasiya xidmətinin göstərilməsi zamanı maraq toqquşmasının qarşısının alınması, vəkillik və mediasiyaya olan ictimai etimadın yüksəldilməsi və qorunması məqsədi ilə həmin vəkil bürolarında fəaliyyət göstərən vəkillərin mediasiya xidmətinin göstərilməsi barədə müraciətlərinin digər mediasiya təşkilatlarına yönləndirilməsi vəkillərə, mediasiya təşkilatlarına və mediatorlara tövsiyyə edilsin.
Mediasiya xidmətlərinin göstərilməsi zamanı mediasiya müraciəti edən tərəfin vəkili ilə mediasiya xidməti göstərən mediatorun həm də eyni vəkil bürosunun vəkili olduğu halda, xidmət göstərən mediatora həmin mediasiya müraciətini təşkilatın digər mediatorlarına yönləndirilməsini təmin etməsi mediatorlara, vəkillərə tövsiyyə edilsin".






**Avropa Vəkillər Kollegiyaları və Hüquq Cəmiyyətləri Şurası (CCBE) ilə əməkdaşlıq uğurla davam etdirilir.**

12 yanvar tarixində Avropa Vəkillər Kollegiyaları və Hüquq Cəmiyyətləri Şurasının (CCBE) və Azərbaycan Respublikası Vəkillər Kollegiyasının (Vəkillər Kollegiyası) birgə təşkilatçılığı ilə “İntizam məsələləri – peşə sirri və vəkillərin ifadə azadlığı” mövzusunda vebinar keçirilmişdir.

Vebinara Zoom platforması üzərindən birbaşa 204 iştirakçı qoşulmuş və həmin vebinar “Facebook” sosial şəbəkəsində də canlı yayımlandığı üçün 500-dən artıq iştirakçı da buradan izləyə bilmişdir.

Tədbirdə açılış nitqi ilə çıxış edən sədr Anar Bağırov Vəkillər Kollegiyası və CCBE arasında əməkdaşlıq çərçivəsində birgə fəaliyyəti, Kollegiyanın son 4 ildə gördüyü işləri, CCBE-yə üzvlüyə qəbulla bağlı prosesin davam etdiyini, normativ sənəd layihələrinə CCBE ekspertləri tərəfindən təqdim edilmiş rəylərin əhəmiyyətini, vebinarın mövzusu – peşə sirri və ifadə azadlığının vəkillərin cəmiyyətdə olan nüfuzuna təsirini vurğulamış, o cümlədən CCBE-nin rəhbərliyini Bakıda və Kollegiyada görməkdən məmnun olacağını bildirmişdir.

Həmçinin, CCBE-nin vitse-prezidenti Pyer-Dominik Şup çıxış edərək CCBE barədə iştirakçıları məlumatlandırmış, təşkilatın əsas fəaliyyət istiqamətlərinə aid olan qanunun aliliyinin müdafiəsinin, insan hüquq və azadlıqlarının qorunmasının və vebinarın mövzusu olan peşə sirri və vəkillərin ifadə azadlığının müasir dövrdə xüsusi maraq kəsb etdiyini azərbaycanlı iştirakçıların diqqətinə çatdırmışdır.

Daha sonra, layihənin moderatorları Vəkillər Kollegiyası sədrinin müşaviri Fərhad Nəcəfov və CCBE-in PECO komitəsinin rəhbəri Roman Zavrşek tədbirin gündəliyinə uyğun olaraq, sözü Vəkillər Kollegiyasının İntizam Komissiyasının sədri Şahmar Məmmədov və sədr müavini İlhamə Həsənovaya vermişdirlər. Spikerlər Azərbaycanda vəkillər üçün intizam qaydaları, peşə sirri və vəkillərin ifadə azad lığı ilə bağlı mövcud qanunvericilik barədə təqdimatla çıxış etmişdirlər.

Vebinarda ekspert qismində CCBE-in İntizam Komitəsinin nümayəndəsi Jan-Lui Joris çıxış edərək intizam sahəsində CCBE tərəfin dən qəbul edilmiş “Avropada vəkil peşəsinə dair əsas prinsiplər haqqında Xartiya”, “Avropa vəkillərinin davranış Kodeksi” və yaxın zamanda qəbul olunmuş “Model davranış Kodeksi” haqqında tədbir iştirakçılarını məlumatlandırmışdır.



Daha sonra, Brüssel Vəkillər Kollegiyasının keçmiş prezidenti, Flemiş Vəkillər Kollegiyası direktorlar şurasının intizam üzrə məsul sabiq üzvü Aleks Tallon, Sloveniya Vəkillər Kollegiyasının prezidenti Janez Starman, Gürcüstan Vəkillər Kollegiyasının idarə heyətinin üzvü İrakli Kandaşvili, Toruń Vəkillər Kollegiyasında Vəkillər üçün Rayon İntizam Məhkəməsinin sədri Piotr Xıştonoviç mövzu ilə bağlı milli təcrübələrini paylaşmışdırlar.

Vebinarın son hissəsində iştirakçılar tərəfindən ünvanlanan suallar ekspertlər və əcnəbi həmkarlar tərəfindən cavablandırılmışdır. Sonda, qapanış nitqi ilə çıxış edən Anar Bağırov və Pyer-Dominik Şup tədbir iştirakçılarına təşəkkür etmiş və bu qəbildən tədbirlərin davamlı olacağını qeyd etmişdirlər.

Qeyd edək ki, Zoom platforması üzərindən keçirilən vebinar, daha çox izlə yiciyə çatımlılıq baxımından Vəkillər Kollegiyasının bütün sosial şəbəkə hesablarında da yayımlanmışdır. Mövzu ilə bağlı maraqlı şəxslər vebinarın videosunu istənilən zaman həmin platformalardan əldə edə bilərlər.

